DƏRSLİK

# ÜMUMİ TARİX 11











 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

KƏRİM ŞÜKÜROV, PƏRVİZ AĞALAROV, NİYAMƏDDİN QULİYEV
HAFİZ CABBAROV, ELNUR HÜSEYNOV, RAMİL TANRIVERDİ

*Ümumi təhsil müəssisələrinin 11-ci sinifləri üçün*

# ÜMUMİ TARİX

*fənni üzrə dərslik*

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **DÜNYA ÖLKƏLƏRİ XIX YÜZİLLİK–XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ** | | |
| 1 | ABŞ və Böyük Britaniya | 6 |
| 2 | Fransa və Almaniya | 12 |
| 3 | Rusiya | 18 |
| 4 | Osmanlı imperiyası. Qacarlar dövləti | 24 |
| 5 | Hindistan, Çin və Yaponiya | 30 |
| 6 | Dövlətlərarası münasibətlər | 36 |
| 7 | Birinci dünya müharibəsi | 42 |
| 8 | Mədəniyyət | 48 |
| **DÜNYA ÖLKƏLƏRİ 1918–1945-Cİ İLLƏRDƏ** | | |
| 9 | Versal-Vaşinqton sistemi | 54 |
| 10 | ABŞ, Böyük Britaniya və Fransa | 60 |
| 11 | Almaniya və SSRİ | 66 |
| 12 | Türkiyə və İran | 72 |
| 13 | Hindistan, Çin və Yaponiya | 78 |
| 14 | Dövlətlərarası münasibətlər | 84 |
| 15 | İkinci dünya müharibəsi | 90 |
| 16 | Mədəniyyət | 100 |
| **DÜNYA ÖLKƏLƏRİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA** | | |
| 17 | Amerika Birləşmiş Ştatları | 104 |
| 18 | Böyük Britaniya, Fransa və Almaniya | 110 |
| 19 | SSRİ. Rusiya Federasiyası | 116 |
| 20 | Türkiyə və İran | 122 |
| 21 | Hindistan, Pakistan və ərəb ölkələri | 128 |
| 22 | Çin, Yaponiya və Koreya | 134 |
| 23 | Soyuq müharibə və müasir dövrdə dövlətlərarası münasibətlər | 140 |
| 24 | Mədəniyyət | 149 |

# ƏZİZ MƏKTƏBLİLƏR!

Sizə təqdim edilən bu dərslik ümumdünya tarixinin XIX yüzillikdən başlayaraq XXI yüzilliyin əvvəllərinədək olan dövrünü əhatə edir. Burada təqdim olunan materiallar sizdə xalqların və dövlətlərin tarixində baş vermiş mühüm hadisələr: iqtisadiyyatın inkişafı, siyasi sistemlərin təkmilləşdirilməsi, elmi kəşflər, islahatlar, inqilablar və milli azadlıq hərəkatları barədə bilik və bacarıqların formalaşmasına yardımçı olacaqdır. Siz XX yüzillikdə baş vermiş iki dünya müharibəsi nəticəsində meydana gəlmiş fəlakətlər, müstəmləkə sisteminin çöküşü, hərbi-siyasi blokların qarşıdurması, qütbləşmə və beynəlxalq terrorizm kimi bir sıra qlobal problemlər barədə də məlumat əldə edəcəksiniz.

Sosial-iqtisadi və mədəniyyətlərarası əlaqələrin genişləndiyi XXI yüzillikdə təhsil öz əhəmiyyətinə görə bütün sahələrdən öndə gedir. Təhsil sistemində əsas diqqət savadlı gənclərin, tarixini sevən şəxsiyyətlərin, ləyaqətli vətəndaşların və vətənpərvər insanların yetişdirilməsinə yönəldilir. Belə yüksək dəyərlərə malik olmaq üçün çox çalışmaq lazımdır.

Sizə bu şərəfli yolda uğurlar arzulayırıq!

**Şərti işarələr**

Tapşırıq | Sual | Mənbə

Dərslikdəki **QR kodlara** müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.

# ABŞ VƏ BÖYÜK BRİTANİYA

Tomas Cefferson, vətəndaş müharibəsi, Homstedlər, ilk dəmir yolu, parlament islahatı

## ABŞ XIX YÜZİLLİYİN BİRİNCİ YARISINDA

Amerika Birləşmiş Ştatlarının yaranmasından etibarən əsas diqqət dövlətin bütövlüyünün qorunub saxlanılmasına yönəldildi. Buna görə də Avropa dövlətləri ilə sülh və əmin-amanlığın davamlı olması əsas məqsədlərdən sayılırdı.

Fransada baş verən inqilabdan sonra Avropa dövlətlərinin koalisiyası onunla müharibəyə başlamışdı. Hələ İstiqlaliyyət müharibəsi dövründən ABŞ və Fransa arasında müttəfiqlik əlaqələri davam edirdi. Buna görə də fransız hökuməti İngiltərə və İspaniyaya qarşı müharibədə ABŞ-dən dəstək gözləyirdi.

### AMERİKA BAYRAĞI



1812–1814-cü illər müharibəsi zamanı ABŞ-nin Baltimor yaşayış məntəqəsində, Fort Makhenri üzərində dalğalanan bu bayraq döyüşdə parçalanmışdı. Görkəmli şair Frensis Skott Ki "Ulduzları səpələnmiş bayraq"dan təsirlənərək misralar yazmışdı. Bu misralar sonradan ABŞ-nin himninə çevrildi.

### XIX yüzillikdə ABŞ ərazisinin genişlənməsi

- 1783-cü ildə Böyük Britaniya ilə bağlanmış sülh müqaviləsinə görə ABŞ-nin ərazisi
- 1803-cü ildə Fransadan satın alınmış Luiziana ərazisi
- 1845-ci ildə ilhaq olunmuş Texas Respublikasının ərazisi
- 1846-cı ildə Böyük Britaniya ilə bağlanmış müqaviləyə görə birləşdirilən ərazi
- 1848-ci ildə Meksika ilə müharibə nəticəsində birləşdirilən ərazi



Lakin ABŞ-nin bu müharibələrdə bitərəf qaldığını elan etməsi və İngiltərə ilə ticarət əlaqələrini bərpa etmək üçün atdığı addımlar Fransanın kəskin narazılığına səbəb oldu.

Napoleon Bonapart Fransada hakimiyyətə gəldikdən sonra əsas diqqətini Avropaya yönəltdiyi üçün ABŞ ilə münasibətləri qaydaya saldı. Ancaq Fransanın İspaniyadan Luizianant alması ilə yenidən ABŞ-Fransa münasibətləri gərginləşdi. Çünki ABŞ zəif bir İspaniyanın yerinə güclü Fransa mülki ilə sərhədinin olmasını arzulamırdı. Napoleon Avropada apardığı müharibələrdə böyük vəsaitə ehtiyac duyduğu üçün Luizianant ABŞ-yə satdı. Bununla da pozulmuş Fransa-ABŞ münasibətləri qaydaya salındı.

Prezident seçkilərində qalib gələn **Tomas Cefferson** (1801–1809) rəqiblərini və bütün siyasi qüvvələri əməkdaşlığa çağırdı. Prezident nazirləri təyin edərkən bacarıqları ilə yanaşı, onların regional mənsubluğuna da diqqət yetirirdi. Bununla da o, ştatlar arasındakı birliyi gücləndirməyə çalışırdı.


Tomas Cefferson

Luizianananın dinc yolla ABŞ-yə birləşdirilməsi T.Ceffersonun nüfuzunu xeyli artırdı. Bundan istifadə edən prezident bir sıra əhəmiyyətli tədbirlər görməklə dövləti gücləndirdi. Seçki senzi ləğv olundu, vətəndaşların sosial vəziyyəti ilə bağlı mütərəqqi addımlar atıldı, qərbə doğru məskunlaşmağa icazə verildi. Köləliyin ləğv olunması yolunda təşəbbüs cənub ştatlarının etirazları ucbatından öz bəhrəsini verməsə də, ölkəyə yeni kölə axınlarının qarşısı alındı.

Tomas Cefferson hökumətinin köləliyi ləğv etməsinə cənub ştatlarının etirazının səbəblərini izah edin.

Napoleonun apardığı müharibələr ABŞ-nin ticarət donanmasının Avropa limanlarında hərəkət etməsinə mane olurdu. Bundan istifadə edən İngiltərənin hərbi donanması ABŞ ticarət gəmilərini müsadirə etməkdən çəkinmirdi. ABŞ-nin müharibə edən ölkələrə ərzaq göndərməsi İngiltərə ilə münasibətlərin daha da gərginləşməsinə səbəb oldu. İngiltərənin müharibə vəziyyətindən istifadə edən ABŞ Kanadanı işğal etmək istəyirdi. İngiltərənin də Amerikadakı keçmiş müstəmləkələrini qaytarmaq istəyi və birinci müharibənin əvəzini çıxmaq planı iki dövlət arasında yeni müharibəyə səbəb oldu. 1812-ci ildə ABŞ-nin Kanadaya ordu yeritməsi ilə müharibə başlandı. Böyük Britaniya Fransanın Avropada məğlubiyyətindən sonra bütün qüvvələrini ABŞ-yə qarşı yönəltdi. Tammiqyaslı dəniz blokadası nəticəsində ABŞ iqtisadiyyatına zərbə endirildi. Vaşinqtonun ələ keçirilməsindən sonra  amerikalılar yenidən öz istiqlaliyyətlərini qorumaq üçün mərkəzə soxulan ingilis qoşunlarını məğlub etdi. 1814-cü ilin sonunda tərəflər arasında Gent müqaviləsi imzalandı. Müqavilənin nəticələrinə görə müharibədən əvvəlki vəziyyət bərpa olundu. ABŞ Kanadaya olan iddialarından, İngiltərə isə ABŞ-yə öz müstəmləkəsi kimi baxmaqdan əl çəkdi.

Sizcə, bu müharibədə ədalətli tərəf hansı ölkə idi?


Ceyms Monro

1823-cü ildə ABŞ prezidenti **Ceyms Monronun** irəli sürdüyü doktrina* Avropa dövlətlərinin Latın Amerikasında öz ağalıqlarını bərpa etmək istəyinə qarşı yönəlmişdi. Doktrinada dünyanın Amerika və Avropa sistemlərinə bölünməsi ideyası elan edilmiş və onların bir-birlərinin daxili işlərinə qarışmaması tələbi qoyulmuşdu. "Monro doktrinası" Amerika qitəsində ABŞ-nin nüfuz dairəsinin genişləndirilməsinə imkan yaratdı.

*** Doktrina**

*siyasi, ideoloji, hərbi təlim, konsepsiya; əsas nəzəri və siyasi prinsiplərdir.*

## ABŞ XIX YÜZİLLİYİN İKİNCİ YARISINDA

XIX yüzilliyin əvvəllərindən ABŞ-yə çoxlu sayda əhali axını davam etməkdə idi. Onlar daha çox ölkənin şimal və qərbində məskunlaşırdı. Protestant əhalinin çoxluq təşkil etdiyi şimal ərazilərində sənaye və ticarət xeyli inkişaf etmiş, köləlik ləğv olunmuşdu. Qərb torpaqlarında yeni məskunlaşma kapitalizmin inkişafı üçün geniş imkanlar yaradırdı.

Cənub ştatlarının əhalisi, əsasən, kənd təsərrüfatı ilə məşğul olan katoliklərdən ibarət idi. Afroamerikalı kölələrin əməyinə əsaslanan iri pambıq plantasiyaları Cənub ştatlarının əsas təsərrüfat forması idi. Şimal ştatlarında köləlik ləğv olunsa da, Cənubda plantatorlar kölələrə qarşı irqi qarşıdurmanı qızışdırırdı. Beləliklə, hadisələrin kökündə iqtisadi fərqlər və irqi ayrı-seçkilik dururdu. Quldarlığa olan münasibət nəticəsində demokratlar arasında yaranmış qarşıdurmadan istifadə edən respublikaçıların namizədi **Avraam Linkoln** (1860–1865) prezident seçildi.




Azadolunma haqqında Bəyannamə

Onun prezident seçilməsi Cənub ştatlarında böyük həyəcanla qarşılandı. O, vəzifəsinin icrasına başlamamış Cənub ştatları ABŞ-dən ayrılaraq özlərinin Amerika Ştatlarının Konfederasiyası adlanan dövlətini yaratdı. Onların qoşunları bir sıra əraziləri ələ keçirdi. A.Linkoln mərkəzdən ayrılan ştatları qiyamçı adlandıraraq mübarizəyə başladı. Beləliklə, ABŞ-də 1861–1865-ci illəri əhatə edən vətəndaş müharibəsi başlandı.

ABŞ-də vətəndaş müharibəsinin səbəblərini müəyyən edin.

Vətəndaş müharibəsinin başlanğıcında komandanlığın təcrübəsiz generalların əlində olması ABŞ qüvvələrini bəzi məğlubiyyətlərlə üzləşdirdi.

1862-ci ilin mayında **“Homstedlər* haqqında”** Qanun qəbul edildi. Qanuna görə torpaq becərmək istəyən hər amerikalı cüzi haqq ödəməklə 65 hektar torpaq sahəsi ala bilərdi. Əldə olunan torpaq sahəsi səmərəli şəkildə becərilməli və burada kölə əməyindən istifadə olunmamalı idi.

*** Homsted**

*ingilis sözü olub, mənası “boş ev, yer, boş sahə, torpaq” deməkdir.*

Prezidentin 1862-ci ildə “Azadolunma haqqında Bəyannamə”ni imzalaması ilə növbəti ilin yanvarından kölelik ləğv olundu. ABŞ hökuməti tərəfindən atılan bu liberal addımlar müharibədə Şimalın üstünlüyünü təmin etdi. 1865-ci ilin aprelində Konfederasiya ordusunun təslim olması ilə müharibə Şimalın qələbəsi ilə başa çatdı və ABŞ-nin bütövlüyü bərpa olundu.

Müharibə qurtardıqdan bir neçə gün sonra Linkoln teatr salonunda sui-qəsd nəticəsində öldürüldü.

ABŞ konqresi vətəndaş müharibəsindən sonra Konstitusiyaya yeni əlavələri qəbul etdi, bütün ölkə ərazisində köləliyin ləğvi ilə əlaqəli olaraq qaradərililər mülki və siyasi hüquqlar aldılar.

ABŞ-də köləliyin ləğvini zəruri edən səbəbləri müəyyən edin.

Müharibədən sonra iqtisadi cəhətdən sürətlə inkişaf etməyə başlayan ABŞ-nin sərhədləri yenidən genişləndirildi. Bu ərazilərdən biri də Rusiyadan alınan zəngin xammal ehtiyatına malik Alyaska oldu.

## ABŞ XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

1901-ci ildə prezident vəzifəsinin icrasına başlayan Teodor Ruzvelt iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi istiqamətində ilk addımlar atdı. İri trestlər və digər inhisarçı qrup-




*Alyaska yarımadası XVIII yüzilliyin ikinci yarısından etibarən Rusiya ərazilərinə daxil idi. Rusiya İngiltərənin müstəmləkəsi olan Kanada ilə birbaşa sərhəd qonşusu idi. Bu dövrdə Rusiya ilə İngiltərə Ön Asiya və Uzaq Şərq uğrunda mübarizə aparırdı. Krım müharibəsindən sonra bu rəqabət daha da güclənmişdi. İngiltərənin Kanada vasitəsilə Alyaskadan keçərək Rusiya üçün təhlükə törədəcəyi hakim dairələri narahat edirdi. Onlar belə bir ciddi təhlükənin qarşısını almaq üçün Alyaskanı ABŞ-yə satmaq qərarı verdilər. Beləliklə, Rusiya birbaşa İngiltərə ilə sərhəd olmaqdan qurtarmaq, iki dövlət arasına üçüncü bir dövləti yerləşdirməklə ingilis təhlükəsinin qarşısını almaq məqsədi güdürdü.*

*Nəticədə ABŞ yeraltı təbii sərvətləri ilə zəngin olan strateji bir ərazini – Alyaska yarımadasını 7.2 milyon dollara Rusiyadan satın aldı. Bu hadisə Rusiya tarixinin rüsvayçı hadisələrindən biri hesab olunur.*

ların fəaliyyəti dövlət nəzarətinə alınmaqla kapitalın həddən artıq mərkəzləşməsinin qarşısı alındı.

Ruzveltin prezidentliyi dövründə ölkənin xarici siyasətində əhəmiyyətli dəyişikliklər baş verdi. XX yüzilliyin əvvəllərinədək ABŞ-nin xarici siyasətinin əsasını təcridçilik prinsipləri təşkil etdiyi halda, məhz Ruzveltin prezidentliyi dövründə ümumdünya siyasətində ABŞ-nin söz sahibi olması, Latın Amerikasından Avropa dövlətlərinin sıxışdırılıb çıxarılması, Çin və digər Asiya ölkələrində ABŞ-nin mövqeyinin möhkəmləndirilməsi və Avropada nüfuzunu yüksəltməklə ümumdünya ağalığını təmin etmək siyasəti yeridilməyə başlandı.

1912-ci ildə prezident seçilən **Vudro Vilson** gömrük, bank işi və maliyyə sahəsində əsaslı islahatlar keçirdi. Sənaye inhisarları üzərində dövlət nəzarəti gücləndirildi. Nəticədə azad rəqabət mühiti yaxşılaşdırıldı.



Vudro Vilson

## BÖYÜK BRİTANİYA XIX YÜZİLLİYİN BİRİNCİ YARISINDA

XIX yüzilliyin əvvəllərində İngiltərənin iqtisadi inkişafı sürətlənmiş, sənayenin mövqeyi möhkəmlənmişdi.

Kapitalizmin inkişafı sosial təbəqələşmənin artmasına səbəb oldu. Ölkənin milli sərvətinin artmasına baxmayaraq, əhali yoxsullaşırdı.

Fəhlə və sənətkarların, torpaqsız kəndlilərin iqtisadi vəziyyətinin pisləşməsi həm də hökumətin yarıtmaz siyasəti ilə bağlı idi. Ərzaq məhsullarının dəyərinin artması və iri torpaq sahiblərinin hökmranlığı inflyasiyanı sürətləndirir, əmək haqqının dəyərini azaldırdı. Buna görə İngiltərədə sosial ziddiyyətlər kəskinləşdi. Ölkədə sosial-siyasi mübarizənin güclənməsi həm də Fransa inqilabının təsiri ilə bağlı idi.

İngiltərə Fransaya qarşı koalisiyada iştirak etdiyi vaxtdan etibarən onunla müharibələr aparırdı. İngiltərə burjuaziyasının əksəriyyəti Fransaya qarşı müharibəni müdafiə edirdi. Çünki Fransa dünya ticarətində və müstəmləkə siyasətində İngiltərənin əsas rəqibi idi. Ona görə də İngiltərə Fransanı müharibə yolu ilə zəiflətməyə çalışırdı. Bu müharibələr dövlət borcunun və vergilərin xeyli çoxalmasına səbəb olsa da, İngiltərədə sənayenin və ticarətin inkişafına təkan vermişdi.

S İngilis burjuaziyası Fransaya qarşı müharibəni niyə müdafiə edirdi?

Fransanın tətbiq etdiyi **“Qitə (kontinental) blokadası”** İngiltərədə məhsul istehsalına və xarici ticarətə qismən mənfi təsir etmişdi. Müstəmləkələrinin imkanlarından istifadə edərək İngiltərə qitə blokadasının təsirini azalda bildi. Fransanın müharibədə məğlub olması nəticəsində Avropada və dünyada İngiltərənin mövqeləri möhkəmləndi.

Müstəmləkələrin talan olunması nəticəsində İngiltərəyə böyük miqdarda xammal gətirilirdi. Həmçinin müxtəlif sənaye malları istehsal edən müəssisələr və şirkətlərin yaranması sənayenin inkişafını sürətləndirirdi. Buna təkan verən amillərdən biri də dəmir yollarının çəkilməsi oldu. 1825-ci ildə ilk dəfə İngiltərədə dəmiryolunun çəkilməsi ilə daşınmanın ucuzlaşması təmin olundu.

T Dəmir yollarının əhəmiyyətini izah edərək onların sənayenin inkişafına hansı töhfələr verdiyini müəyyən edin.

Sənaye çevrilişinin başa çatması, iqtisadi inkişafın sürətlənməsi və müstəmləkələrin istismarı ilə bağlı ölkədə sənaye burjuaziyasının mövqeyi gücləndi. Lakin İngiltərədə siyasi hakimiyyət iri torpaq sahiblərinin əlində idi. Burjuaziya sosial narazılıqdan öz mənafeyinə uyğun istifadə edir, azad ticarət siyasətinə keçilməsini tələb edirdi. Bu mübarizə nəticəsində 1832-ci ildə parlament islahatı keçirildi və burjua nümayəndələri hakimiyyətdə təmsil olunmağa başladı.

## BÖYÜK BRİTANİYA XIX YÜZİLLİYİN İKİNCİ YARISI – XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

Böyük sənaye ölkəsi olan İngiltərə dünya bazarında ağalıq edirdi. Güclü ticarət donanmasına sahib olan bu dövlət xarici ölkələrdəki kapitalına görə dünyada üstün mövqeyə sahib idi. Lakin Almaniyanın birləşdirilməsindən sonra dünya bazarında rəqabətin güclənməsi İngiltərənin tədricən geri qalmasına gətirib çıxartdı. ABŞ və Almaniya istehsal edilən sənaye məhsullarının miqdarına görə İngiltərəni qabaqladı.

### BUXAR QATARI



XIX yüzilliyin əvvəlində dağ-mədən mühəndisi Riçard Trevitik ilk buxar qatarı layihəsini hazırladı. 1825-ci ildə Stokton və Darlinqton şəhərləri arasında dəmiryol xətti açıldı. Bu, dəmiryolları tarixində dönüş nöqtəsi oldu. Əvvəlcə kömür mədənlərini əlaqələndirmək məqsədilə çəkilmiş xətt üzərində hərəkət edən ilk lokomotiv Corc Stefanson lokomotivi oldu. Əsas ilk dəmir yolunun istifadəyə verilməsi ilə sənayenin sürətli inkişafı təmin edildi. Bu qatarın açılışında ilk dəfə sərnişinlər daşındı. Bu sahədə növbəti uğurlu addım sürətlə inkişaf edən iki böyük sənaye şəhərinin – Liverpulla Mançesteri birləşdirən xəttin açılması oldu. Ən məşhur lokomotiv hesab edilən “Raket” adlı qatar saatda 47 km sürətlə hərəkət edirdi.

Müstəmləkələrdən gələn kənd təsərrüfatı mallarından asılılıq İngiltərə iqtisadiyyatının səciyyəvi cəhəti olmuşdu. Yerli istehsalın azalması gələcəkdə böyük böhranlardan xəbər verirdi. İngiltərənin daxili bazarlarında Almaniya mallarının artması da hökuməti narahat etməyə başlamışdı.



Böyük Britaniyanın müstəmləkələri. XIX yüzilliyin xəritəsi

Böyük Britaniyanın müstəmləkələrdən hazır məhsullar gətirməsinin ölkə iqtisadiyyatına hansı təsirlər göstərəcəyini müəyyən edin.

Burjuaziya ticarət və sənaye sahəsində İngiltərənin dünyada üstün mövqeyini itirməsindən narahat idi. Bir-birini əvəz edən Mühafizəkarlar və Liberallar partiyası daha çox tərəfdar toplamaq üçün ölkəni bu müşkül vəziyyətdən çıxarmağa çalışırdı. Liberalların apardığı siyasət nəticəsində İngiltərəyə və onun müstəmləkələrinə Almaniyadan məhsul idxalı məhdudlaşdırıldı.

XX yüzilliyin əvvəllərində İngiltərə dünyanın ən güclü və ən zəngin ölkələrindən biri idi. London dünyanın maliyyə mərkəzinə çevrilmişdi. İngilis valyutası dünya bazarlarında əsas pul vahidi kimi qalmaqda idi. Ölkə sənayesində yeni sahələrin inkişaf etməsinə baxmayaraq, yenə də sənaye ABŞ və Almaniyadan geri qalırdı. Lakin kapital ixracı sahəsində İngiltərə Fransanı üstələmişdi.

## BÖYÜK BRİTANİYANIN MÜSTƏMLƏKƏ SİYASƏTİ

Nüfuz dairələri uğrunda aparılan mübarizədə İngiltərənin əsas rəqibi Fransa, Yaxın Şərqdə isə Rusiya idi. Bu özünü müstəmləkə işğallarında da göstərirdi.

İngiltərə dünyanın müxtəlif yerlərində müstəmləkə işğallarını davam etdirirdi. Onun müstəmləkələri arasında əsas yeri Hindistan tuturdu. Əfqanıstanın işğalı uğursuz olsa da, XIX yüzilliyin ortalarında Hindistanın işğalı başa çatdırıldı, Çin isə yarımmüstəmləkəyə çevrildi.

İngiltərə iqtisadi imkanlarından istifadə edərək rəqiblərini zəiflətməyə çalışırdı. Yaxın Şərqdə Osmanlı imperiyasının ərazi bütövlüyünü müdafiə etməklə onu özünə tabe etmək istəyirdi. Krım müharibəsində Rusiyanın məğlubiyyəti Osmanlı imperiyasında İngiltərənin mövqeyini gücləndirdi.

İngiltərə iqtisadi əlaqələrin genişlənməsi nəticəsində 1867-ci ildə Kanadaya dominion* hüququ verdi.

*** Dominion**

*ingilis sözü olub, "mülk", "hakimiyyət" deməkdir. Böyük Britaniya imperiyasının tərkibində ingilis kralını dövlət başçısı kimi tanıyan və özünüidarə hüququ olan ölkədir.*

Afrikada müstəmləkələr uğrunda mübarizədə İngiltərənin əsas rəqibi Fransa idi. XIX yüzilliyin 80-ci illərində Misir işğal olundu. Yüzilliyin sonlarında Böyük Britaniya dünyanın ən böyük imperiyasına çevrildi.

Böyük Britaniyanın daha çox müstəmləkələr ələ keçirməsini asanlaşdıran amillər hansılar idi?

# FRANSA VƏ ALMANİYA

Napoleon Bonapart, III Napoleon, “Qitə blokadası”, Otto Bismark, Frankfurt müqaviləsi

## FRANSA XIX YÜZİLLİYİN BİRİNCİ YARISINDA

Birinci respublikanın süqutundan sonra 1804-cü ilin yazında Napoleon Bonapartın imperator elan edilməsi ilə Fransada **Birinci imperiya** yarandı. I Napoleon hakimiyyətini gücləndirmək üçün bütün idarəçiliyi əlində cəmləşdirdi. Yerli özünüidarəetmənin ləğv olunması ilə mərkəzləşmiş idarə sistemi yaradıldı. Andlı məhkəmələr ləğv olundu, bütün məhkəmə orqanları hökumətdən asılı hala salındı.

Birinci imperiya dövründə Fransanın daxili siyasətinin xarakterini müəyyən edin.

Birinci imperiya dövründə Fransada hüquq sisteminin təkmilləşdirilməsi sahəsində tədbirlər görüldü. Qəbul edilmiş yeni qanunlara görə şəxsiyyətin toxunulmazlığı, vicdan azadlığı və bərabərlik hüququ rəsmiləşdirilsə də, əslində, bu, formal xarakter daşıyırdı. Xüsusi mülkiyyət toxunulmaz elan olundu. Fəhlə ittifaqları və tətillər qadağan edildi. Fəhlələr sahibkarlarına münasibətdə hüquqsuz vəziyyətdə qalırdı.

I Napoleon Bonapartın yaratdığı idarəçilik diktatorluq səciyyəsi daşıyırdı. Burjuaziyanın dövlətin idarə edilməsində iştirakı məhdudlaşdırılırdı. Kəndlilər imperiyanın əsas dayağı hesab olunur, onları hökumətin ətrafında birləşdirmək üçün millətin birliyi ideyası təbliğ olunurdu. Buna baxmayaraq, əhalinin əksəriyyəti kimi onlar da hüquqsuz vəziyyətdə idi.

XIX yüzilliyin əvvəllərində Fransa yenə də aqrar ölkə kimi qalırdı. Əhalinin böyük hissəsi kəndlərdə yaşayırdı. İnqilab kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı üçün şərait yaratmışdı. Aparılan geniş miqyaslı müharibələr kənd təsərrüfatı mallarına tələbatı artırırdı. Buna görə də əvvəllər qadağan olunmuş kartof əkini üzərində məhdudiyyətlər götürüldü və onunla bərabər yeni bitkilərin əkini genişləndirildi. Həmin bitkilər, əsasən, əksəriyyəti mülkədarlara məxsus olan torpaqlarda becərilirdi.



I Napoleonun imperator taxtına çıxması

### KARTOF – “DÜNYA TARİXİNİ DƏYİŞDİRƏN BİTKİ”

Uilyam Makneil “Kartof dünya tarixini necə dəyişdirdi?” məqaləsində Amerikadan gətirilən kartofun XVIII yüzilliyin sonunda qıtlıq və aclıqdan əziyyət çəkən Avropanı məhv olmaqdan qurtardığını və bugünkü dövlətlərin qurulmasında çox böyük rolunun olduğunu qeyd edir. Onun fikrincə, kartof taxıldan dörd dəfə daha kalorili idi və Avropada əhalinin sürətli artımına, sənayeləşmənin inkişafına və müasir mədəniyyətin yüksəlməsinə təsir etmişdir. Avropalılar bu bitki ilə daha əvvəllər tanış olsalar da, ona şübhə ilə yanaşırdılar. Hətta bəzi katoliklər müqəddəs kitabda kartofdan bəhs edilmədiyi üçün onu “şeytan alması” adlandırmış və ondan imtina etmişdilər.

Kartofu Fransada tanıdan Yeddiillik müharibə zamanı əsir düşmüş bir əczaçı olmuşdur. Belə ki o, aclıqdan ölməmək üçün kartof yeməklə həyatda qalmağı bacarmışdır. Əsirlikdən qurtardıqdan sonra Fransada kartofun tanıdılmasına çalışmışdır.

Avropa dövlətləri müharibələr zamanı kartofun əkilməsinə tətbiq olunan məhdudiyyətləri aradan qaldırmaqla əhalisinin aclıqdan məhv olmasının qarşısını almışdır.

XIX yüzilliyin ortalarında İngiltərənin İrlandiyanı blokadada saxladığı dövrdə ölkədə qıtlıq yarandı. Əhali bu zaman əllərində olan kartof toxumlarını yedikdən sonra aclıq və xəstəlik böyük fəlakətə çevrildi.

## Qərbi Avropa XIX yüzilliyin birinci yarısında




Ölkədə kənd təsərrüfatı ilə yanaşı, toxuculuq, metallurgiya və digər sahələr də inkişaf etməkdə idi. Müəssisələrdə maşınlardan və digər texniki vasitələrdən istifadənin artması sənaye çevrilişinin başlanmasından xəbər verirdi. Buxar maşınlarından istifadə iri müəssisələrin təşkilinə şərait yaradırdı.

Fransanın maliyyə vəziyyətinin yaxşılaşdırılması hökumətin qarşısında duran ən əsas məsələlərdən biri idi. Ümumi vergilər artırılsa da, iri kapitaldan alınan vergi azaldılmışdı. Müharibələrin ilk vaxtlarında Avropa ölkələri ilə əlverişli ticarət müqavilələri imzalanmışdı. İdxal olunan mallar üzərində gömrük rüsumlarının artırılması ölkə sənayesini İngiltərə məhsullarının rəqabətindən qoruyurdu. Fransa hökumətinin 1806-cı ildə Böyük Britaniyaya qarşı tətbiq etdiyi “Qitə (kontinental) blokadası” öz bəhrəsini vermədi. Böyük Britaniyanın iqtisadi cəhətdən zəiflədilməsi planları baş tutmadı. Əksinə, blokada Fransanın özünə və ondan asılı olan ölkələrə daha çox zərər verməyə başladı. Böhrandan əziyyət çəkən Avropa ölkələri fransız mallarını da idxal etmirdi. Çünki Fransada istehsal olunan mallar ingilis mallarına nisbətən baha və daha az keyfiyyətli idi. Blokada nəticəsində Fransanın iri liman şəhərlərinin fəaliyyəti pozulmuşdu. Ona görə də Fransa blokada siyasətində geri addım atmağa məcbur qaldı və İngiltərə ilə məhdud ticarətə icazə verdi. Buna səbəb həm də Fransadan asılı ölkələrin İngiltərə ilə gizli ticarətə davam etmələri idi.

XVIII yüzilliyin sonu XIX yüzilliyin əvvəllərində Fransa Avropa dövlətlərinə qarşı fasiləsiz müharibələr aparmışdı. Burada əsas məqsəd yeni ərazilər işğal etməklə yanaşı, Avropa, Yaxın Şərq, Afrika və Adriatik dənizində möhkəmlənməklə bütün dünyada aparıcı rola malik olmaq idi. Avropa dövlətləri Fransanın məkrli siyasə-

tinə qarşı koalisiyalarda birləşsələr də, bir-birinə qarşı da səmimi deyildi. Bu da onların arasında ziddiyyətlərə səbəb olurdu. I Napoleon yaranmış fürsətdən məharətlə istifadə edirdi.

Bütün bunlara baxmayaraq, Birinci imperiyanın böhranı başlanmışdı. Aramsız müharibələrin aparılması ölkə iqtisadiyyatını zəiflətmiş və xalqın narazılığına səbəb olmuşdu. Sənaye burjuaziyası hökumətdən uzaqlaşmışdı. Vergilərin artırılması, işsizliyin artıq adi hal alması narazı qüvvələrin sayını gündən-günə artırırdı. Asılı ölkələrdə milli-azadlıq hərəkatlarının güclənməsi və I Napoleonun tükənməyən işğalçılıq planları imperiyanın böhranını sürətləndirdi. Rusiyaya hücum nəticəsində vahid ordunun sıradan çıxması isə Fransanın müttəfiqlərinin ondan uzaqlaşmasına səbəb oldu.

S Birinci imperiyanın süqutunun səbəbləri hansılardır?

T Vyana konqresindən sonra Avropanın siyasi xəritəsində baş vermiş dəyişiklikləri müəyyən edin.

Beləliklə, Napoleon imperiyası ona qarşı birləşmiş dövlətlərin mübarizəsi nəticəsində süquta uğradı. Burbonlar sülaləsinin hakimiyyəti bərpa olundu. Vyana konqresində müttəfiqlərin təkidi ilə Fransa inqilabdan əvvəlki sərhədlərə qaytarıldı. 1847-ci ildə Fransada iqtisadi böhran başladı. Fəhlələrin əməkhaqqı azaldıldı. İqtisadi böhran sosial narazılığa səbəb oldu, etiraz hərəkatları gücləndi. Ölkənin müxtəlif yerlərində siyasi tələblər irəli sürülməsi yeni inqilabın başlanması üçün şərait yaratmışdı.

1848-ci ildə baş verən inqilab nəticəsində Fransa respublika elan edildi. Dövlət aparatı mühafizəkar məmurlardan təmizləndi. Keçirilən seçkilərdə Bonapartlar sülaləsinin nümayəndəsi Lui Napoleon prezident seçildi. Parlamentdə monarxiya tərəfdarları üstünlük təşkil edirdi. Hökumətin apardığı xarici siyasət respublika tərəfdarları ilə monarxiya tərəfdarları arasında ixtilaflara səbəb oldu.

Fransa hökuməti papanın dünyəvi hakimiyyətini bərpa etmək üçün konstitusiyaya zidd olsa da, Romaya qoşun göndərdi. Lui Napoleon bu yolla katolik kilsəsinin etimadını qazandırmaq və monarxiyanı bərpa etmək arzusunda idi. Yaranmış qarşıdurmadan istifadə edən Lui Napoleon dövlət çevrilişi etdi. O, 1852-ci ildə III Napoleon adı ilə imperator elan olundu. Beləliklə, Fransada **İkinci imperiya** dövrü başladı.



III Napoleon

## FRANSA XIX YÜZİLLİYİN İKİNCİ YARISINDA

XIX yüzilliyin ortalarında Fransada kapitalizmin inkişafı sürətlənmiş, sənaye çevrilişi başa çatmışdı. Elmi-texniki yeniliklərdən istifadə əmək məhsuldarlığını artırmışdı. Sənayenin inkişafı nəticəsində şəhər əhalisinin sayı gündən-günə artırdı. Bununla da burjuaziya ölkənin siyasi həyatında mühüm rol oynayırdı. Sərvəti artan burjuaziya imperiyanın əsas dayağına çevrildi.

T III Napoleonun geniş müharibələrə başlamasına səbəb olan amilləri müəyyənləşdirin.

Burjuaziyaya arxalanan III Napoleon Avropada hegemonluğa can atmaqla yanaşı, yeni müstəmləkələr ələ keçirməyə çalışırdı. Bununla o, əhalinin diqqətini ölkədaxili problemlərdən yayındırmaq istəyirdi.

III Napoleona görə Rusiya Fransanın mövqelərinin möhkəmlənməsinə mane olurdu. Ona görə də Fransa Krım müharibəsində Osmanlının tərəfində olmaqla Rusiyanın yaratdığı maneənin təsirini azaltdı. Krım müharibəsinin nəticələri Fransanın həm Balkan ölkələrində, həm də Yaxın Şərqdə möhkəmlənməsinə kömək etdi. Müstəmləkələr uğrunda mübarizə Afrikada, həm də Uzaq Şərqdə gedirdi.

1860-cı illərin ikinci yarısında müharibələrə çəkilən xərclər səbəbindən Fransada baş vermiş iqtisadi böhran İkinci imperiyanın dayaqlarını zəiflətdi. Almaniyanın birləşməsinə mane olmağı bacarmayan hökumət burjuaziya tərəfindən kəskin narazılıqla qarşılandı. Fransada



III Napoleonun təslim olması

yenidən inqilabi hərəkat başladı. İnqilabi hərəkatın qarşısını almaq və Almaniyanın birləşdirilməsinə mane olmaq üçün Fransa 1870-ci ildə Prussiyaya müharibə elan etdi. Fransa ordusu müharibəyə hazır deyildi. Prussiya ilk döyüşlərdə Fransanı məğlub edib əməliyyatları onun ərazisinə keçirdi. Fransız ordusu Sedan şəhəri ətrafında mühasirəyə düşdüyü üçün III Napoleon qoşuna təslim olmaq əmri verməyə məcbur oldu. Bu hadisə Fransa tarixinin ən ağır günlərindən biri hesab olunur.

İkinci imperiya ordusunun biabırcasına məğlubiyyəti xalqın narazılığına səbəb oldu. Üsyan nəticəsində imperiya devrildi. Fransa üçüncü dəfə respublika elan olundu.

## FRANSA XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

Fransada XX yüzilliyin əvvəllərində sənaye məhsullarının istehsalı artsa da, əsas sənaye sahələrində istehsal edilən məhsulun həcmi ABŞ, Böyük Britaniya və Almaniyadan az idi. Elektrotexnika, aviasiya və avtomobil istehsalı kimi yeni sənaye sahələri daha sürətlə inkişaf edirdi. İstehsalın təmərküzləşməsi nəticəsində inhisarların sayı artırdı. İstehsalın təmərküzləşməsinə görə də Fransa ABŞ və qabaqcıl Avropa ölkələrindən geri qalırdı. Fransada kapital ixracı da artırdı. Böyük maliyyə kapitalının çox az hissəsi ölkə iqtisadiyyatına qoyulurdu. Kapital ixracına görə Fransa yalnız Böyük Britaniyadan geri qalırdı.

## ALMANİYA XIX YÜZİLLİYİN BİRİNCİ YARISINDA

XIX yüzilliyin əvvəllərində bir sıra Avropa dövlətlərindən fərqli olaraq Almaniya hələ də dağınıq halda idi. Feodal qaydalarının hökm sürməsi birləşməyə mane olurdu. Həmçinin Fransanın alman torpaqlarına qarşı apardığı işğalçı siyasət də vahid alman dövlətinin yaradılmasına ən böyük əngəl idi.

S Siyasi dağınıqlıq və feodal qaydaları Almaniyanın iqtisadi inkişafına necə təsir etmişdi?

Alman dövlətləri içərisində vahid dövlət qura biləcək yalnız iki dövlət – **Avstriya** və **Prussiya** idi. Ancaq aralarındakı ziddiyyətlər buna imkan vermirdi. Vyana konqresinin qərarları da Almaniyanı parçalanmış halda qalmağa məhkum etdi. Yaradılmış Almaniya ittifaqı daxilində Avstriya və Prussiya arasında çəkişmələr daha da şiddətləndi.

Siyasi dağınıqlıqla yanaşı, feodal qaydalarının da mövcud olması Almaniyanın iqtisadi inkişafına maneələr yaradırdı. Almaniyanın şərqində torpaqların böyük hissəsi feodalların mülkiyyətində qalırdı. Bəzi təsərrüfatlarda muzdlu əməkdən istifadə edilir, emal müəssisələri qurulurdu. Fransa ilə sərhəddə olan Reynboyu əyalətlərdə feodal qaydaları ləğv edilmişdi. Həmin dövrdə ölkədə dağ-mədən və kimya sənayesi sürətli inkişafa qədəm qoymuşdu.

T Vyana konqresinin qərarlarının Almaniya üçün təsirlərini izah edin.

Daxili ticarəti genişləndirmək məqsədilə 1834-cü ildə Avstriya istisna olmaqla, Almaniya ittifaqında gömrük sərhədlərinin ləğv edilməsi nisbi inkişafa təkan verdi. Dəmir yollarının çəkilməsi sənaye istehsalının həcmini artırsa da, Almaniya yenə də Böyük Britaniya və Fransadan geri qalırdı. Çünki ölkədə davam edən siyasi pərakəndəlik, müxtəlif pul, ölçü və çəki sistemlərinin olması vahid iqtisadiyyatın inkişafına mane olurdu.

Vahid dövlətin qurulması və feodal qaydalarının bütün ölkə ərazisində ləğv olunması tələbləri ilə üsyanlar başladı. Üsyanda irəli sürülən tələblər 1848-ci il inqilabının əsas məqsədinə çevrildi. Prussiya da daxil olmaqla bəzi alman




**Vahid imperiyada birləşdirilmiş alman dövlətləri**



Otto fon Bismark

dövlətləri 1849-cu ildə ümum-alman parlamentini açdı. Parlament Almaniyanın birləşdirilməsi səlahiyyətini Prussiya kralına versə də, o, Avstriyanın təzyiqi ilə bundan imtina etməli oldu. Bununla da Almaniyanın vahid dövlətdə birləşdirilmə cəhdi baş tutmadı.

## ALMANİYA XIX YÜZİLLİYİN İKİNCİ YARISINDA

Parlamentli monarxiya olan Prussiyada 1862-ci ildə Baş nazir vəzifəsinə **Otto fon Bismark** gətirildi. Bismark parlamentli idarəetmə sisteminə və demokratik azadlıqlara qarşı idi. Daxili siyasətdə antiliberal siyasi xətt izləyən Bismarkın xarici siyasətində əsas məqsədi Almaniyanı vahid dövlətdə birləşdirmək idi. Onun üçün davamlı düşmənçilik və dostluq anlayışı yox idi. Almaniyanın maraqları Bismarkın xarici siyasətinin əsasını təşkil edirdi.

Bismark vahid dövlətin yaradılmasında dinc yolun mümkün olmadığı tezisini irəli sürür, birləşdirməyə ancaq "dəmir və qanla" nail oluna biləcəyinə inanırdı. Bu yolda Bismark Avstriya, Fransa və Rusiyanı ən böyük əngəl kimi görürdü. O, Avstriyanı Almaniyanın siyasi arenasından kənara çıxarmaqla Prussiyanın liderliyində alman dövlətlərinin birliyini yaratmağı planlaşdırırdı. Güclü ordu quran Bismark məqsədlərinə çatmaq üçün böyük dövlətlərin dəstəyini almağa, bu, mümkün olmadıqda isə onların bitərəfliyinə nail olmağa çalışırdı. Rusiya ilə münasibətlər yaxşılaşdırıldı. Bu fürsətdən istifadə edən Prussiya ordusu əhalisinin əksəriyyəti almanlardan ibarət olan əraziləri Danimarkadan aldı.

1864-cü ildə imzalanmış müqavilənin şərtlərinə görə Danimarka Şlezviq – Holşteyni Prussiya və Avstriyaya verməyə razı oldu. Ancaq bu ərazilərin idarə edilməsi üstündə yaranmış narazılıq və Alman ittifaqı daxilində Prussiyanın nüfuzunun artması iki dövlət arasında müharibəyə səbəb oldu.

Almaniyanın birləşdirilməsində ikinci böyük əngəl məhz Avstriya idi. Avstriya ilə müharibə baş verərdisə, Fransanın Reynboyundan Prussiyaya hücum etməyəcəyinə dair təminat yox idi. Bismark bu təhlükədən sovuşmaq üçün, ən azı, III Napoleonun bitərəfliyinə nail olmalı idi.

Bismarkla III Napoleonun danışıqları uğurlu keçdi. Fransa Avstriya-Prussiya müharibəsində bitərəf qalmağa razılaşdı. Bu razılaşmada Fransanın özünün də maraqları var idi. III Na-

poleon bu müharibənin uzanması nəticəsində iki böyük alman dövlətinin zəifləyəcəyini düşünürdü. Daha sonra zəifləmiş Prussiya və Avstriyanın ərazilərini tutmaq Fransanın maraqlarına uyğun idi.

III Napoleon Bismarkla görüşü zamanı onunla razılaşmaqda hansı məqsədləri güdürdü?

Prussiya müharibəyə çox yaxşı hazırlaşmışdı. 1866-cı ildə baş verən **Sadova** döyüşündə Prussiya qüvvələri Avstriyanı məğlub etdi. Bismark Prussiya kralının Vyananı tutmaq istəyinə qarşı çıxdı. Çünki Fransa ilə müharibə qaçılmaz idi. O düşünürdü ki, yeni müharibə ərəfəsində Avstriyanın tamamilə sıradan çıxarılması ilə Avropada güc tarazlığının pozulması Prussiyanın zərərinə olar.

1866-cı ildə imzalanmış müqavilənin şərtlərinə görə Alman ittifaqına son qoyuldu. Avstriyanın iştirakı olmadan yeni ittifaq yaradılmalı idi. Avstriya **Şlezviq–Holşteynin** Prussiyaya verilməsinə razı oldu. Beləliklə, Almaniyanın birləşdirilməsində ən böyük əngəllərdən biri aradan qalxdı.

Prussiya krallığı əldə etdiyi üstünlüklərdən sonra xeyli gücləndi. Müqaviləyə əsasən Şimali Alman İttifaqı quruldu. İttifaqa daxil olan alman dövlətləri daxili müstəqilliklərini saxlasa da, xarici siyasətdə və hərbi məsələlərdə Prussiyadan asılı idi. **Şimali Alman İttifaqının** üzvü olan dövlətlərin nümayəndələrindən ibarət Reyxstaq (*İmperiya Məclisi*) quruldu. Reyxstaq 1867-ci ildə Şimali Alman İttifaqı üçün vahid konstitusiya hazırladı.

Fransa Reyn çayının şərqində güclü bir alman dövlətinin qurulmasından çox narahat idi və Avstriya-Prussiya müharibəsinin qısa müddətdə bitəcəyinə inanmırdı. Fransanın əzəli məqsədlərinə zərbə dəymişdi: çünki o, xarici siyasətində sərhədləri yanında güclü bir alman dövlətinin qurulmasına imkan verməməyə çalışırdı. Yaranmış bu gərginlik Fransa ilə Prussiya arasında müharibəyə səbəb oldu. Prussiyanın həlledici qələbəsi ilə müharibə başa çatdı.

Fransanın Avropadakı üstünlüyünə son qoyuldu. Beləliklə, vahid Almaniya dövlətinin qurulmasında növbəti maneə olan Fransa da sıradan çıxarıldı.

1871-ci il yanvar ayının 18-də Parisin Versal sarayında təntənəli tacqoyma mərasimi keçirildi. Prussiya kralı I Vilhelmin imperiya tacını qəbul etməsi ilə Almaniya imperiyasının yaradılması rəsmi şəkildə elan olundu.

1871-ci ildə imzalanmış Frankfurt müqaviləsinə əsasən əhəmiyyətli daş kömür ehtiyatları ilə zəngin olan Elzas və Lotaringiya vilayətləri Almaniyaya verildi. Fransa müharibə təzminatı kimi 5 milyard fransız frankı ödəməli idi. Təzminat ödənənə qədər Fransanın şimal vilayətləri Almaniyanın nəzarətində qalmalı idi.

Otto fon Bismarkın Almaniya tarixində rolunu necə dəyərləndirirsiniz?



I Vilhelmin tacqoyma mərasimi

## ALMANİYA XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

XX yüzilliyin əvvəllərində Almaniya sənaye inkişafının səviyyəsinə görə Fransa və Böyük Britaniyanı ötüb keçsə də, ABŞ-dən geri qalırdı. Bu dövrdə Almaniyadan xaricə kapital ixracı artmışdı. Almaniyada artan sosial narazılığı aradan qaldırmaq üçün sosial-iqtisadi və inzibati-idarəçilik sahəsində islahatlar həyata keçirildi. Ancaq bu islahatlar sosial narazılığı tamamilə aradan qaldıra bilmədi.

Bismarkın siyasi fəaliyyətinə aid cədvəli tamamlayın.

| DAXİLİ SİYASƏTİ | XARİCİ SİYASƏTİ |
|---|---|
| | |

# RUSİYA

İstibdad rejimi, "Avropanın jandarmı", Böyük islahatlar, "Xalqlar həbsxanası", 1905–1907-ci illər inqilabı, Stolıpin islahatları

## SOSİAL TƏBƏQƏLƏŞMƏ

Rusiya cəmiyyətinin ən xarakterik xüsusiyyəti şaxələnmiş təbəqələşmənin saxlanması idi. Rusiya imperiyasının əsas sosial təbəqələri:




**ERİK HOBSBAUM**
"İnqilab dövrü"

Kəndlilərin təhkimçiliyi bəzən o həddə çatırdı ki, Rusiyada və Polşanın bəzi yerlərində olduğu kimi, torpaqdan ayrı olaraq satıla bilən daşınan bir əmlak olan kölədən, demək olar ki, heç bir fərqi qalmırdı.

Mənbə və diaqram əsasında Rusiyanın sosial-iqtisadi vəziyyətini təhlil edin.

## DÖYÜŞDƏ QAZANILMAYAN QƏLƏBƏ

XIX yüzilliyin əvvəllərində Rusiyada feodal qaydaları və mütləq monarxiya davam edirdi. Saray çevrilişi ilə hakimiyyətə gələn **I Aleksandr (1801–1825)** əvvəlcə bir sıra islahatlar həyata keçirdi. Mülkədarların könüllü olaraq kəndliləri ödənc müqabilində pay torpağı verməklə azad etməsini nəzərdə tutan fərman verildi. Lakin kəndlilərin cüzi bir hissəsi azad edildi. Kollegiyalar əvəzinə, Avropa nümunəsində nazirliklər yaradıldı. Mətbuat və kitablar üzərində senzura yumşaldıldı. Geriliyi və savadsızlığı aradan qaldırmaq üçün təhsilə diqqət artırıldı. Bir çox universitet və orta məktəblər açıldı. Lakin sonradan I Aleksandr islahatlar siyasətindən uzaqlaşdı. **İstibdad* rejimi** tətbiq etdi. Xarici siyasət sahəsində Rusiya əvvəlcə Fransaya qarşı koalisiyada iştirak etsə də, bir sıra döyüşlərdə məğlub oldu və 1807-ci ildə onunla **Tilzit sülh müqaviləsini** imzaladı. Fransanın Qərbi Avropadakı işğallarını tanımaq müqabilində Rusiya Şərqi Avropanın böyük hissəsinə hakim olmalı idi. Həmçinin Rusiya Fransanın İngiltərə əleyhinə tətbiq etdiyi blokadaya qoşuldu. Bundan sonra Rusiya İsveçi məğlub edərək **Finlandiyanı** işğal etdi. Osmanlı dövləti ilə müharibə nəticəsində isə **Bessarabiya** *(müasir Moldova və Ukraynanın bir hissəsini əhatə edən tarixi ərazi)* Rusiyaya ilhaq edildi.

* **İstibdad**

*özbaşınalığa və zorakılığa əsaslanan idarə üsuludur.*

Əvvəllər Rusiyanın hansı müharibədə İsveçi məğlub etdiyini xatırlayın.

I Napoleon Rusiyaya güvənilməz tərəfdaş və Avropanın bütünlüklə işğalında son maneə kimi baxırdı. Tərəflər arasında ərazi ziddiyyətləri və Rusiyanın İngiltərə ilə ticarət əlaqələrini bərpa etməsi 1812-ci ildə Fransanın Rusiyaya hücumuna səbəb oldu. Ruslar bir neçə açıq döyüşdə məğlub olaraq geri çəkildilər. Qısa müddət ərzində I Napoleonun ordusu Moskvaya qədər irəlilədi və artıq yandırılaraq boşaldılan şəhəri ələ keçirdi. Moskvanın yandırılması, soyuqların başlaması Fransa ordusunun qalacaq yerdən və ərzaqdan məhrum olması ilə nəticələndi.

Sizcə, Moskvanın yandırılması hansı tərəfin hərbi-strateji məqsədinə uyğun idi və bu hadisə müharibənin sonrakı gedişinə necə təsir göstərdi? Rusların bu taktikası Azərbaycan tarixində hansı hadisə ilə oxşardır?

I Napoleona qarşı açıq döyüşlərdə qalib gələ bilməyən rus ordusu ölkənin təbii coğrafi şəraitindən və partizan müharibəsi taktikasından istifadə etdi. Fransız ordusunun təchizatının pisləşməsi və kəskin soyuqların başlaması Napoleon ordusunun geri çəkilməsinə səbəb oldu.

Bu vəziyyətdən istifadə edən Rusiya Polşanı, Balkanları və başqa əraziləri işğal edərək Avropada hakim rolunu ələ keçirmək istəyirdi. Çar bu məqsədinə *“Avropa xalqlarını I Napoleonun zülmündən xilas etmək”* bəhanəsi ilə nail olmaq fikrində idi. Ona görə də rus ordusu Qərbi Avropaya daxil oldu.

Rusiyanın qələbəsi Azərbaycanın gələcək taleyinə necə təsir göstərdi?



“I Napoleonun yandırılan Moskvaya daxil olması”.
*Rəssam Albrext Adam*

**AKDES NİMET KURAT**
“Rusiya tarixi”

**Mövsüm şərtlərini və Rusiyanın içərilərinə doğru irəlilədikcə fransız ordusunun təchizatının çətinləşməsini nəzərə alaraq bəzi generallar Napoleona qışı Smolenskdə keçirib, 1813-cü ilin yazında yenidən Moskvaya yürüş etməyi təklif etdilər. Lakin Fransa imperatoru bu təklifə əhəmiyyət vermədi.**

Mənbə və mətn əsasında müzakirə aparın: Rusiyaya yürüşdə Napoleonun uğursuzluğunun səbəblərini müəyyən edin. Bəzi generalların Napoleona mövsüm şərtlərini nəzərə almaq təklifini strateji cəhətdən dəyərləndirin.

## “AVROPANIN JANDARMI”

I Napoleona qarşı müharibə zamanı Qərbi Avropada yürüşlərdə iştirak edən rus zabitlərinin bir hissəsi Rusiyada həyat şəraitinin, dövlət idarəçiliyinin və sosial quruluşun çox geridə olduğunu gördü. İstibdad rejimi və kəndlilərin təhkimli vəziyyəti daha çox narazılıq yaradırdı. Ona görə də Avropanın mütərəqqi idarə sistemini və sosial quruluşunu Rusiyada tətbiq etmək üçün gizli cəmiyyətlər yaradıldı. Bu cəmiyyətlər Rusiyada mütləqiyyəti devirməyi, təhkimçiliyin ləğvi və konstitusiya qəbul edilməsini qarşıya məqsəd qoymuşdu. Onlar 1825-ci ilin dekabrında I Aleksandrın vəfatından istifadə edərək hərəkətə keçdilər. Lakin Rusiya tarixində mütləqiyyəti devirmək üçün edilən bu ilk cəhd üsyan rəhbərlərinin ləng hərəkət etməsi səbəbi ilə uğursuz oldu. Beləliklə, yeni çar **I Nikolay** (1825–1855) hakimiyyətini möhkəmləndirdi. O, ölkəni cəmiyyət üzərində sərt nəzarətə əsaslanan istibdad və bürokratiya* rejimində idarə edirdi.

*** Bürokratiya**

*ali məmur təbəqəsinə əsaslanan və hakim təbəqənin mənafeyini qoruyan idarəetmə sistemidir.*



“Dekabristlər üsyanı”. *Rəssam Karl Kolman*

Məktəb və universitetlərə nəzarət artırıldı. Elm adamlarının Avropaya getmələri qadağan edildi. Yalnız zadəgan və məmur övladları orta təhsil ala bilərdilər. Kitablar və mətbuat üzərində senzura gücləndirildi.

**I Nikolayın** hakimiyyəti dövründə Rusiyada feodal-təhkimçilik quruluşu iqtisadiyyatın tənəzzülünü dərinləşdirdi. Ticarət və sənaye sahələrində nisbi inkişaf olsa da, kəndlilərin təhkimliliyinə əsaslanan mülkədar təsərrüfatı səmərəli deyildi. Təhkimli kəndlilərin əməyinə əsaslanan manufakturalar iflasa uğrayırdı. Beləliklə, ölkənin siyasi və iqtisadi quruluşu bütün sahələrdə inkişafa mane olurdu. Buna baxmayaraq, XIX yüzilliyin 30–40-cı illərində Rusiyada **sənaye çevrilişi** başladı. Qərbi Avropa ölkələrindən fərqli olaraq, Rusiyada sənaye çevrilişi feodal-təhkimçilik quruluşunun hakim olduğu şəraitdə başlanmışdı.

**POL KENNEDİ**
“Böyük güclərin yüksəliş və çöküşü”

Rusiyanın nisbi gücü ən çox 1815-ci ildən sonra – dünyada sülh və sənayeləşmə dövründə geriləmədi. Lakin bu vəziyyət Krım müharibəsinə (1853–1856) qədər tam şəkildə aşkar olmadı. ... Rusiya iqtisadi və texniki sahələrdə 1815–1880-ci illərdə Avropanın digər böyük dövlətlərinə nisbətən geri qalırdı.

Rusiyanın iqtisadi və texniki sahələrdə Avropanın digər böyük dövlətlərinə nisbətən geri qalmasının səbəblərini təhlil edin.

I Nikolayın dövründə Rusiyanın işğalçılıq siyasəti gücləndi. Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın işğalı başa çatdırıldı. Avropada 1848-ci il inqilablarının yatırılmasında fəal iştirakına görə Rusiya “Avropanın jandarmı” adlandırılırdı. I Nikolayın Osmanlı dövlətinə qarşı apardığı siyasət də işğalçı xarakter daşıyırdı.

Lakin Rusiyanın güclənməsi İngiltərə və digər Avropa dövlətlərinin mənafeyinə uyğun deyildi. Ona görə də onun Osmanlı dövlətinin ərazilərini işğal etmək arzusu bu dövrdə baş tutmadı. Çar I Nikolayın təcavüzkar siyasəti Rusiyaya qarşı Avropa dövlətləri blokunun meydana gəlməsinə səbəb oldu. 1853-cü ildə başlayan Krım müharibəsində İngiltərə, Fransa və Sardiniya Osmanlı dövlətinin tərəfində iştirak etdi. 1856-cı ildə başa çatan bu müharibədə Rusiya məğlub oldu.

**ÇAR I NİKOLAY**
Çar I Nikolayın İngiltərənin Rusiyadakı səfiri ilə danışıqlarından

Osmanlı işləri çox qarışıqdır. Bu dövlət öz-özünə parçalanır. Süqutu çox böyük və fəlakətli olacaq. İngiltərə və Rusiya bu məsələdə razılaşmalıdır. ...Qollarımızın arasında çox ağır bir xəstə var. Onun yaşamasını hamımız istəyirik. ...Ancaq onun qəfildən qollarımızda ölməsi Avropa miqyasında müharibəyə səbəb ola bilər. Bu qarışıqlıqda İngiltərə İstanbulda möhkəmlənmək istəsə, buna göz yummayacağıq. Mən də İstanbulu işğal etmək istəyirəm.

Mənbə və mətndəki məlumatlar əsasında I Nikolayın təklifini İngiltərənin mənafeyi baxımından dəyərləndirin.

## BÖYÜK İSLAHATLAR DÖVRÜ

**II Aleksandr (1855–1881)** hakimiyyətə çətin daxili və xarici vəziyyət dövründə gəlmişdi. Krım müharibəsindəki məğlubiyyət I Nikolayın daxili və xarici siyasətinin uğursuzluğunu göstərdi. Rusiyanın Qərbi Avropa dövlətlərindən geri qaldığı aydın oldu. Ona görə də Çar II Aleksandr müxtəlif sahələrdə islahatların həyata keçirilməsi qərarına gəldi.

Sosial-iqtisadi inkişafın ləngiməsi, ilk növbədə, təhkimçiliyin ləğvini zəruri edirdi. Artmaqda olan kəndli üsyanları da buna təsir etdi. **1861-ci ildə** kəndlilərin təhkimli vəziyyətinin ləğv olunması haqqında fərman verildi. Kəndlilər hüquqi cəhətdən azad olsalar da, bu onların iqtisadi vəziyyətlərində əsaslı dəyişiklik yaratmadı. Çünki müəyyən ödənc müqabilində onlara ayrılan torpaq payı çox az idi. Həmçinin vergilərlə yanaşı, pay torpağı müqabilində verilən ödənclər kəndlilərin vəziyyətini ağırlaşdırırdı. Ona görə də kəndli məsələsi Rusiyanın əsas sosial problemlərindən biri olaraq qalmaqda davam etdi.

S XIX yüzilliyin ikinci yarısında təhkimçiliyin ləğv edilməsini hansı amillər zəruri edirdi?

**1864-cü ildə** aparılan məhkəmə islahatına görə məhkəmələr müstəqil olmalı idi. Bütün təbəqələr qanun qarşısında bərabər elan edildi. Məhkəmə iclasları açıq keçirilməli idi. **1874-cü ildə** keçirilən hərbi islahata görə ümumi hərbi mükəlləfiyyət tətbiq olundu. Hərbi xidmət müddəti azaldıldı.

XIX yüzilliyin ikinci yarısında iqtisadi və mədəni sahədə də dəyişikliklər edildi. Dövlətin gəlirlərini artırmaq üçün şəkər, duz və tütün satışı dövlətin inhisarına verildi. Dəmir yollarının tikintisinə və sənaye sahələrinə xarici kapital cəlb edildi. Mətbuat üzərində nəzarət, təhsil sahəsində silki və dini məhdudiyyətlər qismən ləğv edildi. Universitetlərə muxtariyyət verildi. Bütün bunlar Rusiyada ictimai fikrin və elmin inkişafına müsbət təsir etdi.

## ŞİMALİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYANIN İŞĞALI

Şimali Qafqazda Rusiya işğalına qarşı azadlıq mübarizəsi XIX yüzilliyin əvvəllərində gücləndi. 1859-cu ildə **Şeyx Şamilin** başçılıq etdiyi azadlıq hərəkatı çətinliklə yatırıldı. Lakin dağlı xalqların qəhrəman mübarizəsi davam etdi. Yalnız 1864-cü ildə bütün Qafqazın işğalı başa çatdırıldı. Rusiyanın yeritdiyi milli və dini zülm siyasəti nəticəsində Qafqazın müsəlman əhalisinin bir hissəsi Osmanlı dövlətinə köçməyə məcbur oldu. Bundan sonra bölgəyə rus kəndliləri və kazakların köçürülməsi başlandı.



"Şeyx Şamilin əsir alınması".
*Rəssam Aleksey Kivşenko*

XIX yüzilliyin ortalarında **Qazaxıstanın** işğalını başa çatdıran Rusiyanın növbəti hədəfi Mərkəzi Asiyanın qalan hissəsi – **Türküstan** oldu. Siyasi dağınıqlıq vəziyyətində olan böl-

**"BÖYÜK İSLAHATLAR"IN NƏTİCƏLƏRİ:**

- Kapitalizm inkişaf etdi.
- Zadəgan təbəqəsinin əhəmiyyəti azaldı.
- Orta təbəqənin təhsili artdı.
- Kəndlilərin azad olması ilə işçi qüvvəsi çoxaldı.

T II Aleksandrın hakimiyyəti dövründə həyata keçirilən islahatlara aid cədvəl tərtib edin.

| İSLAHAT KEÇİRİLƏN SAHƏLƏR | |
|---|---|
| KƏNDLİ | |
| MƏHKƏMƏ | |
| HƏRBİ | |
| İQTİSADİ | |

gədə **Kokand, Xivə xanlıqları** və **Buxara əmirliyi** öz aralarında mübarizə aparırdı. Bu feodal dövlətlərinin daxilində də tayfalararası ixtilaflar var idi. Bütün bu amillər Rusiyanın işğalını asanlaşdırdı. Lakin Rusiya bu bölgədə nüfuz uğrunda İngiltərə ilə mübarizə aparmalı oldu. 1864–1895-ci illər ərzində Rusiya bölgənin işğalını həyata keçirdi. Buxara əmirliyi və Xivə xanlığı Rusiyanın asılılığını qəbul etdi. Kokand xanlığı süqut etdi. Türküstanın zəbt edilməsini asanlaşdıran əsas səbəblər bölgədə vahid, güclü dövlətin olmaması və Rusiyanın hərbi-texniki üstünlüyü idi. İşğaldan sonra bölgəyə rus kəndlilərinin köçürülməsi həyata keçirildi.

İşğaldan sonra Azərbaycan, Şimali Qafqaz və Mərkəzi Asiyada çar Rusiyasının siyasətinin oxşar cəhəti nə idi?

## "XALQLAR HƏBSXANASI"

II Aleksandrdan sonra hakimiyyətə **III Aleksandr** (1881–1894) gəldi. Onun dövründə irticaçı siyasət gücləndirildi. Milli-dini zülm və ruslaşdırma siyasəti genişləndirildi. Qeyri-rus millətlərə qarşı təzyiq artırıldı. Volqaboyu türklərinin – Qazan tatarlarının, başqırdların və çuvaşların xristianlaşdırılması bu siyasətin tərkib hissəsi idi. Dinini və dilini dəyişmək istəməyənlərə qarşı iqtisadi və inzibati təzyiqlər edildi. Qafqazın, Türküstanın türk və digər müsəlman xalqlarının siyasi-iqtisadi və mədəni hüquqları məhdudlaşdırıldı.

Çar Rusiyasının Volqaboyu türklərinə və Azərbaycan xalqına qarşı həyata keçirdiyi müstəmləkəçi siyasəti müqayisə edin.

Təzyiqə ən çox məruz qalan xalqlardan biri də yəhudilər idi. Onlara qarşı da məqsədyönlü şəkildə qətl və qarətlər həyata keçirilir, siyasi və mədəni hüquqları məhdudlaşdırılırdı. Ümumiyyətlə, bütün qeyri-rus millətlərə qarşı yürüdülən mürtəce siyasətə görə Rusiya **"xalqlar həbsxanası"** adlandırılırdı.

**II Nikolayın hakimiyyəti dövrü (1894–1917)** Rusiyada mütləq monarxiyaya qarşı mübarizənin güclənməsi ilə səciyyəvidir. XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində Rusiya iqtisadiyyatı böhran keçirirdi. Bu həmin dövrdə baş verən Dünya iqtisadi böhranının nəticəsi idi. Belə ki Rusiya iqtisadiyyatına qoyulan xarici kapitalın azalması bir çox fabrik və zavodların fəaliyyətini dayandırmasına səbəb olmuşdu. İşsizliyin artması tətil və nümayişlərin baş verməsi ilə nəticələndi.



II Nikolay

Həmçinin Rusiya əhalisinin yarıdan çoxunu təşkil edən qeyri-rusların, xüsusən də türk-müsəlman xalqlarının siyasi, iqtisadi və mədəni hüquqlarının məhdudlaşdırılması siyasəti milli azadlıq hərəkatının yüksəlməsinə səbəb oldu. Yaponiyaya qarşı 1904–1905-ci il müharibəsində Rusiyanın məğlub olması ölkənin beynəlxalq nüfuzuna mənfi təsir göstərməklə yanaşı, daxili vəziyyəti daha da pisləşdirdi. Mövcud sosial-iqtisadi böhran dərinləşdi. Beləliklə, bu və digər səbəblər Rusiyada ilk inqilabın başlanmasına təkan verdi.

## 1905–1907-ci İLLƏR İNQİLABI

1905-ci ilin yanvarında Peterburqda nümayişçilərin gülləbaran edilməsi ilə başlanan inqilab bütün ölkəni bürüdü. Əhalinin bütün təbəqələri islahatlar keçirilməsini tələb edirdi. Eyni zamanda müstəmləkə xalqlarının da milli azadlıq hərəkatı genişləndi. Çar hakim dairələri inqilabın və azadlıq hərəkatının qarşısını almaq üçün milli və dini münaqişələr törədirdi.

Ölkəni bürüyən tətil hərəkatı hökuməti güzəştə getməyə məcbur etdi. Çar söz, mətbuat, təşkilat qurmaq, yığıncaq azadlığı və məhdud qanunverici səlahiyyətlərə malik Dövlət Dumasının çağırılması haqqında bəyannamə elan etdi.

1905–1907-ci illər inqilabının səbəblərini Rusiyanın mövcud siyasi və sosial-iqtisadi quruluşu ilə əlaqələndirin və təhlil edin.

Çar hakim dairələrinin milli və dini münaqişələr törətməsi siyasətini Azərbaycan tarixi ilə əlaqələndirərək dəyərləndirin.



“Peterburqda nümayişçilərin gülləbaran edilməsi”.
*Rəssam Vladimir Makovski*

1907-ci ildə inqilab məğlubiyyətlə başa çatsa da, qonşu ölkələrə də təsir göstərdi. Osmanlı və Qacarlar dövlətlərində, həmçinin Çində də bir-birinin ardınca inqilablar baş verdi.

## STOLİPİN İSLAHATLARI

1906-cı ildə çar tərəfindən Baş nazir təyin edilən **Pyotr Stolıpin** narazılıqların qarşısını almaq üçün siyasi və iqtisadi islahatlar keçirdi. Dövlət Dumasına seçkilərdə milli azlıqların, xüsusilə müsəlman xalqlarının hüquqlarını məhdudlaşdıran dəyişiklik edildi. Stolıpinin mühüm tədbirlərindən biri də **torpaq islahatının** keçirilməsi oldu. Bu islahat icma torpaqlarının kəndlilər arasında bölüşdürülməsini nəzərdə tuturdu. Torpaqsız kəndlilər Sibirə, Qafqaza, Mərkəzi Asiya və Uzaq Şərqə köçürüldü.

Cədvələ əsasən P.Stolıpinin islahatlarını müəyyən edin.

| PYOTR STOLİPİNİN İSLAHATLARI | |
|---|---|
| SİYASİ | |
| İQTİSADİ | |

Mövzu ilə bağlı zaman oxunda verilmiş tarixlərə aid mühüm hadisələri müəyyən edin.

| 1807 | 1812 | 1825 | 1853 | 1856 | 1861 | 1905 |
|---|---|---|---|---|---|---|
| ? | ? | ? | ? | ? | ? | ? |

# OSMANLI İMPERİYASI. QACARLAR DÖVLƏTİ

Tənzimat, xətti-şərif, “İttihad və tərəqqi”, “Gənc türklər”, “Yeni osmanlılar”, Qacarlar, babilər

## OSMANLI İMPERİYASININ İCTİMAİ VƏ SİYASİ VƏZİYYƏTİ

Afrika, Asiya və Avropa qitələrində böyük ərazilərə malik olan Osmanlı imperiyası XIX yüzilliyin əvvəllərində böhran keçirirdi. Əyalətlərdə hakimiyyət varlanmış yerli əyanların və canişinlərin əlində cəmləşmişdi. Afrikanın şimal vilayətlərində müstəqillik meyilləri artmışdı. Çoxsaylı müharibə xərcləri əsas vergi ödəyicisi olan kəndliləri müflisləşdirirdi. **Hərbi len sistemi*** olan timar və ziyamət böhran yaşayırdı. Bir çox timar sahibləri müflisləşir, torpaqlarını hissələrə bölərək satırdılar. Bu yolla da onlar vəzifə borclarını lazımi qaydada yerinə yetirə bilmir, orduya döyüşçü verməkdə çətinlik çəkirdilər. Ordunun zərbə qüvvəsini təşkil edən yeniçərilər döyüş qabiliyyətini və nizam-intizamı itirmişdilər.



Türk ordusu döyüşdə

* **Hərbi len sistemi**

*hərbi xidmət müqabilində verilən torpaqlara deyilirdi.*

Yeniçərilər haqqında referat hazırlayın.

İmperiyaya tabe edilmiş xalqların mübarizəsi get-gedə güclənirdi. Bu mübarizənin güclənməsində Osmanlı dövlətindən “pay” qopartmağa çalışan böyük dövlətlərin də rolu az deyildi. Rusiya slavyan xalqlarının mübarizəsinə dəstək verdiyi halda, ingilislər Misirdə, fransızlar Əlcəzairdə mövqelərini möhkəmləndirirdilər. XIX yüzilliyin ilk onillikləri Balkan xalqlarının azadlıq mübarizəsinin güclənməsi kimi yadda qaldı. Serblərin üsyanları, yunanların 1821–1829-cu illərdə apardıqları müstəqillik uğrunda mübarizə, 1828–1829-cu illəri əhatə edən yeni rus-türk müharibəsi Osmanlı dövlətinə növbəti zərbəni vurdu. Müharibənin yekunu olaraq Ədirnə sülhü imzalandı və bu sülhlə Yunanıstana müstəqillik, Serbiyaya isə muxtariyyət verildi.

XIX yüzilliyin I yarısında Osmanlı dövlətinin beynəlxalq münasibətlər sistemində mövqeyini necə qiymətləndirmək olar?



İstanbul, Qalata körpüsü



İstanbulda küçə. XIX yüzillik

## İSLAHATLAR

Bütün bunlar mərkəzi hakimiyyəti imperiyanı möhkəmləndirmək üçün yeni addımlar atmağa sövq edirdi. Bu istiqamətdə mühüm addımlar **Sultan II Mahmudun dövründə (1808–1839**) atıldı. 1826-cı ildə yeni piyada korpusunun yaradılması haqqında əmrin verilməsindən sonra yeniçərilərin qiyamı baş verdi. Bu qiyamı yatıran hökumət tezliklə yeniçəri dəstələrini ləğv etdi. 1830-cu illərdə ümumi əsgər yığımı qaydasında yeni ordu yaradılmağa başlandı. Hərbi len sisteminin ləğvi haqqında əmr verildi. Timar torpaqları dövlətin mülkiyyətinə keçdi, onların sahibləri təqaüd qismində konpensasiya aldılar. Mərkəzi idarəetmə orqanlarında Avropa nümunəsində nazirliklər yaradıldı.

1839-cu ildə **"Gülxanə xətti-şərif"**-i verildi. Bu "xətti-şərif" gələcək dəyişiklikləri özündə əks etdirirdi. Sənəddə ədalətli vergi yığımından, qayda-qanundan, ordu quruculuğundan və s. danışılırdı. Bundan başqa, dini mənsubiyyətindən asılı olmayaraq, bütün təbəələrin qanun qarşısında bərabərliyi elan edildi, xüsusi hərbi-tədris ocaqları, ilk universitetlər açıldı.



Osmanlı topçuları

Fərz edin ki, siz "Gülxanə xətti-şərif"-dən yararlanmış təbəələrdən birisiniz (*Özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin*). Öz personajınızın islahatlara münasibətini şərh edin.

## "YENİ OSMANLILAR"

XIX yüzilliyin ikinci yarısında ölkədə konstitusiya və seçkili orqanların – parlamentin yaradılması uğrunda hərəkat başladı. 1865-ci ildə gizli şəkildə yaradılan **"Yeni osmanlılar"** cəmiyyətinin məqsədi parlament yaratmaq və konstitusiya qəbul etmək idi. Sultan hakimiyyətinə, imperiyanın qorunub saxlanmasına loyal yanaşan "Yeni osmanlılar" cəmiyyətdə dəyişiklik və ədalətli idarəetmə tərəfdarı idilər.




1876-cı ildə konstitusiya tərəfdarları fəallaşdılar. Mürəkkəb iqtisadi və siyasi şəraitdə mədrəsə tələbələri İstanbulda baş vəzirin və şeyxülislamın istefası tələbi ilə çoxminli mitinqlər təşkil etdilər. Yeni Osmanlı tərəfdarları sultanı devirdilər. Tanınmış ictimai xadim Əhməd Midhəd paşanın rəhbərliyi ilə dövlət şurası konstitusiya hazırladı. 1876-cı ilin dekabrında yeni Sultan II Əbdülhəmid konstitusiyanı qəbul etdi. Sultan heç də konstitusiya əsaslı dəyişiklikləri həyata keçirmək istəmirdi. 1877–1878-ci illərdə deputatların öz iclaslarında hökuməti tənqid etməsi, rus-türk müharibəsində məğlubiyyətin səbəblərinə dair hesabatlar tələb etməsi sultanın parlamenti qeyri-müəyyən müddətə buraxmasına gətirib çıxartdı. Bunun ardınca ölkədə sərt diktatura rejimi quruldu.

**S** Osmançılıq ideyasının həyata keçirilməsi mümkün olsa idi, nə baş verərdi?

## “GƏNC TÜRKLƏR”

Sultan mütləqiyyətinə qarşı mübarizə aparmaq məqsədilə 1889-cu ildə İstanbulda “İttihad və Tərəqqi” adlı gizli cəmiyyət yaradıldı. Bu cəmiyyətin üzvləri və onun tərəfdarları özlərini “Gənc türklər” adlandırırdılar. XX yüzilliyin əvvəllərində ölkədə inqilabi şəraitin yetişdiyi bir vaxtda fəallığı gücləndirən “Gənc türklər” üsyana başlamaq qərarına gəldi. Üsyan 1908-ci ildə Makedoniyada başladı. Tezliklə bir çox Balkan şəhərlərinin qarnizonları, yerli partizan dəstələri onlara qoşuldu. Üsyançılar sultandan 1876-cı il konstitusiyasının bərpasını qəti şəkildə tələb edirdilər. Hər yerdə üsyançıların dəstəkləndiyini görən Sultan II Əbdülhəmid konstitusiyanın bərpa olunmasına və parlamentin çağırılmasına razı oldu. Parlamentdə çoxluq əldə edən “Gənc türklər” ordu üzərində də nəzarəti ələ keçirdilər. 1909-cu ildə özünə sadiq hərbi hissələrə arxalanan “Gənc türklər”




Fransız jurnalında “Gənc türklər”in 1913-cü il dövlət çevrilişinin təsviri

II Əbdülhəmidi taxtdan salmağı və V Mehmet Rəşadı taxta çıxarmağı bacardılar.

“Gənc türklər”in yeritdiyi xarici siyasət imperiyanın süqutunu sürətləndirirdi. 1911–1912-ci illəri əhatə edən İtaliya-Osmanlı (*Trablis*) müharibəsi nəticəsində İstanbul özünün Afrikadakı sonuncu mülklərini (*indiki Liviya ərazisini*) itirdi.

I Balkan müharibəsi (1912–1913) Osmanlı imperiyasına daha ağır zərbə vurdu. Bu müharibə nəticəsində türklərin Avropadakı ərazisi Şərqi Frakiya ilə məhdudlaşdı. Dövlətin dağılmasının qarşısını almağı və Avropa dövlətlərinin asılılığından tam azad olmağı düşünən “Gənc türklər” I Dünya müharibəsi zamanı Almaniyanın tərəfini saxladılar. Bu isə Osmanlı imperiyasının dağılmasına səbəb oldu.



“Gənc türklər” inqilabına aid şəkil

S “Gənc türklər” üsyanı Osmanlı dövlətinə nə verdi?

T XX yüzilliyin əvvəllərində Osmanlı imperiyasında baş verən geosiyasi dəyişiklikləri sxem formasında təqdim edin.

**TARIK ZƏFƏR TUNAYA**
“Türkiyədə siyasi partiyalar”

**“Gənc türk”lərin partiyanın 1913-cü il konfransında qəbul etdiyi proqram.
İqtisadi bölmədən çıxarış.**

Maddə 18. Kənd təsərrüfatının inkişafı üçün torpaq sahiblərinə aşağı faizli, uzunmüddətli kredit vermək. Bunun üçün də ölkədə ipoteka bankının açılmasına çalışmaq.
Maddə 19. Mövcud sivilizasiya tələblərini yerinə yetirməyə mane olan, ticari əməliyyatları gecikdirən və məhdudlaşdıran hazırkı qanunvericiliyin yumşaldılmasına çalışmaq.
<...>
Maddə 22. Sex birliklərini müstəqil ixtisas birlikləri qismində tanımaq və öz daxili məsələlərinin həllində onlara tam səlahiyyətlərin verilməsinə çalışmaq.
Maddə 23. Dövlətin iqtisadi vəziyyəti imkan verən kimi aşarın 10% azaldılmasına çalışmaq.
<...>
Maddə 25. İndiki çox ədalətsiz və qeyri-proporsional gəlir vergisini nəyin bahasına olursa-olsun, bu qanunun xaricilərə şamil edilməsi ilə ədalətli və proporsional olmasına çalışmaq üçün xüsusi qanun hazırlamaq. <...>
Maddə 28. Torpaq mülkiyyətçiləri, icarədarlar, mövsümi işçilər və yardarlar arasında münasibətləri qaydaya sala biləcək qanunun qəbul olunmasına çalışmaq. <...>
Maddə 30. Sənayenin genişləndirilməsi haqqında qanunun verilməsi və qüvvəyə minməsini tezləşdirmək. <...>



Tehran. 1895-ci il

## QACARLAR DÖVLƏTİNİN İCTİMAİ VƏ SİYASİ VƏZİYYƏTİ

XIX yüzilliyin əvvəllərində İranda türksoylu Qacarlar sülaləsi hakimiyyətdə idi. Ölkədə feodal-aqrar münasibətləri hakim idi. Dövləti qeyri-məhdud hakimiyyətə malik şah idarə edirdi. Ölkə İngiltərə ilə Fransanın iqtisadi və siyasi maraq obyektinə çevrilmişdi. Rusiyanın Cənubi Qafqazda möhkəmlənmək istəyi Qacarların gah İngiltərəyə, gah da Fransaya meyil etməsinə səbəb olurdu. Çünki I Napoleonun Avropada apardığı müharibə Rusiyanı İngiltərə ilə yaxınlaşdırmış, Napoleonu isə ingilis Hindistanını ələ keçirmək həvəsinə salmışdı. Son nəticədə İngiltərə və Fransadan elə bir ciddi kömək ala bilməyən Qacarlar Cənubi Qafqaz uğrunda mübarizəyə başlayan Rusiyaya müharibə elan etdi.

1804–1813-cü və 1826–1828-ci illəri əhatə edən rus-Qacarlar müharibələrində Qacarlar məğlub oldu. Gürcüstan, Arazdan şimaldakı Azərbaycan torpaqları Rusiyaya keçdi. Qacarlar Rusiyaya böyük məbləğdə təzminat ödəməli oldu. 1828-ci ilin fevralında Rusiya ilə Qacarlar arasında xüsusi ticarət traktatı imzalandı. Traktata görə rus təbəələri İranda eksterritoriallıq* və digər iqtisadi və siyasi güzəştlər əldə etdilər.

*** Eksterritoriallıq hüququ**

*toxunulmazlıq hüququdur. Xarici təbəələrin işinə yerli məhkəmə baxa bilməzdi.*

Rusiya-Qacar müharibələrinin Azərbaycanla bağlı əlaqələrini tarixi zaman baxımından necə qiymətləndirmək olar?



Ənzəli limanı. 1895-ci il



Təbrizdə qala qapıları

## İQTİSADİ VƏZİYYƏT

Tezliklə İngiltərə və Qacarlar arasında ingilis təbəələrinin eksterritoriallıq hüququ haqqında müqavilə imzalandı. XIX yüzilliyin 60-cı illərinin ortalarında Fransa başda olmaqla bir sıra Avropa ölkələri, eləcə də ABŞ Qacarlarla qeyri-bərabər hüquqlu müqavilələr imzaladı.

Qacarlara xammal mənbəyi və satış bazarı kimi baxan xarici ölkələr (*xüsusən də İngiltərə və Rusiya*) əldə etdikləri güzəştlər sayəsində yerli tacirləri daxili və xarici bazarlardan sıxışdırdı. Daha ucuz başa gələn fabrik malları yerli sənətkarlığa və ev sənayesinə zərbə vurdu. Əmtəə-pul münasibətlərinin sürətlənməsi feodal-len sisteminin böhranını gücləndirir və fərdi mülkiyyətçi torpaq fondunun artmasına gətirib çıxarırdı. Torpaqsızlaşan kəndlilər şəhərlərə axışır, işsizlər ordusunu artırırdı. Kəndlilər, tacirlər və sənətkarlarla yanaşı, din xadimləri də ölkədəki ictimai-siyasi və iqtisadi vəziyyətdən narazı idilər. 1840-cı illərin sonlarında Qacarlarda babi təriqətinin təsiri ilə xalq hərəkatı baş verdi. Lakin üsyan amansızlıqla yatırıldı.

S Sizcə, xarici ölkələr eksterritoriallıq hüququnu hansı yollarla alırdı?

T Qacarların sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafı ilə əlaqədə dəyərləndirin.

## QACARLAR DÖVLƏTİ XIX YÜZİLLİYİN SONU XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

XIX yüzilliyin II yarısında Qacarlara xarici ekspansiya daha da artdı. Şah hökumətindən müxtəlif güzəştlər qoparan ingilislər ölkənin cənubunda, ruslar isə Tehran da daxil olmaqla şimal vilayətlərində ağalıq edirdilər. İş o yerə çatmışdı ki, dövlət əhəmiyyətli vəzifələrə çoxlu xaricilər təyin edilirdi. 1879-cu ildə rus zabitlərin rəhbərliyi ilə yaradılan kazak dəstələri sonradan Qacarlar ordusunda yeganə hərbi qabiliyyətə malik bir hissəyə çevrildi. Bu da şah rejiminin Rusiyadan asılılığını gücləndirdi.

XX yüzilliyin əvvəllərində Qacarların asılı vəziyyətə düşməsi, ölkədə xarici kapitalın güclənməsi geniş xalq kütləsinin vəziyyətinin pisləşməsinə səbəb olmuşdu. Ehtiyac içində boğulan əhali şah rejiminə qarşı ayağa qalxdı. 1905-ci ilin axırlarında Tehranda və başqa şəhərlərdə keçən nümayişlər inqilabın başlanğıcını qoydu. Nümayişçilərin əsas tələbi konstitusiya, şah hakimiyyətinin və xaricilərin imtiyazlarının məhdudlaşdırılması, islahatların keçirilməsi idi. 1905–1911-ci illəri əhatə edən bu inqilabın əsas nəticəsi Qacarlar dövlətində konstitusiyanın qəbulu oldu.

S Konstitusiyanın qəbul olunması ilə şah hakimiyyətinin məhdudlaşdırılması arasında hansı əlaqə var?

# HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

Sipahilər üsyanı, Hindistan Milli Konqresi, Tiryək müharibələri, Taypinlər hərəkatı, Sun Yatsen, Syoqun

## HİNDİSTAN

XVIII yüzillikdən etibarən Hindistanın işğalına başlayan Böyük Britaniya bu siyasəti davam etdirirdi. XIX yüzilliyin I yarısında Maratx konfederasiyasının əraziləri və Pəncab ələ keçirildi. **1856-cı ildə** ingilislər asılı olan **Aud knyazlığını** özlərinə tabe etdilər. Beləliklə, Hindistanın işğalı tamamilə başa çatdırıldı.

Ali hakimiyyəti və vergi yığımını öz əlinə alan ingilislər Hindistanda bəzi ənənəvi qaydaları saxladılar. Keçmiş hakimlər təqaüd formasında ömürlük məvacib almağa başladılar. Ost-Hind şirkətinin yeni mülklər ələ keçirməsi ingilis hökumətinin bu şirkətə marağını artırırdı. Hökumətin 1813–1833-cü illərdə qəbul olunmuş yeni xartiyalarında artıq kompaniyanın Çin və Hindistanda ticarətdə inhisarçılıq hüquqları yox idi. Bütün ingilis sahibkarları üçün Hindistana yol açılmışdı.

**1857-ci ilin** yazında Hindistanda ingilis müstəmləkəçiliyi əleyhinə Sipahilər üsyanı başladı. Sıravi əsgərlərin yeni patronların istifadəsindən imtina etməsi üsyana bəhanə oldu. Döyüş zamanı əsgərlər inək və donuz piyi ilə yağlanmış bağlamanı dişləri ilə cırmalı idilər. Bu, hind və İslam qaydalarına zidd olduğundan əsgərlər üsyan qaldırıb moğolların sonuncu nümayəndəsi olan II Bahadır şahı özlərinə rəhbər seçdilər. Qısa müddət ərzində üsyan dalğası Qanq vadisinin bir neçə vilayətinə yayıldı.



Sipahilər üsyanı

Çox gərgin davam edən bu üsyan **1859-cu ildə** yatırıldı. Vahid rəhbərliyin və komandanlığın olmaması, üsyançıların maraq müxtəlifliyi və nizamsızlığı üsyanın məğlubiyyətinə səbəb oldu. Üsyanın gedişində Böyük Moğol dövlətinə rəsmən son qoyuldu.

Yeni patronlardan istifadənin hind və islam qaydaları ilə nə kimi uyğunsuzluğu var idi?

Sipahilər üsyanı metropoliya* hökumətini əməli addımlar atmağa sövq etdi.

*** Metropoliya**

*öz müstəmləkələrini, iqtisadi cəhətdən ondan asılı olan əraziləri istismar edən dövlətdir.*

Hindistanın idarəçiliyinin yaxşılaşdırılması haqqında qəbul olunmuş akta görə Ost-Hind şirkətinin siyasi hüquqları ləğv edildi. İdarəçilik ingilis taxtına keçdi. Hökumətdə Hindistan işləri ilə əlaqədar nazir vəzifəsi təsis olundu. Hindistanda ali hakimiyyət general-qubernatordan vitse-krala keçdi. **1876-cı ildə** kraliça Viktoriya Hindistan imperatriçası titulunu da qəbul etdi.

XIX yüzilliyin II yarısında Hindistanda kapitalist münasibətləri yaranmağa başladı. İngilis sahibkarları, əsasən, dəmir yolunun tikintisinə, suvarma sisteminin, plantasiya təsərrüfatının yaradılmasına kapital qoyurdular. Kənd təsərrüfatında ixrac üçün pambıq, buğda, çay, qəhvə, kauçuk becərilirdi. Sənayedə, hər şeydən əvvəl, toxuculuq və emaledici müəssisələr yaradılırdı. Bunlarla yanaşı, ölkədə ilk metallurgiya zavodu işə düşdü, sənayedə milli kapitala məxsus ilk müəssisələr yaradıldı.

**1884-cü ildə** Bombeydə milli kapitala məxsus ilk toxuculuq fabriki işə düşdü. Metropoliyadan fərqli olaraq, Hindistanda fəhlələrin vəziyyəti çox ağır idi. Fəhlələrin iş saatı 16 saata çatırdı. Yalnız 1890-cı illərdə uşaq və yeniyetmələrin əməyindən istifadəni məhdudlaşdıran ilk fəhlə qanunları verildi.

Sipahilər üsyanından sonra ingilis hökumətinin Hindistanda etdiyi dəyişiklikləri necə dəyərləndirmək olar?

Hind fəhlələrinin vəziyyətini İngiltərə fəhlələrinin vəziyyəti ilə müqayisə edin. Bu dövrdə Şimali Azərbaycanla Hindistandakı vəziyyətin oxşar və fərqli xüsusiyyətlərini müəyyən edin.

**EMMA VİQODSKAYA**
"Qəzəbin şöləsi"



Sipahilər ayrı-ayrı dəstələrə bölünməklə hərəsi öz ərazisində vuruşur, hər bir evi, hər bir küçəni inadla müdafiə edirdi. Britaniyalılar həmişə bir-biri ilə əlaqə saxlamaqla kolonlarla irəliləyirdilər... Üsyançılar zabit idarəçiliyi elmini ingilis komandanlığından öyrənmişdilər. Onlar döyüş zamanı düşmənlə süvari və piyada şəklində üz-üzə gələndə daha yaxşı döyüşürdülər. Ancaq üsyançılar britaniyalıların vahid hücum planına qarşı vahid müqavimət planı qoya bilmədilər. Ayrı-ayrı hissələr arasında əlaqə yaratmağı bacarmayan, vahid rəhbərliyi olmayan Dehlinin qəhrəman müdafiəçiləri şəhərin ayrı-ayrı tərəflərində vuruşur və ciddi müqavimət göstərməklə tədricən Şərq məhəllələrinə tərəf çəkilirdilər.

Üsyançıların zəif cəhətlərini müəyyən edin.

XIX yüzilliyin sonlarında Hindistanda ictimai həyat aktivləşdi. Avropa təhsili almış, eləcə də milli dəyərlərə və ənənələrə dərin hörmət edən ziyalıların burada böyük rolu var idi. **1885-ci ildə** onlar ingilis hökumətinin razılığı ilə **Hindistan Milli Konqresi** (HMK) adlı yeni ictimai cəmiyyət yaratdılar. Konqresin təsisçiləri hind xalqının hüquqlarının artırılmasına, maraqlarının ingilis parlamentində təmsil edilməsinə çalışırdılar.

XX yüzilliyin ilk illərində kütləvi hərəkatlara qarşı sərt cəza tədbirləri tətbiq edildi.

Müstəmləkə zülmünün getdikcə artması, ingilis məmurlarının özbaşınalığı ümumxalq narazılığına səbəb olurdu. Müstəmləkəçilərin özbaşınalıqlarına qarşı etiraz əlaməti olaraq ingilis mallarının boykot edilməsinə başlanıldı. Passivliyinə baxmayaraq, boykot ən kütləvi mübarizə forması idi. Bu, Hindistan tarixində birinci ümumxalq hərəkatı hesab edilə bilər.

## ÇİN

XVIII yüzillikdən etibarən Çin imperatorlarının ölkəni ətraf aləmdən tədric etmək siyasəti təcavüzkar siyasət yürüdən Avropa ticarət şirkətlərinin planlarına zidd idi. Vəziyyəti dəyişmək haqqında düşünən ingilislər hind vilayətlərində becərdikləri tiryəkin Çinə ixracını artırdılar.

Bununla onlar böyük gəlir əldə etməklə yanaşı, Çin bazarında ticari əlaqələr qurmaq imkanı da əldə etdilər. 1800-cü ildə tiryəklə ticarət qadağan olunduğundan qaçaqmalçı yollarından istifadəyə başlanıldı. Bu hal ziddiyyətin yaranmasına səbəb oldu. Cənub əyalətlərinin hakimi bu yolda əməli addımlar atmaqla *(ingilis faktoriyalarında qaçaqmalların müsadirə edilməsi)* ingilislərlə toqquşmalara gətirib çıxardı. Son nəticədə ingilis hərbi eskadrasının Çin sahillərinə yaxınlaşması ilə 1840–1842-ci illəri əhatə edən və tarixdə **Birinci "Tiryək" müharibəsi** adlanan müharibə başladı. Çinin məğlubiyyəti **Nankin sülh müqaviləsi** ilə bitdi. Müqaviləyə görə, Çin İngiltərəyə böyük məbləğdə təzminat ödədi, 5 limanını ticarət üçün açdı, ingilislərə ticari güzəştlər, eləcə də faktoriyalarda xarici missiya üçün eksterritoriallıq hüququ verdi.

Syanqan (Honkonq) İngiltərənin mülkiyyətinə keçdi. **1844-cü ildə** ABŞ və Fransa da Mancur hökumətini qeyri-bərabər müqavilə imzalamağa məcbur etdi.

Sizcə, eksterritoriallıq hüququnun xaricilərə nə dərəcədə faydası dəyə bilərdi?

Növbəti on ildə xarici siyasi problemlər daxili problemlərlə qaynayıb-qarışdı. 1850-ci ildə ölkənin cənub-şərq əyalətlərində Taypinlər üsyanı başlandı. Tezliklə üsyançılar Nankini tutub öz dövlətlərini yaratdılar.

Krım müharibəsi bitdikdən sonra ingilislər və fransızlar Çində öz fəaliyyətlərini aktivləşdirdilər. Onlar yeni güzəşt və hüquqlar tələb edirdilər.

**1856-cı ildə** Çinə qarşı Böyük Britaniya və Fransanın **İkinci "Tiryək" müharibəsi** (1856–1860) başladı. Müharibənin yekunu olaraq ingilis və



Nankin müqaviləsinin imzalanması




Çinin bölüşdürülməsinə aid karikatur

fransız təbəələri imperiya ərazisində sərbəst hərəkət və Yantszı çayı vasitəsilə ticarət etmək hüququ qazandılar. Bu müqavilə ilə nəzərdə tutulanları reallaşdırmaq çətinləşirdi. Çünki Yantszının bir hissəsi taypinlərin hakimiyyəti altında idi. Belə şəraitdə Böyük Britaniya, Fransa və ABŞ hərbi dəstələri quruda və dənizdə Mancur ordusu ilə birlikdə taypinlərə qarşı mübarizəyə başladı. Gərgin mübarizə nəticəsində taypinlər məğlub oldular. 1864-cü ildə üsyançıların paytaxtı süqut etdi.

Krım müharibəsi bitdikdən sonra ingilis və fransızların Çində öz fəaliyyətlərini aktivləşdirmələrinin səbəbi nə ola bilərdi?

1858-ci ildə Rusiya ilə Çin arasında imzalanmış **Ayqun müqaviləsinə** görə Amurun sol sahili Rusiyaya keçdi.

XIX yüzilliyin II yarısında Çinin beynəlxalq mövqeyi Fransa (1884–1885) və Yaponiya (1894–1895) ilə aparılan müharibələr sayəsində bir qədər də zəiflədi. Məğlubiyyətlər nəticəsində imperiya Vyetnam, Koreya və Tayvan üzərində nəzarəti itirdi.

Hərbi məğlubiyyətlər və imperiyanın zəifləməsi hakim dairələri narahat edirdi. Onlar ordunun və donanmanın yenidən silahlanmasını, dövlət sənayesinin inkişaf etdirilməsini vacib sayırdılar. Tezliklə ölkədə həm yerli, həm də xaricilərə məxsus şəxsi müəssisələr yaradılmağa başlandı. Gənclər üçün ənənəvi təhsillə yanaşı, həm də Avropa proqramlı məktəblər açıldı.

1905-ci ildə bir neçə inqilabçı qrupun birləşməsi nəticəsində Sun Yatsenin rəhbərliyi ilə **"Birləşmiş ittifaq"** təşkilatı yaradıldı. Millətçiliyin, demokratizmin, xalq rifahının əsas məqsəd olduğunu bəyan edən Sun Yatsen Mancur sülaləsini bu yolda əsas maneə hesab edirdi.



Sun Yatsen

1911–1913-cü illəri əhatə edən inqilab nəticəsində Çində müvəqqəti konstitusiya qəbul olundu, Mancur sülaləsi devrildi və respublika elan olundu. Prezident idarə üsulu yaradıldı.

Çinin Avropa dövlətləri ilə müharibədə məğlubiyyəti nə ilə bağlı ola bilərdi?

Sübut edin ki, XX yüzilliyin əvvəllərinə yaxın Çin yarımmüstəmləkəyə çevrilmişdi.

## YAPONİYA

XIX yüzilliyin əvvəllərində Yaponiyada ali hakimiyyət imperatora məxsus olsa da, real hakimiyyət Tokuqava sülaləsindən olan syoqunların əlində idi. Syoqunların mərkəzi hakimiyyəti möhkəmləndirməyə yönəlmiş təcrid siyasəti ölkəni zəiflədirdi. İqtisadiyyat inkişafdan qalmış, kəndlilərdən tutmuş samuray və knyazlaradək əksər təbəqələrin vəziyyəti pisləşmişdi.

Syoqun rejimi XIX yüzilliyin əvvəlində ağır daxili vəziyyətlə yanaşı, Yaponiyanın təcrid siyasətini dağıtmağa çalışan Avropa ölkələrinin təzyiqi ilə də üzləşdi. ABŞ bu yöndə aktiv siyasət yürüdürdü. **1854-cü ildə** ABŞ və Yaponiya arasında sülh və əməkdaşlıq haqqında müqavilə imzalandı. Şərtə görə Amerika gəmiləri Simoda və Hakodate limanlarına girmək hüququ əldə etdi. Simodada ABŞ konsulluğu yaradıldı. Bir neçə ildən sonra imzalanmış yeni müqaviləyə əsasən amerikalılara ticarət güzəştləri, eksterritoriallıq hüququ verildi.

Tezliklə Rusiya da daxil olmaqla, bir sıra Avropa ölkələri ilə də belə müqavilələr imzalandı, Yaponiyanın özünütəcrid siyasəti ləğv edildi.

Bu hadisələr ölkədə birmənalı qəbul olunmadı. Bir çox samuray və knyazlar ölkənin müstəqilliyi üçün təhlükə yarandığını düşünürdülər. Syoqunların siyasətini tənqid edən milli ruhlu dövlət xadimləri “Səmavi hakim”ə (*imperatora*) müraciət etdilər.

Sizcə, samuray və knyazlar nəyə görə xarici ölkələrlə müqavilələrin imzalanmasını ölkənin müstəqilliyi üçün təhlükə hesab edirdilər?



İmperator Mutsuxito

Daxili və xarici ziddiyyətlərin olduğu bir dövrdə 15 yaşlı İmperator Mutsuxito (1867–1912) 1868-ci ildə Syoqunun səlahiyyətlərini ləğv edib, imperator hakimiyyətini bərpa etdi.

Növbəti on ildə Yaponiyanın ənənəvi iqtisadi və sosial münasibətlərini kökündən dəyişən yenidənqurma tədbirləri görüldü. Bu tədbirlər müşavirlər tərəfindən hazırlanır və imperator adından həyata keçirilirdi. Müşavirlər, əsasən, Avropada təhsil almış gənc, enerjili dövlət xadimləri olub, ölkənin gücünü və mədəniyyətini çiçəkləndirməklə yanaşı, Yaponiyanın dünyanın ən güclü sivilizasiyaları cərgəsinə qoşulmasına çalışırdılar.

İlk növbədə, yarımfeodal knyaz mülkləri ləğv edildi və ölkə ərazisi prefekturalara* bölündü.

*** Prefektura**

*Yaponiyada inzibati ərazi bölgüsüdür.*

Knyazlar isə qubernator statusu əldə etdilər. Mülklərini itirən knyaz və samuraylar xəzinədən təqaüd almağa başladılar. Samuray dəstələrinin yerinə ümumi mükəlləfiyyət əsasında müasir ordu quruldu. Avropa nümunəsində ilk nazirliklər yaradıldı.

Dövlət xəzinəyə məxsus sənaye müəssisələrini maliyyələşdirməkdən imtina etdi və onları şəxsi şirkətlərə satdı. Sonradan iri şirkətlərə çevrilən **“Mitsui”, “Mitsubişi”** və s. elə o dövrdə meydana çıxdı. Bütün bunlar sahibkarlığın və bazar iqtisadiyyatının inkişafına şərait yaratdı.



Rus-yapon müharibəsi. Port-Arturun müdafiəsi




Rus-yapon müharibəsinə aid karikatur

Xəzinəyə məxsus sənaye müəssisələrinin şəxsi şirkətlərə satılmasının inkişaf üçün nə xeyri ola bilərdi?

İmperatorun həyata keçirdiyi hansı tədbiri daha önəmli sayırsınız?

İslahatlar zamanı təhsilin inkişafına xüsusi diqqət yetirildi. Uşaqların 6 yaşından etibarən 4 illik məcburi təhsili həyata keçirildi, Avropa proqramlarından istifadə olunan orta və ali təhsil ocaqları yaradıldı. İlk qadın pedaqoji məktəbi açıldı. Vahid pul sistemi müəyyən edildi.

1889-cu ildə Yaponiyada Konstitusiya qəbul edildi. Konstitusiyaya görə qanunverici və icraedici hakimiyyətə malik olan imperator statusu müqəddəs və toxunulmaz idi.



Ölkə vətəndaşları mülkiyyət, vicdan, söz, mətbuat və toplaşmaq azadlığı aldılar. Ölkədə aparılan islahatlar tezliklə öz bəhrəsini verdi. İqtisadi cəhətdən qüvvətlənən Yaponiya müstəmləkə işğallarına başladı. İlk hədəf Rükü adaları, sonra isə Tayvan oldu. Az sonra isə Yaponiya Koreyanı hədəfə aldı. Koreya uğrunda mübarizədə Çini məğlub edən Yaponiya ondan böyük məbləğdə təzminat və ərazisində sənaye müəssisələri tikmək hüququ əldə etdi.

Rusiyanın Uzaq Şərqdə möhkəmlənmək istəyi Yaponiyanın maraqları ilə üst-üstə düşmürdü. 1904–1905-ci illər Rus-yapon müharibəsində qalib gələn Yaponiya Cənubi Saxalini ələ keçirdi. Beləliklə, Cənubi Mancuriya və Koreyada onun şəriksiz ağalığı təmin olundu.

Qərb dövlətlərinin Yaponiyanı Rusiya ilə müharibəyə təhrik etməsinin səbəbləri nə ola bilərdi?

Yaponiyada Mutsuxito dövrünü müasirlər və tarixçilər həm islahat, həm də inqilab dövrü adlandırırlar. Faktlardan istifadə edərək bu və ya digər deyimi əsaslandırın.

Fərz edin ki, 1870-ci ildir. Siz Hindistan və ya Çində yaşayırsınız (*Özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin*). Xaricilərlə münasibətinizi şərh edin.

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

Vyana konqresi, güc tarazlığı, Krım müharibəsi, Fransa-Prussiya müharibəsi, Üçlər ittifaqı, Antanta, Balkan müharibələri




**Avropa XIX yüzilliyin əvvəllərində**

Xəritə əsasında XIX yüzilliyin əvvəllərində Avropadakı siyasi vəziyyəti təhlil edin.

## I NAPOLEON MÜHARİBƏLƏRİ

1804-cü ildə imperator titulunu qəbul edən **I Napoleon** bütün Avropanı özünə tabe etmək istəyirdi. Buna cavab olaraq Böyük Britaniya, Avstriya, İsveç və Rusiya ona qarşı növbəti koalisiya (ittifaq) qurdu. I Napoleon 1805-ci ildə Avstriya və Rusiyanı **Austerlits** döyüşündə məğlub etdi. 1806-cı ildə **Müqəddəs Roma imperiyasına** rəsmən son qoyuldu. Sonra Prussiya məğlub edildi. I Napoleon dövlətlərarası münasibətlərdə Vestfaliya sülhündən sonra yaranmış **status-kvoya** (mövcud vəziyyətə) son qoydu.

Vestfaliya sülhü hansı xüsusiyyətlərə malik idi?

Dünyanın ən güclü dəniz donanmasına malik olan İngiltərəni məğlub edə bilməyəcəyini anlayan Napoleon ona qarşı **kontinental (qitə) blokada** tətbiq etdi. Fransadan asılı və müttəfiq dövlətlərə Böyük Britaniya ilə ticarət əlaqələri saxlamaq qadağan olundu. I Napoleonun hərbi strategiyası sürətli hərəkətə və qələbə üçün qüvvələri bir cəbhədə cəm-

ləşdirməyə əsaslanırdı. 1807-ci ildə Rusiyanı məğlub edərək **Tilzit sülhü** bağlayan I Napoleon onu da İngiltərəyə qarşı blokadaya qoşulmağa məcbur etdi.

Lakin "Qitə (kontinental) blokada" iqtisadi cəhətdən güclü olan Böyük Britaniyadan çox, Fransa və ondan asılı olan dövlətlərə mənfi təsir göstərdi. **1812-ci ildə** I Napoleon Rusiyaya yürüş etdi. Lakin bu yürüş uğursuzluqla nəticələndi və I Napoleona qarşı yeni koalisiya yarandı. 1814-cü ildə müttəfiqlər Parisə daxil olub I Napoleonu hakimiyyətdən kənarlaşdırdılar.



Vyana konqresi

## VYANA KONQRESİ

1814-cü ildə Osmanlı imperiyasından başqa, bütün Avropa dövlətləri **Vyana konqresində** toplandı. Konqresin məqsədi I Napoleon müharibələrindən sonrakı dövlətlərarası münasibətlərin yeni qaydalarını müəyyən etmək idi. Konqresdə aparıcı rolu **İngiltərə, Rusiya, Avstriya** və **Prussiya** oynayırdı. Konqresin qərarına görə I Napoleondan geri alınan ərazilərdə etnik prinsip əsasında dövlətlərin yaradılması deyil, həmin ərazilərin monarxiyalar arasında bölüşdürülməsi qaydası tətbiq olundu.

Vyana konqresindən sonra Avropada münasibətlər müntəzəm olaraq çağırılan konqreslərlə tənzimlənməyə başlandı. Hər hansı bir dövlətin digərlərinə təhlükə yaratmaması üçün **güc tarazlığına** (*qitədə heç bir dövlətin təkbaşına hakim olmaması*) və monarxiyaların hakimiyyətini qoruyan **legitimliyə** (*qanuniliyə*) əsaslanan dünya düzəni quruldu.

XIX yüzilliyin birinci yarısında Avropada dövlətlərarası münasibətlər monarxiya sülalələrinin legitimliyi prinsipinə əsaslanırdı. Yəni hər bir dövlət hakim sülalənin hökmdarına məxsus hesab edilirdi.

Vyana konqresinin hansı nəticələri oldu?

VYANA KONQRESİNİN QƏRARLARI



Böyük Britaniya Malta, Seylon və Afrikanın cənubuna sahib oldu.



Rusiya Polşanın bir hissəsini ilhaq etdi.



Fransa inqilabdan əvvəlki sərhədlərinə qaytarıldı.



Avstriya və Prussiyanın əsas rol oynadığı Almaniya ittifaqı yaradıldı.

**KLEMENS METTERNİX**
Avstriya imperiyasının xarici işlər naziri, 1815

Avropa dövlətlərinin davranışı coğrafi mövqeyinə görə dəyişir. Fransa və Rusiyanın tək bir sərhədi var və bu olduqca güclüdür. Üçsıralı qalaları ilə Reyn çayı Fransaya etibarlı sərhəd təşkil edir. Sərt iqlim də Neman çayını Rusiya üçün möhkəm sərhəd edir. Avstriya və Prussiya isə özlərini bütün qonşu dövlətlərin hücumları üçün hər tərəfdən açıq hiss edir. Bu iki gücün davamlı təhdidi altında olan Avstriya və Prussiya bir-birləri, həm də qonşuları ilə yaxşı münasibətlərlə, ağıllı və ölçülü bir siyasətlə rahat ola bilər...

**HENRİ KİSSİNCER**
"Diplomatiya"

Rusiya "Avropa nizamı"nın bir üzvü idi və "güc tarazlığı"nın (*qitəyə heç bir dövlətin təkbaşına hakim olmaması prinsipi*) qaydalarını qəbul edirdi. Lakin Rusiya hakim dairələri bu qaydalar mənafelərinə uyğun olmayanda təcavüzkar siyasətdən istifadə edirdilər. Rusiya "güc tarazlığı" prinsipini qəbul edir, lakin onun qaydalarına hər zaman əməl etməzdi. Avropa dövlətləri, Osmanlı və Balkanların gələcəyinin "Avropa nizamı" çərçivəsində həll edilməli olduğuna tərəfdar olsalar da, Rusiya bu məsələni tək tərəfli olaraq və qüvvə ilə həll etmək istəyirdi.

Coğrafi mövqeyin ölkələrin siyasi-iqtisadi vəziyyətinə təsirlərini Azərbaycanın müasir dövrü ilə əlaqələndirərək dəyərləndirin.

## "ŞƏRQ MƏSƏLƏSİ"

XIX yüzillikdə dövlətlərarası münasibətlərdə **"Şərq məsələsi"** önəmli yer tuturdu. Bu məsələnin mahiyyəti Osmanlı dövlətinin ərazilərini işğal etmək və bölüşdürmək idi. Çar Rusiyasının İstanbulu və boğazları işğal etmək istəyi Qərbi Avropa dövlətlərinin maraqlarına uyğun deyildi. Ona görə də onlar 1853-cü ildə Rusiyanın Osmanlı dövlətinə qarşı başladığı **Krım müharibəsində** Osmanlı dövlətini müdafiə etdilər. Başlıca döyüş meydanı Krım olduğu üçün belə adlanan bu müharibədə **Böyük Britaniya, Fransa** və **Sardiniya** Rusiyaya qarşı vuruşurdu. Müharibədə Rusiya məğlub oldu. 1856-cı ildə **Parisdə** Krım müharibəsinin nəticələrinə həsr olunmuş **sülh konfransı** çağırıldı. Konfrans Vyana konqresindən sonra Avropada yaradılmış güc tarazlığını yenidən nizama saldı. Balkan yarımadası və Osmanlı dövlətinin ərazi bütövlüyü konfransda iştirak edən Avropa dövlətlərinin ortaq təminatı altına alındı. Müqaviləyə görə Qara dəniz bütün dövlətlərin hərbi gəmilərinə qapalı elan edildi. Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququnu itirdi. Osmanlı dövləti bu müharibədə qalib gəlsə də, ilk dəfə olaraq xarici dövlətlərdən borc almışdı.

Balkanları təsir dairəsinə almaq istəyən Rusiya 1877-ci ildə yenidən Osmanlı dövlətinə qarşı müharibəyə başladı. İstanbula doğru irəliləyən rus qoşunlarının hücumunu dayandırmaq üçün İngiltərə donanması işə qarışdı. 1878-ci ildə imzalanan **San-Stefano sülhünə** görə Osmanlı dövləti bir sıra ərazilərini itirdi.

Rusiyanın Balkanlarda möhkəmlənməsi və Şərqi Anadoluda bir sıra əraziləri işğal etməsi İngiltərə, Almaniya və **Avstriya-Macarıstanın** *(1867-ci ildən Avstriya imperiyası Avstriya-Macarıstan adlanırdı.)* mənafeyinə zidd idi. Ona görə də San-Stefano sülhünün şərtlərinə yenidən baxılması üçün 1878-ci ildə **Berlin konqresi** çağırıldı. Konqresin qərarlarına görə **Serbiya, Çernoqoriya (Monteneqro)** və **Ruminiyanın** müstəqilliyi tanındı. **Bolqarıstan Osmanlı** dövlətindən asılı knyazlığa çevrildi. **Qars, Ərdahan** və **Batum** Rusiyaya ilhaq edildi. San-Stefano müqaviləsindən fərqli olaraq, **Makedoniya**, **Şərqi Rumeli** və Şərqi Anadoluda bəzi ərazilər Osmanlı dövlətinə qaytarıldı. Berlin konqresinin qərarlarına görə **Kipr** Böyük Britaniyaya icarəyə, **Bosniya-Hersoqovinanın** idarə edilməsi isə müvəqqəti olaraq

Avstriya-Macarıstana verildi. Konqresin qərarları Rusiyanın Almaniya və Avstriya-Macarıstanla ziddiyyətlərinin artmasına səbəb oldu.

## GÜC TARAZLIĞINDAN RƏQABƏT MÜBARİZƏSİNƏ

**Otto fon Bismark** kansler (*hökumət başçısı*) təyin edildikdən sonra Prussiya Almaniyanın birləşdirilməsi üçün fəal siyasət yürütməyə başladı. Almaniyanın birləşdirilməsi Fransanın mənafeyinə zidd idi. Çünki bu, qitədə "güc tarazlığı"nı Almaniyanın xeyrinə dəyişə bilərdi. Ona görə də Sadova döyüşündə Avstriyanın məğlub edilməsindən sonra Almaniyanın birləşdirilməsi üçün Prussiyanın qarşısında maneə olan yeganə qüvvə Fransa idi. **1870–1871-ci** illər müharibəsində Fransanın məğlub edilməsi nəticəsində Almaniyanın birləşdirilməsi başa çatdırıldı. Bu birləşdirilmə nəticəsində Vyana konqresindən sonra Avropada yaranmış "güc tarazlığı" dəyişdi.

Bismark Avstriya və Fransanın məğlubiyyətindən sonra yaranan "güc tarazlığı"nı saxlamağa çalışırdı. Əvvəlcə o, Fransanın təcrid olmasını təmin etdi, Avropanın digər monarxiyaları ilə əlaqələrini kəsmək üçün Fransada respublika rejimini dəstəklədi. İngiltərənin böyük iqtisadi gücünü, müstəmləkələrinin genişliyini və dünyanın ən güclü hərbi dəniz donanmasına sahib olmasını nəzərə alaraq mövcud tarazlığı pozmamağa çalışırdı.

Dövlətlərin güclənməsində tarixi şəxsiyyətlərin rolunu müasir dövrlə əlaqələndirərək müzakirə edin.

Bismark tarazlığı qorumaq üçün müxtəlif dövlətlərlə ittifaq qururdu. 1879-cu ildə Avstriya-Macarıstanla müqavilə bağlandı. 1882-ci ildə İtaliya da bu ittifaqa qoşuldu və **"Üçlər ittifaqı"** yarandı. Müxtəlif mənafeləri olan dövlətlərin bir ittifaqda birləşdirilməsi Bismarkın diplomatik bacarığını göstərirdi. Bismarkın istefasından sonra Almaniya dünya miqyasında imperialist siyasətini gücləndirdiyi üçün Fransa, Rusiya və Böyük Britaniya tədricən yaxınlaşmağa başladı. 1890-cı illərin birinci yarısında **Fransa** və **Rusiya ittifaq müqaviləsi** imzaladı. Bununla da Bismark tərəfindən həyata keçirilən Fransanın təcridedilmə siyasətinə son qoyuldu.

**OTTO fon BİSMARK**
Parlamentdəki çıxışından. 1888-ci il

...Coğrafi mövqeyimiz səbəbi ilə məqsədimizə nail olmaq üçün digər dövlətlərdən daha çox çalışmalıyıq. Avropanın mərkəzində yerləşirik. Ən azı, üç cəbhədən hücuma məruz qala bilərik. Halbuki Fransanın müdafiə ediləcək yalnız şərq, Rusiyanın isə qərb sərhədləri var. Bundan başqa, dünya tarixinin ümumi gedişi, coğrafi mövqeyimiz və bəlkə də, almanların digər millətlərlə müqayisədə bu günə qədər birliyə malik olmaması səbəbindən düşmənlərin yaratdığı təhdidlərə digər xalqların olmadığı qədər açığıq. Tanrı qonşuluğumuza fransızlar kimi ən təcavüzkar xalq yerləşdirmişdir. Ötən yüzilliklərdə bu gün çatdığı səviyyələrə çatacağı xəyal belə edilə bilməyəcək Rusiyanın müharibəpərəst fəaliyyəti genişlənmişdir. İki tərəfdən də təhdid altındayıq.

Bismark Almaniyanın geosiyasi mövqeyi üçün hansı amilləri təhdid hesab edirdi?


"Kapitan gəmini tərk edir" (Bismarkın istefasına aid karikatur). "Punch" (Panç) jurnalı, 1890

XIX yüzilliyin birinci yarısı və ikinci yarısında dövlətlərarası münasibətləri müqayisə edin.

## BÖYÜK DÖVLƏTLƏR ARASINDA RƏQABƏT

XIX yüzilliyin ikinci yarısında Avropanın böyük dövlətləri dünyada dövlətlərarası münasibətlərə istiqamət verməyə davam edirdi. Böyük Britaniya dənizlərdəki hakimiyyətini genişləndirməyə və Avropada hər hansı bir dövlətin hakim olmasının qarşısını almaq üçün dövlətlər arasında "güc tarazlığı"nı qorumağa çalışırdı. Münaqişələrdə iştirak etməmək üçün, əsasən, ittifaqlara daxil olmayaraq – **təcridçilik siyasəti** yürüdür, yalnız öz mənafeyinə uyğun gəldikdə hər hansı bir dövlətlə müttəfiq olurdu.

İqtisadi böhranlar satış bazarları və xammal ehtiyacını artırdığı üçün müstəmləkələr uğrunda rəqabəti gücləndirdi. Böyük dövlətlər müstəmləkə ərazilərini genişləndirməyə çalışır, bu isə onların arasında mənafelərin toqquşmasına və ziddiyyətlərin kəskinləşməsinə səbəb olurdu. İngiltərə və Rusiya Əfqanıstan uğrunda mübarizə aparırdı. İngilislər Hindistanın sərhədlərinin təhlükəsizliyini təmin etməyə çalışır, Rusiya isə Hind okeanına yaxınlaşmaq istəyirdi. Afrikada Fransa və İngiltərə mübarizə aparırdı. Rəqabət mübarizəsi iqtisadi və hərbi sahələrdə də gedirdi.

Almaniyanın güclənməsi qitədə heç bir dövlətin güclənməsini istəməyən İngiltərənin ənənəvi xarici siyasətinə zidd idi. İngiltərə sənayesi Almaniya sənayesi ilə rəqabətdə uduzurdu. Almaniyanın öz hərbi dəniz donanmasını gücləndirməsi də dənizlərdə hakim olan İngiltərəni narahat edirdi. Bütün bu amillər hələ XIX yüzilliyin sonlarına qədər düşmən olan dövlətləri: İngiltərə, Fransa və Rusiyanı yaxınlaşdırdı. Bu, XIX yüzillikdə İngiltərənin baş naziri və xarici işlər naziri olmuş **Henri Palmerstonun** *"İngiltərənin daimi dostu və düşməni yoxdur, daimi mənafeyi var"* prinsipinin sübutu idi.

XX yüzilliyin əvvəllərində Fransa ilə Böyük Britaniya arasında yaxınlaşma başladı. Bu yaxınlaşmanın əsas səbəbi Almaniyanın güclənməsi idi. Fransa və İngiltərə müstəmləkələrlə bağlı ziddiyyətlərdə razılığa gələrək 1904-cü ildə **Antanta** *(səmimi saziş)* adlanan müqavilə imzaladı. Bu müqavilə Fransanın vasitəçiliyi ilə İngiltərə və Rusiyanın barışmasına da şərait yaratdı. 1907-ci ildə İngiltərə və Rusiya arasında müqavilənin bağlanması ilə Antanta ittifaqının yaranması başa çatdı. Beləliklə, Avropa bir-birinə düşmən olan iki bloka bölündü.

XX yüzilliyin əvvəllərində İngiltərənin ənənəvi xarici siyasətinin dəyişməsinin səbəbi nə oldu?

## BÖHRANLAR DÖVRÜ

XX yüzilliyin əvvəllərində Avropada bir çox dövlətlərarası böhranlar baş verdi. Balkanlardakı vəziyyət sülh üçün daha böyük bir təhdid təşkil edirdi. Avstriya-Macarıstan və Rusiya Osmanlı imperatorluğunun zəifləməsindən istifadə edərək bu bölgədəki təsirlərini artırmağa çalışırdı. 1904–1905-ci illər müharibəsində Rusiya Yaponiyaya məğlub olduqdan sonra diqqətini Balkanlara yönəltmişdi. O, burada slavyan xalqlarını, xüsusilə də müttəfiqi olan Serbiyanı himayə edirdi. Balkanlarda yaranacaq bir böhran mövcud bloklar arasında münaqişəyə səbəb ola bilərdi.

XX yüzilliyin əvvəllərində Balkanlarda bir neçə böhran baş verdi:

- 1908-ci ildə Avstriya-Macarıstan Osmanlı dövlətinin zəifləməsindən istifadə edərək Bosniya-Hersoqovinanı ilhaq etdi. 1905-ci il inqilabı nəticəsində zəifləyən Rusiya buna müqavimət göstərə bilmədi.

- Balkan dövlətlərinin təşkil etdiyi ittifaq tərəfindən Osmanlı imperatorluğu **Birinci Balkan müharibəsində (1912–1913)** məğlub edildi. Lakin qaliblər arasında işğal edilmiş ərazilərin bölüşdürülməsi uğrunda mübarizə 1913-cü ildə başlayan **İkinci Balkan müharibəsinə** səbəb oldu. Bu müharibə iki imperialist dövlət bloku arasındakı rəqabəti daha da dərinləşdirdi. Ardıcıl baş verən bu böhranlar ayrı-ayrı ölkələrdə millətçiliyi gücləndirdi.

Balkan müharibələrini Eyler-Venn diaqramından istifadə etməklə müqayisə edin.




**Balkan müharibələri**

- Birinci Balkan müharibəsi nəticəsində sərhədlər
- Avstriya-Macarıstandan asılı olan ərazilər
- İkinci Balkan müharibəsindən sonra beynəlxalq sərhədlər




“Qaynayan nöqtə” (Balkan qazanı). Balkan böhranlarına aid karikatur. “Punch” (Panç) jurnalı, 1912

Beləliklə, hərbi blokların təşkil edilməsindən sonra “güc tarazlığı” sistemi əhəmiyyətini itirdi. Uzlaşma sənəti olaraq diplomatiya sona çatdı. Hərbi bloklar arasında siyasi-iqtisadi ziddiyyətlər onlar arasında müharibəni yaxınlaşdırırdı. Kiçik bir qığılcım barıt çəlləyinə dönən Avropada böyük partlayışa səbəb ola bilərdi.

**HENRİ KİSSİNCER**
“Diplomatiya”

Ağıllı və ölçülü bir siyasət qorxunc təhlükənin, bəlkə də, qarşısını ala bilərdi. Ancaq Bismarkın yerinə gələnlər onun həyata keçirdiyi siyasətin əvəzinə, qüvvəyə əsaslandılar. Ən çox sevdikləri şüar bu idi: Almaniya Avropa diplomatiyasında bir çəkic olaraq xidmət edəcəkdir. Bismarkdan sonrakı alman liderləri qərarsızlıqla təcrübəsizliyi birləşdirərək ölkələrini əvvəlcə yalnızlığa, sonra da müharibəyə daxil etmişdilər.

Sizcə, karikaturun əsas ideyası nədir?

Sizcə, hər hansı bir xalqın və dövlətin tarixinə liderlər necə təsir göstərə bilərlər? Mülahizələrinizi konkret nümunələrlə əsaslandırın.

Mövzu ilə bağlı zaman oxu tərtib edin.

## FİLMLƏR VƏ İNTERNET RESURSLARI

- The Balkan crises, 1903–1914
- Historic films about the Balkan Wars at euro-peanfilmgateway.eu
- “Balkan Harbi 1912–1913”. Sənədli film (türk dilində)

İnternetdən istifadə etməklə XIX əsrin sonu – XX əsrin əvvəllərində dövlətlərarası münasibətlərdə baş verən dəyişikliklərlə bağlı təqdimat hazırlayın.

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

Şliffen planı, Sarıqamış əməliyyatı, Çanaqqala əməliyyatı, Kutül-Amarə döyüşü, Brest-Litovsk sülh müqaviləsi




## "BÜTÜN AVROPANIN İŞIQLARI SÖNDÜ"

28 iyun 1914-cü ildə Avstriya vəliəhdi Frans Ferdinand serb millətçisi tərəfindən öldürüldü. Almaniyanın dəstəyini alan Avstriya-Macarıstan bir ay sonra Serbiyaya müharibə elan etdi. Öz müttəfiqini müdafiə etmək üçün Rusiya səfərbərliyə başladı. Buna cavab olaraq Almaniya da səfərbərlik elan etdi. Beləliklə, bir terror hadisəsi tarixdə ilk dünya müharibəsinin başlanmasında qığılcım rolunu oynadı. Böyük Britaniyanın xarici işlər naziri müharibənin başlanması xəbərini belə dəyərləndirmişdi: *"Bütün Avropanın işıqları söndü. Yəqin, uzun zaman da yanmayacaq".*

**Maraqlıdır**

1914-cü ildə Avropada başlanan müharibənin qısamüddətli olacağı hesab edilirdi. Lakin müharibə tədricən geniş vüsət alaraq ilk dünya müharibəsinə çevrildi. Bu müharibə dünyanın əksər hissəsinə bu və digər şəkildə təsir göstərdi. Miqyasına və əhatə dairəsinə görə o, müasirləri tərəfindən "Böyük müharibə" adlandırılırdı.

Əvvəlki mövzu əsasında Birinci dünya müharibəsinin səbəblərini təhlil edin.

Hərbi dairələrin hazırladığı planlar hücuma əsaslanan qısamüddətli müharibə üçün nəzərdə tutulmuşdu. Almaniyanın tətbiq etdiyi **Şliffen planı** bir neçə həftədə fransızları məğlub etməyi, sonra rus ordusu ilə vuruşmağı nəzərdə tuturdu. 1914-cü ilin avqustunda Fransanı sürətlə məğlub etmək üçün bitərəf olan Belçika alman orduları tərəfindən işğal edildi. Bu, Belçikanın bitərəfliyini qorumaqla bağlı müqavilə öhdəliyi olan **Böyük Britaniyanın** Almaniyaya müharibə elan etməsinə səbəb oldu.

**Kembric müharibə tarixi**

Şliffen planı Almaniyanın strateji problemlərinin həlli üçün bütün aspektlərdə parlaq əməliyyat hesab olunurdu. Amma siyasi müstəvidə onun qeyri-adi zəiflikləri var idi. Onun ən bariz səhvi strateji sahədə idi: almanlar Belçikanın bitərəfliyini pozaraq İngiltərənin Fransa tərəfində müharibəyə girməsinə şərait yaratmışdı.

1914-cü ilin sentyabrında **Marna çayı sahilində döyüşdə** almanların hücumunun dayandırılması Fransanı həlledici məğlubiyyətdən xilas etdi. Beləliklə, Şliffen planı uğursuzluğa düçar oldu. Almaniya iki cəbhədə müharibəni






“Frans Ferdinand və həyat yoldaşının öldürülməsi”. *Rəssam Axil Beltram*

davam etməyə məcbur oldu. Şərq cəbhəsində isə almanlar tərəfindən Rusiya qoşunlarının hücumlarının qarşısı alındı. 1914-cü ilin avqustunda **Tannenberq döyüşündə** rus qoşunu tələyə salınaraq ağır məğlubiyyətə uğradıldı.

## MÜHARİBƏNİN DÜNYAYA YAYILMASI

1914-cü ildə **Yaponiyanın** Antanta tərəfindən müharibəyə daxil olması əməliyyatların gedişinə güclü təsir göstərmədi. 1915-ci ildə Antanta üzvləri **İtaliyaya** bir sıra ərazilər vəd edərək onu öz tərəflərindən müharibəyə cəlb etdilər. Həmin ildə **Bolqarıstan** isə Almaniya və onun müttəfiqləri tərəfindən müharibəyə qoşuldu.

**Osmanlı imperiyası** müharibənin əvvəlində bitərəf qaldı. Bu dövlətdən sığınacaq alan iki alman hərbi gəmisinin Rusiyanın liman və gəmilərinə atəş açması nəticəsində Rusiya 1914-cü ilin oktyabrında Osmanlı dövlətinə müharibə elan etdi. Sonra Fransa və Böyük Britaniya da Osmanlı dövlətinə qarşı müharibə elan etdi. Alman və Osmanlı hərbi komandanlığı Rusiyaya qarşı qəti hücum etməyi qərara aldı. Lakin Qafqaz cəbhəsindəki Osmanlı qoşunu qış əməliyyatı üçün zəruri təchizata malik deyildi. Ona görə də 1914-cü ilin dekabrı – 1915-ci ilin yanvarında həyata keçirilən **Sarıqamış əməliyyatı** Osmanlı dövləti üçün uğursuzluqla nəticələndi.



Sarıqamış əməliyyatı

## TARİXİ DƏYİŞDİRƏN DÖYÜŞ

İngiltərə və Fransa Rusiyaya yardım etmək üçün Çanaqqala boğazını ələ keçirmək planı hazırladı. Bu plana əsasən İstanbul işğal olunmalı, osmanlılar təslim olmağa məcbur edilməli idi. Nəticədə Rusiyaya hərbi və iqtisadi yardım mümkün olacaqdı.

**Böyük Britaniyanın hərbi naziri Lord Kitçener Çanaqqala əməliyyatına başçılıq edən ingilis komandanına yazırdı:**

“Əgər donanmamız boğazı keçərsə, İstanbul öz-özünə təslim olacaq və siz bir döyüşü deyil, müharibəni qazanmış olacaqsınız”.

Bəzi tarixçilər türk qoşunlarının Çanaqqala əməliyyatında qələbəsi nəticəsində müharibənin uzandığını bildirirlər. Mənbədəki məlumat bu fikri təsdiq edirmi?

1915-ci ilin fevralında başlayan dəniz döyüşlərində məğlub olan Fransa, İngiltərə və onun dominionları – Avstraliya və Yeni Zelandiya qüvvələri həmin ilin sonuna qədər davam edən quru əməliyyatlarında da məğlub oldu. Dünyanın güclü iki dövlətinin: İngiltərə və Fransanın yüksək təchizatlı orduları üzərində türk qoşunlarının qələbəsinin səbəblərindən biri onların vətəni qəhrəmancasına müdafiə etməsi idi. 1916-cı ilin yanvarında Antanta qüvvələrinin geri çəkilməsi ilə başa çatan Çanaqqala döyüşləri türk xalqına **Mustafa Kamal** kimi dahi sərkərdə qazandırdı.

Çanaqqalada türk dünyasının hər yerindən, o cümlədən Şimali və Cənubi Azərbaycandan könüllü olaraq köməyə gəlmiş, bu torpaqlarda şəhid olmuş həmvətənlərimizin də məzarları var. Bu, türk xalqlarının dar gündə bir-birinə kömək etdiyini bir daha sübut edir.

Çanaqqala döyüşündə türk ordusunun qələbəsinin səbəbləri nə idi?



Azərbaycandan Çanaqqalaya köməyə gəlmiş könüllülər

## YAXIN ŞƏRQDƏ ƏMƏLİYYATLAR

Yaxın Şərqin neft mənbələrini ələ keçirmək istəyən Böyük Britaniya ikili siyasət yürüdürdü. O, ərəb tayfalarına müstəqillik vəd edərək onları Osmanlı dövlətinə qarşı qiyama təhrik etdi. Digər tərəfdən, Böyük Britaniyanın xarici işlər naziri yəhudilərin dəstəyini almaq və ABŞ-nin müharibəyə girməsini təmin etmək üçün müəyyən addımlar atdı.

**Böyük Britaniyanın Misir valisi Henri Mak Mahonun Məkkə hakimi Şərif Hüseynə məktubu. 1915**

Bəzi bölgələrin (*müasir Suriya və Livanda*) əhalisi tamamilə ərəblər deyil. Ona görə də bu torpaqlar tələb etdiyiniz ərazilərdən kənar tutulacaq. Bu dəyişikliyi nəzərə alaraq daha əvvəl digər ərəb şeyxləri ilə imzalanan müqavilələrə toxunulmamaq şərtilə İngiltərə Məkkə şərifinin tələb etdiyi ərazilərdə ərəblərin müstəqilliyini tanımağa və dəstəkləməyə hazırdır.

**Böyük Britaniyanın xarici işlər naziri Artur Balfurun yəhudi lobbisi rəhbərlərindən birinə məktubu. 1917**

İngiltərə hökuməti Fələstində yəhudi xalqı üçün milli yurd qurulması fikri ilə razıdır. ... Fələstində yaşayan yəhudi olmayan əhalinin mülki və dini hüquqları ilə yanaşı, digər ölkələrdə yəhudilərin malik olduğu siyasi hüquqlara zərər verəcək hər hansı bir tədbirə təşəbbüs göstərilməyəcəyi şərtilə bu məqsədin həyata keçirilməsinə çalışılacaqdır.

S Mənbələrdəki məlumatları müqayisə edin. Sizcə, Böyük Britaniyanın ikili siyasət yürütməsində məqsəd nə idi? Müasir dövrümüzdə ərəb-İsrail münaqişəsi Birinci dünya müharibəsinin təsirlərinin davam etdiyini deməyə əsas verirmi?

Hindistana gedən dəniz yolunun üzərindəki İran körfəzinə böyük önəm verən ingilislər bura qoşun çıxarmışdılar. Bağdadı ələ keçirməyə çalışan ingilis ordusu 1916-cı ildə Kutül-Amarədə türk qoşunları tərəfindən məğlub edildi və təslim oldu.



Kutül-Amarə döyüşü. İngilis generalının təslim olması

## "BÖYÜK YALAN"

Antanta dövlətləri tərəfindən silahlandırılaraq təhrik edilən erməni terrorçu dəstələri 1915-ci ilin aprelində Vanda qiyam qaldıraraq dinc türk və müsəlman əhalini kütləvi şəkildə qətl etməyə başladı. Bir qədər sonra ermənilər bütün Şərqi Anadoluda dinc müsəlman əhaliyə qarşı terror və soyqırımı həyata keçirdilər. Həmçinin Antanta ölkələrinin xeyrinə casusluq fəaliyyətlərini də artırdılar. Ermənilər tərəfindən həyata keçirilən soyqırımının hədəfi yalnız müsəlman əhali deyildi. Bölgədə yaşayan yunanlar və yəhudilər də erməni terroruna məruz qalırdılar. Buna cavab olaraq Osmanlı dövləti əvvəlcə erməni dini-siyasi rəhbərlərindən qətl və qarətləri dayandırmağı tələb etdi. Lakin ermənilərin qırğınları davam etdirməsi 1915-ci il aprelin 24-də Osmanlı dövlətinin bu işdə günahı olanların həbs edilməsi haqqında əmr verməsi ilə nəticələndi. Ermənilərin hər il "soyqırımı" günü kimi qeyd etdikləri tarix, əslində, erməni quldur dəstələrinin başçılarının həbs edildiyi gündür. Mayda isə cəbhə bölgəsində yaşayan ermənilərin müvəqqəti köçürülməsi haqqında qanun qəbul edildi. İkinci dünya müharibəsi dövründə ABŞ hökuməti bu qanundan daha sərtini yaponlara qarşı həyata keçirmişdi. Qafqaz cəbhəsindəki Rusiya komandanları erməni dəstələrinin müsəlman əhaliyə qarşı vəhşicəsinə qırğınlar törətdiyini, cinsindən, yaşından asılı olmayaraq, hər kəsin öldürüldüyünü etiraf etmişdi. Bu vəhşiliklər hələ köçürülmə haqqında qanundan əvvəl sistemli şəkildə həyata keçirilirdi.

**TÜRKİYƏ BAŞ QƏRARGAH ARXİVİ**
"ATASE, nömrə 1/2, sənəd/2061; K.S.Papazian, Patriotizm Perverted, Aram Turabian, Les Volontaires Armeniens sous les Drapaux Francais, C. de Malevill, 1915-ci il erməni faciəsi"

**Erməni terror dəstələrinin əmrləri:**
- Rus ordusu sərhədi keçən anda erməni dəstələri və fərarilər onlarla birləşəcək, Osmanlı ordusuna hücum edəcəklər;
- Arxa cəbhədə iki yaşından yuxarı bütün müsəlmanlar qətl ediləcək;
- Ermənilər tərk etdikləri evləri, kilsə və xeyriyyə müəssisələrini, hətta ərzaq məhsullarını yandırıb bunları müsəlmanlar etmiş kimi təbliğat aparacaqlar;
- Cəbhədən yaralı dönən Osmanlı əsgərləri qətl ediləcək.

**YUSUF HALACOĞLU**
"Ermeni tehciri"

**27 may 1915-ci il tarixli Köçürmə qanunu:**
- Köçürülməsi lazım bilinənlər gedəcəkləri yerlərə qədər təhlükəsiz şəkildə aparılacaqlar;
- Yollarda onların rahatlığı, can və mal təhlükəsizliyi təmin olunacaqdır;
- Getdikləri yerlərdə tam yerləşdirilmələrinə qədər onlara köçkün ödənişindən güzəranlarını və yeyib-içməklərini təmin etmək üçün hər cür yardım ediləcəkdir;
- Maddi vəziyyətlərinə uyğun olaraq onlar mal və ərazi ilə təmin olunacaqlar;
- Hökumət tərəfindən ev tikiləcəkdir.

Mənbələrdəki məlumatları müqayisə edin. Əslində, soyqırımının kimə qarşı törədildiyinə qərar verin. Qərarınızı əsaslandırın.

**CASTİN MAKKARTİ**
"Türklər və ermənilər"

Niyə İstanbulda, İzmirdə, imperiyanın Avropa hissəsində, digər bölgələrdə yaşayan on minlərlə erməni soyqırımına məruz qoyulmamışdır? Onlar sağ-salamat qaldı və onları heç kim sürgün etmədi. ...Türklərin öldürülməsinə göz yuman Qərb mətbuatı öldürülmüş ermənilərin sayını olduqca şişirdərək yaymışdı. Əgər osmanlılar bütün erməniləri məhv etmək istəyirdisə, nə üçün onların sağ qalmasına imkan verdilər? Ən inandırıcı sübut isə ondan ibarətdir ki, deportasiya olunmuşların çoxu sağ qalmışdı.

Müəlliflər "erməni soyqırımı"nın uydurma olduğunu necə əsaslandırır və Qərb mətbuatını nədə günahlandırırlar? Mənbə əsasında Qərb mətbuatının mövqeyini müasir dövrlə əlaqələndirin.

## MÜHARİBƏ VƏ MÜLKİ ƏHALİ

Hərbi əməliyyatların gedişində milyonlarla mülki əhali yaşayış yerlərini tərk etməyə məcbur oldu. Əslində, vuruşan hər iki tərəf (*Antanta və Dördlər İttifaqı*) dinc insanlara qarşı amansızlıq edir, kütləvi qırğınlar həyata keçirirdi. Uşaqlar və qocalardan məcburi işlərdə istifadə olunurdu.

Müharibədə iştirak edən bütün dövlətlər iqtisadiyyatlarını müharibənin tələblərinə uyğun qurmuşdu. İş qabiliyyəti olan kişilərin, demək olar, hamısı cəbhədə olduğundan zavod-fabriklərdə, kənd təsərrüfatında onları qadınlar və uşaqlar əvəz edirdilər. Hərbi əsirlər, müstəmləkələrdən gələn işçilər və cəbhədən geri çağırılan ixtisaslı mütəxəssislər də arxa cəbhədə işləyirdilər.

Müharibə qadınların və uşaqların həyatına necə təsir göstərdi?

İnsanları səfərbər etmək üçün dövlətlər müxtəlif təbliğat vasitələrindən istifadə edirdi. Çünki təbliğat müharibənin amansız həqiqətlərini

gizlədirdi. Bütün təbliğat vasitələrinə baxmayaraq, artıq 1916-cı ildən başlayaraq arxa cəbhədə sülh çağırışları yüksəlirdi. Müharibədən narazı olan əhali öz etirazlarını tətillər təşkil etməklə ifadə edirdi. Qiymətlərin artması, iş saatlarının uzadılması, ərzaq məhsulları üçün talon sisteminin tətbiq olunması insanların vəziyyətini çətinləşdirirdi.

Sizcə, müharibədə hansı təbliğat vasitələrindən istifadə edilirdi və bu hansı məqsədləri daşıyırdı?

## ABŞ-nin MÜHARİBƏYƏ DAXİL OLMASI

İngiltərə donanması tərəfindən blokadaya alınan Almaniya iqtisadi cəhətdən böyük zərər gördü. Blokadaya cavab olaraq alman sualtı qayıqları düşmən dövlətlərin hərbi və mülki gəmilərini batırmağa başladı. 1917-ci ildə İngiltərəni təslim olmağa məcbur etmək üçün Almaniya sualtı döyüşləri gücləndirdi. Lakin ABŞ-nin ticarət gəmilərinin vurulması onun bitərəflikdən imtina edərək Almaniyaya müharibə elan etməsinə səbəb oldu. ABŞ-nin müharibəyə daxil olması onun gedişinə həlledici təsir göstərdi.

**Maraqlıdır**



ABŞ qoşunlarında yayılmış qrip epidemiyası onların Avropaya gəlməsi ilə tezliklə bütün dünyaya yayıldı. Müharibə edən tərəflər mətbuatda epidemiya ilə bağlı məlumata qadağa qoyduğu üçün onun haqqında ilk məlumat İspaniya mətbuatında verilmişdi. Ona görə də bu epidemiya "ispan qripi" adlandı. Bu qrip müharibədə həlak olanlardan daha çox və milyonlarla insanın ölümünə səbəb olaraq o dövrə qədər dünyanın ən böyük epidemiyası olmuşdur. Ərzaq rasionu ən aşağı olan ölkələrdə ölənlərin sayı daha çox olmuşdur.

"İspan qripi"ni 2020-ci ilin "COVID-19" epidemiyası ilə müqayisə edin.

## RUSİYANIN MÜHARİBƏDƏN ÇIXMASI

Müharibə Rusiyanın siyasi və sosial-iqtisadi vəziyyətini ağırlaşdırdı. Bu isə 1917-ci ilin fevralında ölkədə inqilabın baş verməsinə səbəb oldu. Çar hakimiyyəti devrildi. Rus əsgərləri kütləvi şəkildə cəbhədən qaçır, fərarilik edirdilər. 1917-ci ilin oktyabrında çevriliş edərək hakimiyyəti ələ keçirən bolşeviklər Almaniya və onun müttəfiqləri ilə **Brest-Litovsk sülh müqaviləsi** (1918-ci ilin martı) imzaladılar. İki cəbhədə müharibə aparmaqdan xilas olan Almaniya qüvvələrinin böyük hissəsini qərb cəbhəsinə cəmləşdirdi.

## "TANKLARI VƏ AMERİKALILARI GÖZLƏYİRƏM"

Birinci dünya müharibəsi yeni silahların tətbiqi, xüsusilə də zəhərli qazlardan, təyyarə və tankların istifadə edilməsi ilə səciyyəvi idi. Bu silahlar, əsasən, keçilməz səngər müharibəsində uğur qazanmaq ehtiyacından yaranmışdı. İngiltərə ilə Fransa tank və təyyarə istehsalında Almaniyadan çox irəlidə idi. Müharibənin gedişini soruşduqda Fransa komandanı: *"Tankları və amerikalıları gözləyirəm"*, – demişdi.

Hərbi-texniki, iqtisadi baxımdan geri qaldığı, əlavə qüvvələri olmadığı üçün Almaniya və onun müttəfiqləri məğlub edildi. Blokadalar nəticəsində onların iqtisadiyyatı zəifləmiş, ordu təminatı pisləşmişdi. Nəticədə 1918-ci ilin payızında bir-birinin ardınca Bolqarıstan, Osmanlı imperiyası və Avstriya-Macarıstan təslim oldu. 11 noyabrda Almaniya Kompyen meşəsində təslim olmaq haqqında müqavilə imzaladı. Beləliklə, Avropa tarixi üçün fəlakətlə nəticələnən müharibə başa çatdı. Avropanın sosial və iqtisadi həyatı böyük zərər gördü. Dünya iqtisadiyyatı və siyasətində Avropanın üstünlüyü zəifləməyə başladı.

### FİLMLƏR VƏ İNTERNET RESURSLARI

- Allied Tanks during World War I (video)
- "Döyüş atı" filmi
- "Çanakkale Arslanları" (The Lions of Gallipoli War) (1964)
- "120" filmi (2008)

İnternetdən istifadə etməklə Birinci dünya müharibəsində tətbiq edilən yeni hərbi taktika və silahlar haqqında təqdimat hazırlayın.

# MƏDƏNİYYƏT

"Sənaye cəmiyyəti", kütləvi mədəniyyət, impressionizm, Eyfel qülləsi, "Kristal saray", radio

## "SƏNAYE CƏMİYYƏTİ" VƏ MƏDƏNİYYƏT

XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünya mədəniyyətində mühüm nailiyyətlər qazanıldı. Yeni elmi kəşflər və ixtiralar dünyanın sonrakı iqtisadi-texniki və mədəni inkişafına təsir göstərdi. İqtisadiyyatın əsasını təşkil edən sahələr müxtəlif tarixi dövrlərdə dəyişmişdir. Oturaq həyata keçidlə başlayan və kənd təsərrüfatının üstün olduğu **aqrar cəmiyyəti** sənaye çevrilişi nəticəsində **sənaye cəmiyyəti** əvəz etdi. XIX yüzillikdə sənaye artıq cəmiyyətin bütün sahələrinə: iqtisadiyyata, siyasətə və mədəniyyətə böyük təsir göstərməkdə idi. Burjuaziya cəmiyyətdə hakim rol oynayırdı. Sənaye səmərəli üsulları və elmi araşdırmaları zəruri etdiyindən ənənəvi sahələr inkişaf edir, yeni elm istiqamətləri yaranırdı. Cəmiyyətin sosial-iqtisadi vəziyyətində baş verən sənaye çevrilişinin sürətlənməsi mədəniyyətin bütün sahələrinin inkişafına və onun yeni xüsusiyyətlər qazanmasına səbəb oldu. Bu dövrdə ticarət, nəqliyyat və rabitə vasitələrinin inkişaf etməsi xalqlar arasında mədəni əlaqələrin genişlənməsini sürətləndirdi. Bununla da **mədəniyyətin kütləviləşməsi** prosesinin əsası qoyuldu.

**ARNOLD TOYNBİ**
"Mədəniyyət mühakimə olunur"

Sivilizasiyalar yaranarkən təbiətin təhdidi altında olur. Lakin yarandıqdan sonra bu təhdiddən qurtulur. Təbii şəraitə qarşı müqavimət göstərə bilməyən cəmiyyətlər yox olub getmişdir. Mədəniyyətlər təbiətin təhdidinə qarşı müqavimət göstərmiş cəmiyyətlərin məhsuludur. ...Tarix mədəniyyətlərin tarixidir.

Cəmiyyətdə baş verən siyasi və sosial-iqtisadi dəyişikliklərin mədəniyyətə təsirini araşdırın. "Tarix mədəniyyətlərin tarixidir" fikrini müzakirə edin.

"Sənaye cəmiyyəti" mədəniyyətin inkişafına necə təsir göstərmişdir?

Mədəniyyətin kütləviləşməsi XIX yüzilliyin sonlarından başlamışdı. Bunun sosial və iqtisadi səbəbləri var idi. Belə ki dəmir yolları sayəsində nəqliyyat sahəsində inkişaf baş verdi. Məcburi hərbi xidmət əhalinin müxtəlif təbəqələri arasında sosial baxımdan əlaqələrin genişlənməsinə şərait yaratdı. Təhsil sahəsindəki inkişaf və mətbuatın genişlənməsi də mədəniyyətin kütləviləşməsinə təsir göstərdi. Həmçinin texniki inkişaf (*fotoqrafiya, kino və s.*) əhalinin daha geniş təbəqələri arasında mədəniyyətin yayılmasına imkan verdi. Foto məlumatötürmənin önəmli vasitələrindən birinə çevrildi. 1895-ci ildə yaradılan kino 1920-ci illərin sonlarına qədər səssiz formada inkişaf etdi.

Mədəniyyətin kütləviləşməsinin hansı sosial-iqtisadi səbəbləri və nəticələri olmuşdur?

## İNCƏSƏNƏT VƏ MEMARLIQ

XIX yüzillikdən başlayaraq mədəniyyətin bütün sahələrində **abstrakt (mücərrəd)** janrlar özünü göstərməyə başladı. Bunun səbəbləri cəmiyyətdə baş verən siyasi, iqtisadi və sosial dəyişikliklər idi. İncəsənətdə yeni cərəyanlar ənənəvi sənət istiqamətlərini əvəz etdi.

XIX yüzilliyin ortalarında fransız rəssamı **Qustav Kurbe** mövcud incəsənət anlayışlarına son qoyub gündəlik həyata aid rəsmlər çəkməyə başladı. O, realist sənət cərəyanını yaradanlardan biri idi. Əvvəlcə tənqid olunsa da, bu cərəyan sonralar çox genişləndi.


Qustav Kurbe

XIX yüzilliyin ikinci yarısında rəssamlıqda **impressionizm** hərəkatı yarandı. Bu hərəkatın üzvləri boyanın xüsusi qablarda saxlanmasını təmin edən texniki yenilik nəticəsində açıq havada rəsmlər çəkirdilər.

**Maraqlıdır**



İmpressionizm (*təəssüratçılıq*) anlayışı ilk dəfə "Günəşin doğması" əsəri üçün istifadə edilmişdir. Sonralar rəssamlıqda cərəyanlardan biri bu cür adlandırılmağa başlandı.



"Ulduzlu gecə", Van Qoq. 1889-cu il



Van Qoq

Əsərlərin əsas mövzusuna çevrilən mənzərə rəsmlərində işığın əks olunması təsvir edilirdi. Holland rəssamı **Van Qoq** impressionizmin məşhur nümayəndələrindən biri idi.

XIX yüzillikdə türk rəssamlığında Qərb tərzi başlanmışdı. Bu, hərbi məktəblərdə texniki rəsm dərsləri ilə bağlı olmuşdur.

1789-cu il Fransa inqilabı və XIX yüzilliyin əvvəllərindəki milli azadlıq hərəkatları klassik musiqinin görkəmli nümayəndəsi **Lüdviq van Bethovenin** yaradıcılığına güclü təsir göstərmişdi. O, "Üçüncü simfoniya"sını Avropaya demokratiya gətirdiyinə inandığı üçün əvvəlcə Napoleon Bonaparta həsr etmişdi. Lakin 1804-cü ildə Napoleon özünü imperator elan etdiyinə görə bəstəkar bu fikirdən daşınır. Bethovenin yazdığı "Doqquzuncu simfoniya" müasir dövrdə Avropa İttifaqının himnidir. Bəstəkar əsərin son bölümündə məşhur "Mehtər marşı"ndan ilham aldığını bildirmişdir. Ona görə də Bethoven bu simfoniyasını "Türk musiqisi ilə alman simfoniyası" adlandırmışdır. XIX yüzilliyin sonlarına qədər musiqi sahəsində **romantizm** üstünlüyünü saxladı. Rus bəstəkarı **Pyotr Çaykovskinin** əsərləri müasir dövrdə də öz təsirini davam etdirir. İtalyan bəstəkarı **Cüzeppe Verdi** İtaliyanın Avstriya işğalına qarşı azadlıq hərəkatına aid bir neçə opera yaratmışdır. Onun adı və əsərləri Avstriya işğalına qarşı İtaliya azadlıq hərəkatının rəmzlərindən birinə çevrilmişdir.



Lüdviq van Bethoven



Pyotr Çaykovski



Cüzeppe Verdi

Memarlıqda yeniliklərdən biri dəmir və polad konstruksiyalardan istifadə edilməsi idi. Parisdə 1889-cu ildə tikilən **Eyfel qülləsi** buna parlaq nümunə hesab edilə bilər. Qüllə Fransa inqilabının yüzilliyi münasibətilə keçirilən sərginin giriş qapısı kimi mühəndis **Qustav Eyfel** tərəfindən müvəqqəti tikilmişdi. Lakin bu dövrdə inkişaf edən rabitə üçün əlverişli olduğuna görə saxlanılmışdı.



Eyfel qülləsinin tikintisi

Dəmir, şüşə və beton bu dövrün əsas memarlıq vasitələri idi. Dövrün xüsusiyyətlərini özündə əks etdirən tikililərdən biri Londonda ucaldılan ilk Dünya ticarət binasıdır. 1850-ci ildə tikilmiş və "Kristal saray" adlanan bina ənənəvi üslubda deyildi.

XIX–XX yüzilliyin əvvəllərində memarlıqda hansı yeniliklər baş vermişdir?

XIX yüzillikdə Osmanlı memarlığında Qərb tərzi geniş yayılmağa başladı. Avropa saraylarına bənzəyən **Dolmabağça sarayı** da bu dövr Osmanlı memarlığının ən məşhur nümunəsidir.



Dolmabağça sarayı

## ELM VƏ TƏHSİL

XIX–XX yüzilliyin əvvəllərində elmin müxtəlif sahələrində böyük inkişaf baş vermişdi. **Tibb, biologiya** və **fizikada** təcrübə üsulu yeni kəşflərə səbəb oldu. XIX yüzilliyin ikinci yarısında alimlər elektromaqnit dalğaları haqqında tədqiqatlar apardılar. Bu tədqiqatlar nəticəsində rus alimi **Aleksandr Popov** və italyan alimi **Qulyelmo Markoni** ayrı-ayrılıqda radionu ixtira etdilər. XIX yüzilliyin sonlarında alman alimi **Vilhelm Rentgen** gözəgörünməz şüaların mövcud olduğunu sübut etdi. Elektromaqnit dalğalarının bir növü olan bu dalğalar **"rentgen şüaları"** adlandırıldı.

Rentgen şüalarının tibbdə və texnikada istifadəsi haqqında nə bilirsiniz?



Albert Eynşteyn

XX yüzilliyin əvvəllərində **Albert Eynşteyn** ümumi nisbilik nəzəriyyəsini irəli sürdü. O, cisimlərin ölçüləri ilə vaxt uzunluğunun nisbiliyini, məkan və zamanın maddi obyektlərin hərəkətindən asılı olduğunu sübut etdi. Nəticədə məkanla zamanın qarşılıqlı nisbəti haqqında elmi təsəvvür dəyişdi.

XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində elmin yeni bir sahəsinin – psixoanalizin yaradıcısı **Ziqmund Freydin** əsərlərində uşaqların inkişafının ən vacib mərhələlərində valideynlərinin yanaşmasının önəmi qeyd edilir, uşaqlara göstərilən qayğı, maraq, sevgi və anlamın onların gələcəyinin formalaşmasında əsas rol oynadığı tezisi irəli sürülürdü. O, fikrin tədqiqi üçün psixoanalizin klinik metodunun yaradıcısı kimi tanınır.



Ziqmund Freyd

Alman tarixçisi **Leopold fon Rankenin** yaradıcılığı ilə tarix sahəsində araşdırmalarda ilk mənbələr və dövlətlərarası münasibətlərin tarixdə yeri xüsusi əhəmiyyət qazandı. Mənbəyə əsaslanmaq prinsipi tarix elminin sonrakı inkişafına önəmli təsir göstərdi. Rankeyə görə, tarix elminin məqsədi nə keçmişi mühakimə etmək, nə də dövrümüzün baxışı ilə gələcəyə yol göstərmək deyil, sadəcə, keçmişdə gerçəyin necə olduğunu göstərməkdir.



Cəmaləddin Əfqani

XIX yüzillik müsəlman dünyasının ən məşhur filosoflarından biri əslən Cənubi Azərbaycandan olan **Cəmaləddin Əfqanidir.** O, Hindistanda və Əfqanıstanda ingilis müstəmləkəçiliyinə qarşı çıxmış, Qərb imperializmi ilə mübarizə aparmaq üçün müsəlmanların birləşməsi ideyasını irəli sürmüşdür. Despotizmi tərəqqinin düşməni kimi tənqid edən filosof müsəlman ölkələrində islahatların zəruriliyini vurğulayır və hakimiyyətin idarə olunmasında xalqın iştirakını təmin etməyi təklif edirdi. Əfqani İslam dünyasının tərəqqisi üçün elmin, təhsilin inkişafı və müasirləşməni əsas şərt hesab edirdi.

"Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi"

Əfqani bütün dövrlərdə xalqların qazandıqları nailiyyətləri, gücü-qüdrəti elmlə bağlayırdı. İnsan yaşayışını təmin edən bütün nemətlər, var-dövlət və sərvət də, əsasən, elmin məhsuludur, bunlar hamısı sənayenin, əkinçiliyin və ticarətin elmi yollarla aparılmasının nəticəsidir. Şeyx Cəmaləddin inanırdı ki, gücsüzlük, cəhalət və səfalət içində olan müsəlmanlar mükəmməl təhsil sayəsində öz keçmiş qüdrət və xoşbəxtliklərinə qayıda bilərlər.



İsmayıl Qaspıralı

XIX yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərində türk dünyasının düşüncə tarixinə ən böyük təsir göstərənlərdən biri Krım tatarı **İsmayıl Qaspıralı** idi. O, Rusiyadakı türk-müsəlman xalqlarının mədəniyyət və təhsil yolu ilə birləşməsini istəyirdi. Qaspıralının düşüncələri Qazan tatarı **Yusuf Akçuraya** və Azərbaycan türkü **Əli bəy Hüseynzadə**yə də böyük təsir göstərmişdi.

**İSMAYIL QASPIRALI**

Geri qalmağımızın yeganə səbəbi cəhalətimizdir. Avropada nəyin icad edildiyinə və ya nələr olduğuna dair heç nə bilmirik. Bu təcriddən qurtarmaq üçün bunları oxuya bilməyimiz lazımdır. Avropa düşüncəsini avropalı qaynaqlardan öyrənməliyik. İlk və orta məktəblərimizin proqramlarına bu fənləri daxil etməliyik ki, şagirdlərimiz bu düşüncələri öyrənsinlər.

İsmayıl Qaspıralının fikirlərini necə dəyərləndirirsiniz? Mülahizələrinizi müasir dövrlə əlaqələndirin.



Fridrix Nitsşe

Alman filosofu **Fridrix Nitsşe** və başqaları şəxsiyyətin ucaldılmasını təbliğ edən cərəyanın əsasını qoymuşdur. 1870-ci il Fransa-Prussiya müharibəsində könüllü iştirak edən Nitsşenin **"Belə buyurdu Zərdüşt"** əsəri dünya klassik nümunələri arasında göstərilir.

Onun bir çox əsərlərində almanlara mənfi münasibət hiss olunsa da, sonralar Almaniyada nasistlər Nitsşenin fəlsəfəsindən istifadə etmişlər.

**FRİDRİX NİTSŞE**
"Dəccal" əsəri

**Xristianlıq antik mədəniyyətin mirasını bizdən aldı. Sonra da bizi İslam mədəniyyətinin mirasından məhrum etdi. Əsasən, bizə Yunanıstan və Romadan daha yaxın olan, birbaşa duyğu və zövqümüzə xitab edən İspaniyanın möhtəşəm Məğrib (şərq-red.) mədəniyyətini ayaqlar altında tapdaladı...**

S Nitsşenin bu fikirlərini necə dəyərləndirirsiniz?

İqtisadiyyatın inkişafı təhsil sahəsində də yeniliklərə səbəb oldu. Texniki tərəqqi oxumağı, müəyyən hesablamalar aparmağı zəruri edirdi. Ona görə də XIX yüzilliyin ikinci yarısında Qərbi Avropanın bir sıra ölkələrində icbari və ödənişsiz təhsil tətbiq edildi. Bu amil qəzet, kitab oxuyan insanların sayını artırdı. Nəticədə Qərbi Avropada elm və təhsil inkişaf etdi. Bu, öz növbəsində, sosial-iqtisadi inkişafa təsir göstərdi.

XIX yüzilliyin birinci yarısında Osmanlı dövlətində həyata keçirilən islahatlar təhsil sahəsinə də təsirsiz qalmadı. Bu islahatlara əsasən dünyəvi ibtidai, orta və ali məktəblərin açılması nəzərdə tutulurdu.

T XIX yüzilliyin ikinci yarısında Qərbi Avropanın bir sıra ölkələrində icbari və ödənişsiz təhsilin tətbiq edilməsinin səbəb-nəticə əlaqəsini şərh edin.

T XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünya və Azərbaycan mədəniyyətinin qarşılıqlı təsirlərini şərh edin.

## ƏDƏBİYYAT

XIX–XX yüzilliyin əvvəllərində şair və yazıçılar öz əsərlərində ictimai-siyasi problemlərə daha geniş münasibət bildirməyə başladılar. Türk ədəbiyyatına Qərb mədəniyyəti nümunələrini ilk dəfə gətirən **İbrahim Şinasi** olmuşdur. O, türk dilində qəzetin və teatrın əsasını qoymuşdur. XIX yüzillik türk düşüncə tarixinin ən böyük siması "vətən və hürriyyət şairi" adlanan **Namiq Kamaldır**. O, Osmanlı dövlətindəki problemlərin ədalətsizlikdən qaynaqlandığını düşünürdü. Osmanlı dövlətinin qurtuluşunu, keçmişdə olduğu kimi, hüququn üstünlüyü və ədalətli bir sistemin qurulmasında görürdü. Onun fikrincə, hürriyyət (*azadlıq*) və ədalətə əsaslanan toplum inkişafı və həmrəyliyi təmin edə bilər. Şair demokratiyanı, hakimiyyət bölgüsünü iqtisadi və siyasi sahələrdə inkişafı təmin edən əsas amil hesab edirdi.


Namiq Kamal

Hindistanın mədəniyyət və ictimai xadimi **Rabindranat Taqorun** əsərləri bədii kamilliyi və fəlsəfi dərinliyi ilə dünyada məşhur idi. Onun sosial bərabərsizliyi tənqid edən "Qora" romanı ədəbiyyat üzrə Nobel mükafatı almışdır. Əsərin əsas qəhrəmanı Qora Hindistanın azadlığı və inkişafını bütün təbəqələrin hinduizm dini ətrafında birləşməsində görür.


Rabindranat Taqor

**Viktor Hüqonun** yaradıcılığında XIX yüzilliyin ən kəskin sosial problemləri öz əksini tapırdı. "Səfillər" onun ən məşhur romanlarından biridir. Lui Napoleon hərbi çevriliş edib hakimiyyəti ələ aldıqda


Viktor Hüqo



Lev Tolstoy

Hüqo onu vətənə xəyanətdə günahlandırmış və buna görə də sürgün edilmişdi.

Rus yazıçıları **Fyodr Dostoyevski**, **Anton Çexov** və **Lev Tolstoy** dünya ədəbiyyatına böyük təsir göstərdilər.



Emil Zolya

Fransız yazıçısı **Emil Zolya** əsərləri ilə yanaşı, ictimai həyatda ədalətsizliyə qarşı mövqeyi ilə də yadda qalmışdır. O, Fransa ordusunda xidmət edən zabit Dreyfusa yəhudi olduğu üçün göstərilmiş ədalətsiz münasibətə qarşı etiraz səsini yüksəltmişdir.



L'AURORE

J'Accuse...!

LETTRE AU PRÉSIDENT DE LA RÉPUBLIQUE

Par ÉMILE ZOLA

E.Zolyanın "İttiham edirəm!" başlıqlı açıq məktubunun dərc olunduğu "Avrora" qəzetinin 13 yanvar 1898-ci il tarixli baş səhifəsi

**EMİL ZOLYA**

"İttiham edirəm!" (Fransa prezidentinə məktub)

Hörmətli Prezident!
Dreyfus hadisəsi* adınız və idarəetməniz üçün ləkədir! Bir hərbi şura yuxarıdan gələn bir əmrlə mayor Esterazini təmizə çıxarmağı həqiqətdən və ədalətə ağır bir zərbə vurmaqdan üstün tutdu. ... Fransanın alnına ləkə vuruldu. Tarix belə ictimai cinayətin sizin prezidentliyiniz dövründə işləndiyini yazacaqdır. ... Həqiqəti danışacağam. ... Danışmaq vəzifəmdir. Cinayətə ortaq olmaq istəmirəm. Yoxsa gecələrim işləmədiyi bir cinayətə görə işgəncələrin ən qorxuncunu çəkən günahsız bir insanın görüntüsündən qurtula bilməz. ... Fransanın başına bəla kəsilən ədalətsizlik xəstəliyi özünü göstərəcəkdir. ... Dreyfus ... kilsə şəraitinin "pis yəhudi" ovunun qurbanı olmuşdur. Bu hadisə dövrümüzün üz qarasıdır.

Yazıçının mövqeyini necə dəyərləndirirsiniz?

*** Dreyfus hadisəsi**

*1894-cü ildə Fransa ordusunda zabit olan yəhudi əsilli Alfred Dreyfus haqsız olaraq Fransa ordusunun hərbi sirlərini alman hərbi dairələrinə satmaqda günahlandırılır. Məhkəmə əsaslı sübut olmadan ona cəza verir.*

XIX yüzillik – XX yüzilliyin əvvəllərində mədəniyyətin müxtəlif sahələrində yeniliklərə aid cədvəli tamamlayın.

| MƏDƏNİYYƏT SAHƏLƏRİ | YENİLİKLƏR |
|---|---|
| İNCƏSƏNƏT | |
| ELM VƏ TƏHSİL | |

# VERSAL-VAŞİNQTON SİSTEMİ

Paris sülh konfransı, “14 maddə” prinsipi, Versal sülh müqaviləsi, Millətlər Cəmiyyəti, “Mandat rejimi”, Vaşinqton konfransı

## QALİBLƏRİN SÜLHÜ

İlk dünya müharibəsindən sonra qalib dövlətlər dövlətlərarası münasibətlərin yeni qaydalarını müəyyən etmək üçün sülh konfransının çağırılmasını qərara aldı. 1919-cu ilin yanvarında Parisdə başlayan sülh konfransı məğlub ölkələri cəzalandırmaq və sülh müqavilələri-



nin şərtlərini hazırlamaq məqsədi daşıyırdı. Qaliblər **Paris sülh konfransını** tarixdə yeni bir dövrün başlanğıcı elan etmişdilər. Konfransda yalnız qalib və bitərəf ölkələr təmsil edilirdi. Müharibə başa çatmamış Almaniya və müttəfiqləri ilə separat sülh müqaviləsi imzalayan **Sovet Rusiyası** konfransa dəvət edilmədi.

Sizcə, nə üçün qaliblər Paris sülh konfransını tarixdə yeni dövrün başlanğıcı elan etmişdilər?

Paris sülh konfransının məqsədi nə idi?

Sovet Rusiyası nə üçün konfransa dəvət edilmədi?

Sülh müqavilələrinin 1918-ci ildə ABŞ prezidenti V.Vilson tərəfindən irəli sürülən **14 maddə prinsipinə** əsaslanması nəzərdə tutulmuşdu. Bu maddələrdən ən önəmlisi ərazi mübahisələrinin xalqların **öz müqəddəratını təyinetmə** prinsipi ilə həll edilməsi haqqında idi. Lakin qalib döv-



lətlər arasında konfransda meydana çıxan fikir ayrılıqları vəziyyəti çətinləşdirdi.

**Maraqlıdır**

İngiltərənin Baş naziri Lloyd Corc Almaniya və Antanta arasında atəşkəs haqqında müqaviləni belə dəyərləndirmişdir: “Ümid edirəm ki, bu tarixi gündə bütün müharibələri başa çatdırdıq”.

### VİLSONUN “14 MADDƏ” PRİNSİPİ

“Tarix”. İstanbul, 2002

1. Bir daha gizli müqavilələrin imzalanmasına icazə verilməməsi, sülh müqavilələrinin açıqlıq prinsipinə uyğun olaraq hazırlanması; [...]

2. Ərazi suları istisna olmaqla, sülh dövründə olduğu kimi, müharibə dövründə də dənizlərdə sərbəstlik olması;

3. Bütün iqtisadi məhdudiyyətlərin mümkün qədər aradan qaldırılması və sülhü dəstəkləyən ölkələrə bərabər ticarət şəraitinin yaradılması [...];

4. [...] Bütün ölkələrin silah və sursatlarının azaldılması [...];

5. Müstəmləkələrlə bağlı bütün tələblərin, [...] əlaqədar xalqların mənafeyinə uyğun və dövlətlərin tələblərinin ədalətli həll edilməsi;

6. Rus torpaqlarının tamamilə xarici qüvvələrdən azad edilməsi və Rusiya ilə bağlı problemlərin [...] tam müstəqil olaraq öz siyasi inkişafına uyğun həll edilməsi [...];

12. [...] Türk hakimiyyəti altında yaşayan xalqlara varlıqlarını davam etdirmə təminatının verilməsi [...];

Boğazların bütün ölkələrin gəmilərinə açıq və sərbəst olması [...];

14. Böyük dövlətlərə olduğu qədər kiçik dövlətlərə də siyasi müstəqillik və torpaq bütünlüyü təminatı vermək məqsədilə [...] bir millətlər birliyi təşkil edilməlidir.



“Vilson və Millətlər Cəmiyyəti”
“Punch” (Panç) jurnalı, 1919-cu il, İngiltərə

**Vilson:** “Bu da zeytun budağı. İndi də iş başına!”
**Göyərçin:** “Hər kəsi məmnun etmək istəyirəm, amma bu, çətindir”.

Karikaturun əsas ideyası nədir?

Sülh müqavilələrinin şərtləri hazırlandıqdan sonra məğlub dövlətlərə ultimatum şəklində təqdim edildi. Konfransda ilk olaraq Almaniya ilə **Versal sülh müqaviləsi** imzalandı. Müqavilənin ilk hissəsini **sərhədlər məsələsi** təşkil edirdi. Almaniya **Elzas** və **Lotaringiyanı** Fransaya qaytarmalı idi. **Saar** vilayətinin idarəçiliyi Millətlər Cəmiyyətinə verilsə də, onun vəziyyətinin 15 il sonra plebissit* yolu ilə qəti müəyyən edilməsi nəzərdə tutulurdu.

*** Plebissit**

*ümumxalq səsverməsidir.*

**Poznan** və **Qərbi Prussiya** Polşaya verilməli idi. Həmçinin Almaniya Avstriya ilə birləşməməyi öhdəsinə götürür, bütün müstəmləkələrini itirirdi. Müqavilənin **hərbi şərtlərinə** görə Almaniya məcburi hərbi xidməti ləğv etməli, ordu və donanmasını məhdudlaşdırmalı idi. Almaniya Reyn çayı boyunca qoşun saxlaya bilməzdi.

Müqavilənin ən ağır şərtlərindən biri Almaniyanın müharibədə təqsirkar olduğunu qəbul etməsi və buna görə də təzminat verməli olması idi. Bu, sonralar Almaniyanın iqtisadi vəziyyətini daha da ağırlaşdırdı.

**VERSAL MÜQAVİLƏSİNİN BƏZİ ŞƏRTLƏRİ**

**Maddə 51.** ... 1871-ci il Frankfurt müqaviləsi ilə Almaniyaya verilən ərazilər ...yenidən Fransa hakimiyyətinə keçmişdir.

**Maddə 231.** Almaniya özünün və müttəfiqlərinin təcavüzkar olduğu səbəbi ilə Antanta dövlətlərinin məruz qaldığı bütün zərərlərdən məsuliyyət daşıdığını qəbul edir.

**Maddə 232.** Antanta dövlətləri öz mülki əhalisinə və onların əmlakına dəyən bütün zərərlərin ödənilməsini tələb edir və Almaniya bu təzminatı ödəməyi qəbul edir.

S Versal müqaviləsinin Almaniya üçün daha ağır şərti hansı ola bilərdi? Səbəbini əsaslandırın.

Versal müqaviləsi digər məğlub dövlətlərlə imzalanan müqavilələrlə tamamlandı: Avstriya ilə 1919-cu ildə **Sen Jermen**, Bolqarıstanla **Neyi**, 1920-ci ildə Macarıstanla **Trianon** müqavilələri imzalandı. Bu müqavilələrə görə onlar ərazilərinin bir hissəsini qonşu dövlətlərə verməli, Almaniya kimi hərbi qüvvələrini məhdudlaşdırmalı və təzminat ödəməli idi.

Antanta dövlətləri Osmanlı dövlətinin parçalanmasını nəzərdə tutan **"Şərq məsələsi"**ni də qəti olaraq həll etmək istəyirdi. Osmanlı dövlətinin ərazilərinin bölüşdürülməsində İngiltərə və Fransa arasında olan ziddiyyətlər onunla müqavilənin imzalanmasını gecikdirdi. 1920-ci ildə Osmanlı dövləti ilə bağlanan **Sevr müqaviləsində** daha ağır şərtlər nəzərdə tutulurdu. Belə ki Osmanlı dövlətinin əraziləri İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürülməli idi. Lakin **Mustafa Kamalın** başçılığı ilə türk xalqının istiqlal müharibəsinə başlaması bunun qarşısını aldı.

Paris konfransında dövlətlərarası münasibətlərin yenidən qurulmasında millət amili əsas rol oynadı. Bu münasibətlər artıq güc tarazlığı ilə deyil, **millətlərin öz müqəddəratını təyinetmə prinsipi** ilə tənzimlənirdi. Bu hər bir xalqın müstəqil dövlət yaratma hüququnun tanınması demək idi. Lakin bəzən coğrafi, tarixi, mədəni və iqtisadi amillər bu prinsipin həyata keçirilməsi ilə ziddiyyət yaradırdı.

T Paris konfransında Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasını millətlərin öz müqəddəratını təyinetmə prinsipi ilə əlaqələndirərək dəyərləndirin.

S Paris konfransında dövlətlərarası münasibətlər hansı prinsip əsasında tənzimlənirdi?

Konfransın nəticəsində xüsusilə Avropada və Yaxın Şərqdə sərhədlər dəyişdi. Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Rusiya imperiyaları dağıldı. Avstriya-Macarıstan imperiyasının parçalanması nəticəsində onun ərazisində yeni dövlətlər: **Avstriya, Macarıstan, Çexoslovakiya və Serb–Xorvat–Sloven krallığı** (*sonralar Yuqoslaviya*) yaradıldı. Vaxtilə Rusiya və digər dövlətlər tərəfindən bölüşdürülən müstəqil **Polşa** dövləti bərpa edildi. Xalqların müqəddəratını təyinetmə hüququ tanınarkən yeni **milli azlıqlar** problemi yarandı. Beləliklə, milli azlıq məsələsi və millətçilik müharibədən sonra da sülh üçün təhlükə olaraq qaldı. Konfransın mühüm nəticələrindən biri dövlətlərarası münasibətləri nizamlamaq üçün **Millətlər Cəmiyyətinin** yaradılması oldu. Lakin məğlub dövlətlər və Sovet Rusiyası bu təşkilata üzv qəbul edilmədi.

## ZİDDİYYƏTLƏR VƏ "CƏZALANDIRICI SÜLH"

Paris konfransı qalib dövlətlər arasında ziddiyyətlərin olduğunu göstərdi. Məğlub olanlar da, qalib gələnlər də sülh müqavilələrindən narazı idi. Yaxın Şərqin bölüşdürülməsi və digər məsələlərdə İngiltərə ilə Fransa arasında narazılıq yarandı. Fransa öz təhlükəsizliyi üçün önəmli hesab etdiyi nəticəyə nail olmadı. İtaliya müharibə dövründə gizli müqavilə ilə ona vəd edilmiş əraziləri ala bilmədiyindən narazı qalmışdı. Avropada qüvvələr tarazlığını saxlamaq istəyən ABŞ Almaniyanın tamamilə zəiflədilməsini istəmirdi. Ona görə də İngiltərə və

Fransanın güclənməsinə mane olmaq məqsədilə Almaniya və Osmanlı dövlətindən alınmış torpaqların Millətlər Cəmiyyətinin **mandat* sistemi** əsasında idarə edilməsi təklifini irəli sürdü. ABŞ həmçinin Yaponiyanın Uzaq Şərqdə möhkəmlənməsinin qarşısını almaq istəyirdi. Millətlər Cəmiyyətinə üzvlük ABŞ-nin ənənəvi **təcridçilik** siyasətinə zidd olduğuna görə Senat Versal müqaviləsini **ratifikasiya*** etmədi. Nəticədə ABŞ Millətlər Cəmiyyətindən kənarda qaldı.

* **Mandat** *himayə deməkdir.*

* **Ratifikasiya**

*dövlətin ali hakimiyyət orqanının dövlət və ya hökumət nümayəndəsi tərəfindən bağlanmış beynəlxalq sənədləri (müqavilə, saziş) təsdiq etməsidir.*

Paris konfransını 1814–1815-ci illər Vyana konqresi ilə müqayisə edin.

Versal sisteminin ziddiyyətlərini dəyərləndirin.

Almaniyanın müstəmləkələri və Osmanlı dövlətinin tərkibində olan Yaxın Şərqdəki ərəb torpaqları **“Mandat rejimi”** adı altında bəzi qalib dövlətlərə verildi. İngiltərə, həmçinin onun dominionları, Fransa, Belçika və Yaponiya mandat sahibi oldu. Onlar Almaniyanın Afrika və Sakit okeandakı müstəmləkələrinə, Osmanlı dövlətinin Yaxın Şərqdəki ərazilərinə nəzarəti ələ keçirdi. Müstəmləkələr **A, B** və **C kateqoriyalarına** bölündü. Mandat sahibi olan dövlət A və B kateqoriyasına daxil edilmiş ölkələri müstəqilliyə hazırlamalı idi. C kateqoriyasına daxil edilmiş ərazilər isə mandat sahibi olan dövlətin mülkü hesab edilirdi. Əslində, mandat rejimi qalib dövlətlərin ərazi ilhaq etmələrinin bir alternativi oldu.

Paris sülh konfransı uzunmüddətli sülhün təmin edilməsinə deyil, məğlub dövlətlərin cəzalandırılmasına yönəlmişdi. Versal müqaviləsinin ağır şərtləri sonralar – 1920-ci illərdə Almaniyada millətçi siyasi qrupların fəallaşmasına səbəb oldu.

Versal və digər məğlub dövlətlərlə bağlanan müqavilələrin əsaslandığı “14 maddə” prinsipinin həyata keçirilməsində ikili standart yeridilirdi. Bu prinsiplər Avropada müəyyən dərəcədə həyata keçirilsə də, Asiya, Afrika və bəzi Amerika xalqlarına şamil edilmədi. Müharibədə İngiltərə ordusunda vuruşan Hindistan xalqlarına müstəqillik verilmədi. Müharibə dövründə Osmanlı dövlətinə qarşı üsyan qaldırmaq müqabilində ərəblərə verilən vədlər yerinə yetirilmədi. Yaxın Şərqdəki Osmanlı mülkləri İngiltərə və Fransanın mandatı altına verildi. **Çinin** bir hissəsi və **Koreya** Yaponiyanın tərkibində qaldı. Təcridçilik siyasəti yeridən ABŞ-nin Millətlər Cəmiyyətinə daxil olmaması və Sovet Rusiyasının kənarda qalması da Versal sisteminin zəifliyini göstərirdi. Bütün bu ziddiyyətlər sonralar müasir dövrə qədər təsirləri davam edən yeni münaqişələrin yaranmasına səbəbo ldu.



Paris sülh konfransı

> **HENRİ KİSSİNCER**
> "Diplomatiya"
>
> Müharibəni nəticələndirən sülh Avropanın ən güclü iki dövlətini əhatə etmirdi: Almaniya və Rusiyanı. Bu ölkələr Avropanın əhalisinin yarıdan çoxunu və ən böyük hərbi potensialını təşkil edirdi. Yalnız bu həqiqət belə Versal sistemini uğursuzluğa məhkum edə bilərdi.
>
> Versal müqaviləsinin uğursuzluğunda hansı amil əsas hesab edilir? Bu hansı səbəblərlə əsaslandırılır?

## VAŞİNQTON KONFRANSI

Avropa, Afrika və Yaxın Şərqdə məsələlər həll edildikdən sonra Uzaq Şərq və Sakit okean zonasında münasibətləri tənzimləmək üçün 1921–1922-ci illərdə **Vaşinqtonda** konfrans keçirildi. Konfransın nəticələrindən biri ABŞ, İngiltərə, Fransa və Yaponiya arasında **Dörd dövlət müqaviləsinin** imzalanması oldu. Müqavilə tərəflərin Sakit okean bölgəsindəki mülklərinin tanınmasını nəzərdə tuturdu. Konfransda Çinə aid münasibətləri tənzimləyən müqaviləyə görə Çinin müstəqilliyi, ərazi bütövlüyü tanındı. Bu ölkədə sənaye və ticarət sahələrində bərabər imkanlar prinsipi tətbiq edilirdi. Əslində, bu, ABŞ-nin **"Açıq qapılar"** siyasətinin həyata keçirilməsi demək idi. Konfransda imzalanan üçüncü müqavilə isə dəniz silahlarının məhdudlaşdırılması haqqında oldu. Müqavilənin mühüm nəticələrindən biri Yaponiyanın Sakit




Versal sistemi ilə bağlı karikatur

okeanda fəaliyyətinin məhdudlaşdırılması idi. Digər nəticə isə İngiltərənin dəniz üstünlüyünü ABŞ ilə bölüşməsi oldu. Konfransın nəticələri Yaponiyanı narazı saldı və bu onun ABŞ-yə qarşı **revanşizm** (*qisasçılıq*) siyasətinin başlanğıcını qoydu.

Beləliklə, Versal və Vaşinqton konfranslarının qərarları ilə dövlətlərarası münasibətlərdə yeni sistem quruldu. Lakin bu sistem dünyada mövcud olan siyasi-iqtisadi problemləri tamamilə və ədalətlə həll etmədi.

V.Vilsonun "14 maddə"si və Versal müqaviləsinin şərtlərini müqayisə edin.

| V.VİLSONUN "14 MADDƏ"Sİ | | VERSAL MÜQAVİLƏSİ |
|---|---|---|
| Fərqli cəhətləri | Oxşar cəhətləri | Fərqli cəhətləri |

Zaman oxunda verilmiş hadisələrin tarixini müəyyən edin:

| "14 maddə" prinsipinin irəli sürülməsi | Paris sülh konfransının başlanması | Vaşinqton konfransının başlanması |
|---|---|---|
| | | |

# ABŞ, BÖYÜK BRİTANİYA VƏ FRANSA

"Böyük böhran", konveyer, Lloyd Corc, leyboristlər, Milli blok, Xalq cəbhəsi

## ABŞ

ABŞ-nin Birinci dünya müharibəsində iştirak etməsi onun Beynəlxalq aləmdə rolunu artırdı və dünya dövləti kimi tanınmasına gətirib çıxardı. Müharibə dövründə ABŞ Avropa dövlətlərinə hərbi və ərzaq məhsulları ixrac etməklə sənaye sahələrini inkişaf etdirdi. Bu dövrdə onun ərazisində hərbi əməliyyatların getməməsi ölkənin inkişafına müsbət təsir göstərdi. Artıq 1920-ci ildə dünyada avtomobil, neft və polad istehsalının böyük hissəsi ABŞ-nin payına düşürdü. Bütün bunlar ölkə əhalisinin milli gəlirinin xeyli artmasına səbəb oldu.

Birinci dünya müharibəsindən sonra ABŞ kapital ixracını artırsa da, XX yüzilliyin ortalarına qədər bu sahədə Böyük Britaniyanı üstələyə bilmədi.

Müharibədən sonra ABŞ-də siyasi narazılıqlar da kifayət qədər yüksək idi. Vudro Vilsonun Paris sülh konfransında ABŞ-nin üstünlüyünü təmin etməyi bacarmaması ona və partiyasına qarşı etirazları daha da artırdı.

Birinci dünya müharibəsinin ABŞ üçün nəticələrini araşdırın.

Vilson özünün və partiyasının nüfuzunu yenidən yüksəltmək üçün konstitusiyaya mühüm düzəlişlər edilməsini təklif etdi. Düzəlişlərdən biri qadınlara seçki hüququnun verilməsi və onların bərabərhüquqlu vətəndaşlar hesab edilməsi idi. Bu təklif ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən protestantların kütləvi narazılığına səbəb oldu. Digər düzəliş isə spirtli içkilərin istehsalı və istehlakının qadağan edilməsi idi. Bu qanunun qəbul edilməsi qara bazarın genişlənməsinə və çirkli pulların işə düşməsinə səbəb oldu.

Qadınlara seçki hüququnun verilməsi və onların bərabərhüquqlu vətəndaş hesab edilməsi ilk dəfə hansı ölkədə tətbiq olunmuşdur?



Uorren Hardinq və Kalvin Kulic

1920-ci ildə prezident seçilən **Uorren Hardinq** hökumətinin ilk tədbiri büdcə vəsaitlərinin qənaətlə istifadəsini təşkil etmək oldu. V.Vilsonun iqtisadi tənzimlənmə siyasəti aradan qaldırıldı.

Hardinq hökumətinin xarici siyasətdə atdığı ilk addım müharibə dövrünün rəqibləri ilə münasibətləri qaydaya salmaq oldu. Bu məqsədlə Almaniya ilə sülh müqaviləsi imzalandı. Uzaq Şərqdə vəziyyətin nizamlanması və donanmada silahlanmanın məhdudlaşdırılması məqsədilə böyük dövlətlərin iştirakı ilə konfrans keçirildi. Konfransda ümumi razılıqla Çinin suverenliyi və ərazi bütövlüyü təsdiqləndi.

Hökumət daxilində bəzi nazirlərin adlarının korrupsiya əməllərində çəkilməsi Hardinqin nüfuzuna xələl gətirdi. O, 1923-cü ildə cəmiyyəti sakitləşdirmək və nüfuzunu bərpa etmək üçün qərb ştatlarına çıxdığı səfər zamanı vəfat etdi.

1924-cü ildə vitse-prezident **Kalvin Kulic** prezident seçildi. Daxili siyasətini ölkə iqtisadiyyatının gücləndirilməsinə yönəldən K.Kulic "ABŞ-nin işi biznesdir" şüarını irəli sürdü.

İri kapitala qoyulan vergilər azaldıldı, istehsal üzərində dövlət nəzarəti ləğv edildi. Dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılması nəticə-

sində xüsusi biznes inkişaf etdi. Çiçəklənmə illərində istehsala yeni texnologiya və **konveyer*** sistemi tətbiq edildi. Əhalinin həyat səviyyəsi yaxşılaşdı. Bütün bunlar ölkəyə mühacir axınını son dərəcə artırdı. Artıq ABŞ-nin əsas probleminə çevrilən bu məsələni həll etmək üçün yeni mühacirət qanunu qəbul edildi. Qanuna görə Şərqi Asiyadan mühacirət axını qadağan edildi, digər ölkələrdən mühacirət edənlərə isə məhdudiyyət qoyuldu.

*** Konveyer**

*istehsalın konveyer qaydası istehsal prosesinin iş yerlərində ardıcıl yerləşdirilmiş xüsusi avadanlıqlarla həyata keçirilməsini, prosesin ayrı-ayrı və nisbətən qısa müddətli əməliyyatlara bölünməsini nəzərdə tuturdu.*

Xarici ölkələrdən, xüsusilə Asiya ölkələrindən ABŞ-yə mühacir axınının səbəblərini araşdırın.

Kulic hökumətinin xarici siyasəti xammal və satış bazarlarına yiyələnməyə doğru yönəldilmişdi. Avropa ölkələri ilə qarşılıqlı münasibətlər inkişaf etdirildi. Almaniyanın təzminat məsələsində dəstəklənməsi siyasəti yeridilməsinə nail olundu. ABŞ Latın Amerikası ölkələrinə yardımlar edərək bu regionda iqtisadi, siyasi və hərbi cəhətdən xeyli möhkəmləndi. Həmçinin ABŞ-nin Filippin və Havay adalarında hərbi-strateji mövqeləri möhkəmləndi. Beləliklə, Kulicin hakimiyyəti illərində ABŞ-nin beynəlxalq nüfuzu xeyli artdı.

1928-ci ildə prezident seçilən **Herbert Huverin** iqtisadi siyasətinin əsasını inzibati orqanların yeniləşdirilməsi və ölkə iqtisadiyyatının inkişaf etdirilməsi təşkil edirdi. Huver hökuməti daxili siyasətdə yoxsulluğu aradan qaldırmaq üçün plan işləyib hazırladı. Lakin "Böyük böhran"ın başlaması bu planın həyata keçirilməsinə mane oldu. Atılan uğursuz addımlar **Franklin Delano Ruzveltin (1933–1945)** prezident seçilməsinə səbəb oldu.

Ölkədə vəziyyət son dərəcə ağır idi. Sənaye müəssisələrinin işini bərpa etmək və işsizlik problemini aradan qaldırmaq Ruzvelt hökumə-



Franklin Ruzvelt

tinin qarşısında duran ən vacib məsələ idi. O, fəaliyyətə başladığı ilk günlərdən ölkəni iqtisadi böhrandan xilas etmək üçün **"Yeni xətt"** adlanan sosial-iqtisadi islahatlar proqramını həyata keçirməyə başladı. Hökumət birinci olaraq ölkənin maliyyə vəziyyətini qaydaya salmaq üçün bank sistemində islahatlar keçirdi, işsizlik problemini aradan qaldırmaq üçün onları ödənişli ictimai işlərə cəlb etdi.

F.Ruzveltin daxili siyasətində dövlətin iqtisadiyyata tənzimləyici rolunu müəyyən edin.

Kənd təsərrüfatı sahəsində də təxirəsalınmaz tədbirlər görüldü. İstehsala və qiymətlərə dövlət nəzarəti gücləndirildi. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına səy göstərildi, azyaşlı uşaqlara işləmək qadağan edildi. ABŞ tarixində ilk dəfə təqaüd və sosial müavinət sistemi yaradıldı, sosial sığortanın əhatəsi genişləndirildi. F.Ruzveltin dövründə ABŞ-nin xarici siyasəti XX yüzilliyin 30-cu illərində də ənənəvi əsaslara söykənmişdi. F.Ruzvelt Latın Amerikası ölkələrinə qarşı **"mehriban qonşuluq"*** siyasətini irəli sürdü.

*** "Mehriban qonşuluq"**

*Franklin Ruzveltin dövründə ABŞ-nin Latın Amerikası ölkələri ilə münasibətlərdə apardığı xarici siyasi xətdir. Bu siyasi xətt Teodor Ruzvelt tərəfindən elan edilmiş **"Böyük dəyənək"** siyasətinin əvəzi hesab olunur.*

ABŞ-nin məqsədi öz mövqeyini burada möhkəmləndirməklə Hitler Almaniyası, İtaliya və Yaponiyanın təsirinin qarşısını almaq idi.

Ruzvelt Sovet İttifaqı ilə diplomatik əlaqələr qurmağa başladı. O, iki dövlət arasında münasibətlərin normallaşmasının Uzaq Şərqdə ABŞ-nin mövqeyinin güclənməsinə təsir edəcəyini düşünürdü. Beləliklə, 1933-cü ildə SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yarandı, SSRİ dövləti tanındı.

T.Ruzvelt və F.Ruzveltin xarici siyasətinin oxşar xüsusiyyətlərini müəyyən edin.

1935-ci ildə "Bitərəflik haqqında qanun" qəbul edildi. Bu qanuna əsasən münaqişə yaranmış ərazilərdə təcavüzkar ilə təcavüzə məruz qalan ölkələrə fərq qoyulmurdu. ABŞ-nin bu siyasəti baş vermiş münaqişələrin daha da genişlənməsinə yol açdı.



## BÖYÜK BRİTANİYA

Birinci dünya müharibəsi İngiltərə iqtisadiyyatına təsirsiz ötüşmədi. Hələ müharibədən qabaq İngiltərə iqtisadiyyatında baş verən durğunluq müharibədən sonra daha qabarıq şəkildə özünü göstərdi. İngiltərənin müharibədən qaliblər sırasında çıxmasına baxmayaraq, ölkəyə böyük ziyan dəydi.

Ölkədə sənaye və kapitalın təmərküzləşməsi prosesi daha da sürətləndi. Kiçik və orta müəssisələrin sıradan çıxması nəticəsində iri




sənaye müəssisələri artdı. Müharibə ölkənin maliyyə vəziyyətini də iflic etmişdi. Dövlətin xarici borcları digər Avropa ölkələrinə nisbətdə daha çox idi. İngiltərə milli sərvətinin xeyli hissəsini itirmişdi. Buna görə də dünyanın maliyyə mərkəzi Londondan Nyu-Yorka keçdi.

Liberallar hökumətinin xarici siyasətinin istiqamətlərindən biri müstəmləkələrlə münasibətlər idi. **Lloyd Corc** müstəmləkələrlə münasibətdə imperiya siyasətindən imtina etməyə tərəfdar olsa da, mühafizəkarlar bu addımları Böyük Britaniyanın nüfuzuna zərbə kimi qiymətləndirdilər. Mühafizəkarların əks təbliğatına çevrilən bu məsələdə liberallar qətiyyət göstərməkdən çəkindilər.

Hökumətin xarici siyasətində əsas yerlərdən biri də türk torpaqlarına sahib olmaq idi. Ancaq Türkiyəyə qarşı yeridilən bu siyasət başlamış azadlıq hərəkatı ilə iflasa uğradı. Bu uğursuzluğa görə L.Corc hökuməti parlamentdə müxalifətlə yanaşı, öz partiyasının da qəti tənqidləri ilə üzləşdi.


Ramsey Makdonald

1922-ci ildə Liberalların koalisiyalı hökuməti L.Corcun istefa verməsi ilə başa çatdı. Yeni seçkilərdə mühafizəkarlar qalib gəlsə də, verdikləri vədləri yerinə yetirə bilmədilər. 1924-cü ildə **Ramsey Makdonaldın** başçılığı ilə ilk leyborist hökuməti təşkil olundu. Leyboristlərin sosial sahədə elan etdiyi bir çox vədləri həyata keçirmək mümkün olmadı. Hökumət böhranı yarandı. R.Makdonald istefaya getdi.

Böyük Britaniyada tez-tez hökumət böhranlarının baş verməsinin səbəblərini araşdırın.

Yeni təşkil olunan mühafizəkar hökuməti milli istehsalı artırmaq üçün gəlir vergisini azaltdı.

Aparılan islahatlar ölkə iqtisadiyyatının inkişafına səbəb oldu. İngiltərə iqtisadi inkişafının başlıca xüsusiyyəti kapital ixracının artması, beynəlxalq bank əməliyyatlarının səmərəli aparılması və əlverişli dəniz nəqliyyatı ilə bağlı idi. Görülən işlər nəticəsində sənaye məhsulu istehsalı müharibədən əvvəlki səviyyəyə çatdı.

Bütün bunlara baxmayaraq, ölkədə sosial ziddiyyətlər ağır olaraq qalırdı. Sosial təminat haqqında qəbul edilən proqramla pensiya yaşı aşağı salındı, imkansızlara sosial müavinət verildi. Ancaq hökumətin sərt büdcə siyasətinə keçməsi yenicə bəhrəsini verməyə başlayan inkişafı ləngitdi.

Sosial ziddiyyətlərin kəskinləşməsi ilə bir çox sahələrdə tətil hərəkatları başlandı. Parlament 1927-ci ildə qəbul olunan qanunla hökumətə təsir göstərmək niyyəti ilə təşkil olunan tətil və nümayişləri qadağan etdi.

Mühafizəkarlar hökumətinin xarici siyasəti İngiltərənin beynəlxalq siyasi və maliyyə mövqelərinin yüksəlməsinə yönəldilmişdi. Bununla İngiltərə ABŞ ilə yanaşı, dünya maliyyə liderlərindən biri oldu.

Mühafizəkarların uğursuz daxili siyasəti onların 1929-cu il seçkilərində leyboristlərə məğlub olmasına gətirib çıxardı.

İkinci Leyborist hökumətinin daxili siyasəti başlıca olaraq işsizliyə qarşı mübarizənin həyata keçirilməsini, iş yerləri yaratmaq üçün köçürmə siyasətinin yerinə yetirilməsini və sosial sığorta sisteminin tətbiqini nəzərdə tuturdu. Hökumət bu proqramla radikal addımlardan çəkinir, digər partiyalarla ümumi razılıq əsasında tədbirlər həyata keçirirdi.

Böyük böhran illəri İngiltərədə də sürətlə hiss olunmağa başladı. Hökumət böhranın nəticələrini zəiflətmək üçün ictimai iş yerləri yaratdı və əmək qabiliyyətli əhalinin bir qismini böhran rayonlarından köçürtdü.

Leyboristlərin xarici siyasətində müstəmləkələr və dominionlar məsələsi xüsusi yer tuturdu. Əvvəlki hökumət SSRİ ilə diplomatik münasibətləri bərpa etsə də, iki ölkə arasında soyuqluq hələ də qalırdı.

Ölkənin daxili və xarici siyasətində yaranan problemlərin həll olunmaması xalqın narazılığını artırdı. Sosial ziddiyyətlər kəskinləşdi. R.Makdonald mühafizəkarlar və liberallardan ibarət koalisiyalı hökumət qurdu. Koalisiyalı hökumət “Milli hökumət” adlandırılırdı. 1930-cu illərin ortalarında mühafizəkarların həyata keçirdiyi geniş iqtisadi və sosial tədbirlər nəticəsində ölkə iqtisadiyyatı sabit inkişaf mərhələsinə qədəm qoydu.

## FRANSA

Fransa qaliblər sırasında olsa da, müharibədən sonra sosial-iqtisadi vəziyyəti ağır idi. Hərbi əməliyyatlar nəticəsində, demək olar ki, ölkənin bütün əsas vilayətləri işğal olunmuşdu. Ona görə də digər Avropa ölkələrindən fərqli olaraq ən çox iqtisadiyyatına və insan kapitalına zərər dəyən ölkələrdən biri idi. Bu fürsətdən istifadə edən ingilis və amerikan kapitalı Fransaya daha çox nüfuz etməyə başladı. Hərbi əməliyyatlar kənd təsərrüfatına da ağır zərbə vurmuşdu.

Birinci dünya müharibəsindən sonra Fransanın iqtisadi vəziyyəti digər Avropa ölkələri ilə müqayisədə niyə daha ağır vəziyyətdə idi?

Ölkənin məruz qaldığı ağır sosial-iqtisadi vəziyyətə baxmayaraq, iqtisadiyyatın bəzi sahələri, eləcə də hərbi sənaye inkişaf etmişdi. Elzas və Lotaringiyanın geri qaytarılması, Saar daş kömür hövzəsindən istifadə edilməsi nəticəsində Fransa tədricən Avropanın ən güclü dövlətlərindən birinə çevrilməyə başladı. Həmçinin Afrikada bir sıra ərazilərin, Suriya və Livanın müstəmləkəyə çevrilməsi Fransa iqtisadiyyatının inkişafına müsbət təsir göstərdi.

1920–1924-cü illərdə hökumət ölkədə müharibənin ağır nəticələrini əks etdirən iqtisadi böhranı cilovlamağa çalışırdı. Bu dövrdə iqtisadiyyata dövlət müdaxilələrini məhdudlaşdırmaq xətti yeridilir və yüngül vergi siyasəti tətbiq edilirdi. Hökumət yaranmış büdcə kəsirlərini aradan qaldırmaq üçün Rusiyadan geri alınan borclara ümid bəsləyirdi. Ancaq Rusiya borc öhdəliklərindən imtina etdi. Üstə-

**Avropa XX yüzilliyin 20-30-cu illərində**




lik məğlub dövlətlərdən alınmalı olan təzminatların ödənilməməsi də Fransanın maliyyə vəziyyətini daha da ağırlaşdırdı.

Ölkəni bu ağır iqtisadi böhrandan qurtarmaq istəyən hökumət müttəfiqlərinin razılığını almadan Belçika qoşunları ilə bərabər 1923-cü ildə Almaniyanın Rur sənaye bölgəsinə hərbi müdaxilə etdi. Müttəfiq dövlətlərin kəskin narazılığına səbəb olan Rur böhranında Fransanın geri addım atması hakimiyyətin onsuz da zəif olan dayaqlarını sarsıtdı.

Rur böhranının səbəb və nəticələrini təhlil edin.

1920-ci illərin ikinci yarısında ölkə iqtisadiyyatı xeyli inkişaf etdi. Lakin 1929–1933-cü illərin böyük böhranı Fransadan da təsirsiz ötüşmədi.

Avropanı bürüyən faşist təşkilatlarının fəaliyyəti 30-cu illərdə Fransada  güclənməyə başladı. Ancaq onların 1934-cü ildə təşkil etdikləri qiyam uğursuzluqla başa çatdı.

Faşizm təhlükəsinə qarşı əzəli rəqiblər – sosialist, kommunist və radikalların 1935-ci ildə qurduqları **Xalq cəbhəsi*** bloku növbəti il parlament seçkilərində qalib gəldi. Xalq cəbhəsi hökumətləri dövründə dövlətin iqtisadi-sosial həyata müdaxilələri artırıldı, faşist təşkilatları qadağan olundu. Sosial və iqtisadi sahədə aparılan islahatlar nəticəsində vergi və təhsil sistemində bir sıra addımlar atıldı.

*** Xalq cəbhəsi**

*müxtəlif siyasi qüvvələrin və xalq kütlələrinin vahid düşmənə qarşı geniş koalisiya şəklində təşkilatlanma formasıdır. İlk belə təşkilatlar XX yüzilliyin 30-cu illərində müxtəlif yönümlü siyasi partiyaların və vətəndaşların qüvvəsini faşizmə qarşı mübarizədə toplamaq məqsədilə Fransa və İspaniyada meydana gəlmişdir.*

Xalq cəbhəsi blokunda təmsil olunan partiyalar arasında əvvəlcədən mövcud olan ixtilaflar daxili və xarici siyasət sahəsində görülən tədbirlərdə fikir ayrılıqlarını daha da şiddətləndirdi. Bütün bunlar blokun dağılmasına səbəb oldu.

XX yüzilliyin 20–30-cu illərində ABŞ, Böyük Britaniya və Fransanın xarici siyasi xətlərini müqayisə edin.

# ALMANİYA VƏ SSRİ

"Veymar konstitusiyası", Reyxstaq, Fürer, "Gestapo", kommunist, kolxoz, repressiya

## ALMANİYA

Almaniyanın digər Avropa ölkələrindən fərqli olaraq, gec birləşdirilməsi onu dünyanın yenidən bölüşdürülməsinə sövq edirdi. Bu prosesi həyata keçirmək üçün **Üçlər ittifaqı** çərçivəsində fəaliyyətini genişləndirən Almaniyanın bütün cəhdləri onun Birinci dünya müharibəsində uğursuzluğunun qarşısını ala bilmədi. Rusiyanın müharibədən çıxması cəbhədə nisbətən əlverişli vəziyyət yaratsa da, tezliklə bu vəziyyət də faydasız oldu.

1918-ci ilin yayında alman qoşunlarının darmadağın edilməsi müharibədə Almaniyanın qəti məğlubiyyətini açıq-aydın göstərdi. Birinci dünya müharibəsindəki hərbi uğursuzluqlar ölkədə sosial-iqtisadi vəziyyətə ağır zərbə vurdu. Ölkəni tətil hərəkatı bürümüşdü. Belə bir şəraitdə müharibənin davam etdirilməsi məqsədəuyğun deyildi. Ölkənin ağır sosial-iqtisadi vəziyyəti siyasi hakimiyyətə də təsir göstərdi. Almaniya hökuməti ABŞ prezidenti Vudro Vilsona məktub göndərərək sülh danışıqlarına başlamağı təklif etdi. Ancaq ABŞ bu təkliflərdən imtina etdi.

Almaniya hökumətinin sülh danışıqlarına başlamaq təklifindən ABŞ-nin imtina etməsinin səbəbini müəyyən edin.

Ölkədə yetişməkdə olan xalq kütlələrinin etirazları inqilabi hərəkatın başlanmasından xəbər verirdi. Hökumət bu inqilabi böhranın qarşısını almaq üçün bir sıra tədbirlər gördü. Belə ki hökumət parlament qarşısında məsuliyyət daşımalı idi. Siyasi məhbuslara amnistiya verildi. Ancaq görülən tədbirlər xalq kütlələrinin etirazlarının qarşısını almaqda aciz idi.

Hökumət kütlələrin rəğbətini qazanmaq üçün Kil limanında yerləşən hərbi dənizçiləri İngiltərə donanması ilə döyüşə çıxarmaq istədi. Burada hökumətin məqsədi ingilislər üzərində



Almaniya inqilabı. 1918-ci il, noyabr



Veymar şəhərində Konstitusiyanın qəbul olunması

qələbə əldə etməklə xalqı inqilabi meyillərdən çəkindirmək idi. Ancaq Kil hərbi dənizçiləri bu əmrə tabe olmayıb 1918-ci ilin noyabrında üsyan etdilər. Onların üsyanları bütün ölkəni əhatə edən tətil və nümayişlərə səbəb oldu. Beləliklə, Almaniyada inqilab baş verdi. Burjua-demokratik xarakter daşıyan inqilabın qarşısında əsas məsələ monarxiyanı devirmək və demokratik respublika qurmaq idi. Noyabrın 9-da inqilab qələbə ilə başa çatdı və Almaniyada monarxiya devrildi. Almaniya tarixində ilk dəfə respublika elan olundu. Ölkədə baş verən hadisələrlə əlaqədar olaraq, yeni siyasi partiyaların yaranması prosesi sürətləndi.

Almaniyada Kil dənizçilərinin üsyanının səbəbləri nələr idi?

Antanta ölkələri ilə Versal sülh müqaviləsinin imzalanmasından sonra 1919-cu ildə Veymarda Almaniya konstitusiyası qəbul edildi. 1933-cü ilə qədər Almaniya respublikası Veymar respublikası kimi tanındı. Konstitusiyaya görə Almaniya prezident-parlamentli federal quruluşlu respublika elan edildi. Qanunverici orqan **reyxstaq***, dövlət başçısı **prezident**, hökumət başçısı isə **reyxskansler*** adlandırıldı. 1871-ci il konstitusiyasından fərqli olaraq, Veymar konstitusiyasında demokratik azadlıqlar öz əksini tapmışdı.

**Maraqlıdır**

**Konstitusiya** Müəssisələr Məclisinin keçirdiyi Veymar şəhərində qəbul olunduğu üçün Veymar konstitusiyası, 1919–1933-cü illərdə Almaniyada mövcud olan siyasi rejim isə "Veymar respublikası" adlandı.

*** Reyxstaq**

*1919–1933-cü illərdə Almaniyada Veymar respublikasının parlamentidir.*

*** Reyxskansler**

*1919–1933-cü illərdə Almaniyada Veymar respublikasının hökumət başçısıdır.*

Müharibədən məğlub ayrılan Almaniyanın iqtisadiyyatı ağır vəziyyətdə idi. Sənaye istehsalı kəskin şəkildə azalmışdı. Müharibə dövründəki xərclər ölkənin maliyyə vəziyyətini məhv etmişdi. Versal müqaviləsi ilə Almaniya Elzas və Lotaringiya kimi əlverişli sənaye mərkəzlərindən məhrum olmuşdu. Həmçinin ölkənin

böyük məbləğdə təzminat ödəməyə məcbur edilməsi, Fransa və Belçikanın Almaniyanın əlində qalan əsas sənaye obyektlərinə hərbi müdaxiləsi bərbad vəziyyətdə olan iqtisadiyyata daha böyük zərbə vurmuşdu.

Ölkədəki iqtisadi-sosial böhrandan istifadə etmək istəyən kommunistlər, sosial-demokratlar və nasional-sosialistlər hakimiyyəti ələ keçirmək üçün mübarizə aparırdılar. 1923-cü ildə ayrı-ayrı yerlərdə xalq hərəkatı genişləndi. Hamburqda baş verən üsyandan istifadə edən faşistlər fəallaşdılar. Adolf Hitlerin başçılığı ilə Münhendə faşistlərin qiyam hazırlıqları uğursuzluqla nəticələndi. **“Pivəxana qiyamı”** kimi tanınan bu hadisə nəticəsində Hitler həbs olundu.

“Pivəxana qiyamı”nın uğursuz olmasının səbəblərini araşdırın.

Almaniya maliyyə-iqtisadi böhranından İngiltərə və ABŞ-dən aldığı kreditlər hesabına çıxa bildi. 1924-cü ildə iqtisadiyyatda başlayan nisbi sabitləşmə dövrü 1929-cu ilə qədər davam etdi. Bu dövr Almaniyanın **“qızıl dövrü”** adlanır.

“Qızıl dövr”də Almaniyanın xarici siyasətində Versal müqaviləsinin şərtlərinin bir qədər yumşaldılması mühüm yer tuturdu. 1925-ci ildə çağırılmış Lokarno konfransında Almaniya iştirakçılar tərəfindən bərabərhüquqlu dövlət kimi tanındı. Bu proses 1926-cı ildə Almaniyanın Millətlər Cəmiyyətinə daxil olmasına gətirib çıxardı.

1929-cu ildə ABŞ-də başlanan böyük iqtisadi böhran Almaniyaya daha çox təsir etdi. Çünki ABŞ və İngiltərə iqtisadi böhranın yaratdığı maliyyə vəziyyətini bəhanə edərək Almaniyaya verilən kreditləri dayandırdı. Həm də Almaniyanın təzminat verməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. ABŞ prezidenti Huverin təklifi ilə Almaniyanı ağır iqtisadi böhrandan xilas etmək üçün təzminat məsələsinə yenidən baxıldı. Almaniya 1932-ci ildən etibarən təzminat ödəməkdən azad edildi.

İqtisadi böhranın gətirdiyi fəsadlardan istifadə edən nasional-sosialistlər və kommunistlər geniş təbliğat apararaq tərəfdarlarını çoxaltdılar.



Prezident Hindenburq və reyxkansler Hitler

Nasist partiyasının proqramında göstərilirdi ki, nasist diktaturasının yaradılması Versal müqaviləsi buxovlarından xilas olmaq və böhrandan qurtarmağın yeganə yoludur. Hitler xüsusi mülkiyyəti qorumağı, trestlər üzərində nəzarət təşkil etməyi, işsizliyi ləğv etməyi, aqrar islahat keçirməyi vəd edirdi.

1932-ci ildə reyxstaqda keçirilən seçkilərdə nasistlər digər partiyalara nisbətən daha çox yer qazansalar da, bu, təkbaşına hökumət qurmağa bəs etmirdi. Hitlerin verdiyi vədlərdən təsirlənən bir qrup iri burjuaziya nümayəndəsi prezident Hindenburqdan onun hökumət başçısı təyin olunmasını tələb etdi. 1933-cü ildə reyxskansler təyin olunan **A.Hitler** yeni hökumətin tərkibinə digər partiyaların nümayəndələrini də daxil etdi. Ancaq bu koalisiyalı hökumət formal xarakter daşıyırdı. Hökumətin əsas üzvləri nasistlərdən ibarət idi.

Nasistlər hakimiyyətə gəldikdən sonra siyasi rəqiblərinə qarşı təqiblərə başladılar. Reyxstaq binasının yandırılmasını təşkil edən nasistlər bu işdə təqsirli kimi kommunistləri göstərdilər. Hitlerin tələbi ilə Hindenburq **“xalqı və dövləti müdafiə etmək”** adlı fərman imzaladı. Fərmana əsasən Veymar konstitusiyasının müəyyən etdiyi bütün azadlıqlar ləğv edildi. Bu artıq Veymar konstitusiyasının iflası demək idi.

Nasistlərin hakimiyyətə gəlməsinə hansı amillər şərait yaratmışdı?

1933-cü ildən nasist partiyasından başqa, bütün siyasi partiyalar ləğv edildi. Həmkarlar ittifaqlarının fəaliyyətləri məhdudlaşdırıldı. Federal dövlət tərkibinə daxil olan alman torpaqlarının muxtariyyəti ləğv olundu. Faşist xüsusi dəstələri və gizli polis – **gestapo*** yaradıldı.

*** Gestapo**

*gizli dövlət polisidir. 1933–1945-ci illərdə Almaniyada məxfi dövlət siyasi polisidir.*

1934-cü ildə Hindenburqun ölümündən sonra Hitler prezident və reyxskansler vəzifələrini birləşdirərək özünü alman millətinin **"fürer"**i* adlandırmaqla bütün hakimiyyəti əlində cəmləşdirdi.

*** Fürer**

*almanca "führer" sözündən olub, "rəhbər", "lider", "öndər" deməkdir. 1933–1945-ci illərdə Almaniyada dövlət başçısı və nasional-sosialist fəhlə partiyası rəhbərinin rəsmi tituludur.*

Nasistlər hakimiyyətə gəldikdən sonra yəhudilərin bütün müəssisələri boykot edilməyə başlandı. Onlar alman vətəndaşlığından çıxarıldı, dövlət aparatında vəzifə tutmaları qanunla qadağan olundu. 1938-ci ilin noyabrında yəhudi qırğınları törədildi.

Almaniyada nasist diktaturasının yaradılması ilə Versal-Vaşinqton sistemi iflas etməyə başladı. Versal sülhünün şərtlərinin ləğv edilməsinə Millətlər Cəmiyyəti qəti etirazını bildirdiyinə görə Almaniya 1933-cü ildə bu cəmiyyətdən çıxdı.

1935-ci ildə Hitler hökuməti referendum keçirərək Saar vilayətini geri aldı. Alman ordusunun sayı artırıldı, bütün silah növlərinin istehsalı bərpa olundu. 1936-cı ildə hərbsizləşdirilmiş Reyn zonasına ordu yeridildi. Nasistlərin səyi nəticəsində Avropada müharibə ocağı yarandı.

## SSRİ-nin YARANMASI

Birinci dünya müharibəsi Avropa dövlətləri arasında ən zəif yer tutan Rusiyaya xüsusilə ağır təsir edirdi. Müharibə dövründə ölkənin bütün iqtisadi sahələrində dərin böhran var idi. Hərbi xərclər nəticəsində təsərrüfatın dağılması ölkədə kəskin narazılığa səbəb oldu. Rusiyanın ingilis-fransız kapitalından asılılığı müharibə illərində daha da artdı. Birinci dünya müharibəsinin Rusiyada inqilabi şəraitin yetişməsinə çox



Vladimir Lenin Oktyabr çevrilişi zamanı

böyük təsiri oldu. 1917-ci ildə Fevral inqilabı monarxiyanın devrilməsi ilə nəticələndi. Romanovlar sülaləsi hakimiyyətdən salındı. Ancaq ölkədə ikihakimiyyətlilik yarandı.

Bu hakimiyyətlərdən biri 1917-ci ilin martında yaranmış müvəqqəti hökumət, digəri isə Fəhlə və Əsgər Deputatları Soveti idi. Müvəqqəti hökumətin sosial bazasını burjuaziya və mülkədarlar, sovetlərin dayağını isə fəhlə və kəndlilər təşkil edirdi.

İki tərəf arasında baş verən çəkişmələr rus qoşunlarının baş komandanı general Kornilovun 1917-ci ilin avqustunda Müvəqqəti hökumətə qarşı yönələn qiyamına səbəb oldu. Kornilov qiyamının məqsədi dövlət çevrilişi etmək və Rusiyada hərbi diktatura qurmaq idi. Ancaq xalq kütlələrinin köməyi ilə qiyam yatırıldı. 1917-ci il sentyabrın 1-də Rusiya respublika elan olundu.

Müvəqqəti hökumətin yarıtmaz daxili və xarici siyasəti bolşeviklərin fəaliyyətinin genişlənməsinə səbəb oldu. Onlar kəndlilərə pulsuz torpaqların paylanması və Rusiyanın müharibədən çıxarılması vədləri ilə geniş xalq kütlələrini öz tərəflərinə çəkə bildilər. Bolşeviklər 1917-ci ilin oktyabrında dövlət çevrilişi edərək hakimiyyəti ələ keçirdilər. **V.Lenin** Rusiya Xalq Komissarları Sovetinin sədri təyin edildi.

Bolşeviklər əhalini öz tərəfinə çəkmək üçün hansı vədləri verirdilər?

Oktyabr çevrilişindən sonra Rusiyada keçmiş imtiyazlar ləğv olundu, bütün vətəndaşların hüquq bərabərliyi təmin olundu.

Bolşeviklər Rusiyada sovet hakimiyyətini qoruyub saxlamaq üçün Almaniya ilə 1918-ci il martın 3-də Brest-Litovsk sülhünü bağladılar. Beləliklə, Rusiya Birinci dünya müharibəsini tərk etdi.

Birinci dünya müharibəsinin Rusiya üçün nəticələrini müəyyən edin.

1918-ci ilin mayında Rusiyada vətəndaş müharibəsi başlandı. Müharibənin baş verməsinin səbəblərindən biri mülkədarların öz hakimiyyət və mülkiyyətlərindən imtina etməməsi ilə əlaqədar idi. Xarici dövlətlərin ağqvardiyaçılara birbaşa dəstəyi ilə iki il davam edən vətəndaş müharibəsi bolşeviklərin qələbəsi ilə başa çatdı.

1918-ci ildə qəbul olunmuş konstitusiyaya görə **Rusiya Sovet Federativ Sosialist Respublikası** (RSFSR) elan edildi. Hakimiyyət isə qeyd-şərtsiz fəhlə və kəndli hökumətinə **(proletariat diktaturasına)*** məxsus oldu.

*** Proletariat diktaturası**

*kommunist ideologiyasına görə fəhlə sinfinin maraqlarını təmsil edən siyasi hakimiyyət formasıdır. Özlərini zəhmətkeş xalqın müdafiəçiləri kimi təqdim edən kommunistlər ideyalarını cəmiyyətə zor gücü ilə qəbul etdirir, siyasi rəqiblərinə qarşı repressiyadan istifadə edirdilər.*

Bolşeviklər iqtisadi vəziyyəti nizama salmaq üçün Yeni İqtisadi Siyasət (YİS) xəttini irəli sürdülər. Hərbi kommunizm dövründə tətbiq olunan ərzaq sapalağı ərzaq vergisi ilə əvəz olundu. Ərzaq vergisinin gətirdiyi üstünlük kəndlilərin artıq məhsullarının bazara çıxarmasını asanlaşdırdı. Ümumilikdə, ticarətin sərbəstləşməsi müştərək müəssisələrin yaradılmasına şərait yaratdı. Bununla bazar iqtisadiyyatı inkişaf etməyə başladı.

Yeni İqtisadi Siyasətin (YİS) üstün xüsusiyyətlərini araşdırın.

Rusiya hakim dairələri digər sovet respublikalarının müstəqilliklərini tədricən məhdudlaşdırmağa başladı. 1922-ci il dekabrın 30-da RSFSR, Ukrayna SSR, Belorusiya SSR və ZSFSR-in təşkilatçılığı ilə yeni bir ittifaq – **Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ)** yaradıldı. 1924-cü ildə SSRİ-nin ilk konstitusiyası qəbul olundu. Bundan sonra xalqlar arasında tarixən əmələ gəlmiş iqtisadi, sosial, mədəni sahədəki qeyri-bərabərliyi aradan qaldırmaq milli siyasətin əsasını təşkil edirdi. Respublikaların idarəçilik aparatına formal da olsa, milli kadrlar yerləşdirilməyə başlandı.

V.Leninin ölümündən sonra **İ.Stalin** rəqiblərinə qarşı amansız mübarizə apararaq bütün hakimiyyəti öz əlində cəmləşdirdi. Onun qəddar



Repressiyaya məruz qalanların məcburən əmək düşərgələrinə aparılması

**Kollektivləşdirmə siyasətinin nəticələrini müəyyənləşdirin.**

Sosialist yenidənqurmanın ən faciəli tədbirlərindən biri kollektivləşdirmə oldu. Fərdi kəndli təsərrüfatları ləğv olunur, yerində ümumi təsərrüfatlar – **kolxoz və sovxozlar*** yaradılırdı.

*✻ **Kolxoz** kollektiv təsərrüfat, **sovxoz** isə sovet təsərrüfatı deməkdir.*

idarəçilik dövrü tarixdə **"Stalin terroru"** kimi də xarakterizə olunur. Stalinin 30 illik hakimiyyəti dövründə SSRİ aqrar ölkədən sənaye ölkəsinə çevrildi.

XX yüzilliyin 20-ci illərinin ortalarında sosialist yenidənqurmaları mühüm rol oynadı. Sosialist tədbirlərinə **sənayeləşdirmə***, **kollektivləşdirmə***, mədəni və mənəvi həyatın kommunist ideologiyası əsasında formalaşdırılması daxil idi.

✻ **Sənayeləşdirmə siyasəti**

*1925-ci ildə elan edilmişdi. Məqsəd qısa müddət ərzində SSRİ-nin sənaye cəhətdən sürətli inkişafını təmin etmək idi. Sovet dövləti milyonlarla insanın ağır şəraitdə əməyi hesabına bu siyasətin həyata keçirilməsinə, əsasən, nail oldu.*

✻ **Kollektivləşdirmə siyasətinə** *hələ 1920-ci illərin əvvəllərindən qismən başlanılsa da, onun zorakılıqla və elliklə həyata keçirilməsinə 1929-cu ildən start verildi.*
*Məqsəd fərdi kəndli təsərrüfatlarını ləğv edərək inzibati nəzarət altında fəaliyyət göstərən kollektiv kənd təsərrüfatlarının (kolxoz) və dövlət kənd təsərrüfatının (sovxoz) yaradılması idi.*

Bu siyasət nəticəsində qolçomaqlar məhv edildi. 20-ci illərin sonunda başlanan zorakı kollektivləşmə cəmiyyətə ən ağır zərbə vurdu. Bu siyasətə qarşı çıxan minlərlə kəndli sürgünə göndərildi.

1932-ci ildə sovet vətəndaşlarının pasportlaşması zamanı kolxozçular bundan məhrum edildilər. Əslində, bu addım onların təhkimli halında saxlanılması demək idi. Burada məqsəd kəndlilərin təhkim olunduqları kolxozları tərk etməsinin qarşısını almaq idi.

XX yüzilliyin 20–30-cu illərində milyonlarla sovet vətəndaşı müxtəlif bəhanələrlə həbs edildi, güllələndi və sürgünə göndərildi. Ölkə daxilində təşkil olunmuş gizli xidmət orqanları əks-inqilabçı damğası ilə əhalini təqib edirdi. Hətta vaxtilə Stalinlə birlikdə çalışmış şəxslər belə bu vəziyyətdən öz nəsibini aldı. İnqilab artıq "öz balalarını yeməyə" başlamışdı.

30-cu illərin ikinci yarısında repressiyalar dövründə ordu və donanmanın rəhbərlərinin xeyli hissəsi məhv edildi.

**Kolxozçulara pasport verilməməsi hansı nəticələrə gətirib çıxardı?**

**XX YÜZİLLİYIN 20–30-CU İLLƏRİNDƏ TOTALİTAR REJİMLİ DÖVLƏTLƏRİN SİYASİ XƏTLƏRİNİ MÜƏYYƏN EDİN.**

| ALMANİYA | | SSRİ |
|---|---|---|
| FƏRQLİ | OXŞAR | FƏRQLİ |

# TÜRKİYƏ VƏ İRAN

Atatürk, “Hüquqların müdafiəsi” cəmiyyəti, Mudros barışığı, “Milli and”, etatizm, Şeyx Məhəmməd Xiyabani, Rza xan, Pəhləvilər sülaləsi

## OSMANLI DÖVLƏTİNİN SİYASİ VƏZİYYƏTİ

I Dünya müharibəsindəki məğlubiyyət Osmanlı dövlətinin dağılmasına gətirib çıxartdı. 1918-ci ilin oktyabrın 30-da imzalanmış Mudros sülhü ilə sultan hökuməti Antanta dövlətlərinə təslim olduğunu təsdiq etdi. Gənc türklərin liderləri xaricə qaçdı, onların partiyası buraxıldı. Sülhə görə yalnız indiki Türkiyə əraziləri sultan hakimiyyəti altında qaldı. Qalib dövlətlər tərəfindən imzalanmış sənəd ölkənin bölünməsinə şərait yaradırdı. İngilislər Mosul və İskəndərunu, italyanlar Antalya və onun ətraf ərazilərini ələ keçirdilər. Yunanlara İzmiri tutmaq icazəsi verildi.

Ölkənin işğal təhlükəsində qalması milli azadlıq hərəkatına səbəb oldu. 1918–1923-cü illəri əhatə edən türk xalqının azadlıq mübarizəsinə general Mustafa Kamal başçılıq edirdi. 1919-cu ilin mayında yunanların İzmirə qoşun çıxartması M.Kamalı əməli addımlar atmağa sövq etdi. O, Anadoluya gedərək tezliklə xarici müdaxiləçilərə və sultan hakimiyyətinə qarşı aparılan müharibənin rəhbərinə çevrildi. Mustafa Kamalın və onun həmfikirlərinin ilk işi milli qüvvələri səfərbər etmək oldu. Bu məqsədlə “Hüquqların müdafiəsi” cəmiyyəti yaradıldı. Bu cəmiyyət xalqı Mudros barışığı çərçivəsində Türkiyə sərhədlərində azadlıq mübarizəsinə çağırdı. Sivas konqresində müvəqqəti hökumət rolunu oynayan Mustafa Kamal başda olmaqla nümayəndələr komitəsi seçildi. Qarşıya qoyulan məqsədləri reallaşdırmaq yolunda kamalçıların əsas addımı 1920-ci ilin aprelində Ankarada yeni parlamentin – Türkiyə Böyük Millət Məclisinin (TBMM) çağırılması oldu. TBMM özünü ölkədə yeganə qanuni hökumət elan etdi.



Atatürk

Kamalçıların qanunvericilik fəaliyyəti türk xalqının azadlıq mübarizəsinin yüksəlişi ilə müşayiət olunurdu. Buna görə də Antanta dövlətləri bu mübarizəni yatırmaq üçün müxtəlif vasitələrə əl atırdı. Müttəfiqlər İstanbulu tutub Sivas konqresinin qərarını təkrarlayan, “Milli and” qəbul etmiş deputatlar palatasını qovdu. Antanta liderləri 1920-ci ilin avqustunda sultana Sevr müqaviləsini imzalatdırdılar. Müqavilənin şərtlərinə görə Türkiyə İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürüldü. Ölkənin şimal-şərqi Ermənistana keçməli, cənub-şərqdə isə ingilislərin protektaratlığı altında kürd dövləti yaradılmalı idi. Osmanlı faktiki olaraq müstəqil dövlət kimi varlığını dayandırırdı.

Belə bir vəziyyət TBMM hökumətini Antanta ilə mübarizə aparan Sovet Rusiyası ilə yaxınlaşdırdı. Buna cavab olaraq 1921-ci ilin yayında yunan qoşunları Ankaraya yaxınlaşdı. Yalnız türklərin rəşadətli mübarizəsi nəticəsində hücumu dayandırmaq mümkün oldu. 1922-ci ilin




**Türkiyə İstiqlal hərəkatına Azərbaycan da yardım etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu hərəkata maliyyə və neft məhsulları ilə kömək etmişdir. 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra xeyli azərbaycanlı Türkiyəyə keçərək İstiqlal hərəkatına qoşulmuşdu. Sovetin Azərbaycanı işğal etməsindən sonra Qarabağda olan Azərbaycan Milli Ordu hissələrinin bir qismi Zəngəzurda ermənilərlə savaşaraq Naxçıvana keçmiş, oradan da 1200 nəfərlik bir hərbi birlik Türkiyə ərazilərinə daxil olmuşdur. Bu hərbi dəstə Qarsı azad etmə əməliyyatında iştirak edərək Milli istiqlal hərəkatında türk ordusu ilə çiyin-çiyinə vuruşmuşdur. Onların içərisində hətta general rütbəsinə yüksələn də oldu. Sovet rejimi qurulduqdan sonra da Azərbaycan Türkiyə İstiqlal hərəkatına maddi yardım etmişdir.**

avqustunda başlanan əks-hücum nəticəsində düşmən türk ordusuna məğlub olaraq Anadolunu tərk etməyə məcbur oldu. Müharibədəki qələbə Mustafa Kamalı və onun tərəfdarlarının mövqeyini möhkəmləndirdi. 1922-ci ilin noyabrın 1-də Məclis sultanlığın ləğv edildiyi haqqında qərar qəbul etdi. 1923-cü ilin oktyabrın 29-da Türkiyə respublika elan edildi.

S Ölkədə 1918–1923-cü illəri əhatə edən milli azadlıq mübarizəsini vətəndaş müharibəsi adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.

S Türkiyə tarixində M.K.Atatürkün fəaliyyətini necə qiymətləndirərdiniz?

T Sevr müqaviləsini dövlətçilik baxımından qiymətləndirin.



**ZİYA GÖYALP**
"Turkish Nationalism and Western Civilization"
(Türk millətçiliyi və Qərb sivilizasiyası)

Türk sosioloqu və kamalizmin əsas ideoloqu Ziya Göyalpın qərb sivilizasiyasının qəbul edilməsinin zəruriliyi haqqında fikirlərindən: "Əgər biz bunu etməsək, Qərb dövlətləri bizi kölə halına salarlar. ...Öz müstəqilliyimizi və azadlığımızı müdafiə etməkdən ötrü biz Avropa sivilizasiyasına yiyələnməliyik".



Türk ordusunun İzmirə daxil olması

## İSLAHATLAR

Azadlıq mübarizəsinin sonunadək Türkiyə iqtisadi cəhətdən zəif inkişaf etmiş, aqrar bir ölkə idi. Kamalçılar iqtisadi cəhətdən ölkənin müstəqilliyinə yönəlmiş bir sıra addımlar atdılar. Dövlət xaricilərə məxsus bütün sənaye müəssisələri və dəmir yollarının, demək olar ki, hamısını aldı. Mərkəzi bank yaradıldı. 1923-cü ildə paytaxt İstanbuldan Ankaraya köçürüldü. 1924-cü ildə xilafət ləğv edildi, Osmanlı sülaləsinin bütün üzvləri ölkədən sürgün edildi. Şəriət və Vəqflər Nazirliyi ləğv olundu, ruhanilər bütün var-dövlətlərindən məhrum edildilər. Mədrəsələr bağlandı. 1924-cü ildə ölkədə konstitusiya qəbul olundu.

**MUSTAFA KAMAL**
1922-ci ildə "Maiten" qəzetinə müsahibəsindən

Türk demokratiyasının fransız inqilabının başladığı yolla getməsinə baxmayaraq, özünəməxsus xüsusiyyətləri ilə inkişaf etdi. Çünki hər xalq öz cəmiyyətinə uyğun, yerli şəraitə və vəziyyətə görə, zamanın tələblərinə uyğun öz islahatlarını həyata keçirir.

Yuxarıda verilmiş iki fikir arasında hansı bağlılığı görmək olar?



TBMM, Ankara, 1940-cı il

Avropa nümunəsində mülki və cinayət məcəllələri qəbul edildi. Ölkə Avropa təqviminə, latın əlifbasına keçdi. 1934-cü ildə soyad haqqında qərar verildikdən sonra Mustafa Kamal Atatürk soyadını götürdü. Atatürkün əsas iqtisadi siyasəti etatizm idi. Etatizm dövlət kapitalizminin bir forması idi. Bu siyasət xarici kapitalın fəaliyyətini məhdudlaşdırmağa, milli burjuaziyanın mövqeyini möhkəmləndirməyə yönəlmişdi.

30-cu illərin ortalarına doğru "Kamal dəyişiklikləri" bəhrəsini verməyə başladı. Ölkənin siyasi və iqtisadi mövqeyi gücləndi. Türkiyənin qonşu dövlətlər arasında nüfuzu yüksəldi. 1932-ci ildə Türkiyə Millətlər Cəmiyyətinə daxil oldu. O dövrdə Türk diplomatiyasının xarici siyasətdə ən uğurlu addımı Qara dəniz boğazları məsələsinə dair beynəlxalq Montre konfransının keçirilməsi oldu. Qəbul edilmiş yeni konvensiyaya görə Türkiyə boğazlar məsələsində böyük üstünlüklər qazandı.



İsmət İnönü

1938-ci ildə M.K.Atatürk vəfat etdi. Türkiyənin yeni prezidenti İsmət İnönü oldu.

**S** Xilafətin, Şəriət və Vəqflər Nazirliyinin ləğvi, eləcə də Avropa nümunəsində mülki və cinayət məcəllələrinin qəbulu arasında hansı bağlılıq vardır?

**T** Etatizim siyasətini dövlətçilik baxımından dəyərləndirin.



Ankara, 1940-cı il

## QACARLAR DÖVLƏTİNİN SİYASİ VƏZİYYƏTİ

Qacarlar dövləti I Dünya müharibəsində iştirak etməyib özünün neytrallığını elan etsə də, onun ərazisi vuruşan dövlətlərin mübarizə meydanına çevrilmişdi. Müharibənin nəticəsi olaraq ölkə ərazisi, demək olar ki, bütünlüklə ingilis ordusu tərəfindən zəbt edildi. İqtisadiyyatı çökmüş, müflisləşmiş ölkədə məclis buraxılmışdı. Dövlətdə hökumət kabinələri tez-tez dəyişilirdi. 1918-ci ildə yaradılmış ingilispərəst Vusuquddövlə hökuməti məclisin razılığı olmadan konstitusiyanı pozaraq İngiltərə ilə saziş (1919) imzaladı. Bu saziş Qacarlar ordusunu, maliyyəsini, yol tikintisini, xarici ticarəti və ölkənin digər ictimai-siyasi sahələrini ingilislərin nəzarətinə verdi.

Bütün bunlar ümumxalq narazılığı doğurdu. 1920-ci ilin aprelində Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Təbrizdə üsyan başlandı. Bununla yanaşı, Gilanda ***cəngəlilər*** hərəkatı, daha sonra Xorasanda xalq-azadlıq hərəkatı alovlandı. Lakin üsyançıların pərakəndə və lokal hərəkət etməsi İngiltərədən kömək alan mərkəzi hakimiyyətə üsyanları yatırmağa şərait yaratdı. Xalq-azadlıq hərəkatlarını yatırmasına baxmayaraq, ingilis boyunduruğundan çıxa bilməyən Qacarlar sülaləsi ölkədə nüfuzunu itirdi. Belə şəraitdə 1921-ci ildə Tehranda dövlət çevrilişi edildi. Çevriliş Təbatəbai tərəfindən hazırlanmış, Rza xanın komandanlığı altındakı Kazak briqadası tərəfindən həyata keçirilmişdi. Hökumət devrildi və Təbatəbainin başçılığı ilə yeni hökumət təşkil edildi. Rza xan hərbi nazir oldu.

Yeni hökumət "Aristokratlara qarşı mübarizə haqqında" bəyannamə dərc etdi. Bəyannamədə fəhlə və kəndlilərin vəziyyətinin yaxşılaşdırılması məqsədi elan olunur, müstəqil siyasət yürüdüldüyü və 1919-cu il ingilis-Qacarlar müqaviləsinin ləğv edildiyi bildirilirdi. Tezliklə bütün ingilis maliyyə məsləhətçiləri, hərbi təlimatçıları, eləcə də ordusu ölkədən çıxarıldı. Beləliklə, İngiltərə Birinci dünya müharibəsindən sonra əldə etdiyi bütün mövqelərini itirdi. 1923-cü ildə Rza xan Baş nazir oldu.

S Sizcə, ingilis hökumətinin xalq-azadlıq hərəkatlarının yatırılmasında hansı maraqları var idi?

T Mənbələr əsasında 1918–1920-ci illər tarixinə dair təhlillər aparıb tezislər hazırlayın.



Qəzvin qala qapıları

## PƏHLƏVİLƏR SÜLALƏSİ

Baş nazir olsa da, hərbi nazir vəzifəsini əlində saxlayan Rza xan 1925-ci ilin dekabrında məclisi Qacarlar sülaləsinin devrilməsinə və özünü şah elan etməsinə məcbur etdi. Yeni sülalə Pəhləvi adını aldı. Hakimiyyətinin ilk illərində Rza şah Qacarlardan fərqliliyini göstərmək üçün parlamentə və sahibkarlığa hörmətlə yanaşdı.



Cəngəlilər. 1920-ci il

Lakin zaman keçdikcə məclisin əhəmiyyəti azaldılır, şahın mövqeyi güclənirdi. Tezliklə ölkədə hərbi diktatura quruldu, hərbi mükəlləfiyyət tətbiq edildi. Yürüdülən mərkəzləşdirmə siyasəti nəticəsində xanların separatçılığına son qoyuldu. 1935-ci ildən diplomatik yazışmalarda dövlət İran adlandırılmağa başlandı. Fars dili dövlət dili elan edildi, başqa dildə kitab və qəzet nəşri qadağan edildi. Paniranizm dövlətin rəsmi ideologiyasına çevrildi.

Rza şah milli sənayeni və ticarəti inkişaf etdirmək məqsədilə gömrük muxtariyyəti tarifləri, ölkəyə gətirilən mallara yüksək himayəedici vergi müəyyənləşdirdi. Bu tədbirlər milli istehsalın və sənayenin inkişafına yol açdı. Buna baxmayaraq, 1929–1933-cü illərin iqtisadi böhranı ölkənin iqtisadi cəhətdən geri qaldığını göstərdi. Bu, hökumətin ölkədə dövlət kapitalizmi siyasətini həyata keçirməsinə gətirib



İrandakı kazak briqadası

çıxardı. İngilis-İran neft şirkəti ilə bağlanmış müqavilə ləğv edildi, şirkətin eksterritoriallıq hüququna son qoyuldu. İranın maraqlarını müdafiə edən yeni müqavilə imzalandı. Eləcə də məcburi pulsuz ibtidai təhsil, orta və ali təhsil müəssisələri yaradıldı. 1935-ci ildə çadranın məcburi çıxarılması haqqında dekret verildi, Avropa geyimi tətbiq edildi, təmtəraqlı feodal titulları ləğv edildi, soyadlar verildi. İctimai həyatda ruhanilərin mövqeyini zəiflətmək məqsədilə 30-cu illərin ortalarında ruhanilərə moizələrində siyasətə qarışmaq və hökuməti tənqid etmək qadağan edildi.

30-cu illərin ortalarına qədər İranın SSRİ ilə əlaqələri mehriban qonşuluq münasibətləri formasında idi. İranın xarici ticarət əlaqələrinin 40%-i SSRİ-nin payına düşürdü. Lakin İkinci dünya müharibəsi ərəfəsində hökumətdə Almaniyaya meyil artdı. İranın dəmiryol və sənaye avadanlıqlarının təchizi Almaniyanın inhisarına keçdi. Xarici ticarətdə Almaniyanın payı yüksəldi. Ölkədə faşist Almaniyasının təxribat və kəşfiyyat orqanları fəallaşdı. Bu da, öz növbəsində, müharibə illərində SSRİ-nin və İngiltərənin İrana müdaxilə etməsinə yol açdı.

Dövlətin inkişafı naminə Rza şahın hansı addımını daha yüksək dəyərləndirmək olar?

Sizcə, ictimai həyatda ruhanilərin mövqeyini zəiflətmək hansı məqsədə xidmət edirdi?

# HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

Mohandas Qandi, “duz yürüşü”, Sun Yatsen, Homindan partiyası, Mao Tszedun, general Tanaka, Mançjou-Qo

## HİNDİSTAN

Birinci Dünya müharibəsindən sonra da Hindistanın siyasi hüquqsuzluğu davam edirdi. 1919-cu ildə “Hindistanın idarəsi haqqında” qanun qəbul edildi. İngiltərənin Hindistanda müstəmləkə rejimini möhkəmləndirməyə yönəlmiş islahatları ölkədə azadlıq hərəkatının yüksəlməsinə səbəb oldu. Bu qanunlarla ingilis hökuməti Hindistandakı hakim dairələrə fövqəladə hüquqlar verirdi. Hakim dairələrin bütün yüksək çinli vəzifələri ingilislərin əlində qaldı. Hindlilər yalnız yerli əhəmiyyətli vəzifələrdə çalışa bilərdi. Qanuna görə hind xalqının seçki hüququ 1 faizdən 3 faizə (*yaşlı əhalinin*) qaldırıldı.

Qanun bütün ölkədə kəskin etiraza səbəb oldu. Hindistan Milli Konqresi kütləvi mübarizəni genişləndirmək taktikasını bəyəndi. **Mohandas Karamçand Qandi (Mahatma Qandi)** Milli Konqresə başçılıq edərək əhalinin geniş təbəqələrini hərəkata cəlb edə bildi. Ölkəni nümayişlər və mitinqlər dalğası bürüdü. Qandinin elan etdiyi **vətəndaş itaətsizliyi kampaniyası** Hindistana özünüidarə hüququ verilməsi şüarı altında gedirdi. Hər yerdə ingilis mallarının boykotu başlandı. Fəhlələr ingilis müəssisələrində işləməkdən imtina edir, qatarların hərəkətini dayandırırdılar. Lakin hərəkat iştirakçıları arasında birliyin olmamasından istifadə edən ingilis hakimiyyət orqanları onu qəddarlıqla yatırdı.




İngilis kralının təsviri olan hind rupisi

Vətəndaş itaətsizliyi kampaniyasını necə qiymətləndirirsiniz?



Hindistanda vətəndaş itaətsizliyi kampaniyası



"Duz yürüşü", 1930-cu il

1928-ci ildə lord Saymonun başçılığı ilə yeni konstitusiya layihəsi hazırlanmağa başlandı. İngiltərə hökuməti komissiyanın tərkibinə bir nəfər də olsa, hindli salmadı. Müstəmləkəçilər tərəfindən hazırlanan bu konstitusiyada hind xalqı üçün çox cüzi güzəştlərin nəzərdə tutulması böyük etiraza səbəb oldu. 1930-cu ildə HMK-nın qərarı ilə yeni vətəndaş itaətsizliyi kampaniyasının keçirilməsinə başlanıldı.



Cəvahirləl Nehru və Mohandas Qandi

Yanvarın 26-sı "Hindistanın İstiqlaliyyət Günü" elan edildi (*Həmin gün indi də Hindistanda milli bayram günüdür*). 1930-cu ildə "duz yürüşü" başlandı. Buna səbəb Hindistanda duz hasilatı və satışının müstəmləkəçilərin inhisarında olması və ölkədə duzun çox baha qiymətə satılması idi. "Duz yürüşü" xəbəri bütün ölkəyə yayıldı. Ölkənin hər yerində ingilislərə itaətsizlik hökm sürürdu.

Belə şəraitdə Hindistanın siyasi təşkilatları ilə uzun müzakirələrdən sonra 1935-ci ildə Britaniya parlamenti Hindistanın yeni "konstitusiyasını" təsdiq etdi. Qanuna görə Hindistan Britaniya Hindistanı və knyazlıqlardan ibarət federasiya elan olundu. Ölkə əhalisinin 12 %-i seçki hüququ aldı. Konstitusiyanı verməklə "parçala və hökmranlıq et" prinsipinə riayət edən ingilis hökuməti ölkənin siyasi qüvvələri arasında ixtilafları (*xüsusən də müsəlman və qeyri-müsəlman hindlilər arasında*) gücləndirdi. Bu, Hindistanda milli-azadlıq hərəkatına zərbə vurdu.

İngilislərin "parçala və hökmranlıq et" prinsipini necə qiymətləndirirsiniz?

## ÇİN

Birinci dünya müharibəsi zamanı Çin Antanta dövlətləri tərəfində vuruşurdu. Buna baxmayaraq, müharibənin yekunlarına həsr olunmuş Paris sülh konfransında qalib dövlətlər Çinə lazımi dəyər vermədi. Çinin xarici hərbi hissələrin ölkəsindən çıxarılması tələbi rədd edildi. Əksinə, Almaniyanın Çindəki mülklərinin Yaponiyanın ixtiyarına keçməsi haqqında qərar qəbul edildi. Buna cavab olaraq bütün Çini həyəcan bürüdü. 1919-cu ildə Pekində çoxminli tələbə nümayişi oldu. Nümayişçilər sülh müqaviləsinin imzalanmaqdan imtina edilməsi və yapon mallarının boykot edilməsi tələbləri ilə çıxış edirdilər. Tezliklə hərəkat bütün ölkəyə yayıldı. Nəticədə hökumət Versal sülhünü imzalamaqdan imtina etdi və bir neçə yaponpərəst naziri istefaya göndərdi. Bu hərəkat Çin cəmiyyətinin demokratiya, müstəqillik yolunda bir növ oyanış rolunu oynadı. Tezliklə ölkədə yeni, aydın məqsədləri olan partiya və təşkilatlar yaradıldı.

S Paris sülh konfransında Çinlə bağlı verilən qərarı necə qiymətləndirirsiniz?


Sun Yatsen

Ölkənin birləşdirilməsi yolunda milli-azadlıq və inqilabi hərəkatın yaradılmasında Sun Yatsenin rolu böyükdür.

Əvvəlcə o, inqilaba hazırlıq üçün 1919-cu ildə Homindan partiyasını bərpa etdi. Tezliklə ətrafında müəyyən siyasi qüvvələri cəmləyən Sun Yatsen 1921-ci ildə ölkənin cənubunda, Quançjouda yığışmış fövqəladə parlament tərəfindən Çinin prezidenti seçildi. Ancaq şimaldakı feodal-hərbi qüvvələri onu tanımadı. “Çinin qurtuluşu” naminə qərb ölkələrindən kömək ala bilməyən Sun Yatsen sovet Rusiyasına üz tutdu. Tezliklə SSRİ-nin köməyi ilə o, güclü ordu yarada bildi. 1921-ci ilin yayında Şanxayda Çin Kommunist Partiyası (ÇKP) yaradıldı. ÇKP-nin lideri Mao Tszedun, əsasən, kəndlilərə arxalanır


Mao Tszedun

və ölkədə proletar diktaturası yaradılmasını istəyirdi. Tezliklə Sun Yatsenin rəhbərlik etdiyi Homindan partiyası ölkənin birləşdirilməsi yolunda ÇKP ilə ittifaqa girdi.

S Sizcə, Qərb dövlətlərinin Sun Yatsenə yardım etməməsinin səbəbi nə ola bilərdi?


Mao vətəndaş müharibəsi dövründə

T Mao Tszedun fəaliyyəti ilə bağlı araşdırma aparın.

ABŞ və İngiltərənin dəstəklədiyi müxtəlif feodal qruplaşmaları arasında hakimiyyət uğrunda mübarizənin getdiyi bir şəraitdə 1925-ci ildə Şanxayda inqilabi hərəkat başladı. Quançjouda homindançılardan və ÇKP nümayəndələrindən ibarət olan hökumət özünü Çinin milli hökuməti elan edib ölkənin birləşdirilməsinə başladı. Sun Yatsenin ölümündən sonra Milli hökumət ordunun baş komandanı Çan Kayşinin əlinə keçdi. 1926-cı ildə ölkənin



Pekin. 1930-cu il

cənub əyalətləri birləşdirilərək şimala yürüş təşkil edildi. 1927-ci ildə homindançı qüvvələr Çinin ən böyük şəhəri Şanxaya daxil oldu. Bununla da Mancuriyadan başqa, faktiki olaraq bütün Çin Homindan hökumətinin hakimiyyətini tanıdı.

Nankini tutub paytaxtı buraya köçürən (1927) və Nankin hökuməti yaradan Çan Kayşi tezliklə kommunistlərlə ittifaqı pozub Qərbə meyilli siyasət yürütməyə başladı.

Çin əsgərinin geyimləri və silahları. 1920–1925-ci illər



Beləliklə, 1925–1927-ci illəri əhatə edən inqilab bitdi. Çinin gələcək inkişafı yolunda fikirlərin haçalanması homindançılarla ÇKP tərafdarları arasında 1949-cu ildə bitən və təqribən 20 ildən çox davam edən vətəndaş müharibəsinə gətirib çıxardı.

Sizcə, Çan Kayşinin Qərbə meyilli siyasət yürütməsi nə ilə bağlı idi?

## YAPONİYA

Birinci dünya müharibəsində Yaponiyanın Antanta dövlətləri tərəfdə vuruşması ona alman mülklərini ələ keçirib Uzaq Şərqdə və Sakit okean hövzəsində mövqelərini möhkəmləndirməyə imkan verdi. Müharibə Yaponiyaya iqtisadi cəhətdən güclənməyə də imkan verdi. Müharibə vaxtı onun qızıl ehtiyatı 6 dəfə artdı. Müharibənin sonuna yaxın Yaponiya xarici ticarətdə əlverişli mövqeyini itirməyə başladı. Çünki Avropa ölkələri yenidən bu bazarlara məhsul gətirməyə başlamışdı. Əlverişsiz iqtisadi vəziyyət üzündən ölkədə sosial problemlər kəskinləşdi. İqtisadi böhranın baş verməsi xarici bazardan asılı olan Yaponiyaya daha pis təsir göstərdi.

Xarici bazardan asılı olmaq ifadəsini necə şərh edərsiniz?



Yapon ordusu Şanxayın müdafiəsində

Ölkədə siyasi və iqtisadi problemlər artmışdı. Hakimiyyət dairələri çıxış yolunu Yaponiyanın hərbiləşdirilməsində görürdü. Tezliklə, demək olar ki, bütün hakimiyyət strukturlarına admiral və generallar rəhbərlik etməyə başladılar. 1927-ci ildə bir neçə iri bankın müflisləşməsi növbəti hökumət böhranını şərtləndirdi. Hakimiyyətə general Tanakanın başçılıq etdiyi hökumət gəldi. Tanaka imperatora hərbi təcavüz yolu ilə Yaponiyanın dünya ağalığına yönəlmiş yeni strateji kursu nəzərdə tutan memorandum göndərdi. Bu plana görə, ilkin olaraq, Çin, daha sonra Hindistan, Kiçik Asiya, Yaxın Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya tutulmalı idi. 1929–1933-cü illəri əhatə edən iqtisadi böhran Yaponiyanın iqtisadiyyatının hərbiləşdirilməsinə yol açdı. Təcavüzkar xarici siyasət yolunu tutan Yaponiya hərbi gücünü artırmağa başladı.

Sizcə, Yaponiyanın təcavüzkar xarici siyasət yolunu tutması Vaşinqton konfransının qərarları ilə bağlı ola bilərdimi? Fikrinizi əsaslandırın.

**GENERAL TANAKA**
General Tanakanın imperatora göndərdiyi memorandumdan bir hissə

Əgər Yaponiya özünümüdafiə və digərlərini müdafiə etmək üçün "dəmir və qanla" siyasətini yürütməsə, Şərqi Asiyada çətinlikləri həll edə bilməz... Çini tutmaq üçün biz əvvəl Mancuriyanı və Monqolustanı ələ keçirməliyik. Dünyanı tutmaq üçün biz əvvəl Çini ələ keçirməliyik. Əgər biz Çini ələ keçirə bilsək, bütün Kiçik Asiya ölkələri, Hindistan, eləcə də cənub dənizi ölkələri bizdən qorxar və bizə təslim olar.

Dünya ağalığı yolunda Yaponiyanın Çinə belə önəm verməsi nə ilə bağlı ola bilərdi?



Yapon ordusunun əsgərləri. 1930–1939-cu illər





Yapon ordusu Çin kəndində

1931-ci ildə yaponlar Çinə hücuma başladılar və qısa zaman ərzində bütün Şimali-şərqi Çini özlərinə tabe etdilər. 1932-ci ildə faktiki olaraq Yaponiyanın nəzarəti altında olan Mançjou-Qo dövlətinin yaradıldığı elan edildi. Qərb ölkələri tərəfindən Yaponiyanın Çindəki təcavüzkarlıq siyasətinin pislənməsi onun 1933-cü ildə Millətlər Cəmiyyətindən çıxmasına gətirib çıxardı.

1937-ci ilin yayında Yaponiya Çinə genişmiqyaslı hücuma başladı. Şimali və Mərkəzi Çində fəal hərbi əməliyyatlar aparan yaponlar tezliklə Çinin Nankin, Şanxay kimi iri şəhərlərini ələ keçirdilər. Bununla yanaşı, 1938-ci ildə SSRİ torpaqlarına, 1939-cu ildə Monqolustana hücüm etmək istəsələr də, bu hücumlar nəticəsiz qaldı.

S Şimali-şərqi Çini tutan Yaponiya bu ərazini imperiyasına qatmadı və burada "müstəqil" Mançjou-Qo dövləti yaratdı. Yaponiyanın bu addımını necə qiymətləndirərsiniz?

T II Dünya müharibəsi başlanana qədər Yaponiyanın işğal etdiyi əraziləri kontur xəritədə işarələyin.

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

Müharibə borcları və təzminatlar problemi, Daues planı, “Reyn” paktı, “Yumşalma dövrü”, “Brian-Kelloq” paktı, “Antikomintern” paktı

Versal-Vaşinqton sistemi dövlətlərarası münasibətləri ədalətlə həll etmədi. Qalib dövlətlər bütün məsələlərin həllində öz mənafeyindən çıxış etdi. Bu, sərhədlər və təzminat məsələlərində xüsusilə özünü aydın göstərdi. Nəticədə tezliklə yeni münaqişələrin meydana çıxmasına zəmin yarandı. Bu isə yeni dünya müharibəsinin başlamasına gətirib çıxardı.

## FRANSA VƏ ALMANİYA ARASINDA GƏRGİNLİK

Paris sülh konfransından sonra **müharibə borcları** və **təzminatlar problemi** dövlətlərarası münasibətlərin əsas məsələsi oldu. 1922-ci ildə bu məsələlərin həlli üçün **Genuyada** (*İtaliya*) beynəlxalq konfrans keçirildi. Konfransda Sovet Rusiyası və Almaniya da iştirak edirdi. Sovet Rusiyası çar hakimiyyətinin dövründə alınmış borcların ona aid olmadığını bildirdi. Konfransın gedişində sovet Rusiyası və Almaniya arasında Genuya yaxınlığındakı




**1930-cu illərdə Avropada siyasi rejimlər**

- Demokratik rejimlər
- Avtoritar rejimlər
- Faşist rejimlər
- Kommunist rejimlər

1930-cu illərdə Avropada siyasi rejimlərin müxtəlifliyinin dövlətlərarası münasibətlərə təsirini xəritə əsasında təhlil edin.

**Rapalloda** iqtisadi müqavilə imzalandı. Bu, müharibədən sonra təcrid edilmiş hər iki dövlət üçün mühüm hadisə oldu.

Təhlükəsizliyini təmin etmək və Almaniyanı təzminatları ödəməyə məcbur etmək üçün Fransanın iki yolu var idi: hərbi müdaxilə ilə təhdid və ya vasitəçilik üçün Millətlər Cəmiyyətinə müraciət etmək. O, əvvəlcə daha çox birinci həll yolundan istifadə etdi. Bu siyasət Almaniyanın Versal müqaviləsinin bütün şərtlərini yerinə yetirməyə məcbur edilməsini nəzərdə tuturdu. Nəticədə 1923-cü ildə Fransa və Belçika qoşunları Almaniyanın əsas sənaye mərkəzi olan Rur bölgəsini işğal etdi. Almaniyada baş verən yüksək inflyasiya təzminatların dəyərsiz kağız pullarla ödənəcəyi narahatlığını yaratmışdı. Fransa Rur bölgəsindəki kömürü hərbi yolla müsadirə edərək Almaniyanı cəzalandırmaq istəyirdi. Rur böhranı təzminatın ödənilmə vaxtının uzadılması məsələsini ortaya çıxarmışdı. Bunun üçün 1924-cü ildə Daues planı qəbul edildi. ABŞ dövlət xadimi Çarlz Daues tərəfindən hazırlanan bu plan təzminatın ödənilmə vaxtının uzadılmasını nəzərdə tuturdu. Almaniya inflyasiyadan yeni pul vahidinin buraxılması və ABŞ-nin verdiyi borclardan istifadə etməklə çıxa bildi.

Daues planının məqsədi nə idi?

## "YUMŞALMA DÖVRÜ"

Fransa-Almaniya yaxınlaşmasının təsiri ilə 1924–1929-cu illər dövlətlərarası münasibətlərdə "**Yumşalma dövrü"** kimi səciyyələndirilir. 1925-ci ildə keçirilən **Lokarno konfransında** qəbul edilən **pakt*** Fransa, Belçika və Almaniya arasındakı sərhədlərin toxunulmazlığını təminat altına aldı. Anlaşılmazlıqların sülh yolu ilə həll edilməsinə qərar verildi. Bununla da Almaniya yenidən dövlətlərarası əməkdaşlığa başladı. 1926-cı ildə o, Millətlər Cəmiyyətinə daxil oldu və bərabərhüquqlu tərəfdaş kimi tanındı.

* **Pakt**

*latın sözü olub, mənası "saziş", "razılaşma" deməkdir.*


QUEEN ALEXANDRA MEMORIAL FUND:

Daily Mirror

BIGGEST DAILY PICTURE PAPER

SIGNING THE PACT TO END WAR

"Müharibəni başa çatdırmaq üçün müqavilə imzalanması". İngiltərənin "Daily Mirror" (Deyli Mirır) qəzeti Lokarno konfransı haqqında

1928-ci ildə Fransa xarici işlər naziri Aristid Brian və ABŞ dövlət katibi Frenk Kelloqun təşəbbüsü ilə imzalanan pakt bütün münaqişələrin dinc yolla həll edilməsini nəzərdə tuturdu.

Brian-Kelloq paktı müharibələrdən imtina edilməsini vurğulayırdı. 1920-ci illərin sonunda dövlətlərarası münasibətlərdə sabitlik şəraiti mövcud idi. Lakin 1929-cu ildə baş verən böyük böhran bu sabitliyin vida zənglərini səsləndirdi.

1924–1929-cu illər dövlətlərarası münasibətlərdə səciyyəvi cəhət nə idi?

## "ÜFÜQDƏ QARANLIQ"

Millətlər Cəmiyyətinin zəifliyi 1931-ci ildən aydın olmağa başladı. Əslində, bu təşkilat əvvəldən yalnız Avropada sülhün və təhlükəsizliyin müdafiəsini diqqət mərkəzində saxlayırdı. Hələ 1923-cü ildən başlayaraq Liviyada faşist İtaliyasının həyata keçirdiyi soyqırımı siyasətinə göz yumulurdu. **Ömər Muxtarın** başçılığı ilə Liviya

xalqının azadlıq mübarizəsi 1932-ci ildə amansızlıqla yatırıldı. Faşist İtaliyası burada dinc əhaliyə qarşı kimyəvi silahlardan istifadə etmiş, qadınları və uşaqları qətlə yetirmişdir.



Ömər Muxtarın əsir alınması

**Maraqlıdır**

**Müasir dövrlə əlaqə:**

2008-ci ildə iki dövlət arasında bağlanmış müqavilədə İtaliyanın Liviyada həyata keçirdiyi müharibədə cinayətləri təsdiq edilmişdir. Ona görə də İtaliya Liviyadan üzr istəmişdir.

“Bu tarixi sənəddə İtaliya müstəmləkə dövründə Liviya xalqına qarşı qətliam, məhvetmə hərəkətinə və tətbiq etdiyi təzyiqlərə görə üzr istəyir. Bu, İtaliyanın Liviyaya verdiyi zərərin başa düşülməsi, əxlaqi ifadəsidir”.

*Silvio Berluskoni, İtaliyanın Baş naziri*

Dünya iqtisadi böhranının təsiri ilə bütün ölkələrin gömrük maneələrini artırması Yaponiyanın yeni xammal mənbəyi və satış bazarları ələ keçirmə siyasəti yürütməsinə səbəb oldu. O, 1930-cu illərin əvvəllərində Çinin şimalındakı Mancuriyanı işğal etdi və burada özündən asılı oyuncaq dövlət yaratdı. Millətlər Cəmiyyəti bu işğala etiraz etdiyi üçün Yaponiya 1933-cü ildə bu təşkilatı tərk etdi.

T Yaponiyanın bu siyasətinin və “oyuncaq dövlət” qurmasının müasir dövrdə Ermənistanın işğalçı siyasəti ilə oxşar cəhətini təhlil edin.

1933-cü ildə nasistlər hakimiyyətə gəldikdən sonra Almaniya da Millətlər Cəmiyyətini tərk etdi. Böyük böhran nəticəsində ayrı-ayrı ölkələrin qapalı iqtisadi siyasət yeritməyə məcbur olması, Millətlər Cəmiyyətinin nüfuzunun azalması silahsızlaşma sahəsində danışıqların tədricən dayanmasına səbəb oldu.

S 1930-cu illərdə Millətlər Cəmiyyətinin nüfuzunun azalmasına hansı amillər təsir göstərdi?

Dünya iqtisadi böhranının yayılması 1930-cu illərdə Avropada diktatura rejimlərinin artmasına səbəb oldu. Dünyada avtoritar rejimlərin sayı çoxalırdı. **Liberal demokratiyanın*** zəifləməsinin əlaməti olan bu amil dövlətlərarası münasibətlərdə gərginliyi daha da artırdı.

* **Liberal demokratiya**

*hakimiyyətin öz təmsilçilərini ümumi, azad seçki yolu ilə seçən xalqın əlində olduğu və hakimiyyət bölgüsünün tətbiq edildiyi siyasi rejimdir.*

T 1920-ci illərin sonu – 1930-cu illərin əvvəllərində dövlətlərarası münasibətlərdə gərginliyin yaranmasının səbəbini izah edin.

## TƏHLÜKƏNİN BÖYÜMƏSİ

1934-cü ildə Hitler Avstriyanın Baş nazirinə sui-qəsd təşkil etdirərək dövlət çevrilişinə nail olmaq istədi. Bu, Avstriyanın Almaniyaya **anşlüsu** (*birləşdirilməsi*) yolunda ilk addım idi. Lakin Mussolini Avstriya sərhədinə qoşun yeridərək Almaniyanın bu cəhdinin qarşısını aldı. 1935-ci ildə Almaniya Versal müqaviləsinin şərtlərini pozaraq ümumi hərbi mükəlləfiyyəti bərpa etdi. Almaniyanın Versal müqaviləsinin hərbi qərarlarından imtina etməsi məsələsini müzakirə etmək üçün 1935-ci ildə Fransa, İngiltərə və İtaliyanın iştirakı ilə **Strezada (*İtali-***

*ya)* **konfrans** keçirildi. Konfransda Avstriyanın ərazi bütövlüyü təminat altına götürüldü. Lakin Almaniyanın silahlanmasına qarşı tədbir görülmədi. 1936-cı ildə Almaniya Versal müqaviləsini bir daha pozaraq silahsızlandırılmış Reyn bölgəsinə qoşun yerləşdirdi. Bu hadisə İngiltərə və Fransa tərəfindən yalnız şifahi etirazla qarşılandı. Bu, Hitlerin daxili və xarici nüfuzunu artırdı, onu tədricən işğalçılıq siyasəti yürütməyə cəsarətləndirdi.

1935–1936-cı illərdə İtaliyanın Efiopiyanı işğal etməsi dövlətlərarası münasibətlərdə əsaslı dəyişikliklərə səbəb oldu. İngiltərə və Fransa bu işğalı pislədiyi üçün Mussolini onlardan uzaqlaşdı və Hitlerlə yaxınlaşdı. 1936-cı ildə Almaniya və İtaliya arasında ittifaq bağlandı. Uzaq Şərqdə SSRİ ilə arasında olan gərginlik Yaponiyanı da Almaniya ilə yaxınlaşdırdı və onlar arasında **“Antikomintern” paktı** imzalandı. Pakta görə Almaniya və Yaponiya Beynəlxalq kommunist təşkilatına qarşı birgə mübarizə aparmalı idi. Sonralar İtaliya, Macarıstan, İspaniya və bir sıra başqa ölkələr də bu pakta qoşuldu.

*** Komintern**

***dünyada kommunist ideologiyasını yaymaq üçün SSRİ tərəfindən yaradılmış beynəlxalq təşkilatdır.***

Sizcə, nə üçün Avstriyanın ərazi bütövlüyü təminat altına alındı? Bunun digər dövlətlər üçün hansı geostrateji əhəmiyyəti var idi?

Dövlətlərarası münasibətlərdə gərginlik yaradan hadisələrdən biri də İspaniyada vətəndaş müharibəsi oldu. 1936-cı ildə bu ölkədə demokratik seçki yolu ilə hakimiyyətə respublika tərəfdarı olan Xalq Cəbhəsi gəlmişdi. Lakin general Frankonun başçılığı ilə faşistpərəst hərbi qüvvələr qiyam qaldırdı. Beləliklə, ölkədə respublikaçılarla faşistlər arasında vətəndaş müharibəsi başladı. İtaliya və Almaniya faşistlərə yardım etmək üçün İspaniyaya müdaxilə etdi. Lakin Avropanın liberal demokratik rejimli ölkələri müharibədən çəkinərək qarışmamaq siyasəti yürüdürdü. SSRİ isə respublikaçılara kömək edirdi. Müharibə 1939-cu ildə faşistlərin qələbəsi ilə başa çatdı və İspaniyada faşist diktaturası yaradıldı. Faşizm və demokratiya arasında baş verən İspaniya vətəndaş müharibəsi yaxınlaşan yeni dünya müharibəsinin ayaq səsi idi.



Vətəndaş müharibəsi dövründə uşaqlar sığınacaqda təyyarə bombardmanından qorunarkən



İspaniyada vətəndaş müharibəsi

Mənbələri müqayisə edin. İspaniya vətəndaş müharibəsinin dəyərləndirilməsində hansı fərqli cəhətlər var? Müasir dövrdə hansı münaqişə ilə oxşarlıq mövcuddur?

**GENERAL DE KASTELNO**
"Parisin səsi" qəzeti, 1936

Moskvanın nəzarətindəki sovet çevrilişi ilə Sovet İttifaqına kölə olmamaq üçün üsyan edənlər arasındakı müharibə... İspaniya Xalq Cəbhəsinin maskası altında baş verir. Əvvəlki dövrdən fərqli olaraq, siyasi hakimiyyəti ələ keçirmək üçün mübarizə aparan iki qrup artıq yoxdur. Bu gün Moskva barbarlığı ilə Qərb sivilizasiyası arasında bir müharibə var. "Bolşevik tərəfdarı cəbhə" iqtidarı ələ keçirərək müharibə aparır. Güllələyir, talan edir və yandırır. Din əleyhinə qəzəbi isə sərhəd tanımır.



Alman qoşunu Praqada

Sizcə, nə üçün Çexoslovakiyada ilhaqa müqavimət göstərilmədi? Bu, dövlətin uzun müddətdən bəri müstəqil dövlətçilik ənənələrinin olmaması ilə əlaqədar ola bilərdimi?

**"L'HUMANITE" (LÜMANİTE) QƏZETİ, 1936**

Madrid müqavimət göstərir! Bu uşaq qatillərinə, ən güvəndikləri gücləri olan faşist alman və italyanların komandanlığındakı xarici muzdlu əsgərlərdən ibarət bu "millətçi"lərə təriflər yağdıranlar da Madridin müzəffər müdafiəsi qarşısında çaşqın qalıblar. İspaniya müstəqilliyinin qəhrəmanları Fransanın köməyini alacaqdır. Madrid azadlığın Verdeninə çevrilmişdir. [...] Fransızlar könüllülərin, əslində, onların azadlığı üçün vuruşduqlarını, beynəlxalq briqadaların cəsur döyüşçülərinin onlar üçün əks-hücuma keçdiklərini hiss edir. ... Orada ölənlər "İspaniya Hitler və Mussolininin cəbbəxanası olmasın, müharibə sizin ölkənizə gəlməsin" – deyə ölürlər!

## SAKİTLƏŞDİRMƏ SİYASƏTİ

Versal müqaviləsi ilə qadağan edilməsinə baxmayaraq, Avstriya 1938-ci ildə Almaniyaya birləşdirildi. Bundan sonra Hitler Çexoslovakiyanın almanlar yaşayan bölgəsi olan Sudet vilayətinin Almaniyaya verilməsini tələb etdi.

1938-ci ilin sentyabrında Almaniya, İtaliya, İngiltərə və Fransanın iştirakı ilə **Münhen konfransı** keçirildi. Hərbi cəhətdən hazır olmadığını və ölkəsində ictimai rəyin müharibənin əleyhinə olduğunu nəzərə alan İngiltərə və Fransa Sudetin Almaniyaya ilhaq edilməsinə qarşı çıxmadı. Sakitləşdirmə siyasəti yürüdən İngiltərə və Fransa müttəfiqləri olan Çexoslovakiyanı müdafiə etmədiyi üçün nüfuzdan düşdü.

1939-cu ildə Almaniya bütün **Çexoslovakiyanı** ilhaq etdi. Bununla da Hitler ilk dəfə almanların yaşamadığı bölgəni işğal etdi. Bu isə İngiltərə və Fransanın sakitləşdirmə siyasətinin uğursuzluğu demək idi.

Böyük Britaniya və Fransanın sakitləşdirmə siyasətinin uğursuzluğunun səbəblərini təhlil edin.

**ANDRE FRANSUA-PONSE**
Fransanın Berlindəki səfiri



Avstriyanın ilhaqı Hitlerin böyük Reyxi yaratmaq proqramını tətbiq etməyə başlayanda istifadə etdiyi üsulu anlamağımıza kömək edə bilər. Bu üsul daxili və xarici casuslardan istifadə edərək ələ keçiriləcək ölkəni qarışdırmağa və mərhələli olaraq təhrik etməyə əsaslanır. Bu casusların təşkil etdiyi hadisələr Gebbelsin rəhbərliyi ilə beynəlxalq böhran yaratmaqla vəzifələndirilmiş alman mətbuatı tərəfindən təbliğ edilir. Daha sonra Hitler məsələyə qarışır və alman ailəsinin bir qolu olaraq qəbul etdiyi xalqın taleyinə laqeyd qalmayacağını elan edir. [...] Ordu hansısa bir bəhanə ilə səhnəyə çıxır. [...] Avstriyanın ilhaqı beynəlxalq vəziyyətin başqa bir xüsusiyyətini, yəni almanların güc nümayişi qarşısında böyük dövlətlərin reaksiyasının zəifliyini bir daha aşkara çıxardı. [...] Bu zəiflik [...] sülh tərəfdarı olmaqla izah edilə bilər. [...] Mussolini Hitlerlə dost oldu. Avstriyanın ilhaqına qarşı çıxmayacaq [...] Fransa isə böhran içindədir.

Almanların güc nümayişi qarşısında böyük dövlətlərin narazılığının zəifliyinin səbəbləri nə idi? Beynəlxalq və daxili məsələlərdə mətbuatın rolunu necə dəyərləndirirsiniz?

İngiltərə və Fransanın passivliyi və sakitləşdirmə siyasəti İtaliyaya da işğalçılıq siyasətini genişləndirməyə cəsarət verdi. 1939-cu ildə Almaniya və İtaliya **Polad pakt**ı imzaladı. Bu hərbi ittifaq müqaviləsi müharibə vəziyyətində bir-birinə yardım etməyi nəzərdə tuturdu.

## "ÜFÜQDƏ MÜHARİBƏ GÖRÜNÜR"

1939-cu ildə Almaniya Polşaya qarşı ərazi iddiası qaldırdı. Buna cavab olaraq, İngiltərə və Fransa SSRİ ilə ittifaq haqqında danışıqlara başladı. Lakin danışıqlar ləngiyirdi. 1939-cu ilin avqustunda gözlənilmədən Almaniya ilə SSRİ hücum etməmək haqqında pakt imzaladı. **Molotov və Ribbentrop** (*hər iki dövlətin xarici işlər naziri*) **paktı** adlandırılan bu müqavilə Avropada təəccüblə qarşılandı. Çünki ideoloji cəhətdən iki zidd dövlətin uzlaşması gözlənilmirdi. Birinci dünya müharibəsindən fərqli olaraq, Almaniya iki cəbhədə vuruşmaq istəmirdi. Paktın gizli protokolunda Polşanın bölüşdürülməsi və Şərqi Avropada hər iki dövlətin nüfuz dairələri razılaşdırıldı.




Molotov-Ribbentrop paktına aid karikatur

Karikaturda pakt necə dəyərləndirilir?

1920–1930-cu illərdə dövlətlərarası münasibətlərə aid ən mühüm hadisələrlə bağlı zaman oxu tərtib edin.

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ

"Qəribə müharibə", "İldırımsürətli müharibə", "Barbarossa" əməliyyatı, Lend-Liz qanunu, Birləşmiş Millətlər bəyannaməsi, anti-Hitler koalisiyası, Stalinqrad döyüşü, müharibə iqtisadiyyatı, Tehran konfransı, Potsdam konfransı, Holokost

## MÜHARİBƏNİN BAŞLAMASI

Versal-Vaşinqton sistemi beynəlxalq münasibətlərdə ziddiyyətləri aradan qaldırmadı. Əksinə, yeni ziddiyyətlər yarandı və dərinləşdi. Bu, yeni dünya müharibəsinə səbəb oldu. Miqyasına görə bu müharibə əvvəlkindən daha böyük olmuşdur. O, yalnız dövlətlər arasında deyil, ideologiyalar arasında da gedirdi.

1939-cu il sentyabrın 1-də alman ordularının Polşaya hücumu ilə **İkinci dünya müharibəsi** başladı. Fransa və Böyük Britaniya Almaniyaya müharibə elan etdi. Polşanın köhnə təyyarələri, süvari qoşunu almanların yeni tankları və təyyarələri qarşısında heç nə edə bilmədi. Bu müharibədə tank qoşunu ilə hava qüvvələri ilk dəfə eyni anda tətbiq edildi. Bu üsul dünya hərb tarixinə **"İldırımsürətli müharibə"** adı ilə daxil oldu. Almaniya bu strategiya ilə qısa müddətdə Polşanı işğal etdi.

Almaniyanın Polşaya hücumu dünya hərb tarixinə nə üçün "İldırımsürətli müharibə" kimi daxil olmuşdur?

**HENRİ KİSSİNCER**
"Diplomatiya"

Gebbels (*Faşist Almaniyasının təbliğat naziri*) 1940-cı ildə Norveçin işğal edilməsi ərəfəsində nasistlərin gizli iclasında belə deyirdi: "İndiyə qədər Almaniyanın əsil hədəflərinin nə olduğunu düşmənlərimizdən gizlətməyi bacardıq. 1932-ci ildən əvvəl daxili düşmənlərimiz də hara getdiyimizi və ya hüquqa sadiqlik andımızın, sadəcə, bir aldatma olduğunu anlaya bilmədilər. Bizə mane ola bilərdilər. ... Xarici siyasətdə də belə oldu... Lakin bunu etmədilər. Bizi özbaşımıza buraxdılar. İşimizi bitirib onlardan daha yaxşı silahlandıqdan sonra bizə qarşı müharibə elan etdilər.

Mənbə əsasında müzakirə aparın. Faşist Almaniyasının işğalçılıq siyasətinin başlanması və genişlənməsinin hansı səbəbləri var idi?

**HAYNTS QUDERİAN**
"Diqqət, Panzer!", 1937

**"İldırımsürətli müharibə" necə tətbiq edilirdi?**

Bu günə qədər olandan daha çox sürətlə hərəkət edə bilmək, düşmənin atəşinə baxmayaraq, hərəkət qabiliyyətini qorumaq, ... hücumu dərinliyə – düşmən təchizatına istiqamətləndirmək lazımdır. Bu, ancaq sürpriz yaradacaq bir ünsür sayəsində mümkün ola bilər, ... bu da tankdır. Qələbənin ən önəmli şərtlərindən biri zirehli birliklərin qruplaşmasıdır. Bu qüvvələr nə dağınıq, nə də təkbaşına olmalıdır. Böyük qəti hücumların həyata keçirilməsi üçün piyada qoşunundan deyil, tanklardan istifadə edilməlidir. ... Strateji hədəflərə gözlənilməz şəkildə başladılan hücum düşmən mövqelərinin dərinliyinə yönəldilməlidir.




Sovet qoşunları isə hücum edərək Polşanın şərqini işğal etdilər. Almaniya və SSRİ arasında imzalanan müqavilə ilə Şərqi Avropa iki dövlət arasında nüfuz dairələrinə bölündü. 1939-cu ilin noyabrında sovet qoşunları **Finlandiyaya** hücum etdi. Bu, SSRİ-nin Millətlər Cəmiyyətindən çıxarılmasına səbəb oldu. **Qış müharibəsi** adlanan və 1940-cı ilin martında başa çatan bu müharibə nəticəsində SSRİ Baltik sahillərindəki bəzi əraziləri işğal etsə də, Finlandiya öz müstəqilliyini qorudu. 1940-cı ildə SSRİ Baltik ölkələrini: **Estoniya, Latviya** və **Litvanı** işğal etdi. **Bessarabiya** Rumıniyadan alındı. Beləliklə, SSRİ 1917-ci il inqilabına qədərki Rusiya imperiyasının qərb sərhədlərini bərpa etdi.

SSRİ-nin Millətlər Cəmiyyətindən çıxarılmasına səbəb nə idi?

## “QƏRİBƏ MÜHARİBƏ”

Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etsələr də, fəal hərbi əməliyyatlara başlamadı. Ona görə də 1940-cı ilin yazında Almaniyanın qərbdə hücumlara başlamasına qədər olan dövr **“Qəribə müharibə”** adlandırılır. 1940-cı ilin yazında Almaniya **Danimarka** və **Norveçi** işğal etməklə şimaldan öz təhlükəsizliyini təmin etdi. Mayda alman qoşunu bitərəf **Hollandiya** və **Belçikanı** işğal etdi. İngilis-fransız qoşunu Dünkerkdə mühasirəyə alındı.

Lakin gözlənilmədən Hitler hücumu dayandırdı və əməliyyatı hərbi hava qüvvələrinin davam etməsini əmr etdi. Hitlerin bu qərarı Böyük Britaniya ilə sülh bağlamaq niyyətində olması ilə əlaqələndirilir. Bu onun, bəlkə də, müharibənin taleyini həll edən strateji səhvi oldu.

Hücumu davam etdirən alman qoşunu Parisi tutdu. **Fransa** 22 iyunda Almaniya ilə təslim olmaq haqqında müqavilə imzaladı. Paris daxil olmaqla ölkənin böyük hissəsi Almaniyanın işğalı altına düşdü. Bu, Fransa tarixində ən böyük məğlubiyyət idi.



Adolf Hitler Parisdə

Müharibənin ilk dövrünü nə üçün "Qəribə müharibə" adlandırırdılar?

Hitler Dünkerkdə mühasirədə olan ingilis-fransız qoşununun Böyük Britaniyaya keçməsinə nə üçün imkan verdi?

## "AZAD DÜNYANIN SON QALASI"

1940-cı ilin yazında alman qoşunu Norveçdən İspaniyaya qədər bütün Avropanı işğal etmişdi. Müqavimət göstərən Böyük Britaniya "Azad dünyanın son qalası" adlandırılırdı. Fransa və Avropanın faşistlər tərəfindən işğal edilmiş digər ölkələrinin mühacir hökumətləri bura sığınmışdı. Hitler Böyük Britaniyanı havadan və dənizdən daxil olmaqla işğal etmək istəyirdi. Lakin Böyük Britaniyanın hərbi dəniz donanması dənizlərdə öz üstünlüyünü saxlayırdı. Onu məğlubiyyətə uğratmaq üçün hava hücumlarından istifadə etmək qərara alınmışdı. Lakin Böyük Britaniya yeni yaradılmış radarların (*radioaşkarlayıcı*) köməyi ilə hava hücumlarının qarşısını aldı. **Bu, Almaniyanın ilk strateji məğlubiyyəti idi.** Çörçill ingilis hərbi pilotlarının qələbəsini *"Müharibə tarixində heç bir zaman bu qədər çox insan bu qədər çox şeyi bu qədər az insana borclu olmamışdır"* sözləri ilə ifadə etmişdir.



"Məni gözlə, ata". Bir uşağın müharibəyə gedən atasının yanına qaçması. Kanada, 1940. Foto Klaud Detloff

**UİNSTON ÇÖRÇİLL**
"Müharibə nitqləri", 1940-cı il, iyun

Önümüzdə çox böyük imtahan var. Uzun, aylarla davam edəcək bir mübarizə və böyük əziyyət var. Məndən həyata keçirəcəyim siyasətin necə olacağını soruşursunuz. Cavabım: Dənizdə, quruda və havada bütün gücümüzlə vuruşmaq! ... Məndən məqsədimizin nə olduğunu soruşursunuz. Sizə iki kəlmə ilə cavab verim: Qələbə! Nəyin bahasına olursa-olsun, qələbə! ... Yolumuz nə qədər uzun və çətin olsa da, qələbə!

***

Sonuna qədər gedəcəyik... Dənizlərdə, okeanlarda vuruşacağıq, daha çox inamla və daha böyük güclə, ... adamızı müdafiə edəcəyik. ... tarlalarda və küçələrdə vuruşacaq, əsla təslim olmayacağıq. Əgər bir gün bu ada – bir an belə buna inanmıram – əsarətə məhkum olarsa, o zaman dənizlərin o tərəfindəki imperatorluğumuz Britaniya donanmasının təmin etdiyi silah və inamla müharibəyə davam edəcəyik.

U.Çörçillin fikirlərini necə dəyərləndirirsiniz?

Almaniyanın Böyük Britaniyanı məğlub edə bilməməsi hansı amillərlə bağlı idi? Sizcə, bu, müharibənin gedişinə təsir göstərdimi?

Böyük Britaniyanın müqaviməti Almaniyanı daha çox cəbhədə vuruşmağa məcbur etdi. Hitler Böyük Britaniyanı, Birinci dünya müharibəsində olduğu kimi, sualtı gəmilərin hücumları ilə məğlub etmək istədi. Çünki Böyük Britaniyanın gücü müstəmləkələrdən və ABŞ-dən gələn yardımlardan asılı idi. Beləliklə, Atlantik okeanında döyüşlər başladı. 1940-cı ilin sonunda Afrika da müharibə səhnəsinə çevrildi. İngilis qoşunu italyanların Misirə hücumunun qarşısını aldı. 1941-ci ildə Hitler İtaliyaya kömək etmək üçün Liviyaya qoşun göndərdi. Avropa cəbhəsində isə **Yunanıstan** və **Yuqoslaviya** işğal edildi.

## ALMANİYANIN SSRİ-yə HÜCUMU

Hitler kommunizmi ləğv etmək, Sovet İttifaqının təbii resurslarını ələ keçirmək istəyirdi. Ona görə də **"Barbarossa"** əməliyyatı hazırlanmışdı. 1941-ci ilin 22 iyununda alman qoşunları və müttəfiqləri böyük hərbi texnika ilə SSRİ-yə hücum etdi.



Alman qoşununun SSRİ sərhədini keçməsi

Alman qoşunu üç ay ərzində Ukrayna və Belorusiyanı işğal etmiş, Leninqradı (*hazırda Sankt-Peterburq)* mühasirəyə almış, Moskvaya yaxınlaşmışdı. Lakin qışın gəlməsi, təchizatın çətinləşməsi və sovet xalqının güclü müqavimət göstərməsi alman qoşunlarının 1941-ci ilin dekabrında Moskva yaxınlığında dayandırılmasına səbəb oldu.



Alman qoşunu Moskva yaxınlığında

Şəkil əsasında almanların Moskvaya hücumunu çətinləşdirən amili müəyyən edin.

## UZAQ ŞƏRQDƏ HƏRBİ ƏMƏLİYYATLAR

Təbii resurslar baxımından zəif olan Yaponiya hələ 1930-cu illərin əvvəllərindən işğalçı siyasətə başlamaqla Çinin ərazilərini və Hind okeanının şərqindəki adaları işğal edərək buranın neft və kauçuk resurslarını ələ keçirmişdi. Dəniz yollarına nəzarəti ələ almaq isə həyati önəm daşıyırdı. Yaponiya **müharibə iqtisadiyyatı*** qurmaq üçün dənizlərdə hegemonluq etməli idi. Bu isə Böyük Britaniya və ABŞ ilə rəqabətə səbəb olmuşdu. 1941-ci ilin aprelində Yaponiya və SSRİ arasında hücum etməmək haqqında müqavilə imzalandı. Bundan istifadə edən Yaponiya Uzaq Şərqdə fəallaşdı və bir sıra əraziləri işğal etdi. Yaponiya bu ölkələrdə "Asiya asiyalılarındır!" şüarı altında "sarı" irqin ağları məğlub edəcəyi təbliğatını aparırdı.

> * **Müharibə iqtisadiyyatı**
>
> *bütün resursların (xammal, kənd təsərrüfatı, işçi qüvvəsi, maliyyə və s.) müharibənin tələbatına uyğunlaşdırılmasıdır.*

Avropada, Afrikada və Uzaq Şərqdə hərbi əməliyyatların gedişinə aid sinxron cədvəl tərtib edin.

## ABŞ-nin MÜHARİBƏYƏ DAXİL OLMASI

ABŞ müharibənin əvvəllərində bitərəflik siyasəti yürüdürdü. Lakin hələ 1941-ci ilin martında qəbul edilmiş **Lend-Liz** *(borc və kirayə)* qanunu ilə ABŞ-nin təhlükəsizliyi üçün vacib hesab edilən dövlətlərə yardım edilirdi. Bu qanun əvvəl Böyük Britaniyaya, sonralar isə SSRİ-yə şamil olundu. 1941-ci ilin avqustunda Böyük Britaniyanın Baş naziri **Uinston Çörçill** və ABŞ prezidenti **Franklin Ruzvelt** Atlantik okeanında hərbi gəmidə görüşdülər. Nəticədə faşist blokuna qarşı müharibənin məqsədlərini və gələcəkdə sülhün prinsiplərini müəyyən edən **Atlantik xartiyasını** imzaladılar.

**Atlantik xartiyasının bəzi prinsipləri**

- hər iki dövlətin başqa əraziləri işğal etmək niyyətində olmaması
- xalqların öz müqəddəratını təyin etmək hüququnun olması
- təcavüzkarların tərk-silah edilməsi
- bütün dövlətlərin hərbi qüvvə istifadə etməkdən imtina etməsi

Böyük Britaniya və ABŞ SSRİ-yə İran ərazisi vasitəsilə yardım edə bilirdi. Digər yollar Murmansk, Vladivostok və Qara dəniz boğazları idi. Lakin ilk iki liman geniş yardım üçün əlverişli deyildi. Türkiyə isə bitərəf olduğundan müharibə edən dövlətlərə boğazları bağlamışdı. Həmçinin Egey adaları alman işğalı altında olduğuna görə müttəfiq gəmilərinin buradan keçməsi mümkün deyildi. Ən əlverişli yol olaraq İran qalırdı. Lakin o buna imkan vermək istəmədi. Buna görə Böyük Britaniya və SSRİ 1941-ci ilin avqustunda İranı ələ keçirərək burada hakimiyyət dəyişikliyi etdi. İran nüfuz bölgələrinə ayrıldı. İranın şimalı sovet, cənubu isə ingilis nüfuz dairəsinə çevrildi.

1941-ci ilin dekabrında Yaponiya təyyarələri **Pörl-Harborda** *(Havay adaları)* olan ABŞ hərbi bazasına zərbə endirdi. Almaniya da ABŞ-yə müharibə elan etdi. Hərbi əməliyyatlar şərqə və Sakit okeana yayıldı. ABŞ, SSRİ və Böyük Britaniya başda olmaqla, 26 dövlət 1942-ci ilin yanvarında Atlantik xartiyasının əsasında **Birləşmiş Millətlər bəyannaməsini** imzaladı və faşist blokuna qarşı əməkdaşlıq edəcəklərini bildirdilər. Beləliklə, müharibədən sonra qurulacaq olan **Birləşmiş Millətlər Təşkilatının** yaradılmasında ilk addım atılmış oldu. **Anti-Hitler koalisiyasının** yaranması və möhkəmlənməsi müharibənin gedişinə təsir göstərdi.

ABŞ-nin müharibəyə daxil olması müharibənin gedişinə necə təsir göstərdi?

## MÜHARİBƏDƏ DÖNÜŞ

1942-ci ilin əvvəlləri faşist blokunun üstünlüyünün zirvə nöqtəsi oldu. Həmin ilin yazında Qafqazı və Bakı neftini ələ keçirmək üçün hücuma başlandı. Alman qoşunu Volqa çayına çatdı və Stalinqradı mühasirəyə aldı. Şimali Qafqazın bir hissəsi işğal edildi. Lakin sovet qoşunu almanların böyük iqtisadi və strateji əhəmiyyəti olan Bakıya yaxınlaşmasına imkan vermədi.

ABŞ, İngiltərə və SSRİ arasında diplomatik danışıqlar nəticəsində əvvəlcə Almaniyanın məğlub edilməsi, faşist blokunun qeyd-şərtsiz təslim olması razılaşdırıldı. Lakin fikir ayrılıqları qalırdı. Stalin Almaniyanı Avropada iki cəbhədə vuruşmağa məcbur etmək üçün 1942-ci ildə Avropada ikinci cəbhənin açılmasını istəyirdi. Lakin ABŞ və İngiltərə hələ ikinci cəbhənin açılması üçün şərtlərin uyğun olmadığını irəli sürərək Almaniyaya qarşı yalnız hava hücumlarından istifadə edirdi.

1942-ci ilin yayından başlayaraq faşist blokunun hücumlarının bütün cəbhələrdə qarşısı alındı. Sakit okeanda Mərcan adalarındakı döyüşlərdə Yaponiyanın Avstraliyanı işğal etmək təhlükəsinin qarşısı alındı. **Miduey döyüşündə** yapon qüvvələrinin məğlubiyyəti burada dönüş yaratdı.



Miduey döyüşü

Şimali Afrikada mühasirəyə alınan alman-italyan qoşunu 1943-cü ildə təslim oldu. Sovet-alman cəbhəsində Volqa üzərində strateji əhəmiyyəti olan Stalinqradda, hər küçə və ev uğrunda amansız döyüşlər baş verdi. Sovet or-

dusunun əks-hücumu nəticəsində mühasirəyə alınan alman qoşunu 1943-cü ilin fevralında təslim oldu. **Stalinqrad döyüşü** müharibənin gedişinə böyük təsir göstərdi. **Sovet-alman cəbhəsində əsaslı dönüş başlandı.**

**BİR ALMAN DÖYÜŞÇÜSÜ STALİNQRAD DÖYÜŞÜ HAQQINDA**
"Tarix". İstanbul, 2002

**23 avqust.** Hissələrimiz Volqaya çatmış və şəhərin bir hissəsini ələ keçirmişdir. Artıq rusların (sovet ordusunun) yalnız iki çıxış yolu var: Volqanın o tərəfinə qaçmaq, ya da təslim olmaq. ... əsir aldığımız yaralı bir zabit Stalinqradı son əsgər ölənə qədər müdafiə edəcəklərini söylədi.

[...] **18 sentyabr.** Tabor komandirimiz bizə: "Siyasi komissarlar müdafiəçilərə ölənə qədər müqavimət göstərmək əmri vermişdir", – dedi. Stalinqradın bütün evlərini belə müdafiə etsələr, əsgərlərimizin heç biri sağ qalmayacaq.

**10 noyabr.** [...] Almaniyada Stalinqradı tamamilə ələ keçirdiyimizi düşünürlər. Nə qorxunc yanlışlıq!

**29 noyabr**. Mühasirəyə alındıq.

[...]

**28 dekabr**. Bütün atları yedik.

İndi pişik əti belə yeməyə razıyam. [...] Əsgərlər cəsədlərə, ya da dəlilərə bənzəyirlər. Yalnız yemək axtarırlar. Artıq güllələr atılanda yerə yatmırlar. Yeriyəcək, yatacaq gücümüz qalmadı. Lənət olsun bu müharibəyə!



Stalinqrad döyüşü

Mənbənin xarakteri haqqında nə deyə bilərsiniz? Hadisələrin gedişində hansı dəyişiklik baş verir? Müharibədə dönüş yaradan hadisələr hansılar idi?

## İQTİSADİ SƏFƏRBƏRLİK

Bu müharibə insanları və iqtisadi resursları səfərbər etmək baxımından əvvəlkilərdən fərqlənirdi. Şəhərlərə, zavod və fabriklərə təşkil edilən strateji bombardmanlar* ön və arxa cəbhə fərqinin aradan qalxmasına səbəb olmuşdu.

*** Strateji bombardman**

*düşmənin müharibə qabiliyyətini məhv etmək üçün onun dərinliklərinə edilən hava hücumlarıdır.*

**Müharibə iqtisadiyyatını** quran ilk dövlət İngiltərə oldu. Silah zavodlarında işləməyə böyük qismi qadınlardan ibarət əlavə işçilər qəbul edildi. SSRİ-nin hərbi sənayesi, əsasən, Urala və Sibirə köçürüldü. Xalq səfərbərliyə alındı. Həbs düşərgələrindəki məhbuslar ön cəbhəyə göndərildi.

SSRİ hərbi sənayesinin Urala və Sibirə köçürülməsinin səbəbi nə idi?

ABŞ-də hərbi silah-sursat istehsalı dəfələrlə artırıldı. SSRİ də daxil olmaqla bütün müttəfiq dövlətlərə silah və sursat göndərilirdi.

## BEYİN MÜHARİBƏSİ

Elm sahəsində də səfərbərlik həyata keçirilirdi. ABŞ və İngiltərə elmi tədqiqatlara və onların hərbi sahələrdə tətbiqinə hələ müharibənin əvvəllərindən böyük əhəmiyyət verirdi. Bunun nəticəsində **radar** kimi yeni nəzarət vasitəsi tətbiq edildi. Almaniya bu sahədə də geri qalmırdı. Hətta maqnetik metallar, reaktiv təyyarələr və raketlər hazırlanmasında da öndə idi. Lakin bu yeni silahların istehsalına gec başlandı və onların sayı da müharibənin nəticəsini həll edəcək qədər çox deyildi.

Dənizdə, təchizat daşınmasının müdafiəsində, okeanda təyyarədaşıyan gəmilərdən, döyüş gəmilərindən, hava və dəniz donanmasından birgə istifadə həlledici oldu. Strateji hava hücumları düşmənin iqtisadi resurslarını məhv etmək məqsədi daşıyırdı. ABŞ-də yeni tankvuran raketlər yaradıldı və kompüterlərin istifadəsinə başlanıldı. Faşist Almaniyasından qaçan avropalı alimlərin fəaliyyəti nəticəsində atom bombası hazırlandı.

## DEPORTASİYA

İkinci dünya müharibəsində ayrı-ayrı dövlətlərin dinc əhaliyə qarşı sürgün siyasəti miqyasına görə əvvəlki müharibələrdən fərqlənmişdir. Bu siyasət SSRİ-də bir çox xalqlara – türk, Qafqaz, Baltik (*litvalı, latviyalı, eston*) və başqa xalqlara qarşı həyata keçirilmişdir. Sovet rəhbərliyi müharibənin gedişində dönüş yarandıqdan sonra 1943-cü ildə Qafqazda yaşayan **Qaraçay türklərini**, 1944-cü ildə **çeçenləri, inquşları, Balkar türklərini** və **kalmıkları**, **Krım tatarlarını**, **Gürcüstandan Ahıska türklərini** sürgün etmək haqqında qərarlar qəbul etmişdir. “Faşistlərlə əməkdaşlıqda” ittiham olunan bu xalqlar Mərkəzi Asiya, Qazaxıstan və Sibirə sürgün edilmişdi. Sürgün edilənlərin əksəriyyətini qadınlar, qocalar və uşaqların təşkil etməsi, əslində, bu ittihamın əsassız olduğunu sübut edir. Yük qatarları ilə ağır şəraitdə köçürülmə, iqlim şəraiti, aclıq və s. sürgün edilənlərin bir hissəsinin həlak olmasına səbəb olmuşdu.

Müharibəyə daxil olan ABŞ də öz yapon vətəndaşlarına qarşı sürgün tədbiri görmüşdür. ABŞ prezidenti F.Ruzveltin 1942-ci ildə verdiyi qərarla yapon əsilli ABŞ vətəndaşları xüsusi düşərgələrə sürgün edilmişdir.

Cədvəl əsasında Almaniyanın silah istehsalının ən yüksək olduğu tarixi müəyyən edin.

| ÖLKƏ | İSTEHSAL | 1940 | 1941 | 1942 | 1943 | 1944 |
|---|---|---|---|---|---|---|
|  ALMANİYA | Polad (milyon ton) | 21,5 | 32 | 32 | 35 | 28 |
| | Döyüş təyyarəsi | 10 200 | 12 400 | 15 400 | 24 800 | 37 950 |
| | Tank | 2 200 | 5 120 | 9 400 | 19 900 | 27 300 |
|  ABŞ | Polad (milyon ton) | 60 | 65 | 76 | 79 | 80 |
| | Döyüş təyyarəsi | 2140 | 19400 | 47700 | 86000 | 95000 |
| | Tank | 346 | 4000 | 25000 | 29500 | 17600 |
|  SSRİ | Polad (milyon ton) | 18 | 14 | 5 | 8 | 11 |
| | Döyüş təyyarəsi | Məlumat yoxdur. | 3950 | 25450 | 34900 | 40300 |
| | Tank | 2800 | 4750 | 24700 | 24000 | 29000 |

ABŞ və SSRİ-də 1942-ci ildə hərbi istehsalın Almaniyadan neçə dəfə çox artdığını müəyyənləşdirin. Sizcə, hərbi istehsalın artmasının müharibədə dönüşün yaranması ilə nə əlaqəsi var?

**HOLOKOST**

Müharibə illərində Avropada nasistlər tərəfindən yəhudilərə qarşı soyqırımı həyata keçirildi. Təxmini hesablamalara görə 6 milyona yaxın yəhudi qətl edilmiş, insanların üzərində qorxunc tibbi təcrübələr aparılmışdı. Yəhudilərə qarşı bu soyqırımı dünya tarixində holokost kimi tanınır.

Holokost nədir? Holokostu Xocalı soyqırımı ilə müqayisə edin.

## SONUN BAŞLANĞICI

1942–1943-cü illərdə müttəfiqlər bütün cəbhələrdə faşist blokunun hücumlarının qarşısını aldı və əks-hücuma keçdilər. Atlantik və Sakit okeanlarda üstünlük əldə edildi. Avropa cəbhəsində əsas ağırlıq Sovet İttifaqının üzərinə düşmüşdü. 1943-cü ilin yayında baş verən **Kursk döyüşündə** sovet ordusu qalib gəldi. Ən böyük tank döyüşü olan bu qarşıdurma nəticəsində sovet-alman cəbhəsində **əsaslı dönüş başa çatdı**.

Kursk döyüşünün hansı nəticələri oldu?

İngiltərə və ABŞ faşist blokuna qarşı qəti hücuma keçərək Siciliyaya daxil oldu. Bu hücum Mussolininin devrilməsi və faşist rejiminin süqutu ilə nəticələndi. İtaliya təslim edildi.

## İKİNCİ CƏBHƏNİN AÇILMASI

Sovet-alman cəbhəsində əsaslı dönüş başa çatdıqdan sonra faşist blokuna qarşı ittifaqın üç böyük dövlətinin başçıları *(SSRİ-nin rəhbəri İ.Stalin, ABŞ-nin prezidenti F.Ruzvelt və İngiltərənin Baş naziri U.Çörçill)* İranın paytaxtı Tehranda görüşdülər. 1943-cü ilin sonlarında keçirilən **Tehran konfransında** Avropada Almaniyaya qarşı **ikinci cəbhənin açılması** qərara alındı. Nəticədə 1944-cü ilin iyununda müttəfiqlər (*ABŞ, İngiltərə, general Şarl de Qollun başçılığı ilə fransızlar və s.*) Fransanın Normandiya sahillərinə çıxdı və Parisə doğru hücuma keçdilər. 1944-cü ilin sonunda Fransa tamamilə azad edildi.



**ŞARL DE QOLL (1890–1970)**

Birinci dünya müharibəsində bir neçə dəfə yaralanmış və əsir düşmüşdür. Sonralar Hərbi Akademiyada "Zirehli hissələrin müharibədə istifadəsi haqqında yeni strategiya" nəzəriyyəsini inkişaf etdirmişdir. Almaniya tank hissələri yaradarkən Şarl de Qollun bu sahədə təkliflərinə Fransada diqqət yetirilmədi. 1940-cı ildə zirehli diviziyanın komandiri kimi fransızların almanlar qarşısındakı nadir uğurlarından birini əldə etmiş general de Qoll Almaniya qarşısındakı məğlubiyyət və təslim fikri ilə barışmayaraq Londona mühacirət etmiş, orada Fransa müqavimət hərəkatına rəhbərlik etməyə başlamışdı. Bu dövrdə Fransanın azad olunması uğrunda hərəkatda iştirak etmiş azərbaycanlı partizan Əhmədiyyə Cəbrayılov Şarl de Qollun döyüş yoldaşı olmuşdur.

*** Strategiya**

*müharibə zamanı bütün hərbi əməliyyatların (hücum və ya müdafiə) planlaşdırılmasıdır.*

Sovet-alman cəbhəsində üstünlüyü qəti olaraq ələ keçirən sovet ordusu 1944-cü ildə ölkə ərazisini tamamilə azad etdi və Şərqi Avropa

ölkələrinə daxil oldu. Artıq 1945-ci ilin fevralında müttəfiqlər Almaniya ərazisinə daxil oldular. Sovet və ABŞ qoşunları apreldə Elba çayı sahilində birləşdi. Berlini mühasirəyə almış sovet ordusuna qarşı vuruşmaq üçün Hitlerin yeniyetmələrdən və yaşlılardan təşkil edilmiş dəstələrdən başqa qüvvəsi qalmamışdı.

S Anti-Hitler koalisiyasının yaranması və möhkəmlənməsi müharibənin gedişinə necə təsir göstərdi?



Hitlerin son əsgərləri. Aprel, 1945-ci il

## AVROPADA MÜHARİBƏNİN BAŞA ÇATMASI

1945-ci ilin fevralında **Yaltada** *(Krım)* SSRİ, ABŞ və İngiltərə başçılarının ikinci görüşü oldu. Konfransda müttəfiqlərin hücum əməliyyatlarını əlaqələndirmək qərara alındı. Tərəflər Almaniyanın danışıqsız təslim olmasından sonra ona qarşı siyasət müəyyənləşdirdilər. Uzaq Şərqdə bir sıra ərazilərin SSRİ-yə güzəşti müqabilində onun Yaponiyaya qarşı müharibə elan etməsi haqqında məxfi saziş imzalandı. Apreldə Hitler intihar etdi. Mayın 8-də Almaniya təslim oldu və Avropada müharibə başa çatdı.

S Tehran və Krım konfransının oxşar cəhətləri hansılardır?

1945-ci ilin yayında **Potsdamda** *(Berlin yaxınlığında)* SSRİ, ABŞ və İngiltərə başçılarının üçüncü konfransı oldu. Konfrans dünyanın müharibədən sonrakı taleyinə həsr edilmişdi. Konfransın qərarı ilə əsas faşist hərbi-siyasi canilərini mühakimə etmək üçün **Beynəlxalq hərbi tribunal** yaradıldı.



Berlində sovet bayrağının sancılması

## YAPONİYANIN TƏSLİM OLMASI

Sakit okean bölgəsinin azad edilməsi məsafələrin uzunluğu və tropik iqlim şərtləri nəticəsində çətinliklə həyata keçirildi. Yaponlar əsir düşməkdənsə intihar edir, bomba ilə yüklənmiş təyyarələri Amerika gəmilərinə çırpırdılar. ABŞ 1945-ci ilin avqustunda Hirosima və Naqasaki şəhərlərinə atom bombaları ataraq bəşəriyyət tarixinin ən böyük cinayətlərindən birini törətdi.

ABŞ daha çox tələfat verməmək üçün bu addımı atdığını söyləyərək özünə bəraət qazandırmağa çalışsa da, əslində, bu, hərbi zərurətdən irəli gəlmirdi. Avqustun 8-də SSRİ də Yaponiyaya müharibə elan etdi. 1945-ci il sentyabrın 2-də Yaponiya təslim oldu. İkinci dünya müharibəsi başa çatdı.



Naqasaki şəhəri atom bombardmanından sonra. 9 avqust, 1945-ci il

## HİROSİMADA SAĞ QALAN BİR SAKİNİN MƏKTUBUNDAN

"Tarix". İstanbul, 2002

Səhər saat 8-ə qalmış yuxudan oyanmışdım... Qəflətən başımdan bir zərbə aldım və gözlərimin qarşısında hər yer qapqaranlıq oldu. ... Qaranlığın içərisində yalnız fırtına uğultusu eşidə bilirdim. Sonra görüntü çox aydın olmasa da, ətrafım işıqlandı və məşhər yerində olduğumu sandım. Qalın boz buludların arxasınca hər yer əvvəl mavi, sonra başqa rənglərə büründü... Üzləri tamamilə parçalanmış insanlar gördüm... Üzləri elə qorxunc şəkildə şişmişdi ki, kişilərlə qadınları çətinliklə fərqləndirmək olurdu. Onların gözlərinin yerində çuxurlar qalmışdı, dodaqları yanırdı.

Mənbə və şəkil (səh. 98) əsasında atom bombasının ağır nəticələrini müzakirə edin. Əlavə məlumatlara istinad edərək bu mövzuda debat təşkil edin: ABŞ-nin atom bombasından istifadə etməsi hərbi zərurət idimi? Qruplar şəklində "Hirosima və Naqasakidə atom zərbələri və nəticələri" adlı qəzet məqaləsi və reportaj hazırlayın.

Zaman oxunda verilmiş mühüm hadisələrin tarixini müəyyən edin.

| Stalinqrad döyüşü | Kursk döyüşü | İkinci cəbhənin açılması | Yalta (Krım) konfransı |
|---|---|---|---|
| | | | |

İkinci dünya müharibəsində itkilər




Diaqramları təhlil edin. Əhali itkisi müharibədən sonra dünyanın sosial-iqtisadi vəziyyətinə necə təsir göstərə bilərdi?

# MƏDƏNİYYƏT

Avanqard üslub, sürrealizm, kütləvi mədəniyyət, “danışan mətbuat”


Popular Mechanics Magazine
WRITTEN SO YOU CAN UNDERSTAND IT
Vol. 54 AUGUST, 1930 No. 2
The First Television Show

İlk televiziya verilişinin çəkiliş pavilyonu



Caz qrupu



Albert Eynşteynə ABŞ vətəndaşlığının verilməsi



Salvador Dali. “Yaddaşın daimiliyi”

Şəkillər əsasında 1920–1930-cu illər mədəniyyətində hansı yeniliklərin baş verdiyini şərh edin.

Birinci dünya müharibəsi dünyanın sonrakı siyasi-iqtisadi inkişafı ilə yanaşı, mədəniyyətin müxtəlif sahələrinə də təsir göstərirdi. İncəsənət sahələri və ədəbiyyatda müharibəyə, onun nəticələrinə etiraz xarakterli əsərlər yaradılırdı. Bu dövr elmdə müxtəlif yeniliklərin və kəşflərin edilməsi ilə də səciyyəvidir.

## İNCƏSƏNƏT VƏ MEMARLIQ

Birinci dünya müharibəsinin dəhşətləri mədəniyyətin bütün sahələrində yaradıcı insanların – rəssam, şair, yazıçı və s. fəaliyyətinə təsir göstərdi. Onlar öz əsərlərində müharibəyə etiraz edirdilər. Beləliklə, yeni mədəniyyət üslubları və hərəkatları yarandı. Qərb mədəniyyətinin dəyərləri tənqid edilməyə başlandı. **Sürrealizm** *(real olmayan)* cərəyanı məhz belə şəraitdə yaranmışdı. Ədəbiyyat sahəsində yaranan sürrealizm rəssamlıqda daha geniş yayıldı. Reallığa və məntiqə uyğun olmayan təsvirlər bu üslub üçün çox səciyyəvidir. Məşhur ispan rəssamı **Salvador Dalinin** əsərləri sürrealizmin parlaq nümunələrindən hesab edilir. 1920-ci illərdə Avropa incəsənətində **avanqard** *(yenilikçi, irəlidə gedən)* **üslub** genişləndi.

Birinci dünya müharibəsi mədəniyyətə necə təsir göstərdi?

Sürrealizm üslubu nədir və hansı səciyyəvi cəhəti var?

1920–30-cu illərdə şəhərsalma və memarlıq inkişaf etdi. Almaniyada yaranan **Bauhaus** memarlıq tərzi üçün yeni sənaye texnikaları ilə sənəti bütünləşdirmək səciyyəvi idi. 1933-cü ildə nasistlər hakimiyyətə gəldikdən sonra onların təzyiqi nəticəsində bu məktəbin nümayəndələri müxtəlif ölkələrə köçdülər. Nəticədə digər ölkələrin memarlığına təsir gücləndi. 1930-cu illərdən başlayaraq respublika dövründə türk memarlığında Avropa üslublu modern memarlıq üstünlük təşkil etməyə başladı.

Respublika dövründə türk memarlığında hansı xüsusiyyət səciyyəvi idi?

İki dünya müharibəsi arasındakı dövrdə klassik musiqiyə dönüş genişləndi. Xüsusilə klassik musiqi ilə folklor nümunələrinin sintezinə təşəbbüslər edildi. ABŞ-nin Birinci dünya müharibəsinə daxil olması onun Avropa ilə mədəni əlaqələrinin də inkişafına təkan verdi. Nəticədə **caz** musiqisi Avropaya da yayıldı.

## ELM

Elmin müxtəlif sahələrində yeniliklər baş verirdi. Fizika və digər təbiət elmlərində kəşflər müxtəlif sahələrin yaranması və inkişafına səbəb oldu. İlk dəfə **1926-cı ildə** reallaşdırılan raket sınağı uğurlu alındı. 1930-cu illərdə radar sahəsi inkişaf etdi. Nüvə enerjisi sahəsində mühüm kəşflər edildi. Tibb elmindəki inkişaf nəticəsində yeni peyvənd və dərmanlar yaradıldı. Orqan köçürülməsinin başlanması bu sahədə böyük dəyişikliklər meydana çıxardı. **1920-ci illərin sonunda** penisillinin kəşf edilməsi və müxtəlif xəstəliklərə qarşı peyvəndlərin tətbiqi kütləvi insan ölümlərinin qarşısını almağa kömək etdi.

1921-ci ildə fizika sahəsində Nobel mükafatı alan **Albert Eynşteyn** nasistlər hakimiyyətə gəldikdən sonra Almaniyanı tərk etdi.




Bauhaus məktəbinin binası

O, 1939-cu ildə ABŞ prezidenti F.Ruzveltə faşist Almaniyasının atom bombası hazırlamaq istiqamətində çalışdığı haqqında xəbərdarlıq məktubu yazmışdı. Məhz bu məktubun təsiri ABŞ-ni İkinci dünya müharibəsində atom bombası hazırlamağa sövq etdi.

Sosial elmlər sahəsində də yeniliklər baş verdi. **1929-cu ildə** Tarix elmində "Annallar" (*salnamələr*) məktəbinin meydana gəlməsi ilə ənənəvi tarix anlayışı dəyişdi. Tarixin yalnız siyasi hadisələri əks etdirən hekayələrdən ibarət olmadığı fikri irəli sürüldü. Artıq tarixin mərkəzində yalnız müharibələr və hökmdarların fəaliyyəti deyil, sosial-iqtisadi həyat və mədəniyyət də dayanırdı. Hadisə yönümlü ənənəvi Tarix elmini problem yönümlülük əvəz etdi. Siyasi hadisələri diqqət mərkəzinə alan tarix anlayışı əvəzinə, insan fəaliyyətinin bütün sahələrini əhatə edən anlayış hakim oldu. Tarixi araşdırmalarda sosiologiya, iqtisadiyyat, antropologiya və başqa ictimai elmlərdən istifadə edildi.

1920–1930-cu illərdə elm sahəsində baş vermiş yeniliklərə aid cədvəl tərtib edin.

## ƏDƏBİYYAT: ETİRAZ VƏ ÜMİD ARASINDA

1920–1930-cu illər ərzində müharibənin təsirləri Avropada özünü göstərirdi. *Müharibə ədəbiyyatı* ayrıca bir istiqamətə çevrilmişdi.

Müharibənin dəhşətləri bədii mətnlərdə əks olunurdu. Çex yazıçısı **Frans Kafkanın** əsərlərində insanın çarəsizliyi ifadə edilirdi. Amerika yazıçısı **Con Steynbekin** "Qəzəb salxımı" romanında 1929–1933-cü illər dünya iqtisadi böhranı dövründə yoxsul kəndlilərin həyatı təsvir olunmuşdu.

ABŞ yazıçısı **Ernest Heminqueyin** "Zənglər kimin üçün çalınır" romanı İspaniya vətəndaş müharibəsindən bəhs edir. Bu müharibədə iştirak edən **Corc Oruell** kommunist olsa da, müharibə dövründə SSRİ-nin siyasətini tənqid edirdi. Kommunizm ideyalarının yalanlarından məyus olan Oruell sonralar "Heyvanıstan" və "1984" romanlarında ictimai ədalətsizlik və totalitarizmə etiraz etmişdir.



Corc Oruell

**Rabindranat Taqor** 1919-cu ildə İngiltərənin Hindistanda azadlıq hərəkatının iştirakçılarını güllələbaran etməsinə etiraz olaraq Böyük Britaniya kralı tərəfindən ona verilmiş "Cəngavər" titulunu geri qaytarmışdır. O, **Mohandas Qandinin** başçılıq etdiyi azadlıq hərəkatında iştirak etmişdir. Dünyanın məşhur şairlərindən hesab edilən Taqor kasta quruluşu və müstəmləkə siyasətinə qarşı mübarizə aparmışdır.

Ziyalıların öz xalqlarının tarixi inkişafında rollarını və mövqelərini dəyərləndirin.

Rusiyada 1917-ci il inqilabından sonra dünyanın sosial-iqtisadi və siyasi quruluşunda baş verən kəskin qütbləşmə mədəniyyətə də təsir göstərdi. XX yüzilliyin 30-cu illərində SSRİ-də mədəniyyətin bütün sahələri dövlətin sərt nəzarəti altında idi. Mədəniyyət xadimləri ayrı-ayrı sahələr üzrə dövlətə və partiyaya xidmət etmək üçün təşkilatlandırılırdılar. Bunun məqsədi kütlələrə sovet ideologiyasını aşılamaq idi. Mədəniyyətin bütün sahələrindən xalqın mövqeyini və baxışlarını formalaşdıran vasitə olaraq istifadə edilirdi. Mədəniyyət xadimlərinin hansı mövzuları və formaları işləyəcəkləri diktə edilirdi. Rus yazıçısı **Maksim Qorki** və şair **Vladimir Mayakovski** sovet mədəniyyətinin dünyada tanınan nümayəndələri idi. XX yüzillikdə dünyanın ən məşhur şairlərindən biri olan **Nazim Hikmət** Türkiyədə sərbəst şeirin yaradıcısı olmuşdur. O, siyasi baxışlarına görə dəfələrlə həbs və sürgün edilmişdir.



Səməd Vurğun və Nazim Hikmət

Birinci dünya müharibəsindən sonra ədəbiyyatda hansı yeniliklər baş verdi?

## KÜTLƏVİ MƏDƏNİYYƏTƏ DOĞRU

İngilis aktyoru **Çarli Çaplinin**, sovet rejissoru **Sergey Eyzenşteynin** səssiz filmləri dünyada məşhur idi. 1920-ci illərin ikinci yarısından səsli filmlər yaradılmağa başlandı. Fotoqrafiya, cizgi filmi, kino kimi vizual sənət sahələrində gedən inkişaf **kütləvi mədəniyyətin** formalaşmasına təsir etdi. Yazılı mətbuata fotolar əlavə olundu. Avropada "Tenten", ABŞ-də "Supermen" kimi komikslər (*şəkilli hekayələr*) məhz bu dövrdə yaradıldı. Dünyadakı siyasi inkişafla əlaqədar olaraq filmlərdən təbliğat vasitəsi kimi istifadə edilməyə başlandı. **1923-cü ildə** İngiltərədə yaradılan **televiziya** 1930-cu illərdə artıq evlərdə geniş istifadə olunurdu.

## "DANIŞAN MƏTBUAT"

1920-ci illərdə səsin yazılmasını mümkün edən texniki inkişaf nəticəsində musiqinin dinlənmə arealı genişləndi. Radio 1920-ci illərdə geniş yayıldı, Avropa və ABŞ-də isə kütləvi media vasitəsinə çevrildi. Bununla da "Danışan mətbuat"



“Gernika”. *Rəssam Pablo Pikasso*

dövrü başlandı. Artıq radio siyasətin əsas təbliğat vasitəsi idi. O həmçinin klassik musiqi, caz və teatrın təbliğində də rol oynadı.

## MƏDƏNİYYƏT VƏ SİYASƏT

1920–1930-cu illərdə İtaliyada faşizm, Almaniyada nasizm, SSRİ-də isə bolşevizm öz məqsədlərinə xidmət etdirmək üçün mədəniyyətin bütün sahələrini sərt nəzarət altına almışdı. Bu dövrdə dünyada mədəniyyət xadimləri siyasi müzakirələrdə daha fəal iştirak etməyə başladılar. Bir çox alman ziyalıları nasizmi tənqid etdilər. Onların əksəriyyəti 1933-cü ildə Hitler hakimiyyətə gəldikdən sonra ölkəni tərk etməyə məcbur qaldı.

S Mədəniyyətin inkişafında dövlətlər hansı rolu oynaya bilər?

XX yüzillik rəssamlığında dərin iz buraxmış sənətkarlardan biri Pablo Pikasso olmuşdur. Onun məşhur əsəri olan “Gernika”da İspaniyada vətəndaş müharibəsi dövründə alman təyyarələri tərəfindən dağıdılmış Gernika şəhəri təsvir edilir.

T Mədəniyyət və siyasətin qarşılıqlı əlaqələri haqqında müzakirə aparın.

XX yüzilliyin dahi bəstəkarlarından biri olan **Dmitri Şostakoviç** faşist qoşunları tərəfindən mühasirəyə alınan Leninqradda könüllü olaraq yanğınsöndürmə və səngər qazılmasında iştirak edir. O, mühasirə şəraitində məşhur “Yeddinci simfoniya”sını bəstələmişdir. Faşistlərin bütün maneələrinə baxmayaraq, simfoniya düşmənə psixoloji təsir göstərmək üçün səsgücləndirici ilə cəbhə xəttində səsləndirilir. Bu hadisə psixoloji və siyasi təsirləri baxımdan İkinci dünya müharibəsi dövründə ən önəmli mədəniyyət hadisələrindən biri kimi qəbul edilir. Orkestrin rəhbəri bunu: *“O anda ruhsuz faşist işğalçılarına qalib gəldik”*, – deyə ifadə etmişdi.



Dmitri Şostakoviçin mühasirədə olan Leninqradda könüllü yanğınsöndürən kimi fəaliyyəti

T 1920–1930-cu illərdə mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlərə aid zaman oxu tərtib edin.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

Harri Trumen, "Ədalətli xətt", Martin Lüter Kinq, "Uoterqeyt", "Reyqanomika", respublikaçılar, Donald Tramp

## DÜNYA MÜHARİBƏSİNİN NƏTİCƏLƏRİ

ABŞ İkinci dünya müharibəsindən qalib dövlətlər sırasında çıxdı. Dünya müharibəsinin onun üçün bir sıra sosial-iqtisadi nəticələri oldu. Belə ki ABŞ müharibədən sonra dünyanın ən varlı ölkəsinə çevrildi. Ölkə iqtisadiyyatının sürətli inkişafının əsas xüsusiyyətlərindən biri də müharibə dövründə ərazisində hərbi əməliyyatların getməməsi ilə bağlı idi.

T Harri Trumenin daxili siyasətini F.Ruzveltin daxili siyasəti ilə müqayisə edin.

Müharibənin sonuna az qalmış vəfat edən F.Ruzveltin yerinə vitse-prezident **Harri Trumen** gətirildi. O, **"Ədalətli xətt"** adlı geniş islahatlar proqramını irəli sürdü. Əslində, bu islahatlar Ruzveltin "Yeni xətt" siyasətinin davamı idi. Proqramda ordunun tərxis olunması ilə məşğulluğun təmin edilməsi və iqtisadiyyatın yenidən qurulması nəzərdə tutulurdu. İqtisadiyyatın dinc dövrə uyğunlaşdırılması nəticəsində istehsal xeyli gerilədi. Yaranmış bu vəziyyətdə ölkəni tətil hərəkatı bürüdü. Həmkarlar ittifaqı üzərində dövlət nəzarətini gücləndirmək üçün ABŞ konqresi **Taft-Xartli qanununu** qəbul etdi. Qanuna görə əmək münasibətləri tənzimlənir və müəyyən edilmiş vaxtdan fərqli vaxtlarda tətil etmək qadağan olunurdu.

Müharibədən sonrakı dövrdə ölkədə siyasi həyatın demokratikləşməsi baxımından da bəzi yeniliklər baş verdi. Konstitusiyaya edilmiş düzəlişə görə heç kim iki dəfədən artıq ölkə prezidenti seçilə bilməzdi. 1948-ci ildə prezident seçilən Harri Trumen ölkə iqtisadiyyatında davamlı inkişafı təmin etmək üçün tədbirlər gördü. Sığorta ödənişləri tənzimləndi və az gəlirli ailələr üçün mənzil tikintisinə vəsait artırıldı.

S H.Trumenin prezident seçkilərində qələbə qazanmasına hansı amillər səbəb olmuşdur?


Harri Trumen

H.Trumenin dövründə kommunizm təhlükəsinə qarşı mübarizə dövlət siyasəti səviyyəsinə qaldırıldı. Senator C.Makkartinin təşəbbüsü ilə müxalifətə qarşı mübarizə gücləndi. Onun iddialarına görə dövlət idarələrində çoxlu kommunist işləyirdi. ABŞ əhalisini kommunist təhlükəsi ilə hədələyən senator və onun tərəfdarları azadfikirli insanlara qarşı genişmiqyaslı təqiblər aparırdılar.

H.Trumenin dövründə afroamerikalı əhaliyə qarşı da münasibət birmənalı idi. Müharibə dövründə xeyli sayda afroamerikalıların iştirak etməsi və qəhrəmanlıq göstərməsinə baxmayaraq, onların seçki hüquqları yox idi. Trumen afroamerikalılara mülki bərabərlik olmasa da, seçki hüququnun verilməsinə çalışırdı. Onlara seçki hüququ verilməsi məsələsini konqresdə ilk dəfə Trumen qaldırdı.

Harri Trumenin xarici siyasi xətti "atom diplomatiyası" adını aldı. 1946-cı ildə SSRİ-nin müdaxilə meylinin qarşısını almaq üçün müxtəlif doktrinalar irəli sürüldü.

## ABŞ ÖLKƏLƏRARASI SİYASİ BÖHRAN BURULĞANINDA

1960-cı ildə seçkilərdə **Con Kennedi** prezident seçildi. O, bir çox xüsusiyyətlərinə görə digər prezidentlərdən fərqlənirdi. ABŞ prezidentləri içərisində ilk dəfə bir katolik prezident kürsüsündə əyləşmişdi. Kennedinin daxili siyasətinin əsasını vergilərin azaldılması ilə iqtisadiyyatı dirçəltmək, xəstələrin sosial müdafiəsinin təmini, təhsilin yenidən qurulması və irqi ayrı-seçkilik probleminin həlli təşkil edirdi. İrqi ayrı-seçkilik məsələsində ehtiyatla davranan Kennedi



Con Kennedi

qaradərililərin təqib edilməsinin qarşısını almaqla yanaşı, həm də SSRİ-nin bu sahədə əks-təbliğatına mane olmağa çalışırdı.

C.Kennedi xarici siyasətində SSRİ ilə münasibətlərə xüsusi diqqət edirdi. Konqresdə də bu səbəbdən ona dəstək verilirdi. Çünki SSRİ-ABŞ qarşıdurması, atom silahlarının bütün bəşəriyyət üçün təhlükə törətməsi ən böyük problemə çevrilmişdi. Kennedinin "Yeni hüdudlar" doktrinasında SSRİ ilə yeni münasibətlər qurmaq, dünyada qüvvələr nisbətini öz xeyrinə dəyişməkdən ötrü səmərəli fəaliyyət nəzərdə tuturdu. İnkişaf etməkdə olan ölkələrdə kommunizm təhlükəsinin yayılmasının qarşısını almaq əsas məqsədlərdən idi.

T ABŞ-nin SSRİ ilə münasibətlərini müqayisəli təhlil edin.

Kennedi hökumətinin xarici siyasətində Latın Amerikası və Qərbi Avropa ölkələri də xüsusi yer tuturdu. Latın Amerikası ölkələrinin iqtisadiyyatının dirçəldilməsi üçün maliyyə yardımı etməklə onların ABŞ-dən asılılığını möhkəmləndirmək vacib məsələ sayılırdı. Qərbi Avropa ölkələri ilə də əməkdaşlıq genişləndirilməli və ABŞ-nin Avropada nüfuzu saxlanmalı idi.

Kennedi hökumətinin xarici siyasətində ziddiyyətli meyillər də müşahidə olunurdu. SSRİ ilə Kuba və Avropada Karib və Berlin böhranlarının yaranmasında ABŞ-nin də rolu az deyildi. Kubada baş verən inqilaba müdaxilə etməsi birbaşa SSRİ ilə münasibətləri daha da gərginləşdirdi. Nüvə müharibəsi təhlükəsi ilk dəfə real görünürdü. Nəhayət, SSRİ dövlət başçısı N.Xruşşov və Kennedinin razılaşması ilə dünyanı bürüyən böyük fəlakətin qarşısını almaq mümkün oldu.

Karib böhranından sonra iki dövlət arasında nüvə tərk-silahı aktuallaşdı. 1963-cü ildə Moskvada SSRİ, ABŞ və İngiltərə arasında atmosferdə və su altında nüvə silahı sınaqlarının qadağan olunması haqqında razılaşma əldə olundu. Lakin ABŞ hərbi sənaye kompleksinin nümayəndələri bundan narazı idi.



SSRİ dövlət başçısı N.Xruşşov və C.Kennedi

1963-cü ildə Dallas şəhərində gənc prezident sui-qəsdə məruz qaldı. Bununla da tərk-silah sahəsində aparılan danışıqlar yarımçıq qaldı.

Yeni prezident seçilən Lindon Consonun sosializmin alternativi olan bir cəmiyyət yaratmaq arzusu baş tutmadı. Yoxsulluqla mübarizə adı altında ayrılan vəsaitlər problemi aradan qaldırmağa imkan vermədi.

Mühacirət haqqında qanunun təxirə salınması ilə ölkəyə yeni mühacir axınları sürətləndi. Müxtəlif şəhərlərdə irqi qarşıdurma başlandı. 1968-ci ildə afroamerikalıların nümayəndəsi Martin Lüter Kinqin başçılığı altında yürüşlər başlandı. Lakin onun öldürülməsi ilə mövcud vəziyyət daha da pisləşdi. L.Conson vəziyyəti düzəltmək üçün qaradərililərin ağlarla hüquq bərabərliyini təmin etməyə məcbur oldu.

S XX yüzilliyin 60-cı illərində irqi ayrı-seçkilik meyillərinin güclənməsinin səbəbləri nə idi?



"Arzum budur ki, sabiq qulların oğulları ilə sabiq quldarların oğulları bir gün Corciyanın qızıl təpələrində qardaşlıq süfrəsi arxasında birgə oturmaq imkanı əldə edə bilsinlər".

Martin Lüter Kinq



Lindon Conson insan haqları hərəkatı liderləri ilə birlikdə

Xarici siyasətdə sərt mövqe sərgiləyən L.Conson Yaxın Şərq münaqişəsində İsrailin tərəfini tutdu. ABŞ Vyetnam gəmilərinin hücum təhlükəsini bəhanə edərək Vyetnamı bombalamağa başladı. Əslində, ABŞ bununla Uzaq Şərqdə SSRİ qarşısında öz mövqeyini gücləndirmək istəyirdi. Ancaq Vyetnamda ABŞ ordusunun böyük itkilərə məruz qalması L.Consonun hakimiyyətini sarsıtdı.



Riçard Nikson

1968-ci il seçkilərində **Riçard Nikson** prezident seçildi. Onun xarici siyasətinin əsasını Vyetnam müharibəsi təşkil edirdi. Nikson müharibəni başa çatdırmağa və Vyetnamla sülh bağlamağa çalışırdı. 1973-cü ilə qədər ABŞ qoşunları Vyetnamdan çıxarılmalı idi. Müharibədən ABŞ-nin məğlub ayrılmasına baxmayaraq, Niksonun Vyetnam müharibəsini başa çatdırması onun nüfuzunu yüksəltdi.

Riçard Nikson "Yeni iqtisadi siyasət" haqqında proqram irəli sürməklə iqtisadiyyatı bərpa etməyə çalışırdı. Sosial sahədə bir sıra addımlar atıldı. Qocalığa görə verilən təqaüdlər artırıldı. İşsizliyə görə müavinətlər nəzərdə tutuldu.



Vyetnam müharibəsi

Demokratların daxili çəkişmələrindən istifadə edən Nikson seçkilərdə yenidən qalib gəlsə də, onun seçki kampaniyası dövründə "Uotergeyt" otelində dinləmə qurğularından istifadə edilməsi siyasi böhrana səbəb oldu. **İmpiçment*** təhlükəsi qarşısında qalan Nikson 1974-cü ildə istefa verməyə məcbur oldu. Yeni prezident seçilənə qədər ABŞ tarixində ilk dəfə təyinatla vəzifələr tutan siyasi xadimlər tərəfindən idarə olundu.

*** İmpiçment**

*ingilis sözü olub, mənası "etimadsızlıq" deməkdir. Dövlət başçısı da daxil olmaqla yüksək vəzifəli məmurlara etimadsızlıq göstərilməsi, habelə onlara qarşı məhkəmə qaydasında ittiham irəli sürülməsi prosedurudur.*


Ronald Reyqan

1980-ci ildə respublikaçı **Ronald Reyqan** prezident seçildi. Onun əsas məqsədi əvvəlki prezidentlərin dövründə başlanmış inflyasiyanın qarşısını almaq idi. Bu məqsədlə irəli sürülən "Reyqanomika" adlı proqramın əsasında büdcə xərcləri azaldıldı, özəl sektorda dövlətin nəzarəti zəiflədildi, sənayeyə kapital qoyuluşu artırıldı. İşsizliyə görə büdcədən ayrılan müavinətlər ləğv edildi. Azgəlirli əhali vergilərdən azad olundu. İnflyasiya və işsizlik problemləri həll edildi.

S "Reyqanomika" proqramı çərçivəsində hansı tədbirlər görüldü?

Amerika sənayesi elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini səmərəli surətdə tətbiq edirdi. Bu dövrdə ilk fərdi kompüter istehsal olundu, ölkədə mobil telefon rabitə şəbəkəsi yaradıldı.

Reyqanın xarici siyasəti antikommunist ruhda köklənmişdi. O, "Şər imperiyası" adlandırdığı SSRİ ilə eyni zamanda, Mərkəzi Amerika ölkələrinə olan münasibətdə də bu siyasi xətti davam etdirirdi. Sovet İttifaqı ilə dünyada nüfuz sahibliyi uğrunda aparılan mübarizə ABŞ-nin qələbəsi ilə başa çatdı. Əslində, bu Reyqanın uğurundan daha çox SSRİ-də hakimiyyətə gəlmiş Mixail Qorbaçovun uğursuz siyasətinin nəticəsi idi.


Corc Buş

Reyqan başladığı iqtisadi-siyasi xəttin davam etdirilməsi üçün siyasi varisinin ondan sonra prezident seçilməsinə böyük kömək göstərmişdir. Onun siyasi varisi səkkiz illik hakimiyyəti dövründə vitse-prezident olmuş **Corc Buş** idi. 1988-ci il seçkilərində qalib gələn Corc Buş daxili siyasətdə Reyqanın uğurlarını davam etdirə bilmədi. 1980-ci illərin sonlarından etibarən dərinləşən iqtisadi tənəzzül respublikaçıların xalq içərisində dayaqlarına zərbə vurdu.

Lakin xarici siyasətdə Buş bəzi uğurlar əldə etdi. 1989-cu ildə Panamaya müdaxilə, Almaniyanın birləşmə prosesinə daha tez reaksiya verməsi, İsrail və onun ərəb qonşuları ilə sülh danışıqlarının bərpa edilməsindəki vasitəçiliyi belə uğurlardandır.


Corc Buş və Mixail Qorbaçov



“Səhra fırtınası” əməliyyatı



Bill Klinton

Corc Buşun əsas nailiyyəti isə İran körfəzində baş verən münaqişəyə vaxtında hərbi müdaxiləsi idi.

1992-ci ildə seçkilərdə demokratların lideri **Bill Klinton** qalib gəldi. Onun dövründə dövlət idarəçilik xərcləri azaldıldı, vergi, sosial təminat və təhsil sahəsində islahatlar aparıldı. Büdcə kəsiri aradan qaldırıldı, inflyasiya və işsizlik xeyli azaldıldı. F.Ruzveltin siyasi xəttini davam etdirən Klintonun prezidentliyi dövrü ABŞ-nin iqtisadi tarixində uğurlu mərhələlərdən biri sayılır.

## ABŞ XXI YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

2000-ci ildə keçirilən prezident seçkiləri ABŞ tarixində qalmaqallı olması ilə yadda qaldı. Respublikaçıların müraciəti əsasında ABŞ Ali məhkəməsi rəqib partiyanın səslərini etibarsız saydı. **Corc Buş** ABŞ-nin yeni prezidenti elan olundu. Bu hadisələr demokratiyanın beşiyi sayılan ABŞ-də seçkilərə müdaxilənin ola biləcəyi təsəvvürlərini yaratdı.

Corc Buş hakimiyyətə gəldikdən sonra vergi islahatı keçirmək haqqında konqresə qanun layihəsi təqdim etdi. Həmin islahata görə vergilərin aşağı və yuxarı hədləri müəyyən edildi.



Corc Buş

On il ərzində vergilər xeyli ixtisar edilməli idi. Ancaq 2001-ci ildə baş verən terror hadisələri iqtisadi tənəzzülə səbəb oldu. Daxili təhlükəsizliyi möhkəmləndirməyə yönəlmiş əlavə xərclər büdcə kəsirinin artmasına gətirib çıxardı.

Dünya ticarət mərkəzinə edilən hücumlar C.Buşun xarici siyasətini terrorla mübarizəyə yönəltdi.

2001-ci il 11 sentyabrda baş verən terror hadisələrinin dünya siyasətinə hansı təsirləri oldu?



11 sentyabr terror hadisəsi



Corc Buş ABŞ ordusunun təlimlərində

Bu mübarizə məqsədilə hərbi xərclər dəfələrlə artırıldı. Terror hadisələri ilə əlaqədar olaraq Əfqanıstanda hakimiyyətdə olan "Taliban" üzərinə hücum başlandı. Bu hərbi əməliyyatlar nəticəsində Əfqanıstan tarixinin ən ağır vəziyyətinə salındı.

Kütləvi qırğın və kimyəvi silah saxlaması şübhələri ilə İraq hakimiyyətinə qarşı hərbi əməliyyatlara bir çox Avropa ölkələri cəlb olundu. İraqda Səddam Hüseyn rejimi devrildi. Ancaq iddia olunan kimyəvi silahlar tapılmadı. İraq və bütün Yaxın Şərq C.Buşun apardığı uğursuz xarici siyasət nəticəsində xarabalığa çevrildi. Bu hadisələr İraq və Əfqanıstanda yeni terror təşkilatlarının yaranmasına şərait yaratdı.


Barak Obama

2008-ci il prezident seçkilərində ilk dəfə qaradərili bir namizəd – **Barak Obama** prezident seçildi. İlin ikinci yarısından etibarən ABŞ-ni yeni maliyyə böhranı bürüdü. Böhran tezliklə digər ölkələrə yayılaraq dünya maliyyə və iqtisadi böhranına çevrildi. Dünya bazarında neftin qiyməti sürətlə aşağı düşdü. Dünya ərzaq məhsullarının sürətli bahalaşması ilə qarşılaşdı.

Obama, ilk növbədə, iqtisadi böhranın nəticələrinin aradan qaldırılmasına diqqət yetirdi.

İslahatların maliyyələşdirilməsi üçün yüksək gəliri olan təbəqənin ödəyəcəyi vergilər artırıldı, büdcə kəsiri və işsizlik azaldıldı.

B.Obama hökuməti Əfqanıstana "Taliban" qüvvələri ilə mübarizə üçün yeni qoşun hissələri göndərilməsini nəzərdə tuturdu. Bunun əvəzində, İraqdakı ABŞ qoşunlarının sayının azaldılması və onların tədricən çıxarılması barədə qərar qəbul edildi.

2016-cı ildə keçirilən seçkilərdə respublikaçı **Donald Tramp** qalib gəldi. O, İran, Şimali Koreya və Rusiya ilə münasibətləri qaydaya salmaq üçün bir sıra addımlar atdı. ABŞ-nin təşəbbüsü ilə Koreya Xalq Demokratik Respublikası və Cənubi Koreya arasında ikitərəfli danışıqlar aparılmasına başlanılsa da, bu proses uzun çəkmədi.


Donald Tramp

Növbəti prezident seçkilərində demokratların namizədi **Co Bayden** prezident seçildi. D.Trampdan fərqli olaraq, xarici siyasətdə Rusiyaya qarşı sərt çıxışlar edən Bayden Rusiya-Ukrayna müharibəsində açıq şəkildə Ukraynaya hərbi və maliyyə yardımları etməyə başladı.


Co Bayden


Donald Tramp və Vladimir Putin

Corc Buş və Donald Trampın xarici siyasətlərini müqayisəli təhlil edin.

# BÖYÜK BRİTANİYA, FRANSA VƏ ALMANİYA

Uinston Çörçill, leyboristlər, "Folklend böhranı", Şarl de Qoll, Evian sazişi, Konrad Adenauer, "İqtisadi möcüzə", Helmut Koll

## BÖYÜK BRİTANİYA

Böyük Britaniya əvvəlki müharibədə olduğu kimi, İkinci dünya müharibəsindən də qalib kimi çıxmışdı. Ancaq müharibənin nəticələri ölkə üçün elə də arzuolunan deyildi. Dənizlərdə hökmranlıq artıq çoxdan ABŞ-yə keçmişdi. Ölkəyə dəyən maddi ziyanın ölçüsü çox böyük idi. Xeyli miqdarda iqtisadi resursların itirilməsi Böyük Britaniyanı ABŞ-dən asılı hala saldı. Həmçinin müstəmləkələrin və dominionların iqtisadi cəhətdən güclənməsi onların İngiltərədən tədricən uzaqlaşmasına gətirib çıxardı.

1945-ci ildə parlament seçkilərində leyboristlər partiyası qələbə çaldı. **Klement Etlinin** rəhbərliyi ilə yeni hökumət quruldu. Onların daxili siyasətinin əsasını milliləşdirmə tuturdu. Leyboristlər bankları və əvəzi ödənilməklə bir çox sənaye müəssisələrini milliləşdirdi.

Leyboristlərin xarici siyasətinin başlıca məsələsi Britaniya imperiyasının gələcəyi idi. Müstəmləkələrdə baş verən azadlıq hərəkatları leyboristləri güzəştə getməyə məcbur etdi. Bir sıra müstəmləkələrə əlverişli şərtlərlə müstəqillik verildi.

İkinci dünya müharibəsindən sonra Böyük Britaniyanın iqtisadi geriliyinə səbəb olan amillər hansılardır?

Vergilərin artırılması, talon sisteminin əhatə dairəsinin genişlənməsi leyboristlərin nüfuzuna xələl gətirdi.

Dünya müstəmləkə sisteminin dağılmasının Böyük Britaniya iqtisadiyyatına hansı təsirləri oldu?

1951-ci il seçkilərində mühafizəkarların yaşlı lideri **Uinston Çörçill** yenidən qələbə qazandı. Ölkəni iqtisadi böhrandan çıxarmağa çalışan mühafizəkarlar iqtisadiyyatda və sosial sahədə



Uinston Çörçill

dövlətin tənzimedici təsirini azaltmağa və milliləşdirmə siyasətindən tədricən uzaqlaşmağa başladılar. Bu dövrdə ölkədə iqtisadi inkişaf meyilləri sürətlənsə də, İngiltərə hələ də ABŞ və qabaqcıl Avropa ölkələrindən geri qalırdı. Böyük Britaniya imperiyasının müstəmləkələrdən məhrum olması nəticəsində ölkənin böyük tələbatını qarşılamaq mümkün olmadı. Çünki keçmiş müstəmləkələrdən havayı gətirilən məhsullar artıq qarşılığı ödənməklə təmin olunurdu. Bu da Britaniya iqtisadiyyatına ağır zərbə vurdu. Çörçill müstəmləkə imperiyasını qoruyub saxlamağa çalışsa da, bu, mümkün olmadı. Müstəmləkələr məsələsində leyboristlərin başladığı siyasət davam etdirildi. Bütün müstəmləkələrə müstəqillik verilməsi qaçılmaz oldu.

Böyük Britaniyanın siyasi, iqtisadi və elmi-texniki sahədə geriliyi və imperiyanın süqutu səbəbindən ölkədə bəzi problemlər yaranmağa başladı. Əzəli düşmən olan Almaniya və Fransanın yaxınlaşması və iqtisadi birlik yaratmaları Britaniyanın planlarına zidd idi. Hökumət ənənəvi siyasətə riayət edərək, qitədə yaradılan koalisiyalara qoşulmayıb onların Britaniya əleyhinə mümkün ola biləcək təsirini zəiflət-

mək xəttini əsas tutdu. Lakin bu siyasət özünü doğrultmadı.

Ölkədə baş verən siyasi gərginlik 1960-cı illərin sonlarında Olsterdə (*Şimali İrlandiya*) milli-siyasi zəmində toqquşmalara gətirib çıxardı. İngiltərənin buraya qoşun yeritməsi vəziyyəti daha da ağırlaşdırdı.



Şimali İrlandiya konflikti.
Derri şəhərində kütləvi iğtişaşlar

1979-cu ildə keçirilən parlament seçkilərində mühafizəkarlar bu dəfə **Marqaret Tetçerin** başçılığı ilə yenidən hakimiyyətə gəldi. Baş nazir azad sahibkarlığı iqtisadi tərəqqinin təməli hesab edir, iqtisadi inkişaf üçün rəqabət mühitinin yaradılmasını əsas vasitə sayırdı. Buna görə də inflyasiyaya qarşı mübarizədə vətəndaşların dövlətlə birlikdə sosial rifah üçün çalışmasını istəyirdi.



Marqaret Tetçer

O, əməkqabiliyyətli vətəndaşların dövlət hesabına yardım almalarının əleyhinə çıxırdı. Tetçer hökuməti sərt maliyyə siyasətinə başlamaqla vergiləri artırdı, sosial sahəyə ayrılan xərclər azaldıldı. Sənaye, nəqliyyat və digər dövlət müəssisələrinin bir hissəsi özəl mülkiyyətə verildi.

Tetçer hökuməti xarici siyasətdə dəyişiklik etdi. İngiltərənin hərbi xərcləri xeyli artırıldı. İngiltərə ABŞ-nin sosializmə qarşı apardığı mübarizəyə qoşuldu. ABŞ-nin Qərbi Avropa ölkələrində orta mənzilli nüvə başlıqlı raketlərin yerləşdirilməsi planına fəal dəstək verdi.

Folklend adalarına sahiblik uğrunda mübarizə 1982-ci ildə İngiltərə ilə Argentina arasında münasibətləri gərginləşdirdi. Argentinanın adalara hərbi müdaxiləsi yeni bir hərbi böhrana səbəb oldu. Bu məsələdə barışmaz mövqe sərgiləyən Tetçer hakimiyyəti Argentinanı hərbi yolla niyyətindən əl çəkməyə məcbur etdi. ABŞ-nin birbaşa dəstəyi ilə **Folklend böhranı** Böyük Britaniyanın qələbəsi ilə başa çatdı.

XX yüzilliyin 90-cı illərində Böyük Britaniya tərkibində Şotlandiya və Uelsin muxtariyyətləri genişləndirildi. Leyboristlər hökuməti ilə İrlandiyanın siyasi partiyaları arasında 1968-ci ildən bəri həllini tapmayan Olster məsələsi ilə bağlı sazişlər imzalandı. Razılaşmalara görə Olsterə geniş muxtariyyət hüququ verildi.

1973-cü ildə Avropa İqtisadi Birliyinə qoşulan Böyük Britaniya XXI yüzilliyin əvvəllərindən etibarən birlikdən ayrılmaq üçün müzakirələrə başlamışdı. Avropa Birliyi daxilində olan iqtisadi cəhətdən zəif ölkələr İngiltərə iqtisadiyyatına yük hesab olunurdu. Bunları əsas gətirən ingilis hökuməti 2020-ci ildə **“Brexit”** (*Breksit*) planı ilə Avropa Birliyindən ayrıldı.



“Brexit” (Breksit) planı

Böyük Britaniyanın Avropa Birliyindən çıxmasının səbəblərini araşdırın.

## FRANSA

İkinci dünya müharibəsi İngiltərəyə nəzərən Fransa üçün çox ağır keçmişdi. Ərazisinin böyük hissəsi Almaniya tərəfindən işğal olunmuş, hökuməti mühacirət etməyə məcbur qalmışdı. Müharibənin nəticələri ölkənin bütün sahələrini iflic vəziyyətə salmışdı.



Şarl de Qoll

Müttəfiq qoşunlarının hücumları nəticəsində Fransa 1944-cü ilin payızında işğaldan azad olundu. Uzun müddət davam edən işğal rejiminin ağır nəticələrini aradan qaldırmaq və Fransanı yenidən qurmaq lazım idi. İşğaldan sonra ölkə daxilində siyasi vəziyyət gərgin olaraq qalırdı. Fransa tamamilə idarəolunmaz vəziyyətdə idi. Yeni idarəçilik mexanizmlərini yaratmaq üçün Şarl de Qollun rəhbərliyi ilə 1944-cü ildə **müvəqqəti hökumət** yaradıldı. Yeni hökumət ölkədə demokratik quruluşu bərpa etdi.

Şarl de Qoll müstəqil şəkildə sosial islahatlar keçirən güclü dövlət yaratmaqla Fransanın müharibədən əvvəlki qüdrətini özünə qaytarmaq istəyirdi. Müvəqqəti hökumət tərəfindən nasistlərlə əməkdaşlıq edənlərin mülkiyyətləri müsadirə olundu. Bəzi müəssisələr isə dəyəri ödənilməklə milliləşdirildi.

Qanunverici orqanın hökumətin gündəlik fəaliyyətinə qarışmasına etiraz edən Şarl de Qoll istefa verdi. 1946-cı ildə yeni konstitusiyanın qəbul olunması ilə Müvəqqəti rejimin fəaliyyəti başa çatdı. Fransada **IV Respublika dövrü** (1946–1958) başlandı.

Müharibə dövrünün ağır nəticələrinin aradan qaldırılması üçün hazırlanmış planlar müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Elmi-texniki tərəqqi, dövlət tərəfindən iri müəssisələrin fəaliyyətinin dəstəklənməsi iqtisadiyyatın inkişaf sürətini artırdı. İri kapital qoyuluşunun artırılmasına görə Fransa 1950-ci illərin ortalarında ABŞ və Böyük Britaniyanı qabaqladı.

T Şarl de Qollun IV və V Respublikalar dövründə fəaliyyətini müqayisə edin.

IV Respublikanın xarici siyasətinin istiqamətlərindən biri Avropa dövlətləri ilə dinc münasibətlər idi. Məhz buna görə də Fransa 1949-cu ildə **Avropa Şurasının** və 1957-ci ildə **Avropa İqtisadi Birliyinin** yaradılmasında əsas rol alan ölkələrdən biri oldu.

1950-ci illərin sonunda yaranmış hakimiyyət böhranı IV Respublikanın nüfuzunu sarsıtdı.

Müxalifət bu vəziyyətdən məharətlə istifadə etməyə başladı. Həmçinin Əlcəzairdə olan hərbi qüvvələrin hökumətə bir sıra tələblər göndərməsi ölkədə siyasi vəziyyətin daha da pisləşməsinə gətirib çıxardı. Siyasi sabitlik tərəfdarları xilas yolunu Şarl de Qollun hakimiyyətə qayıtmasında görürdülər. Parlamentin buraxılması ilə dördüncü respublikanın fəaliyyəti başa çatdı.

S Fransada IV Respublikanın süqutunun səbəbləri nələrdir?



Əlcəzair azadlıq hərəkatına Fransa ordusunun müdaxiləsi

**İLHAM ƏLİYEV**
Ərəb Dövlətləri Liqasının
31-ci Zirvə toplantısındakı çıxışından



Mən bu gün Şəhidlər memorialını və eləcə də Mücahidlər muzeyini ziyarət etdim. Gördüklərimdən çox mütəəssir oldum. Baş vermiş zorakılıq, kütləvi qətliam Fransanın Əlcəzair xalqına qarşı törətdiyi, dünyanın heç zaman unutmadığı bir hadisədir. Fransanın Əlcəzair xalqına qarşı çox dəhşətli bir qətliam törətməsi 1,5 milyon insanın ölümü ilə nəticələnmişdir. Məhz bu gün bu fəlakətli hadisəni xatırlayarkən biz belə bir fəlakətlərin gələcəkdə qarşısını almaq üçün əlimizdən gələni etməliyik.

1958-ci ildə geniş səlahiyyətlər alan Şarl de Qoll, ilk növbədə, icraedici hakimiyyəti gücləndirmək və yeni konstitusiya hazırlamaq qərarına gəldi. İlin sonunda keçirilən seçkilərdə **Şarl de Qoll** (1958–1969) **V Respublikanın prezidenti** seçildi.

Yeni respublika dövründə kapitalın mərkəzləşməsi gücləndi. Dövlət dəstəyi nəticəsində sənaye sahələri sürətlə inkişaf etməyə başladı. Kənddə fermer təsərrüfatının inkişafı ilə Fransa Avropanın ən iri ərzaq ixracatçısına çevrildi.

Şarl de Qollun prezidentliyi dövründə ölkənin xarici siyasətində əsas məsələ müstəmləkələrdə başlanmış problemlərin həllini tapmaq və ABŞ-nin Avropada müdaxilələrini minimuma endirmək idi. Müharibədən sonra müstəmləkələrdə başlanan azadlıq hərəkatını yatırmaq üçün istifadə olunan qəddarlıq nəticəsində Əlcəzairdə bir milyondan artıq insan soyqırıma məruz qaldı. Fransa hökuməti tədricən öz sərt siyasətini yumşaltmağa başladı. 1960-cı illərin əvvəlində Ekvador və Qərbi Afrika müstəmləkələrinə, Evianda aparılan danışıqlar nəticəsində isə Əlcəzairə siyasi müstəqillik verildi.

1960-cı illərin ortalarından etibarən Şarl de Qollun avtoritar meyillərinə və həyat şəraitinin pisləşməsinə qarşı narazılıqlar artmağa başladı. Parisdə başlanan nümayişlərin genişlənməsindən narahat olan hökumət etirazçıların bəzi tələblərini təmin etdi, parlament buraxıldı. 1969-cu ildə isə prezident Şarl de Qoll istefa verdi.

1980-ci illərin əvvəlində prezident seçilən **Fransua Mitteran** NATO ilə əməkdaşlığı və ABŞ ilə münasibətləri inkişaf etdirdi.

**VASİLİ FİLİPPOV**
Tarix elmləri doktoru, Rusiya Elmlər Akademiyasının aparıcı elmi əməkdaşı

**Ruanda soyqırımının araşdırılması:** 2008-ci il avqustun 5-də Kaqamenin (Ruanda dövlət başçısı) əmri ilə başlayan araşdırmanın nəticələri dərc olundu. Beş yüz səhifəlik hesabatda "hazırlanan kütləvi qətllərlə bağlı fransız ordusunun nəinki kifayət qədər məlumatlı olduğu, həm də hadisələrdə bilavasitə iştirak etdiyi" barədə sübutlar təqdim edilmişdi. Kiqali (Ruandanın paytaxtı), Ruanda məhkəməsinin "yüz minlərlə ruandalıya sistematik olaraq divan tutan rejimə siyasi, hərbi, diplomatik və nəqliyyat dəstəyi verməkdə" təqsirləndirdiyi hər kəsi cinayət məsuliyyətinə cəlb etməyə hazır olduğunu bildirdi. İttiham olunan 33 nəfərin arasında Fransa prezidenti Fransua Mitteranın, Baş nazir Eduard Balladyürün və sonralar Fransa hökumətinə rəhbərlik etmiş daha iki siyasətçinin – sözügedən hadisələr zamanı xarici işlər naziri olan Alen Jüppe və onun köməkçisi Dominik de Vilpen – adları vardı.

Sonralar Fransa xarici işlər naziri Bernar Kuşner, 1994-cü ildə "siyasi səhvlərə" yol verildiyini etiraf etmişdi. Eyni etirafı 2010-cu ildə Ruandaya rəsmi səfəri zamanı Fransanın prezidenti Nikola Sarkozi də təkrarlamışdı.

Fransa ordusu ABŞ-nin İraqda apardığı "Səhrada tufan" adlı əməliyyatlarında yaxından iştirak etdi.

1994-cü ildə Ruandada baş verən vətəndaş müharibəsində hökumət qüvvələrinə Fransa hərbi yardım edərək bir milyona yaxın insanın soyqırımına məruz qalmasında iştirak etdi. Uydurma "erməni soyqırımı"nı əlində şüar edən fransız rəsmiləri Ruandadakı hadisələrə müdaxilə etməmək üçün BMT-də müzakirə olunan bütün təqdimatlardan "soyqırımı" ifadəsini çıxartmağa səy göstərdilər.



Ruanda hadisələri

Ruandada baş verən kütləvi qətliamları araşdırın.

2017-ci ildə keçirilən prezident seçkilərində Emmanuel Makron qalib gəldi. Prezidentin apardığı siyasət nəticəsində Fransada yanacaq qiymətlərinin artması və xalqın güzəranının pisləşməsi ilə kütləvi narazılıq artdı. Hökumətin tətbiqinə hazırlaşdığı yeni vergi islahatları "sarı yeləklilər" hərəkatına səbəb oldu. Ölkəni bürüyən bu hərəkatın qarşısını almağa çalışan fransız hökuməti bir müddət islahatların keçirilməsini gecikdirməyə məcbur qaldı.

## ALMANİYA

İkinci dünya müharibəsinin nəticələri Almaniya üçün daha acınacaqlı oldu. Birinci dünya müharibəsinin sonunda Almaniya ərazilərini əlində saxlaya bilmişdisə də, İkinci dünya müharibəsi başa çatanda artıq dövlət kimi mövcud deyildi. Əraziləri müttəfiq dövlətlər tərəfindən işğal zonalarına bölünmüşdü. Almaniyanın taleyi anti-Hitler koalisiyasına daxil olan dövlətlərin başçılarının müzakirələrinin əsas məsələsi olmuşdu. Potsdam konfransının qərarlarına əsasən Almaniya dörd yerə – ABŞ, Böyük Britaniya, SSRİ və Fransa işğal zonalarına bölündü. Həmin dövlətlərin rəhbərlərinin razılaşması nəticəsində sovet və qərb işğal zonaları arasında vətəndaşların və ticarət mallarının hərəkətinə ciddi nəzarət rejimi həyata keçirilməyə başlandı. Bu rejim yalnız Berlinə şamil olunmadı. Berlin ətrafında yaranan mübahisələr müttəfiqlər arasında fikir ayrılığına səbəb oldu. Yaranmış qarşıdurma Almaniyanın birləşdirilməsinə mane oldu.

**Almaniyanın işğal zonalarına bölünməsi**




Müharibədən sonra Almaniyanın parçalanmasının səbəblərini müəyyən edin.

Böyük Britaniya və Fransa qitədə güclü Almaniyanın olmasında maraqlı deyildi. Həmçinin zəif bir Almaniyanın olması ABŞ-nin Avropadakı maraqlarına zidd idi. ABŞ güclənməkdə olan Fransa qarşısında ona maneə olan bir Almaniyanın yaradılması üçün çalışırdı. ABŞ-nin təhriki ilə qərb işğal zonasında Almaniya dövlətinin yaradılmasını Böyük Britaniya və Fransa da dəstəklədi. Onlar Almaniyanı zəiflətmək planından əl çəkərək təzminat almağı dayandırdı. Beləliklə, qərb işğal zonasında 1949-cu ildə **Almaniya Federativ Respublikasının** əsası qoyuldu. SSRİ də dərhal öz işğal zonasında **Almaniya Demokratik Respublikasını** təsis etdi.

Qəbul olunmuş konstitusiyaya görə Almaniyanın dövlət quruluşu parlamentli federativ respublika oldu. Prezident məhdud səlahiyyətlərə malik oldu. Kansler parlament qarşısında cavabdeh idi.

Xristian Demokratik İttifaqının (XDİ) rəhbəri **Konrad Adenauer** AFR-in ilk federal kansleri seçildi. Onun dövründə, ilk növbədə, iqtisadiyyata iri kapital qoyuluşu sürətləndi. ABŞ-nin **"Marşall planı"** çərçivəsində Almaniyaya yardım göstərməsi ölkə iqtisadiyyatının inkişafına böyük təsir göstərdi. Ölkəyə başqa ölkələrdən ucuz işçi qüvvəsi və yüksəkixtisaslı mütəxəssislər cəlb olundu. Hərbi xərclərin az olması, elmi-texniki tərəqqi ölkənin inkişafına öz töhfəsini verdi. Almaniyanın qısa müddətdə sürətli inkişafı məhz K.Adenauerin adı ilə bağlı idi. 1950-ci illər Almaniyanın **"iqtisadi möcüzələr dövrü"** adlanır.

İqtisadiyyatı məhv olmuş Almaniyanın sürətli inkişafına səbəb olan amilləri araşdırın.



K.Adenauerin şəkli "Taym" jurnalının üz qabığında

1960-cı illərin əvvəllərində iqtisadiyyatda tədricən durğunluq yaranmağa başladı. SSRİ-nin Berlin ətrafında divarlar çəkməsi, inkişafı təmin edən mənbələrin tükənməsi, siyasi-iqtisadi böhranlara gətirib çıxardı. K.Adenaueri Berlin böhranına müdaxilə etməkdə acizlik göstərməkdə günahlandıran almanlar çıxışlara başladılar. Çıxışların və tətil hərəkatlarının genişlənməsi Adenauerin nüfuzuna zərbə vurdu. Bir zamanlar "iqtisadi möcüzələr memarı" adlanan Adenauer 1963-cü ildə istefa verdi.

1969-cu ildə parlament seçkilərindən sonra AFR-də sosial-demokratların lideri **Villi Brandtın** başçılığı ilə hökumət təsis olundu. Yeni hökumət daxili narahatlığı aradan qaldırmaq üçün əməkhaqlarını və təqaüdləri artırdı, sahibkarların fəaliyyətinə dövlət nəzarətini gücləndirdi.

Brandt hökumətinin xarici siyasəti ölkədə müxalif güclərin kütləvi etirazına səbəb oldu. SSRİ ilə gizli danışıqlara başlayan V.Brandt özünün **"Şərq siyasəti"**ni elan etdi. İkinci dünya müharibəsinin nəticəsində dəyişən Şərqi Avropa dövlətlərinin yeni sərhədləri tanındı. Kəskin etirazlara baxmayaraq, ADR ilə dövlətlərarası münasibətlər qurmaqla Qərbi Berlinin statusunun müəyyən olunması haqqında razılıq əldə olundu.

Hökumətin SSRİ kəşfiyyatı ilə gizli əlaqələrinin olması ittihamlarının artması nəticəsində V.Brandt hakimiyyətdən uzaqlaşdırıldı.

AFR-in yeni kansleri XDİ-nin lideri Helmut Koll 1980-ci illərin axırlarında yaranmış əlverişli beynəlxalq vəziyyətdən istifadə edərək Almaniyanın birləşdirilməsinə çalışdı. ADR-ə iqtisadi cəhətdən kömək etmək sahəsində addımlar atan AFR hökuməti ilə birbaşa danışıqlar başlandı. ABŞ, İngiltərə və Fransanın iştirakı ilə Moskvada SSRİ ilə Almaniyanın taleyi haqqında müzakirələr aparıldı. Gərgin keçən müzakirələrin sonunda SSRİ bir sıra güzəştlərə getməli oldu. O, ADR-dən sovet qoşunlarının çıxarılmasına razılıq verdi. Beləliklə, 1990-cı ilin sonunda Almaniya vahid dövlətdə birləşdirildi. **H.Koll** birləşmiş Almaniya Federativ Respublikasının ilk federal kansleri oldu.

AFR-də Xristian Demokratik İttifaqının hakimiyyəti Angela Merkel ilə davam etdi.

Almaniyanın birləşdirilməsinə şərait yaradan beynəlxalq vəziyyəti müəyyən edin.

# SSRİ. RUSİYA FEDERASİYASI

İosif Stalin, “Beşillik plan”, talon sistemi, Nikita Xruşşov, “durğunluq”, “aşkarlıq”, “yenidənqurma”, Mixail Qorbaçov, Boris Yeltsin, Vladimir Putin, Krım məsələsi

## SSRİ

İkinci dünya müharibəsi nəticəsində SSRİ-nin iqtisadiyyatına böyük zərbə vurulmuşdu. Şəhər və kəndlər dağıdılmış, sənaye müəssisələri və kənd təsərrüfatı böyük zərər görmüşdü. Bu müharibədə SSRİ milyonlarla vətəndaşını qurban vermiş və daxili təqiblər nəticəsində bir sıra xalqlar sürgün olunmuşdu.

Müharibənin ağır nəticələrini aradan qaldırmaq üçün hakimiyyət tədbirlər görməyə başladı. Amma görülən bəzi tədbirlər ölkə iqtisadiyyatına və əhalinin güzəranına daha pis təsir göstərirdi. 1946–1950-ci illəri əhatə edən dördüncü “beşillik plan”da ölkə iqtisadiyyatının bərpa edilməsi nəzərdə tutulmuşdu. Ağır və hərbi sənayeyə böyük miqdarda vəsait ayrılması səfalət içərisində yaşayan əhalinin vəziyyətini daha da pisləşdirirdi.

İkinci dünya müharibəsinin SSRİ-nin iqtisadi vəziyyətinə təsirlərini izah edin.

Talon sisteminin ləğv edilməsindən sonra zəruri ərzaq mallarına dövlət tərəfindən müəyyən edilən vahid qiymətlər tətbiq olundu. Ölkənin maliyyə problemini aradan qaldırmaq və müharibə dövründə buraxılan saxta əskinasları dövriyyədən çıxarmaq üçün pul islahatı keçirildi.

Müharibədən sonra sərt idarəetmə sisteminin yumşaldılması gözlənilsə də, bu baş vermədi. Stalinin totalitar rejimi daha qəddarlıqla ölkəni idarə etməkdə davam edirdi.

Cəmiyyətin bütün sahələri, siyasi və sosial-iqtisadi fəaliyyət dövlətin inhisarında idi. Rejim rəsmi ideoloji təbliğatı gücləndirmişdi. 1940-cı illərin ikinci yarısı – 1950-ci illərin əvvəllərində repressiyalar daha da sərtləşdirildi. Lakin 1953-cü ildə İ.Stalinin ölümü ölkəni nəzərdə tutulan repressiyaların yeni dalğasından xilas etdi.



İosif Stalin

Mənbələrdən istifadə etməklə XX yüzilliyin 40–50-ci illərində tətbiq olunan repressiyaları araşdırın.

Stalinin vəfatından sonra rəhbərliyə **Nikita Xruşşov** (1953–1964) gətirildi. Onun dövründən etibarən totalitar rejimin yumşaldılmasına başlanıldı. 1956-cı ildə Kommunist partiyasının qurultayında Stalin şəxsiyyətinə pərəstiş Xruşşov tərəfindən tənqid edildi. Bununla da o, böyük problemlərin səbəbi olaraq Stalinin

apardığı yanlış siyasəti hədəf aldı. Repressiya qurbanlarına bəraət verildi, sürgün olunmuş xalqların daxili idarəçilikləri bərpa olundu. Pasport islahatından kənarda qalan kolxozçuların hüququnun bərpası kimi onların pasportlaşması həyata keçirildi.

Stalin dövrünün tənqid edilməsi iqtisadi sahədə də dəyişiklikləri zəruri edirdi. “Amerikaya çatmaq və onu ötüb-keçmək” şüarını irəli sürən Xruşşov kommunizmin yalnız bolluq yaradılması ilə qalib gələcəyini düşünürdü. Mənzil təminatının yaxşılaşdırılması və kənd təsərrüfatına diqqətin artırılması ön plana çəkildi. Xam torpaqların istifadəsinə başlanıldı.

Xruşşov dövründə xarici siyasətdə də dəyişiklik baş verdi. Qarşıdurmalar əvəzinə, “Kapitalist dövlətlərlə sülh şəraitində birlikdə yaşama” prinsipi irəli sürüldü. Sovet və dünya xalqları arasında mövcud olan “dəmir pərdə” aradan qaldırıldı.



Nikita Xruşşov

N.Xruşşovun islahatları hansı nəticələrə gətirib çıxardı?

1960-cı illərdə Berlin və Karib ətrafında yaranmış böhranlar da tezliklə diplomatik yollarla nizama salındı.

N.Xruşşovun daxili və xarici siyasəti birmənalı olaraq siyasi qüvvələr tərəfindən narazılıqla qarşılanırdı. 1964-cü ildə hakimiyyətdən uzaqlaşdırılan Xruşşovun yerinə **Leonid Brejnev** (1964–1982) gətirildi. Yeni hakimiyyət Xruşşov dövründə tətbiq olunan məhdud azadlıqları ləğv etdi, şəxsiyyətə pərəstişin tənqidini dayandırdı.



Leonid Brejnev

L.Brejnev kənd təsərrüfatı, ağır və hərbi sənayenin möhkəmləndirilməsinin tərəfdarı idi. Ancaq hakimiyyətdaxili fikir ayrılığının olması ölkədə islahatlar aparılmasına mane olurdu. Buna görə də məhz bu dövr “durğunluq” dövrü hesab olunur. 1970-ci illərdə baş vermiş dünya iqtisadi böhranı SSRİ-yə də ciddi şəkildə təsir etməyə başladı. Dövlətin gəlirlərini artırmaq üçün Sibirin zəngin sərvətlərinin mənimsənilməsi yolu ilə xammal ixracetmə siyasəti gücləndi. Lakin əldə olunan bütün resurslar ABŞ ilə silahlanma yarışında xərcləndiyi üçün bu, ölkədə iqtisadi tənəzzülün genişlənməsinə şərait yaratdı.

### Leonid Brejnevin islahatlar keçirməsinə mane olan səbəblər hansılardır?

Brejnev diqqətini daxili siyasətdən daha çox xarici siyasətə yönəltmişdi. O, xarici siyasətdə üstünlük əldə etmək üçün güc yolu seçməkdən çəkinmirdi. Ölkədə iqtisadi uğursuzluqlardan diqqəti yayındırmaq üçün 1979-cu ildə SSRİ ordusu Əfqanıstana yeridildi. Sovet hökuməti burada hakimiyyət uğrunda mübarizə aparan sosialistləri, ABŞ isə onlara qarşı olan qüvvələri müdafiə edirdi. SSRİ-nin Əfqanıstanda uğursuzluğu onun beynəlxalq nüfuzuna zərbə vurdu.

### SSRİ və ABŞ-nin qoşunlarının Əfqanıstana müdaxiləsinin nəticələrini müqayisə edin.

1980-ci illərin əvvəllərində SSRİ-nin dünyada və ölkə daxilində apardığı təbliğatla sosial-iqtisadi reallıq fərqli idi. Xruşşov dövründən etibarən həyata keçirilən islahatlara baxmayaraq, sərt idarəetmə, bütün sahələrdə bürokratik maneələr və şəxsi təşəbbüslərin qarşısının alınması ölkənin inkişafına mane olurdu.

1985-ci ildə **Mixail Qorbaçovun** baş katib vəzifəsinə gətirildiyi vaxt ölkənin daxili və beynəlxalq vəziyyəti ağır idi. Onun irəli sürdüyü **"aşkarlıq"**, **"sürətləndirmə"** və **"yenidənqurma"** siyasətləri, əsasən, ölkənin iqtisadi dirçəlişini və rejimin böhrandan çıxmasını nəzərdə tuturdu. Xruşşov dövründən fərqli olaraq, yenidənqurma iqtisadi sahə ilə yanaşı, daxili və xarici siyasəti də əhatə edirdi. Görülən tədbirlərə əsasən ticarət və xidmət sahəsində xüsusi sahibkarlığa icazə verildi. Səmərəliliyin artırılması məqsədilə kadrların ixtisarı işsizliyin artmasına səbəb oldu. İnflyasiyanın artması ilə yeni iqtisadi böhran dalğası başladı. Zəruri ərzaq mallarının qıtlığının yaranması səbəbindən talon sistemi bərpa olundu. Sosial narazılığın gündən-günə artması ilə tətil hərəkatları artmağa başladı. Bu müxtəlif sahələrdə istehsalın azalmasına gətirib çıxartdı.

### Yenidənqurma siyasəti SSRİ-nin süqutunu nə üçün sürətləndirdi?

Ölkədə maliyyə vəziyyəti daha da ağırlaşdı. Bütün sahələrdə tətbiq olunan planlı iqtisadiyyat rüşvətxorluğa və istehsal sahələrində fırıldaqçılığa səbəb oldu. Şişirdilmiş istehsal göstəriciləri tədricən ölkənin iqtisadi süqutunu sürətləndirdi. Vəziyyətdən çıxmaq üçün atılan addımlardan biri də sərt qənaət sisteminin tətbiq olunması idi. Bunun nəticəsində bir çox dövlət əhəmiyyətli müəssisələrdə böyük problemlər yarandı. 1986-cı ildə Çernobıl Atom Elektrik Stansiyasında reaktorların məhsuldarlığını artırmaq məqsədilə görülən işlər nəticəsində dəhşətli qəza baş verdi.

"Yenidənqurma" və "aşkarlıq" siyasətinin mənfi siyasi nəticələri də qaçılmaz hal aldı. Ölkədə baş verən sosial-iqtisadi proseslər Baltikyanı ölkələrdə, Qafqazda və digər bölgələrdə müstəqillik meyillərinin artmasına səbəb oldu. Aparılan islahatların qüsurlu olması və onların kəskin problemlər yaratması artıq aşkar göründü. Bu qüsurları hökumətin iclasında M.Qorbaçova bildirən siyasi büronun üzvü Heydər Əliyev 1987-ci ildən vəzifədən uzaqlaşdırıldı. Bundan istifadə edən Ermənistan Azərbaycana



1982-ci ildən SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini olan Heydər Əliyev sonralar qeyd edirdi: "Artıq 70-ci illərdə Sovet İttifaqı böhran keçirirdi. Hərbi güc çox idi, lakin iqtisadiyyat geriləyirdi. SSRİ iqtisadi rəqabətə davam gətirmirdi. Təkcə Sovet İttifaqı deyil, Şərqi Avropa ölkələri də..."

məxsus olan Qarabağın dağlıq ərazilərinə qarşı iddia irəli sürdü. Tezliklə Ermənistanda və Qarabağda azərbaycanlı əhaliyə qarşı terrorçuluq fəaliyyəti başlandı. Ermənistanda yaşayan azərbaycanlılar öz tarixi torpaqlarından növbəti dəfə deportasiya edildi. Sovet rəhbərliyi tərəfindən bu hadisələrə göz yumulması ölkədə yeni milli münaqişə ocaqlarının yaranmasına səbəb oldu. Bütün bunlar iqtisadi və siyasi böhranı daha da dərinləşdirdi.

SSRİ-nin dağılması nə üçün yeni münaqişələrin yaranması ilə müşahidə edilirdi?

Ölkədə baş verən hadisələrdə partiya və dövlət rəhbərliyindəki mühafizəkar qrup Qorbaçovu günahlandırdı. 1991-ci ilin avqustunda dövlət çevrilişinə cəhd edilsə də, bu, uğursuz oldu. Ölkədə kommunist rejiminə qarşı narazılığın artması mərkəzi hakimiyyətin süqutunu sürətləndirdi. SSRİ-yə daxil olan müttəfiq respublikalar öz müstəqilliyini elan etdi. 1991-ci ilin dekabrında Qorbaçovun istefası ilə SSRİ-nin varlığına son qoyuldu.

## RUSİYA FEDERASİYASI

Rusiya 1990-cı ilin iyununda öz müstəqilliyini elan etsə də, o, SSRİ-nin varlığına tamamilə son qoyulduqdan sonra bir dövlət kimi fəaliyyətə başladı. 1992-ci ildən etibarən dövlətin adı rəsmi olaraq Rusiya Federasiyası adlandı.

İlk prezident Boris Yeltsinin dövründə Rusiyanın iqtisadi vəziyyəti ağır idi. Bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadi islahatların əsasında özəlləşdirmə prosesi dayanırdı. Lakin bu prosesdə yol verilən qanunsuzluqlar, korrupsiya və ölkədə kriminal vəziyyətin pisləşməsi islahatların uğursuzluğuna səbəb oldu. İnflyasiyanın artması əhalinin vəziyyətini pisləşdirdi.

Bu dövrdə siyasi həyatda da müəyyən dəyişikliklər baş verdi. Çoxpartiyalı sistem formalaşdı, milli quruculuqda dəyişikliklər baş verdi.

Rusiya Federasiyasında ən mürəkkəb məsələlərdən biri millətlərarası münasibətlərdir. Ölkənin çoxmillətli olması etnik-dini münaqişələrin artmasına səbəb olurdu. Federasiyanın tərkibində olan muxtar vilayət və respublikalarda müstəqillik meyilləri gücləndi. Çeçenistanın Rusiya Federasiyasından çıxması və müstəqilliyini elan etməsi mərkəzi hakimiyyətə qarşı qiyam kimi qiymətləndirildi. Çeçen xalqının məhvinə yönəlmiş hərbi əməliyyatlar müharibəyə səbəb oldu. 1994–1996-cı illəri əhatə edən Çeçenistan müharibəsində Rusiyanın məğlubiyyəti ölkədə siyasi və sosial-iqtisadi vəziyyəti daha da pisləşdirdi. 1999-cu ilin sonunda istefa verən Boris Yeltsin prezident vəzifəsini Vladimir Putinə verdi.



**Rusiyanın prezidenti Boris Yeltsinin (*sağda*) SSRİ prezidenti Mixail Qorbaçovdan Kommunist partiyasını qeyri-qanuni elan olunmasını tələb etməsi. 1991-ci il, avqust**

Çeçenistan müharibəsi Rusiyanın siyasi həyatına hansı təsirləri göstərdi?



**Vladimir Putin**

2000-ci ildə keçirilən seçkilərdə **Vladimir Putin** Rusiya Federasiyasının ikinci prezidenti seçildi. Onun siyasətinin əsasını dövlət hakimiyyətinin möhkəmləndirilməsi və Rusiyanın beynəlxalq nüfuzunun bərpa edilməsi təşkil edirdi. Siyasi sabitlik və Rusiyanın ixracatının əsasını təşkil edən neft-qaz məhsullarının qiymətinin dünya bazarında yüksəlməsi nəticəsində ölkənin sosial-iqtisadi vəziyyəti yaxşılaşmağa başladı. Hərbi sənaye sahəsində görülən işlər Rusiyanın əvvəlki hərbi mövqeyinin bərpasına səbəb oldu.

## MÜASİR RUSİYANIN XARİCİ SİYASƏTİ

1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belorusiyanın iştirakı ilə yaradılan Müstəqil Dövlətlər Birliyinə Baltikyanı ölkələrdən başqa, sonralar bütün keçmiş sovet respublikaları daxil oldu. 1992-ci ildə Daşkənddə imzalanan müqaviləyə əsasən keçmiş SSRİ-nin hərbi əmlakı vaxtilə ona daxil olan respublikalar arasında bölüşdürüldü. Nüvə silahına nəzarəti isə Rusiya öz əlində saxladı.

Belorusiya və Ukrayna ərazilərində yerləşən nüvə silahlarının Rusiyaya aparılmasına razılıq verdi. Daha sonra Ukrayna və Qazaxıstan nüvə silahına sahib olmaq hüquqlarını irəli sürdü. Lakin Rusiya və ABŞ-nin təzyiqi ilə hər iki dövlət 1994-cü ildə Budapeştdə nüvə silahının yayılmaması müqaviləsinə qoşuldu. Rusiya, Ukrayna, Böyük Britaniya və ABŞ-nin imzaladığı **Budapeşt protokolu** ilə Kiyev rəhbərliyinə heç bir ölkənin Ukraynaya qarşı güc tətbiq etməyəcəyi, eyni zamanda, ölkənin suverenliyinə və mövcud sərhədlərinə hörmətlə yanaşılacağına dair təminat verildi.

Qara dəniz donanmasına görə Rusiya ilə Ukrayna arasında olan gərgin münasibətlər 1997-ci ildə öz həllini tapdı. Buna baxmayaraq, Krım yarımadası Ukrayna ilə Rusiya arasında mübahisəli ərazi kimi qaldı. Ukraynanın Qərb ölkələri ilə yaxın əlaqələri və Ukrayna kilsəsinin Moskva Pravoslav kilsəsindən ayrılmaq istəyi ətrafında yaranan mübahisələr Rusiya ilə Ukrayna münasibətlərini daha da gərginləşdirdi. Bu vəziyyətdən istifadə edən Rusiya 2014-cü ildə Krımı ilhaq etdi.




### KRIM MƏSƏLƏSİ

SSRİ-nin dağılması ərəfəsində Krımın İkinci dünya müharibəsi dövründə ləğv edilmiş muxtariyyət statusu geri qaytarıldı. Beləliklə, Krım yenicə müstəqil olmuş Ukraynanın tərkibinə muxtar respublika kimi daxil oldu. 1994-cü ildə Krım prezidenti Yuri Meşkov Rusiyaya birləşmək üçün müraciət etdi. Buna cavab olaraq Ukrayna Radası Krım Respublikasında prezidentlik vəzifəsini ləğv etdi və qurumun səlahiyyətlərinin bir qismi əlindən alındı. Boris Yeltsin bu qərarlara etiraz etmədi. Ukrayna da bunun əvəzində 1994-cü ildə nüvə silahlarına sahib olmaq iddiasından əl çəkdi. Rusiya isə "Budapeşt memorandum"unun ikinci maddəsində Ukraynanın suverenliyini tanıdığını və ona qarşı heç vaxt hərbi güc tətbiq etməyəcəyi ilə bağlı öhdəlik götürdü.

2001-ci ildə V.Putin Krımda yerləşən Rusiyaya məxsus Qara dəniz donanması haqqında doktrinanı təsdiq etdi. Bu sənədə görə Qara dəniz donanması burada uzun müddətə saxlanılmalı idi. 2010-cu il aprelin 21-də Ukrayna-Rusiya münasibətlərinin normallaşması ilə bağlı, o cümlədən siyasi əməkdaşlıq, iqtisadiyyat və humanitar məsələlər üzrə mühüm danışıqlar aparıldı. Rusiya Ukraynaya hərbi bazaların Krımda saxlanması müqabilində ölkəyə ixrac edilən qaz qiymətlərində endirim edəcəyi barədə təminat verdi. Həmin gün Rusiya və Ukrayna prezidentləri Rusiyanın Qara dəniz donanmasına aid Krım hərbi bazalarının icarə müddətinin 2017-ci ildən 2042-ci ilə qədər uzadılması haqqında "Xarkov sazişi"ni imzaladılar.

**Ukrayna münaqişəsi: "What Everyone Needs to Know" Serhy Yekelchyk, 2015**

Krımın ilhaq edilməsindən sonra ABŞ və Avropa Birliyi ölkələri Rusiyaya qarşı çoxsaylı iqtisadi sanksiyalar tətbiq etdi. Bunlara baxmayaraq, Rusiya öz xarici siyasətində radikal addımlardan əl çəkməyərək Ukrayna ərazilərinə müdaxiləsini davam etdirir.

Krımın tarixi haqqında araşdırma aparmaqla problemin yaranma səbəblərini araşdırın.



Vladimir Putinin Krımın ilhaqını imzalaması




SSRİ və Rusiya Federasiyasının daxili və xarici siyasətlərini müqayisə edin.

| DÖVLƏTLƏR | SSRİ | | RUSİYA FEDERASİYASI |
|---|---|---|---|
| Müqayisə | Fərqli | Oxşar | Fərqli |
| Daxili siyasət | | | |
| Xarici siyasət | | | |

# TÜRKİYƏ VƏ İRAN

Trumen doktrinası, “Marşall planı”, Kıbrıs sülh hərəkatı, “Ağ inqilab”, İslam inqilabı, İran-İraq müharibəsi

İkinci dünya müharibəsində hər iki tərəfin cəhdlərinə baxmayaraq, Türkiyə uzun müddət bitərəf qaldı. 1945-ci ilin fevralında Türkiyə Almaniya və Yaponiyaya müharibə elan etdi. Yaranması nəzərdə tutulan BMT-yə üzv qəbul edilmək üçün bu addımın atılması əsas şərt idi. Bu dövrdə SSRİ-nin ərazi iddiaları irəli sürməsi Türkiyənin beynəlxalq vəziyyətini çətinləşdirdi. Ona görə də Türkiyə SSRİ-nin təcavüz təhlükəsinə qarşı ABŞ ilə yaxınlaşmağa məcbur oldu. **Trumen doktrinası** və **“Marşall planı”na** əsasən ABŞ Türkiyəyə hərbi-iqtisadi yardım göstərdi.

**ABŞ PREZİDENTİ HARRİ TRUMEN**
ABŞ Konqresində çıxışı. 12 mart 1947-ci il
“Tarix”. İstanbul, 2002

Dünyanın azadlıqsevər xalqları üçün müstəqil və iqtisadi cəhətdən sabit bir dövlət olaraq Türkiyənin gələcəyi, şübhəsiz, Yunanıstanınkından önəmsiz deyil. ... Türkiyənin milli birliyi və bərabərliyi Yaxın Şərqdə nizamın qorunması üçün son dərəcə önəmlidir. ... Yunanıstanda olduğu kimi, Türkiyənin ehtiyac duyduğu yardımı da ABŞ təmin etməlidir. ... Yunanıstanda hakimiyyətin silahlı azlığın əlinə keçməsi qonşu Türkiyəyə də təsir göstərə biləcəkdir. Qarışıqlığın bütün Yaxın Şərqə yayılma ehtimalı yüksəkdir. Bu həlledici anda Yunanıstan və Türkiyəyə lazım olan yardımı etməsək, bunun təsirləri Qərbdə və Şərqdə özünü göstərəcəkdir.

Trumen Türkiyənin əhəmiyyətini necə əsaslandırır? Türkiyənin gələcəyi hansı dövlət üçün önəmli hesab edilir?

İkinci dünya müharibəsində Türkiyənin bitərəfliyini qoruyub saxlayan prezident İsmət İnönü müharibədən sonra ölkədə demokratik tədbirlərin həyata keçirilməsini təmin etdi. Ölkənin qarşılaşdığı sosial-iqtisadi problemlər xarici iqtisadi əlaqələri genişləndirməklə həll oluna bilərdi. Ona görə də bu dövrdə siyasi, iqtisadi və sosial sahələrdə islahatlar keçirildi.

**TÜRKİYƏ PREZİDENTİ İSMƏT İNÖNÜ**
May, 1945-ci il
“Tarix”. İstanbul, 2002

İnkişaf etmiş cəmiyyətin maddi şərtlərini və mənəvi vasitələrini mümkün qədər tez tamamlamaq üçün çalışmalıyıq. Respublika ilə qurulan xalq idarəsi bütün istiqamətlərdə irəliləməyə və inkişafa davam edəcəkdir. Müharibə dövrünün ehtiyatlı tədbirlərini zəruri edən çətinliklər aradan qalxdıqca ölkənin siyasi və düşüncə həyatında demokratiya daha da genişlənəcək.

İsmət İnönü ölkədə demokratiyanın genişlənməsinə hansı amilin təsir edəcəyini irəli sürürdü?

Türkiyədə iqtisadiyyata dövlət nəzarəti nisbətən yumşaldıldı. Xarici ticarətin genişlənməsinə imkan verildi.

BMT-yə üzv olan Türkiyə daxili siyasətdə demokratikləşmə tədbirləri həyata keçirdi. İlk növbədə, siyasi partiyaların yaradılmasına icazə verildi. Hakimiyyətdə olan Cümhuriyyət Xalq Partiyasının bir qrup üzvü ayrılaraq **Demokrat Partiyasını** qurdu. Onlar iqtisadi siyasətdə milliləşdirmənin əleyhinə çıxırdılar. 1950-ci il seçkilərində Demokrat Partiyasının qalib gəlməsi Türkiyə tarixində dönüş nöqtəsi oldu. Partiyanın liderləri **Cəlal Bayar** prezident, **Adnan Menderes** isə Baş nazir oldu. Bu dövrdə Türkiyənin xarici siyasətində ABŞ-yə meyil gücləndi. Türkiyə NATO-ya daxil olmaq üçün Koreya müharibə-

sində ABŞ-nin və Cənubi Koreyanın müttəfiqi kimi fəal iştirak etdi. Nəticədə 1952-ci ildə NATO-ya daxil oldu. Türkiyə ərazisində ABŞ hərbi bazasının yaradılmasına icazə verildi.

**S** İkinci dünya müharibəsindən sonra yaranmış beynəlxalq vəziyyət Türkiyənin daxili siyasi vəziyyətinə necə təsir göstərdi?

1950-ci illərin ortalarından başlayan iqtisadi zəifləmə və böhran daxili vəziyyəti gərginləşdirdi. Türkiyə iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı məhsullarına xarici tələbatın azalması ölkənin gəlirlərini aşağı saldı. İnflyasiya sabit gəlirli əhalinin vəziyyətinə mənfi təsir göstərirdi. Ölkədə siyasi gərginlik tədricən kəskinləşdi. 1960-cı ildə **hərbi çevriliş** baş verdi və ordu hakimiyyəti ələ keçirdi. Beləliklə, Türkiyə tarixində *hərbi çevrilişlər* dövrünün başlanğıcı qoyuldu.

## TÜRKİYƏ 1960–1980-ci İLLƏRDƏ

1961-ci ildə yeni Konstitusiya qəbul edildi. Onun önəmli cəhəti hakimiyyət bölgüsü prinsipinin güclənməsi və icra hakimiyyətinin səlahiyyətlərinin məhdudlaşdırılması idi.

**S** 1961-ci ildə Türkiyədə qəbul edilən yeni Konstitusiyanın önəmli cəhəti nədən ibarət idi?

**Kipr (Kıbrıs) məsələsi** Türkiyənin xarici siyasətinin əsas problemlərindən birinə çevrilmişdi. Yunanlar Kiprin Yunanıstana ilhaq edilməsini, türklər isə iki tərəf arasında bölünməsini təklif edirdilər. Yunan millətçiləri Kiprin türk əhalisinə qarşı soyqırımı və terror siyasəti həyata keçirirdi. 1974-cü ildə Yunanıstanın Kipri enosis *(birləşdirmə)* cəhdinə cavab olaraq Türkiyə adaya qoşun çıxardı.



Türk ordusu Kiprdə

**Türkiyədə 1961-ci il Konstitusiyası**

- Hökumətə nəzarəti artırmaq üçün Konstitusiya Məhkəməsi yaradıldı.
- Məhkəmələrin müstəqilliyi əsas hüquq və azadlıqların təminatı hesab edildi.
- Məhkəmə ilk dəfə olaraq qanunverici və icraedici hakimiyyət qolları ilə bərabər, “üçüncü hakimiyyət” qurumu kimi tanındı.
- İcraedici hakimiyyətin səlahiyyətləri məhdudlaşdırıldı və ona nəzarət gücləndirildi.
- Mətbuat azadlığı genişləndi.

1961-ci il Konstitusiyasının təmin etdiyi siyasi azadlıqlar həmkarlar ittifaqı və sol təmayüllü təşkilatların (Kommunist və s.) yaranmasına səbəb oldu.

Türk əhalisinə qarşı soyqırımına göz yuman ABŞ, İngiltərə və SSRİ bu hadisəni işğal kimi qiymətləndirdi. Türkiyəyə qarşı siyasi təzyiq və iqtisadi embarqo tətbiq edildi. Lakin Türkiyənin

Baş naziri **Bülənt Ecevit** qətiyyət göstərərək geri addım atmadı. Kiprin şimalında türk dövlətinin yaradılması ilə ada iki hissəyə bölündü.



Bülənt Ecevit

Yunan millətçilərinin Kiprin türk əhalisinə və işğalçı Ermənistanın Qarabağda azərbaycanlılara qarşı törətdiyi soyqırımı və terror siyasətlərini müqayisə edin.

1970-ci illər Türkiyədə siyasi sabitliyin pozulması və tez-tez baş verən hökumət dəyişiklikləri ilə səciyyəvidir. Sağ (*mühafizəkar və millətçi*) və sol (*sosialist və kommunist*) təmayüllü təşkilatlar arasında siyasi mübarizə artıq silahlı mübarizəyə çevrilirdi. Terror və müxtəlif siyasi qruplar arasında silahlı münaqişələr artmışdı. Bu isə cəmiyyətdə xaos yaradırdı. 1980-ci ildə yeni hərbi çevriliş baş verdi. **Kənan Evrenin** başçılığı ilə hərbi rejim yaradıldı. 1983-cü ildə fövqəladə vəziyyət ləğv edildi və seçkilər nəticəsində hakimiyyətə **Turqut Özal** gəldi. Turqut Özal iqtisadiyyatda liberal islahatlar həyata keçirdi. Onun hakimiyyəti illərində azad bazar iqtisadiyyatı yenidən tətbiq edildi. Xarici ticarət sərbəstləşdirildi. Xarici kapital təşviq edildi. İstehsal, nəqliyyat və rabitənin inkişafına şərait yaradıldı.

**TURQUT ÖZAL**
"Tarix". İstanbul, 2002



**Turqut Özalın inkişaf planı**

İnkişaf üçün zəruri ünsürlərin başında ixracat və görünməyən gəlirlər (turizm, xidmət və s.) dayanır. ... Sabit inkişafın ən önəmli şərti budur. Mənbələrdən ən əhəmiyyətlisi vətəndaşların banklardakı əmanətləridir. ... Səmərəli xarici borc nəticəsində valyuta qazandıracaq layihələrdən istifadə olunarsa, Türkiyə yenidən bu mənbələri istifadə edə bilər. Məsələn, 1 milyard dollar borcla etdiyimiz yatırım bir neçə il ərzində 1 milyardlıq ixracat həyata keçirirsə, bu, ağıllı borclanmadır. Beləliklə, həm borclar rahat ödənər, həm də başqasının pulundan istifadə etməklə daha sürətlə inkişaf baş verər.

İqtisadi inkişaf üçün hansı amillər zəruri hesab edilir? Ağıllı borclanma anlayışını dəyərləndirin.



Rəcəb Tayyib Ərdoğan

1990-cı illərdə siyasi sabitsizlik tədricən ölkənin iqtisadi vəziyyətinə mənfi təsir göstərdi. İşsizlik və inflyasiya sürətlə çoxalırdı. Xarici dövlətlərin Türkiyəyə təsir vasitəsinə çevrilən separatçı PKK (*Kürdistan İşçi Partiyası*) təşkilatı terrorçuluq fəaliyyətini genişləndirdi. 2002-ci ildə seçkilərdə qalib gələn Ədalət və İnkişaf Partiyası hakimiyyətə gəldi. Bu partiyanın lideri **Rəcəb Tayyib Ərdoğan** əvvəl Baş nazir, 2014-cü ildə isə prezident seçildi. Müasir dövrdə Türkiyə bölgənin güclü dövlətlərindən biridir. Ölkədə xüsusilə yeni hərbi texnologiyalar sürətlə inkişaf edir.

## İRAN


Məhəmməd Rza şah Pəhləvi

İkinci dünya müharibəsində İran özünü bitərəf elan etsə də, şah hökumətinin Almaniya ilə yaxınlaşması onun ərazisinin 1941-ci ildə SSRİ və İngiltərə qoşunları tərəfindən işğal edilməsinə səbəb oldu. Rza şah devrildi və onun oğlu **Məhəmməd Rza** (1941–1979) şah elan edildi. Razılaşmaya əsasən müharibə bitdikdən sonra bu dövlətlər qoşunlarını geri çəkməli idi. Ona görə də İngiltərə qoşunları 1945-ci ildə İranı tərk etdi. Lakin sovet qoşunları işğal bölgəsi olan Cənubi Azərbaycanda qalırdı. Müharibədən sonra Türkiyə kimi İran da yerləşdiyi coğrafi mövqeyə görə dünyanın geosiyasi vəziyyətində önəmli amilə çevrildi. **Cənubi Azərbaycan məsələsi** Soyuq müharibənin başlanmasına təsir edən amillərdən biri oldu. Bu məsələ 1945-ci ildə yaradılmış BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilən ilk hadisə idi.

Şah hökuməti SSRİ-yə güzəştli neft müqaviləsi vəd edərək **1946-cı ildə** sovet qoşunlarının İranı tərk etməsinə nail oldu. Bundan sonra İran ordusu hücum edərək Cənubi Azərbaycan hökumətini ləğv etdi. Ziyalılara və demokratik qüvvələrə qarşı repressiya siyasəti həyata keçirildi. Mətbuat üzərində senzura qoyulmuşdu. Ölkədə iqtisadi böhran güclənir, işsizlik artırdı. Kütləvi nümayiş və fəhlə tətilləri baş verirdi. 1949–1953-cü illəri əhatə edən ictimai-siyasi hərəkatın əsas tələbləri İranın siyasi həyatının demokratikləşdirilməsi, neft sənayesi üzərində ingilis inhisarına son qoyulması və bu sahənin milliləşdirilməsi idi. Bu hərəkatın başında Milli Cəbhə lideri **Məhəmməd Müsəddiq** dururdu. Müsəddiqin təklifi ilə Məclis neft sənayesinin milliləşdirilməsi haqqında qanun qəbul etdi. Xalq arasında böyük nüfuzu olan Müsəddiq Baş nazir təyin edildi. Şahın səlahiyyətləri məhdudlaşdırıldı. ABŞ və İngiltərənin köməyi ilə 1953-cü ildə dövlət çevrilişi baş verdi. Müsəddiq hökuməti devrildi.

T 1940-cı illərin sonlarında şah hökumətinin həyata keçirdiyi siyasətin mahiyyətini təhlil edin.

## İRANDA “AĞ İNQİLAB”

1960-cı illərin əvvəllərində iqtisadi böhranın dərinləşməsi nəticəsində hökumət islahatlar keçirməyə məcbur oldu.

S 1960-cı illərin əvvəllərində şah hökumətinin islahatlar keçirməyə məcbur olmasının səbəbləri nə idi?

Bu islahatlar güc tətbiq edilmədən həyata keçirildiyi üçün **“Ağ inqilab”** adlandırıldı. İslahatlar sosial, iqtisadi və mədəni sahələri əhatə edirdi. Əsasən, aqrar sahədə aparılan bu islahatlar ilk olaraq 1962-ci ildə Cənubi Azərbaycanda həyata keçirilməyə başlandı. Çünki burada sosial ziddiyyətlər daha dərin, narazılıq daha güclü idi. Bu islahat kəndlilərin dövlətdən və iri torpaq sahiblərindən torpaq sahələri satın almasına yardım etməli idi.

### AQRAR İSLAHATLARIN NƏTİCƏLƏRİ

- Yarıfeodal torpaq mülkiyyətinə son qoyuldu.
- Böyük torpaq sahibləri olan ruhanilərin narazılığına səbəb oldu.
- Kəndlilərin böyük bir hissəsi torpaq sahibinə çevrildi.
- İslahatın yarımçıq keçirilməsi və kəndlilərə dövlət tərəfindən maliyyə yardımının göstərilməməsi problemləri tamamilə aradan qaldırmadı.

Məhkəmə islahatı nəticəsində bu sahədə də nəzarəti itirmələri ruhanilərin şah hökumətinə qarşı nifrətini daha da artırdı. Həmçinin dünyəvi orta və ali məktəblərin açılması ruhanilərin nüfuzunu sarsıtmışdı. 1960–1970-ci illərdə reallaşdırılan islahatlarda ölkənin sənayeləşdirilməsinə xüsusi əhəmiyyət verilirdi.

| "AĞ İNQİLAB" İSLAHATLARINDA HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR | | |
|---|---|---|
| SOSİAL-İQTİSADİ SAHƏ | MƏDƏNİ SAHƏ | MƏHKƏMƏ |

1962-ci ildə keçirilən aqrar islahatın hansı müsbət və mənfi cəhətləri oldu?

**MƏHƏMMƏD RZA ŞAH PƏHLƏVİ**

**a)** "İranda sosial ədalətsizliyə, zülm və istismarı meydana gətirən amillərə və inkişafın önünə keçib cəmiyyəti ibtidai səviyyədə saxlamaq istəyən irticaya son qoyaraq köklü bir düzənə ehtiyac vardır. Köhnənin yerinə yeni bir düzən qoyarkən ...İran xalqının xarakterinə, ölkənin ərazisinə, tarixinə və coğrafiyasına uyğun yol seçilməlidir. İki əsas prinsip bizim üçün müqəddəs sayılmalı idi. Birincisi, mənəvi prinsiplərimiz və dini inanclarımız, digəri isə şəxsi və ictimai azadlığın qorunması idi".

**AYƏTULLAH MUSƏVİ XOMEYNİ**

**b)** "Xalqım, şaha inanmayın. O sizin xilaskarınız deyil. Sizi düşünmür, yalnız özünü və ona əmr edənləri düşünür. Ölkəmizi satır və hamınızı aldadır. Şah getməlidir!"

Mənbədə tərəflərin mülahizələrini müqayisə edin.

## İSLAM İNQİLABI

ABŞ-nin köməyi ilə şah ölkədə qərbləşdirmə siyasəti yürüdürdü. 1970-ci illərin əvvəllərində İran iqtisadi inkişaf dövrünü yaşayırdı. Lakin şah ailəsi və dövlət məmurlarının korrupsiya ilə məşğul olması, gəlirlərin ədalətsiz bölüşdürülməsi əhalinin böyük hissəsinin yoxsullaşmasına səbəb oldu. Şah hökuməti demokratik qüvvələrə, ziyalılara və din xadimlərinə qarşı təqib siyasətini davam etdirirdi. Əhalinin sosial-iqtisadi vəziyyətinin pisləşməsi, cəmiyyətdə islahatlara, qərbləşdirmə tədbirlərinə nifrəti artırırdı. Bu, dini müxalifətin güclənməsinə səbəb oldu.

Şah rejiminin milli və sosial zülmünə daha çox məruz qalan Cənubi Azərbaycanda narazılıq güclü idi. 1978-ci ilin əvvəllərində ölkənin ən böyük dini mərkəzlərindən olan Qum şəhərində nümayişçilərə qarşı silah işlədilməsi Cənubi Azərbaycanda narazılıqla qarşılandı. Təbrizdə dini başçı **Şəriətmədarinin** çağırışı ilə əhali nümayişə çıxdı. Şahın devrilməsi ilk dəfə Təbriz üsyanında tələb edilmişdir. Şah İranın başqa şəhərlərindən gətirdiyi hərbi hissələrin köməyi ilə Təbriz üsyanını qəddarlıqla yatırdı. Buna baxmayaraq, üsyanlar bütün ölkəni bürüdü. Əhalinin bütün sosial təbəqələrinin hərəkata qoşulmasına səbəb oldu.



Şahın heykəlinin aşırılması

İslam inqilabının siyasi, iqtisadi və sosial səbəblərinə aid cədvəl qurun.

**AYƏTULLAH XOMEYNİ**
"Tarix". İstanbul, 2002

"Nə Şərq, nə Qərb!" – səfalət çəkən və təzyiq altında yaşayanların dünyasında islam inqilabının şüarıdır. Bu, müsəlman ölkələrinin və Allahın izni ilə İslamı insanlığın yeganə xilas yolu seçəcək ölkələrin əsil bloklara qoşulmamaq siyasətini ifadə edir. Müsəlman ölkələri və xalqları nə Qərbə (*ABŞ və Qərbi Avropaya*), nə də Şərqə (*SSRİ-yə*) bağlı olmalıdır.

1978-ci ilin sentyabrında inqilabın ikinci mərhələsi başladı. Bu dövrdə inqilabda ruhanilərin rolu artdı. Hərəkata sürgündə olan **Ayətullah Musəvi Xomeyni** rəhbərlik edirdi. Şah 1979-cu ilin yanvarında İranı tərk etdi. Fevralda Ayətullah Xomeyni Parisdən Tehrana qayıtdı. İnqilab qalib gəldi. 1979-cu ilin aprelində **İran İslam Respublikası** elan edildi. Bununla da inqilabın milli-demokratik istiqamətdə inkişafının qarşısı alındı.

İslam inqilabından sonra şah hakimiyyətini müdafiə etdiyi üçün ABŞ ilə münasibətlər pisləşdi. ABŞ İranla sərhəd problemləri olan İraqı **1980-ci ildə** onunla müharibəyə təhrik etdi. SSRİ və ərəb ölkələri də İraqa kömək edirdi. **1988-ci ilə** qədər davam edən müharibə BMT-nin vasitəçiliyi ilə başa çatdı. Qalibi olmayan bu müharibədə milyondan çox insan həlak olmuşdu.



Xomeyninin Fransa polisinin müşayiəti ilə İrana qayıtması

**İRAN KONSTİTUSİYASININ 152-ci MADDƏSİ**

İnqilabdan sonra İran İslam Respublikasında siyasət.

İran xarici siyasəti hər cür xarici hakimiyyətin rədd edilməsi, tam müstəqilliyin qorunması, bütün müsəlmanların hüquqlarının müdafiə edilməsi və hegemon böyük güclərdən asılı olmamaq prinsipləri üzərində qurulmuşdur.

Konstitusiyanın bu maddəsi ilə İranın Ermənistanla yaxın əməkdaşlığı necə ziddiyyət təşkil edir?

Müasir dövrdə İran iqtisadiyyatının neft amilindən asılı olması ölkə rəhbərliyi üçün qeyri-neft məhsullarının istehsal və ixracını artırmaq siyasətini əsas məqsədə çevirmişdir. ABŞ və bəzi Qərbi Avropa dövlətləri tərəfindən İrana qarşı tətbiq edilən iqtisadi embarqo ölkə iqtisadiyyatının inkişafı üçün əsas maneələrdən biridir. Milli ayrı-seçkilik siyasətinin davam etməsi ölkənin daxili vəziyyətində müxtəlif vaxtlarda gərginləşməyə səbəb olmuşdur. Dünyanın ən böyük tərəfdar kütlələrindən birinə malik olan Təbrizin “Traktor” futbol komandasının oyunları zamanı şüarların səslənməsi milli ayrı-seçkilik siyasətinə dinc etiraz forması mahiyyəti daşıyır.

“Traktor” futbol komandasının emblemi

2006-cı ildə İranın nüvə proqramını elan etməsi ABŞ-nin təşəbbüsü ilə BMT-nin ona iqtisadi sanksiya tətbiqinə səbəb oldu. Ölkədəki iqtisadi problemlər sosial gərginliyi artırdı. İslahat tələbləri yüksəlməyə başladı. 2015-ci ildə əldə edilmiş razılaşmalar nəticəsində iqtisadi embarqo yumşaldıldı. Lakin ölkədə sosial-iqtisadi problemlər vaxtaşırı olaraq narazılıqları gücləndirirdi.




Traktor klubunun azarkeşləri

Türkiyə və İranda baş verən mühüm hadisələrlə bağlı sinxron cədvəl tərtib edin.

# HİNDİSTAN, PAKİSTAN VƏ ƏRƏB ÖLKƏLƏRİ

Kəşmir münaqişəsi, ərəb-İsrail münaqişəsi, Altıgünlük müharibə, "Neft şoku", Kemp-Devid sazişi, İran-İraq müharibəsi, Körfəz müharibələri, Vaşinqton sazişi




## HİNDİSTAN

İkinci dünya müharibəsi dünyanın sonrakı siyasi vəziyyətinə böyük təsir göstərdi. Bu, müstəmləkəçilik sahəsində xüsusilə müşahidə edildi. Həmin ərazilərdə xalqların azadlıq mübarizəsi gücləndi. Müstəmləkə imperiyaları dağıldı və dünyanın müxtəlif bölgələrində müstəqil dövlətlər yarandı. Lakin bu xalqlar sülh və sabitliyə, iqtisadi inkişafa tam nail ola bilmədi. Müstəmləkə dövründən qalma problemlər yeni dini, etnik və siyasi münaqişələrə səbəb oldu.

İkinci dünya müharibəsində İngiltərə hökumətinin hindistanlı əsgərləri cəbhəyə göndərməsi milli azadlıq hərəkatını gücləndirdi. Hind milli azadlıq hərəkatının lideri **Mohandas Qandi** müstəmləkəçilərə qarşı dinc mübarizə kampaniyasını elan etdi. İngiltərə hökuməti müharibədən sonra islahatlar keçirməyi vəd edərək bu mübarizəni dayandırmaq istəyirdi. Lakin islahatlarda Hindistana müstəqillik verilməsi nəzərdə tutulmurdu. İngiltərə hökuməti eyni zamanda ənənəvi siyasətindən istifadə edir, milli azadlıq hərəkatını zəiflətmək üçün Hindistanın iki böyük


Mohandas Qandi

icması – hindlilər və müsəlmanlar arasında nifaq salırdı.

Hindistanda milli azadlıq hərəkatını zəiflətmək üçün İngiltərə hökuməti hansı siyasəti yürüdürdü?

Bu siyasəti çar Rusiyası və SSRİ hakim dairələrinin Azərbaycan xalqının azadlıq hərəkatına qarşı siyasəti ilə müqayisə edin.

İkinci dünya müharibəsi İngiltərənin iqtisadi vəziyyətini çətinləşdirmiş, böyük maliyyə borcları yaratmışdı. Müstəmləkələrin idarə olunması çoxlu xərclər tələb edirdi. Ona görə də İngiltərə hakim dairələri güzəşt etməyə məcbur oldu. **1947-ci ildə** İngiltərə Parlamenti Hindistanı iki hissəyə – Hindistana və Pakistana bölərək onlara müstəqillik verdi. Müstəqillik qazanılsa da, hər iki ölkə, həmçinin onların daxilində müxtəlif dini və etnik qruplar arasında münaqişələr baş verdi. M.Qandi müsəlman qaçqınlarına qarşı ədalətli davranılması üçün çağırışlar etdi. Onun bu mövqeyi 1948-ci ildə bir hind millətçisi tərəfindən öldürülməsinə səbəb oldu.

Hindistan və Pakistan arasında münaqişə **Kəşmir məsələsində** daha da kəskinləşdi. Kəşmir Hindistan ilə Pakistan arasında yerləşən və əhalisi, əsasən, müsəlmanlardan ibarət olan bölgədir. Müstəqillik əldə edildikdən dərhal sonra Hindistan və Pakistan Kəşmir uğrunda mübarizəyə başladı. Müharibə 1949-cu ildə BMT-nin vasitəçiliyi nəticəsində atəşkəslə dayandırıldı. Kəşmirin üçdə bir hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın nəzarətinə verildi. Bu, münaqişəni tamamilə həll etmədi və tərəflər arasında ziddiyyətlər yenə də davam etdi.

Kəşmir məsələsinin mahiyyəti nədir?

M.Qandinin siyasi davamçısı olan **Cəvahirləl Nehru** Hindistanın ilk Baş naziri oldu. Onun daxili siyasətini demokratikləşdirmə, birlik və iqtisadi modernləşdirmə təşkil edirdi. O, xarici siyasətdə *bloklara qoşulmama hərəkatının* liderlərindən biri idi. 1966-cı ildə Baş nazir **İndira Qandi** oldu. Böyük sənaye sahələri və banklar milliləşdirildi. 1970-ci illərdə Hindistanın iqtisadi və siyasi vəziyyəti pisləşdi. Onun hakimiyyət dövrü etnik-dini münaqişələr və yerli özünüidarəetmə sahəsində ziddiyyətlərin güclənməsi ilə səciyyəvidir. 1984-cü ildə o, sui-qəsd nəticəsində öldürüldü.



İndira Qandi

Müasir Hindistan iqtisadi inkişaf sürətinə görə fərqlənsə də, onun ən böyük problemi əhalinin sürətlə artımıdır. Sosial bərabərsizlik və etnik-dini münaqişələr də ölkənin əsas problemləri olaraq qalmaqdadır. Kəşmir məsələsi ətrafında Hindistan və Pakistan arasında gərginlik davam edir. Hər iki dövlətin nüvə silahına malik olması bu münaqişəni beynəlxalq problemə çevirmişdir.

Müasir Hindistanın hansı siyasi və sosial-iqtisadi problemləri var?

**"New-York Times" (Nyu-York Tayms), 28 iyun 1988-ci il**

Artıq Hindistan və Pakistan nüvə silahı sınaqları həyata keçirdi. ...Ehtimal az olsa da, etnik və dini münaqişənin nüvə müharibəsinə çevrilməsi kimi qlobal nəticələrdən qorxuruq. Hindistan və Pakistan bir-biri ilə müzakirəni, daha etibarlı münasibətlərə doğru irəliləməyi öyrənməlidir.

Mənbədə əsas diqqət nəyə yönəldilmişdir? Sizcə, bu narahatlığın haqlı səbəbləri var idimi?

## PAKİSTAN

Pakistan müstəqil dövlət kimi yaranarkən ərazisi iki hissədən ibarət idi. Şərqi Pakistan Hindistanın şimal-şərqində, Qərbi Pakistan isə şimal-qərbində idi. Bu bölgələr mədəniyyət, dil, ərazi, iqtisadi və etnik cəhətdən bir-birindən fərqlənsə də, hər ikisində əhalinin əksəriyyəti müsəlman idi. 1971-ci ildə Şərqi Pakistan Hindistanın müdaxiləsi ilə özünü müstəqil Banqladeş dövləti elan etdi.

Soyuq müharibə dövründə Pakistan ABŞ-nin NATO üzvü olmayan mühüm müttəfiqlərindən biri idi. SSRİ (*sonralar Rusiya*), ABŞ və Çin kimi böyük dövlətlərin Cənubi Asiya bölgəsində maraqları Pakistan-Hindistan münasibətlərinə təsir göstərmişdir. Bu amil Pakistanın xarici və daxili siyasi vəziyyətində həlledici olmuşdur. Ona görə də ölkədə ordunun daxili siyasətə müdaxiləsinə və tez-tez hərbi rejimlərin yaranmasına təsir göstərmişdir. 1950–1970-ci illər Pakistanda siyasi sabitsizlik və hərbi çevrilişlərlə səciyyəvi idi.

Türkiyə və Pakistanın 1950–1970-ci illər tarixini müqayisə edin.


Benazir Bhutto

1988-ci ildə **Benazir Bhutto** Baş nazir seçildi. O, İslam dünyasında bu vəzifəyə seçilən ilk qadın oldu. Pakistanın siyasi tarixində mühüm rol oynamış Bhutto 2007-ci ildə sui-qəsd nəticəsində öldürüldü.

Pakistan nüvə silahına malik yeganə müsəlman ölkəsidir. O, dünyanın ən güclü ordularından birinə malikdir. Tranzit yolları və Mərkəzi Asiya ilə Hind okeanı arasında körpü rolunu oynaması ölkənin strateji mövqeyini artırır. Pakistan Azərbaycanın strateji müttəfiqidir. Hər iki ölkəni tarixi, mədəni və dini amillər birləşdirir. Pakistan Xocalı soyqırımını tanıyan ilk dövlətdir. Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistanı tanımamış və onunla diplomatik əlaqələr qurmamışdır. İkinci Qarabağ müharibəsində də Pakistan Azərbaycana siyasi və mənəvi dəstək göstərmişdir. Azərbaycan isə Kəşmir məsələsində ədalətə, beynəlxalq hüquq və qardaşlıq əlaqələrinə əsaslanaraq Pakistanı dəstəkləyir.

Əlavə mənbələr əsasında Pakistan dövlətinin Azərbaycan Respublikası ilə əlaqələrinə dair referat hazırlayın.


Pakistanın nüvə silahı

## ƏRƏB ÖLKƏLƏRİ. ƏRƏB-İSRAİL MÜNAQİŞƏSİ

İkinci dünya müharibəsindən sonra Yaxın Şərqdə siyasi vəziyyət tamamilə dəyişdi. Bölgədə ərəb xalqlarının azadlıq mübarizəsi nəticəsində bir-birinin ardınca müstəqil dövlətlər yarandı. 1947-ci ildə BMT Təhlükəsizlik Şurasının qərarı ilə **Fələstin** ərazisi iki hissəyə bölünərək burada Fələstin və İsrail dövlətlərinin yaradılması haqqında qərar qəbul etdi.




Qüds şəhəri isə beynəlxalq statusa malik olmalı idi. Lakin ərəb ölkələri bu qərara qarşı çıxdı. 1948-ci ildə **İsrail** dövlətinin yaradılması elan edildi. Buna cavab olaraq altı ərəb dövləti (*Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı və Suriya*) İsrailə müharibə elan etdi. Lakin qüvvələr nisbəti, pis idarəetmə və İsrailə edilən xarici silah yardımı nəticəsində ərəb hərbi qüvvələri məğlub oldu. Beləliklə, indiyə qədər də



Fələstinli uşaq tanka qarşı

davam edən **ərəb-İsrail münaqişəsinin** əsası qoyuldu. BMT-nin qərarı ilə yaradılmalı olan Fələstin dövlətinin əraziləri İsrail tərəfindən nəzarətə götürüldü. Yüz minlərlə fələstinli öz yaşayış yerini tərk etməyə məcbur oldu. Onlar BMT-nin təşkil etdiyi qaçqın düşərgələrində məskunlaşdırıldılar.

İkinci dünya müharibəsindən sonra Yaxın Şərqin siyasi vəziyyətində hansı dəyişiklik baş verdi?

1967-ci ildə baş verən **Altıgünlük müharibədə** qalib gələn İsrail yeni ərazilər ələ keçirdi. Ərəb ölkələrinin məğlubiyyətinin səbəblərindən biri orduda korrupsiya və pis idarəetmə olmuşdu. Altıgünlük müharibədən sonra Fələstin hərbi-siyasi qrupları beynəlxalq terror hadisələrinə başladı. 1973-cü ildə ərəb dövlətləri itirilmiş əraziləri geri qaytarmaq məqsədilə yenidən müharibəyə başladı. Bu müharibə ərəb-İsrail münaqişəsinin beynəlxalq miqyas alması ilə nəticələndi. SSRİ ərəb ölkələrinə, ABŞ isə İsrailə yardım edirdi. Əsas neft ixracatçıları olan ərəb dövlətləri neftin qiymətini dörd dəfə artırmağı qərara aldı. Bu, dünyada **ilk neft şokuna** səbəb oldu. Neft artıq beynəlxalq münasibətlərdə təsir vasitəsi kimi istifadə edilirdi. 1970-ci illərin ikinci yarısında iqtisadi və sosial problemlər Misirin İsraillə yaxınlaşmasına gətirib çıxardı. 1978-ci ildə **Kemp-Deviddə** ABŞ-nin vasitəçiliyi ilə Misir-İsrail sazişi bağlandı. Sazişə görə Misir İsraili müstəqil dövlət kimi tanıyır, İsrail isə Sinay yarımadasını Misirə qaytarırdı. Lakin bu saziş ərəb dövlətlərinin əksəriyyətinin narazılığına səbəb oldu. Onlar Misirlə siyasi-iqtisadi əlaqələri kəsdi.

Yaxın Şərqdə fəaliyyət göstərən terror təşkilatının cinayətləri ilə bağlı araşdırma apararaq referat hazırlayın.

Soyuq müharibənin başa çatması Yaxın Şərqdə münaqişənin həllinə necə təsir göstərdi?

Soyuq müharibənin başa çatması Yaxın Şərqdə də münaqişənin sülh yolu ilə həlli ümidini artırdı. 1993-cü il Vaşinqton sazişinə görə Qəzza zolağı və Əriha şəhərində Fələstin muxtariyyəti yaranması nəzərdə tutulmuşdu. Lakin tərəflər arasında münaqişə hələ də davam edir.



**Vaşinqton sazişinin imzalanması.** (*ABŞ prezidenti B.Klintonun vasitəçiliyi ilə İsrailin Baş naziri İ.Rabin və Fələstin Azadlıq Təşkilatının rəhbəri Y.Ərəfatın görüşü*)

## İRAQ

1958-ci ildə İraqda hərbi çevriliş baş verdi və monarxiya devrildi. İraq respublika elan edildi. 1960–1970-ci illərdə hərbi çevrilişlərin baş verməsi ölkədə siyasi sabitliyin yaranmasına mane olurdu. 1967-ci ildə İraq İsrailə müharibə elan etdi. Həmçinin İsraili müdafiə etdiyi üçün ABŞ və digər Qərb dövlətlərinə neft satışını dayandırdı. Bütün xarici şirkətlər milliləşdirildi. Bundan sonra İraqın ABŞ ilə diplomatik münasibətləri pisləşdi və o, SSRİ ilə yaxınlaşdı. 1979-cu ildə **Səddam Hüseynin** hakimiyyətə gəlməsi ilə İraq tarixində yeni mərhələ başladı. Onun ziddiyyətli şəxsiyyəti hakimiyyətdə olduğu dövrdə İraq tarixinə də təsir göstərdi.

1980-ci ildə İraq İrana müharibə elan etdi. İslam inqilabından sonra İranın inqilabı bütün müsəlman ölkələrinə yaymaq siyasəti müharibənin başlamasına təsir göstərdi. Xomeyninin İraqın şiə əhalisini üsyana çağırması vəziyyəti daha da gərginləşdirdi. ABŞ Yaxın Şərqdə "regional bir gücün" meydana gəlməsini istəmədiyindən bölgədə milli və dini münaqişələrdən istifadə edirdi. Əslində, ABŞ hər iki tərəfin müharibə nəticəsində zəifləməsini istəyirdi. İslam inqilabından sonra münasibətləri gərginləşən İrana silah satması ABŞ-nin bu siyasətinin nəticəsi idi. Müharibə dövründə ABŞ İraqa silah (*hətta kimyəvi silahlar*) satır və kəşfiyyat sahəsində yardım edirdi.

**S** İranın qonşu dövlətlərin daxili işlərinə qarışma siyasətini necə dəyərləndirirsiniz?



İran-İraq müharibəsində İran ordusunda vuruşan uşaq əsgər

Səkkiz il davam edən İran-İraq müharibəsi hər iki tərəf üçün böyük insan itkisi və iqtisadi itki ilə nəticələndi. İraq diktatoru Səddam Hüseyn bu müharibədə bütün ərəb dünyasını şiə İranının təhlükəsindən müdafiə etdiyini söyləyirdi. Ona görə də Küveytdən aldığı borcların tamamilə ləğv olunmasını tələb edirdi. Küveyt isə bu tələbi rədd etdi. Küveyt və Körfəzin digər ərəb ölkələrinin dünya bazarlarına normadan çox neft çıxarmaları da onun qiymətini ucuzlaşdırmışdı. Bundan zərər görən İraq 1990-cı ildə Küveyti işğal etdi. Bu işğal ABŞ və Qərbi Avropa dövlətlərinin bölgədəki iqtisadi və geosiyasi maraqlarına zidd idi. Ona görə də ABŞ BMT-dəki nüfuzundan istifadə edərək İraq qoşunlarının Küveytdən çıxarılması haqqında qətnamə qəbul etdirdi. İraqın bundan imtinası 1991-ci ildə ABŞ başda olmaqla, 30-dan çox dövlətin İraqa hücum etməsinə səbəb oldu. ABŞ Vyetnam müharibəsindəki məğlubiyyətindən dərs çıxararaq təkbaşına deyil, böyük koalisiya ilə hücuma keçməyi qərara almışdı. Bu əməliyyat **"Səhrada tufan"** adlanırdı. İraq məğlub edildi və Küveyt ərazisini tərk etdi. Lakin İraq ərazisi işğal olunmadı, S.Hüseyn isə hakimiyyətdə qaldı.



"Ölüm yolu". 1991-ci ildə Küveytdən geri çəkilən İraq əsgərlərini və mülki əhalini ABŞ təyyarələri bombardman etmişdi.



Səddam Hüseyn

2003-cü ildə ABŞ Səddam Hüseyni devirmək üçün İkinci Körfəz müharibəsinə başladı. ABŞ və İngiltərə İraqın kütləvi qırğın silahlarına malik olmasını bəhanə edərək "İraqın azadlığı" adlı hərbi əməliyyat həyata keçirdi. İraq işğal edildi və S.Hüseynin hakimiyyətinə son qoyulsa da, heç bir kütləvi qırğın silahı tapılmadı. Bundan sonra ABŞ İraqda insan hüquqlarının pozulması və ölkənin demokratikləşdirilməsi iddiaları ilə işğala haqq qazandırmaq istədi. İşğal nəticəsində bir milyondan çox iraqlı həlak olmuşdu.

| BİRİNCİ KÖRFƏZ MÜHARİBƏSİ | | İKİNCİ KÖRFƏZ MÜHARİBƏSİ |
|---|---|---|
| Fərqli cəhətlər | Oxşar cəhətlər | Fərqli cəhətlər |
| | | |

Birinci və ikinci Körfəz müharibələrini müqayisə edin.



## İRAQ TÜRKMƏNLƏRİ

İraq hökuməti ölkənin ən böyük xalqlarından biri və Azərbaycan türklərinin soydaşı olan **türkmənlərə** qarşı müxtəlif dövrlərdə repressiya siyasəti həyata keçirirdi. İraqda respublika qurulduqdan sonra da bu siyasət davam etdirildi. 1959-cu ildə qədim türk torpağı olan **Kərkükdə** türkmənlərə qarşı qətliam törədilmişdi. S.Hüseynin hakimiyyəti dövründə türkmənlərə qarşı **assimilyasiya*** və təzyiq siyasəti gücləndirildi. Onlara məxsus yaşayış yerlərinin türkcə adları ərəbləşdirilir, tarixi torpaqlarından – Kərkükdən, Mosuldan və s. deportasiya edilirdilər. 2003-cü ildə İraqın ABŞ və İngiltərə tərəfindən işğalından sonra bölgəyə kürdlər yerləşdirildi və buranın etnik vəziyyəti süni şəkildə dəyişdirildi. 2014-cü ildə bölgənin İŞİD (İraq Şam İslam Dövləti) terror təşkilatının işğalları nəticəsində türkmənlər öz torpaqlarını tərk etməyə məcbur qaldılar.

Müasir dövrdə İraq türkmənlərinin vəziyyəti ilə bağlı araşdırma aparın.

*** Assimilyasiya**

*bir xalqın başqa bir xalqın dilini, adətlərini və s. qəbul etməsi nəticəsində onun içərisində əriyib getməsidir.*



İŞİD terroru nəticəsində qaçqın düşmüş türkmənlər

Hindistan, Pakistan və ərəb ölkələrinin tarixinə aid mühüm hadisələri müəyyən edin.

1947 1948 1949 1967 1973 1978 1998 1988 1990 1991 2003

# ÇİN, YAPONİYA VƏ KOREYA

"Böyük sıçrayış", "Mədəni inqilab", "Dörd modernləşmə", "Tyananmen hadisəsi", Yapon möcüzəsi, Koreya müharibəsi

## ÇİNDƏ VƏTƏNDAŞ MÜHARİBƏSİ

İkinci dünya müharibəsi dövründə Çində millətçilər və kommunistlər Yaponiyaya qarşı birlikdə mübarizə aparırdılar. Şimali Çinin böyük hissəsi kommunistlərin nəzarətində idi. Bu zaman millətçi qüvvələr Çinin cənubqərbində möhkəmlənirdilər. Müharibə illərində ABŞ yaponlara qarşı müharibə aparmaq üçün millətçilərə yardım göstərmişdi. Yaponiya təslim olduqdan sonra millətçilər və kommunistlər arasında vətəndaş müharibəsi yenidən başladı. **1945–1949-cu illəri** əhatə edən müharibədə kommunistlər qalib gəldi. Onlar torpaqların kəndlilərə verilməsi təbliğatından istifadə edərək əhalinin bu təbəqəsini öz tərəflərinə çəkə bildilər. Millətçilər məğlub olaraq ölkənin cənubuna çəkildilər. 1949-cu ildə kommunistlər **Çin Xalq Respublikasının** yaradıldığını elan etdilər. Millətçilər isə **Tayvan** adasına çəkilmək məcburiyyətində qaldılar.

Kommunistlərin qələbəsi və Çin Xalq Respublikası ilə SSRİ arasında 1950-ci ildə dostluq müqaviləsinin imzalanması ABŞ-nin antikommunist fəaliyyətini gücləndirdi.



Mao Tszedun

Millətçilərin Tayvanda **Çin Respublikası** adlanan dövlət yaratmasına yardım etdi. Bir müddət BMT-də Çini bu dövlət təmsil etdi. SSRİ Çin Xalq Respublikasına iqtisadi, hərbi və texniki yardım göndərirdi. Çin və SSRİ arasında hücuma məruz qaldıqları təqdirdə bir-birlərinə kömək edəcəkləri haqqında saziş imzalandı.

## KOMMUNİSTLƏRİN İSLAHATLARI

Yaponiyaya qarşı illərlə davam edən müharibə, eləcə də vətəndaş müharibəsi ölkədə böyük dağıntılara səbəb olmuşdu. Ona görə də kommunistlər islahatlar keçirməyə başladılar. Onların lideri Mao Tszedun sosializmə əsaslanaraq Çin iqtisadiyyatını yenidən qurmaq istəyirdi. Əhalinin yüzdə səksənini torpaqsız kəndlilər təşkil edirdi. Ona görə də 1950-ci illərdə keçirilən aqrar islahat nəticəsində böyük torpaq sahiblərinin mülkləri əllərindən alındı. Müqavimət göstərən bir milyondan çox sahibkar öldürüldü. Torpaqlar kəndlilər arasında bölüşdürüldü. Daha sonra hökumət kəndliləri kollektiv təsərrüfatlarda birləşməyə məcbur etdi. Sənaye sahəsində də islahatlar keçirildi. Özəl şirkətlər tədricən milliləşdirildi və dövlət mülkiyyətinə verildi. Sənaye məhsullarının yüksək artımını təmin etmək üçün beşillik plan tətbiq edildi.

1950-ci illərdə Çində iqtisadi sahədə həyata keçirilən tədbirlərə aid cədvəli tamamlayın.

| KƏND TƏSƏRRÜFATI | SƏNAYE |
|---|---|
| | |

## "BÖYÜK SIÇRAYIŞ"

Mao Tszedun 1958-ci ildə sənaye və kənd təsərrüfatının sürətlə inkişafı üçün **"Böyük sıçrayış"** planını elan etdi. Bu plan daha böyük kollektiv təsərrüfatlar (*kommunalar*) yaradılmasını nəzərdə tuturdu. Kəndlilər birlikdə işləyir, ortaq yataqxanalarda qalırdılar. Lakin "Böyük sıçrayış" uğursuz oldu. Milyonlarla insanın aclıqdan ölməsi ilə nəticələnən proqram ləğv edildi.

1950-ci illərin sonlarında Çinin daxili vəziyyəti ilə yanaşı, xarici vəziyyəti də pisləşdi. SSRİ ilə ziddiyyətlər yarandı. Onların hər ikisi dünya miqyasında kommunist hərəkatına nəzarət etməyə çalışırdı. Dünyanın ən uzun sərhədlərinə malik olduqları üçün aralarında ərazi iddiaları da var idi.

**"Böyük sıçrayış"**ın uğursuzluğu və SSRİ ilə münasibətlərdə ziddiyyətlər Maonun mövqeyini zəiflətdi. Bəzi rəhbərlər onun qatı sosialist düşüncələrindən uzaqlaşdılar. Bir çoxları kollektiv təsərrüfatların kiçik ailə təsərrüfatlarına bölünməsini və məhsulların azad satışını təklif edirdilər. Fabrik və zavod işçilərinin əməkhaqqı artımı üçün rəqabət apara bilməsi sənayenin inkişafı üçün əsas şərt hesab olunurdu. Lakin Mao Tszedun yeni iqtisadi siyasətin Çinin kommunistlərini ictimai bərabərlik məqsədindən uzaqlaşdırdığını düşünürdü. Ona görə də **1966-cı ildə** gənclərə "inqilab edərək inqilabı öyrənmək" çağırışını etdi. Milyonlarla şagird və tələbə bu çağırış əsasında **"Qırmızı keşikçilər"** adlı dəstələr yaratdı. Bununla da on il davam edən **"Mədəni inqilab"** hərəkatı başlandı. Kəndlilər cəmiyyətin təkanverici qüvvəsi elan edildi.

Ziyalılara təhlükəli təbəqə, incəsənətə isə faydasız sahə kimi yanaşılırdı. Bu təhlükəni ləğv etmək üçün "Qırmızı keşikçilər" məktəbləri və universitetləri bağlayırdılar. Ziyalılar ucqar kəndlərdə ağır işlərə cəlb edilirdi. Bu dövrdə minlərlə insan öldürüldü. Yaranan xaos nəticəsində kənd təsərrüfatı istehsalı zəiflədi və sənaye müəssisələri bağlandı. Vətəndaş müharibəsi təhlükəsi yarandı. Mao Tszedunun özü də "Mədəni inqilab"ın dayandırılmasının zəruri olduğunu etiraf etdi. Orduya **"Qırmızı keşikçilər"**in ləğv edilməsi əmri verildi.



"Mədəni inqilab" dövründə məktəblilər

S Mao Tszedun və Stalinin fəaliyyətində hansı oxşar xüsusiyyətlər var?

"Mədəni inqilab" illərində Çin dünya siyasətindən, demək olar, kənarda qalmışdı. 1960-cı illərdə SSRİ ilə münasibətlər pisləşmişdi. ABŞ-nin Tayvan hökumətinə kömək etməsi də bu ölkə ilə münasibətləri gərginləşdirirdi. Çinin təcrid olunması ölkə rəhbərliyini narahat edirdi. Ona görə də Qərblə münasibətləri yumşaltmaq təşəbbüsü göstərildi. 1971-ci ildə ABŞ Çinə qarşı siyasətini dəyişdi və Çin Xalq Respublikasının BMT-yə üzv qəbul edilməsinə razılıq verdi. Bu ölkələr arasında diplomatik, mədəni və məhdud ticarət əlaqələri yarandı.

## İQTİSADİ İNKİŞAF

Den Syaopin başda olmaqla bir qrup praktik düşüncəli islahatçılar hakimiyyəti ələ keçirdilər və "Mədəni inqilab"ı sona çatdırdılar. 1970-ci illərin sonunda **Den Syaopin** Çinin lideri oldu. "Köhnə inqilabçılar"ın hakimiyyətinə son qoyuldu. Kommunist olmasına baxmayaraq, Den Syaopin mülayim iqtisadi siyasət həyata keçirdi. O, **praqmatik** siyasətini belə ifadə edirdi: *"Mənim üçün bir pişiyin ağ və ya qara olmasının fərqi yoxdur, önəmli olan onun siçan tutmasıdır"*. Maonun əksinə, o, Çin iqtisadiyyatının inkişafı üçün kapitalist üsullarının da tətbiq olunmasına şərait yaratdı. Beləliklə, **"Dörd modernləşmə"** adlanan və kənd təsərrüfatı, sənaye, elm, texnologiya və hərbi sahələrdə inkişafı əhatə edən islahat həyata keçirdi.

| "DÖRD MODERNLƏŞMƏ" İSLAHATLARI | | |
|---|---|---|
| **KƏND TƏSƏRRÜFATI** | **SƏNAYE** | **ELM VƏ TEXNOLOGİYA** |
| • Kommunalar ləğv edildi və torpaqlar kəndlilərə icarəyə verildi.<br>• Kəndlilər sabit məhsul vergisi ilə dövlətə icarə haqqını ödəyirdi. Qalan məhsul isə satıla bilərdi.<br>• Azad ticarətə icazə verildi. | • Dövlət sənaye müəssisələrinə istehsal hədəfini müəyyənləşdirməkdə sərbəstlik verdi.<br>• Xaricdən texnologiya gətirilməsinə və kapital qoyuluşuna imkan yaradıldı. | • Elm, texnologiya və müasir iqtisadiyyatı öyrənmək üçün xaricə çoxlu tələbə göndərildi. |
| **NƏTİCƏLƏR** | • Sənaye istehsalı sürətlə artdı.<br>• Adambaşına düşən gəlir, o cümlədən təsərrüfat gəlirləri artdı.<br>• Məhsul istehsalı artdı.<br>• Əksər insanlar üçün həyat səviyyəsi yüksəldi. | |

Çində "Dörd modernləşmə" adlanan islahatın əsas istiqamətləri hansılar idi?

Çində "Dörd modernləşmə" islahatları ilə Azərbaycan SSR-dəki YİS-in oxşar cəhətlərini dəyərləndirin.

Mao Tszedun və Den Syaopinin sosial-iqtisadi siyasətini müqayisə edin.

| MAO TSZEDUNUN SOSİAL-İQTİSADİ SİYASƏTİ | | DEN SYAOPİNİN SOSİAL-İQTİSADİ SİYASƏTİ |
|---|---|---|
| Fərqli cəhətlər | Oxşar cəhətlər | Fərqli cəhətlər |
| | | |

## TYANANMEN HADİSƏSİ

Den Syaopinin iqtisadi islahatları inkişafla bərabər, yeni problemlər yaratdı. Həyat səviyyəsi artdıqca varlılar və yoxsullar arasında fərqlər də çoxalırdı. Yeni siyasət yalnız Qərb kapitalının və turistlərin deyil, demokratik siyasi düşüncələrin də ölkəyə daxil olmasına imkan verdi. Xaricdə təhsil alan çinlilərin sayı artdı və onlar Qərb demokratik dəyərlərini öyrəndilər. Nəticədə Çində olan siyasi azadlıqların məhdudlaşdırılması tənqid edilməyə başlandı. İnflyasiyanın yüksəlməsi, korrupsiya, məmurlar və Kommunist partiyası üzvlərinin cəmiyyətdə üstün mövqeyi narazılığın artmasına səbəb oldu. 1989-cu ildə tələbələr korrupsiyaya son qoymaq və demokratiya tələbləri ilə nümayişlərə



Naməlum üsyançı. Tyananmen (*Azadlıq qapısı*) meydanına gedən tankların qarşısını təkbaşına kəsən nümayişçi. Foto Ceff Videner

başladılar. Əhalinin geniş təbəqələri onları dəstəklədi və Pekinin Tyananmen meydanında kütləvi nümayişlər oldu. Lakin nümayişlər tank və qoşunlar tərəfindən dağıdıldı.

## ÇİN YENİ MİNİLLİKDƏ

Müasir dövrdə Çində iqtisadi sərbəstlik mövcud olsa da, siyasi həyatda məhdudiyyətlər davam edir. Çin nümunəsi demokratiyanın yavaş və məhdud bir proses ola biləcəyini, iqtisadi sahədə liberal islahatların siyasi islahatlara dərhal təsir etmədiyini göstərir. Artıq 2007-ci ildə ABŞ, Yaponiya və Almaniyadan sonra Çin dünyanın dördüncü böyük iqtisadiyyatına malik idi. Lakin onun iqtisadi inkişafının mənfi cəhətləri də var idi. Belə ki şəhər və kənd arasında böyük fərq yaranmış, sosial bərabərsizlik ictimai narazılığa səbəb olmuşdu. Sürətli sənayeləşmə ekoloji çirklənməyə və digər problemlərə gətirib çıxarmışdı.

Müasir dövrdə Çinin siyasi və sosial-iqtisadi inkişafını təhlil edərək müsbət və mənfi cəhətləri müəyyən edin.

| + | - |
|---|---|
| | |

## UYĞUR TÜRKLƏRİ

1944-cü ildə uyğur türkləri Şərqi Türküstan Respublikası yaratdılar. Lakin 1949-cu ildə ÇXR bu dövləti süquta uğradaraq ərazisini işğal etdi. Bundan sonra Çində uyğur türklərinə qarşı assimilyasiya siyasəti həyata keçirilməyə başlandı. Onların hüquqları pozulur, dini ibadətləri məhdudlaşdırılırdı. Məcburi işlətmə, kütləvi həbslər, işgəncə beynəlxalq ictimaiyyət tərəfindən uyğur xalqının və mədəniyyətinin məqsədyönlü olaraq yox edilməsi kimi dəyərləndirilir. ABŞ Çinin Sincan-Uyğur muxtar bölgəsində uyğurlara qarşı siyasətini soyqırımı kimi tanımış ilk dövlətdir. Daha sonra Kanada, Böyük Britaniya, Fransa və digər bir neçə dövlətin qanunverici orqanları bu soyqırımı tanımışdır.

Lakin bir çox dövlətlər Çinlə geniş iqtisadi əlaqələr və digər amillərlə bağlı olaraq uyğurlara qarşı siyasətə münasibət bildirmirlər. Çin isə uyğurlara qarşı həyata keçirdiyi siyasəti terrorizmlə mübarizə adlandırır. Əvvəllər Sincan-Uyğur muxtar bölgəsində toplama düşərgələrinin olduğunu inkar edən Çin artıq bu düşərgələrin uyğurlara peşə təhsili verən, onların radikallaşmasının qarşısını almaq və ölkəni terrorizmdən qorumaq məqsədilə yaradılmış "xüsusi məktəblər" adlandırır.



Çin polisləri və uyğur qadını

## YAPONİYA

İkinci dünya müharibəsi Yaponiya üçün fəlakətlə nəticələndi. İki milyon yapon həlak oldu. Paytaxt Tokio da daxil olmaqla, ölkənin başlıca şəhərləri dağıdıldı. Atom bombası Hirosima və Naqasakini külə çevirdi. Məğlub olmuş Yaponiyada işğal rejimi yaradıldı.

Gələcəkdə yeni müharibənin qarşısını almaq üçün hərbsizləşdirmə həyata keçirildi və Yaponiya silahlı qüvvələri ləğv edildi. Demokratikləşmə prosesi başlandı. 1947-ci ildə ABŞ siyasi məsləhətçiləri tərəfindən hazırlanan yeni Konstitusiya qüvvəyə mindi. İmperatorluq İngiltərə nümunəsində parlamentli monarxiyaya çevrildi. Yeni Konstitusiyada imperatorun siyasi gücü də əhəmiyyətli dərəcədə azaldıldı. Böyük Britaniya hökmdarı kimi imperator da yalnız simvolik funksiya daşımağa başladı. Hakimiyyət bölgüsü və onun icra, qanunverici, məhkəmə qolları arasında güc balansı təmin edildi. Yeni Konstitusiya Yaponiyada hakimiyyətin mənbəyinin xalq olduğunu təsbit etdi. Qadınlar da daxil olmaqla, bütün vətəndaşlara seçki hüququ verildi. Konstitusiya əsas insan hüquq və azadlıqlarının təminatçısı idi. Onun daha bir əhəmiyyətli maddəsi müharibədən imtina edilməsi haqqında idi.

1947-ci ildə Yaponiyada qəbul edilən yeni Konstitusiya ölkənin sonrakı siyasi inkişafına necə təsir göstərdi?

1951-ci ildə ABŞ və İkinci dünya müharibəsində Yaponiyaya qarşı vuruşmuş digər dövlətlər Yaponiya ilə sülh müqaviləsi imzaladı. SSRİ və onun bir neçə müttəfiqi bu müqaviləni rədd etdi. ABŞ işğal rejimi aradan qaldırıldı. Lakin yapon silahlı qüvvələri ləğv edildiyi üçün ABŞ ölkəni qorumaq bəhanəsi ilə ordusunun qalmasını hakimiyyətlə razılaşdırdı. Bir zamanlar düşmən olan ABŞ və Yaponiya artıq müttəfiqə çevrilmişdi. Yaponiyada qalmaqda davam edən ABŞ əsgərlərinin törətdiyi cinayətlər yaponların vaxtaşırı bu bazaların bağlanması tələbi ilə çıxış etməsinə səbəb oldu.


Yaponiya ilə sülh müqaviləsinin imzalanması

İqtisadiyyatın pisləşməsi kommunistlərin hakimiyyəti ələ keçirməsi təhlükəsini artırdı. Ona görə də Yaponiya iqtisadiyyatını gücləndirmək və onu ABŞ-nin Uzaq Şərqdə qalasına çevirmək üçün ondan təzminat alınmadı. İqtisadi sahədə islahatlar həyata keçirildi. Böyük sahibkarların torpaqlarının bir hissəsi alınaraq uyğun qiymətə kəndlilərə satıldı.

1950-ci illərin əvvəllərində baş verən **Koreya müharibəsi** ABŞ üçün Yaponiyanın əhəmiyyətini artırdı. Buradakı ABŞ ordusunun ehtiyacları yapon sənaye mallarına tələbatı çoxaldırdı. Bu, Yaponiya sənayesinin inkişafı üçün yeni başlanğıc oldu. XX yüzilliyin 50-ci illərində sürətli inkişaf "Yapon iqtisadi möcüzəsi" adlandırılır. ABŞ və Qərbi Avropadan fərqli olaraq, iqtisadi sahədə himayəçi və müdaxiləçi siyasət yürüdülürdü. Yalnız xammal və əsas ehtiyac məhsulları üçün aşağı gömrük haqqı qoyulmuşdu. Yapon şirkətləri beynəlxalq rəqabətə hazır olduqdan sonra isə artıq nisbətən liberallaşma siyasəti həyata keçirilməyə başlandı.

Yapon iqtisadiyyatının sürətli inkişaf səbəblərindən biri də təhsilə verilən önəm idi. Məhz insan kapitalı amili sənayeləşmə və modernləşmədə əsas rol oynadı. Bu isə ölkədə sənaye cəmiyyətinin formalaşmasına şərait yaratdı. Nəticədə İkinci dünya müharibəsində xarabazara çevrilmiş Yaponiya tezliklə iqtisadiyyatını bərpa edə bildi, iqtisadi supergücə çevrildi və ölkənin informasiya cəmiyyətinə keçidi sürətləndi. 1990-cı illərə qədər yapon iqtisadiyyatı dünyanın ən sürətli inkişaf göstəricilərindən birinə malik idi. Ölkə dünyanın ikinci böyük iqtisadiyyatına sahib ola bilmişdi.

Yaponiyanın iqtisadi sistemi "dövlət kapitalizmi" kimi səciyyələndirilir. Mərkəzi hökumət iqtisadiyyatda fəal rol oynayır. O, qiymət və əməkhaqqı siyasətini müəyyən edir və önəmli sənaye sahələrinə **subsidiyalar*** verir. Hökumətin iqtisadiyyatdakı bu rolu Yaponiya sənayesinin səmərəliliyinin və ölkənin sənaye nəhəngi kimi meydana çıxmasının əsas səbəblərindən biri kimi göstərilir.

*** Subsidiya**

*latın dilindəki "subsidium" sözündən olub, mənası "kömək", "dəstək" deməkdir. Dövlət büdcəsindən müəyyən iqtisadi və sosial hədəflərə çatmaq məqsədilə qarşılıqsız verilən maliyyə vəsaitidir.*

**1950–1960-cı illərdə yapon iqtisadiyyatının inkişafı üçün əsas tədbirlər**

- əsas sənaye sahələrinin hədəf seçilməsi
- yeni yaranan və strateji sənaye sahələrini idxalın məhdudlaşdırılması ilə xarici rəqabətdən qorunması
- dövlətin dəstəyi ilə ixracatın təşviq edilməsi

1950–1960-cı illərdə yapon iqtisadiyyatının inkişafı üçün görülən əsas tədbirləri dəyərləndirin.

| YAPONİYANIN UĞURU İLƏ BAĞLI 3 FİKİR | | |
|---|---|---|
| • Yaponlar qrup və əməkdaşlıq yönümlüdürlər. Çalışqan və qənaətcil olmaları əmək məhsuldarlığını artırır. İşçi qüvvəsi yüksəkixtisaslıdır. Ümumi dəyərləri bölüşür və müasir dünyanın çağırışlarına çevik uyğunlaşırlar. | • İkinci dünya müharibəsindən sonra Yaponiya tamamilə yeni, müasir fabriklər tikməyə məcbur oldu. Korporasiyalar innovasiyaları mükafatlandırır və yaxşı idarəetmə-əmək münasibətlərini qoruyur. | • Yaponiya ədalətsiz ticarət qaydalarından istifadə edərək xarici bazara çıxmaq üçün məhsulları bir müddət maya dəyərindən aşağı qiymətə satır və digər ölkələrdən idxalı məhdudlaşdırır. |

Yapon iqtisadiyyatının sürətli inkişafının səbəblərini təhlil edin.

## KOREYA

İkinci dünya müharibəsindən sonra Koreyada yapon işğalına son qoyuldu. Soyuq müharibənin başlanması ilə ölkə iki hissəyə parçalandı: cənubu ABŞ, şimalı isə SSRİ tərəfindən işğal edildi. Nəticədə fərqli ideoloji-siyasi sistemə malik olan iki Koreya dövləti quruldu. 1948-ci ildə ölkənin cənubunda Koreya Respublikası, şimalında isə kommunistlərin hakim olduğu Koreya Xalq Demokratik Respublikası yaradıldı. 1950–1953-cü illərdə hər iki Koreya dövləti arasında müharibə baş verdi. BMT-nin müdaxiləsi ilə müharibə beynəlxalq miqyas aldı. ABŞ başda olmaqla BMT-nin beynəlxalq qüvvələrinin köməyi ilə Cənubi Koreya qalib gəldi.



Koreya müharibəsində qaçqınlar

İkinci dünya müharibəsindən sonra Koreyanın parçalanmasının səbəbi nə idi?

İlk dövrlərdə Cənubi Koreyada siyasi sabitlik yox idi. Tez-tez hərbi çevriliş baş verirdi. 1960-cı illərin ortalarından başlayaraq həyata keçirilən islahatlar ölkənin müasir iqtisadi inkişafının – **“Koreya möcüzəsi”**nin başlanğıcını qoydu. Bu dövrdə özəlləşdirilmə aparılır, böyük yerli şirkətlər himayə edilirdi. Ölkəyə ABŞ və Yaponiya kapitalının daxil olması, 1980-ci illərin ikinci yarısından başlanan siyasi sabitləşmə iqtisadi inkişafı sürətləndirirdi.

1960-cı illərin ortalarından başlayan “Koreya möcüzəsi”nin səbəblərini təhlil edin.

XX əsrin ikinci yarısında Yaponiya və Cənubi Koreyanın siyasi və iqtisadi inkişaf xüsusiyyətlərini müqayisə edin.

Müasir dövrdə Koreya xalqının başlıca məqsədi iki hissəyə bölünmüş tarixi vətənlərinin birləşdirilməsidir. Soyuq müharibənin başa çatması bu istiqamətdə ümidlərin artmasına səbəb oldu. Cənubi və Şimali Koreya dövlət başçıları arasında danışıqlar prosesi həyata keçirildi. Lakin son dövrdə Şimali Koreya rəhbərliyinin təcavüzkar siyasəti, nüvə sınaqları keçirməsi bölgədə və dünyada sülh üçün təhlükə yaradır.

Çin, Yaponiya və Koreyanın İkinci dünya müharibəsindən sonrakı tarixi üçün sinxron cədvəl tərtib edin.

# SOYUQ MÜHARİBƏ VƏ MÜASİR DÖVRDƏ DÖVLƏTLƏRARARASI MÜNASİBƏTLƏR

"Soyuq müharibə", Trumen doktrinası, "Marşall planı", "Yumşalma dövrü", "Üçüncü dünya ölkələri", Bloklara qoşulmayanlar hərəkatı, Berlin divarı, Kuba böhranı, Strateji müdafiə təşəbbüsü, "Yeni dünya nizamı", 11 sentyabr hadisəsi, Rusiya-Gürcüstan müharibəsi, qloballaşma, ərəb baharı

## "SOYUQ MÜHARİBƏ"nin BAŞLANMASI

İkinci dünya müharibəsi başa çatdıqdan sonra antifaşist koalisiyasının iki böyük dövləti arasında ziddiyyətlər yarandı. Faşist bloku üzərində qələbədən sonra Qərb və SSRİ arasında ziddiyyətlər yenidən başlandı. Qərb faşist işğalından azad edilmiş Şərqi Avropa və Balkan ölkələrinin SSRİ-nin nüfuz dairəsinə daxil olmasını qəbul etmirdi. U.Çörçill 1946-cı ildə Fultonda (ABŞ) çıxışında ilk dəfə Avropanı bölən "dəmir pərdə" ifadəsini işlətdi. Bu, XX əsrin ikinci yarısının əsas xüsusiyyətini müəyyən edən **"Soyuq müharibə"**nin başlanğıcı oldu. SSRİ atom bombasına malik olan ABŞ-yə və onun müttəfiqlərinə qarşı ehtiyatla yanaşırdı. Almaniyanın gələcəyinin müəyyən edilməsi məsələsində tərəflər arasında fikir ayrılıqları yaranmışdı. İkinci dünya müharibəsi dövründə faşist blokuna qarşı yaranmış Böyük İttifaqın son ortaq addımı 1947-ci ildə Almaniya və müttəfiqləri ilə sülh müqavilələri bağlamaq üçün keçirilən konfrans oldu. Beləliklə, Qərbi Avropada 1937-ci ilə qədərki sərhədlər, əsasən, bərpa edildi. Şərqi Avropada isə SSRİ 1939–1940-cı illərdə işğal etdiyi əraziləri əlində saxladı.

**UİNSTON ÇÖRÇİLL**
*Fultonda çıxışı*

Baltik sahillərindən Adriatik sahillərindəki Triyestə qədər qitənin üzərinə dəmir pərdə endi. Bu xəttin arxasında bütün Şərqi Avropa ölkələrinin paytaxtları var. ... Bu şəhərlər və xalqlar sovetlərin mühasirəsindədir. ... Hamısına yalnız sovetlərin təsiri deyil, Moskvanın geniş və artan nəzarəti tətbiq edilir. ... Şərqi Avropadakı bu ölkələrdə kommunistlər ... totalitar nəzarət tətbiq etmək istəyirlər. Hər yerdə polis dövləti qurulur. ... heç yerdə həqiqi demokratiya qalmadı. ... Rusiyanın (SSRİ) müharibə istədiyini düşünmürəm. Əsil istəyi müharibənin meyvələrini toplamaq və gücünü ... yaymaqdır.

Sizcə, nə üçün bu çıxış dövlətlərarası münasibətlərdə dönüş nöqtəsi hesab edilir? Bu dönüşün mahiyyəti nə ola bilərdi?

Xatırlayın: SSRİ 1939–1940-cı illərdə Şərqi Avropada bəzi əraziləri hansı müqavilə nəticəsində işğal etmişdi? Bu ərazilər hansılar idi?

## BÖYÜK İTTİFAQIN DAĞILMASI

1946–1947-ci illərdə SSRİ-nin Şərqi Avropada təsirini artırması ABŞ və Qərbi Avropa ölkələrini narahat etməyə başladı. ABŞ buna qarşı iki strategiya həyata keçirmək qərarına gəldi. Prezident H.Trumen Avropa dövlətlərinə hərbi yardım edilməsini təklif etdi. Bu **"sədçəkmə" siyasəti** adlanırdı. Digər strateji addım isə ABŞ-nin dövlət katibi Corc Marşallın Avropa ölkələrinə iqtisadi yardım təklifi idi. Qərbi Avropa ölkələri bu təklifi qəbul etsələr də, SSRİ və onun təzyiqi ilə Şərqi Avropa ölkələri bundan imtina etdi. Beləliklə, Böyük İttifaq dağıldı. Dünyanın, əsasən, iki bloka bölünməsi qətiləşdi.

Xəritə əsasında "Soyuq müharibə" dövründə dünyanın siyasi vəziyyətini təhlil edin.







## Soyuq müharibə (1946–1991)

- Kommunist ölkələr
- NATO üzvləri
- Bitərəf ölkələr
- Regional müharibə
- Digər münaqişələr

## Avropa (1946–1991)

- Varşava Müqaviləsi Təşkilatı üzvləri
- NATO üzvləri
- Bitərəf ölkələr
- Digər kommunist ölkələr
- Dəmir pərdə
- Sovet müdaxiləsi

İki böyük dövlət öz təsir dairələrini möhkəmləndirməyə başladı. ABŞ 1948-ci ildən **"Marşall planı"nı** tətbiq etməyə başladı. Plana əsasən Avropa ölkələrinin iqtisadiyyatının bərpa olunması üçün iqtisadi yardımlar edildi. Bu dövlətlərlə bağlanan müqavilələrə görə gömrük tariflərinin endirilməsinə, idxal məhdudiyyətlərinin aradan qaldırılmasına qərar verildi.

Avropada sülhü və iqtisadi əməkdaşlığı möhkəmləndirmək üçün sonralar – 1957-ci ildə **Avropa İqtisadi Birliyi** (*indiki Avropa Birliyi*) yaradıldı. ABŞ və Qərbi Avropa hərbi sahədə də təşkilatlandı. 1949-cu ildə ABŞ, Kanada və Qərbi Avropanın bir sıra dövlətləri **Şimali Atlantika Müqaviləsi Təşkilatını (NATO)** yaratdı.

## SOSİALİST BLOKUNUN YARANMASI

1940-cı illərin ikinci yarısında Rumıniya, Macarıstan, Polşa, Bolqarıstan və Çexoslovakiyada SSRİ-nin müdaxiləsi ilə sovet modelli rejimlər yaradıldı. Təkpartiyalı sistem, planlı iqtisadiyyat və milliləşdirmə tətbiq edildi. Bu dövlətlər SSRİ ilə hərbi-siyasi əməkdaşlığa məcbur olunurdu. Yalnız Yuqoslaviya bundan imtina edə bildi. 1949-cu ildə "Marşall planı"na alternativ olaraq sosialist bloku ölkələri **Qarşılıqlı İqtisadi Yardım Şurası** (QİYŞ) yaradaraq Sovet İttifaqının yardımından istifadə etdi.

Həmin ildə Çində də kommunistlərin hakimiyyətə gəlməsi və SSRİ-nin atom bombası hazırlamağa nail olması sosialist blokunu daha da gücləndirdi. Beləliklə, sosial-iqtisadi və ideoloji cəhətdən bir-birinə zidd sistemlərin yaranması dövlətlərarası münasibətləri kökündən dəyişdirdi. Qərb bloku kommunizmin yayılmasından, SSRİ isə blokadaya alınmasından çəkinirdi. Hər iki tərəfin atom bombasına malik olması müharibə baş verəcəyi halda, dünyanın məhv ediləcəyi təhlükəsini yaradırdı.

ABŞ Cənub-Şərqi Asiya, Yaxın Şərqdə yeni hərbi ittifaqlarla SSRİ-nin ətrafında güclənməkdə davam edirdi. SSRİ buna 1955-ci ildə sosialist dövlətlərinin hərbi blokunun – **Varşava Müqaviləsi Təşkilatının** yaradılması ilə cavab verdi.

## ALMANİYANIN PARÇALANMASI

1948-ci ildə Çexoslovakiyada baş verən kommunist çevrilişi ilə Şərqi Avropanın bütün ölkələri SSRİ-nin təsiri altına düşdü. Bu təsirin qərbə doğru yayılmasının qarşısını almaq üçün ABŞ və müttəfiqləri Almaniyanın öz nəzarətləri altında olan bölgələrində yeni alman dövləti yaratmağı qərara aldı. Bu, "soyuq müharibə"nin ilk böhranına səbəb oldu. Buna cavab olaraq, SSRİ Berlində Qərbin işğal zonalarını blokadaya aldı. ABŞ blokadada olan Qərbi Berlinə hava yolu vasitəsilə yardım edirdi. Məqsədinə nail ola bilməyən SSRİ blokadanı aradan qaldırdı. Bu hadisə qərb işğal zonalarının birləşdirilərək Almaniya Federativ Respublikasının yaradılmasını sürətləndirdi. Buna isə SSRİ öz işğal zonasında Almaniya Demokratik Respublikasının yaradılması ilə cavab verdi. Beləliklə, Almaniyanın parçalanması həm də dünyanın iki bloka ayrılmasının rəmzinə çevrildi.

"Soyuq müharibə"nin səbəbləri nə idi?

## KOREYA MÜHARİBƏSİ VƏ "BUZLARIN ƏRİMƏSİ"

"Soyuq müharibə"nin ikinci böhranı Koreyada baş verdi. Müharibədən əvvəl Yaponiyanın hakimiyyəti altında olan Koreyanın şimalı 1945-ci ildə SSRİ, cənubu isə ABŞ tərəfindən işğal edilmişdi. Hər iki dövlətin arasında fikir ayrılığı Koreyanın da parçalanmasına səbəb oldu. ABŞ-nin himayəsi altında **Koreya Respublikası**, şimalda isə kommunist rejimli dövlət yaradıldı. 1950-ci ildə **Şimali Koreya** qoşunları Cənubi Koreyaya hücum etdi. İşğalı pisləyən BMT üzv ölkələri Cənubi Koreyaya yardım etməyə çağırdı. Oraya göndərilən BMT qüvvələrinin əsas hissəsini ABŞ qoşunu təşkil edirdi. Şimali Koreyaya SSRİ və Çin kömək edirdi. Stalinin vəfatından sonra SSRİ-nin mövqeyi bir qədər yumşaldı. Soyuq müharibədə **"buzların əriməsi" dövrü** başladı. Nəticədə Koreya müharibəsi başa çatdı. Lakin ölkə bir-birinə zidd siyasi sistemlərə malik dövlətlərə parçalanmış vəziyyətdə qaldı.

Silahlanma və kosmosun fəthi sahələrində rəqabət davam edirdi. SSRİ 1957-ci ildə **dün-**

**yanın ilk qitələrarası ballistik raketini** yaratdı və kosmosa ilk dəfə olaraq süni peyki göndərdi. Lakin 1959-cu ildə SSRİ-nin rəhbəri Nikita Xuruşşovun ABŞ-yə səfəri və ABŞ-də Con Kennedinin hakimiyyətə gəlməsi münasibətlərdə mülayimləşmə yaratdı.

## YENİ BÖHRANLAR: BERLİN VƏ KARİB

Növbəti böhran Berlinin statusu ətrafında oldu. Sovet rəhbərliyi Berlinin ADR-ə və ya BMT-nin nəzarətinə verilməsini təklif edirdi. Bu dövrdə almanlar ADR-dən Qərbi Almaniyaya qaçırdılar. Bunun qarşısını almaq üçün ADR və sovet rəhbərliyi 1961-ci ildə Berlini şərq və qərb hissələrinə bölən divar ucaltdırdılar.

“Soyuq müharibə” dövrünün əsas böhranlarından biri 1962-ci ildə Kuba məsələsi oldu. Kubada hələ 1959-cu ildə ABŞ-nin müdafiə etdiyi diktaturanı devirən Fidel Kastro SSRİ ilə yaxınlaşdı. SSRİ Kubanı xarici müdaxilədən qorumaq bəhanəsi ilə burada nüvə raketləri yerləşdirdi. Raketlər birbaşa ABŞ-ni hədəfə almışdı. Dünya nüvə müharibəsinin astanasında idi. Lakin tərəflər güzəştə getdi. SSRİ raketləri Kubadan çıxardı. Bunun əvəzində isə ABŞ Kubanın blokadasının ləğvinə və müdaxilə etməyəcəyinə təminat verdi.



Alman əsgərinin kiçik bir uşağa Berlin divarını gizlicə keçməsinə kömək etməsi. 1961



**Nikita Xruşşov və Con Kennedi.**
*Rəssam Lesli Gilbert İlinqvort. 1962-ci il*

Sizcə, karikatur nəyi ifadə edir?

## “MÜLAYİMLƏŞMƏ”

Kuba böhranı nüvə müharibəsi təhlükəsini aradan qaldırmağı zəruri etdi. 1960-cı illərdə tərəflər arasında imzalanan müqavilələrlə quruda, su altında, atmosferdə nüvə sınaqları, kosmosda nüvə silahı yerləşdirilməsi və nüvə silahlarının yayılması qadağan olundu. Hər iki tərəfin mülayimləşməsinin siyasi və iqtisadi səbəbləri var idi. Dünya miqyasında hərbi bazalara malik olmaq üçün ABŞ-yə böyük vəsait lazım gəlirdi. Vyetnam müharibəsində itkilər ölkə daxilində narazılıqlara səbəb olmuşdu. SSRİ-də də sürətli silahlanmaya çəkilən xərclər ölkənin iqtisadi vəziyyətini ağırlaşdırırdı. Artıq SSRİ xarici yardıma ehtiyac duyurdu. 1963-cü ildən SSRİ Qərbdən taxıl almağa başladı. Sosialist bloku daxilində də SSRİ-yə qarşı narazılıqlar yaranmaqda idi.



Vyetnamda ABŞ hərbçiləri tərəfindən törədilən qətliamdan əvvəl qadın və uşaqlar. 1968.
Foto Ronald Heberli

1968-ci ildə Çexoslovakiyada demokratikləşmə tədbirlərinə (*Praqa baharı*) qarşı SSRİ və onun müttəfiqləri müdaxilə etdilər. 1969-cu ildə isə SSRİ və Çin arasında hərbi münaqişə baş verdi. Bütün bu amillər ABŞ və SSRİ-ni uzlaşmağa məcbur etdi. Hər iki dövlət bir-birinin təsir dairələrinə müdaxilə etməməklə bağlı razılaşdı. Razılaşmalar 1972-ci ildə **Strateji silahların məhdudlaşdırılması (SSM-1)** haqqında müqavilə ilə möhkəmləndirildi. "Mülayimləşmə dövru"nün zirvə nöqtəsi 1975-ci ildə imzalanan **Avropa Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Yekun sənədi** oldu. Bu sənədi Avropa dövlətləri, o cümlədən SSRİ ilə yanaşı, ABŞ və Kanada da imzalamışdı. Sənəddə dövlətlərarası əməkdaşlıq və insan hüquqlarının qorunması nəzərdə tutulurdu.

## MÜSTƏMLƏKƏLƏRİN LƏĞVİ VƏ "ÜÇÜNCÜ DÜNYA ÖLKƏLƏRİ"

İkinci dünya müharibəsindən sonra müstəmləkələrin azad edilməsi prosesi başlandı. Asiya, Afrika və Sakit okean bölgəsindəki müstəmləkələrin azad edilməsi **"Üçüncü dünya ölkələri"**nin yaranması ilə nəticələndi. "Üçüncü dünya" ifadəsi "soyuq müharibə"də iştirak etməyən, bloklara daxil olmayan və az inkişaf etmiş ölkələri bildirmək üçün istifadə edilir. 1961-ci ildə Yuqoslaviya, Hindistan və Misirin təşəbbüsü ilə **Bloklara qoşulmayanlar hərəkatı** yaradıldı. "Üçüncü dünya ölkələri" aldıqları yardım sayəsində ABŞ və ya SSRİ-nin təsiri altına düşürdü. ABŞ və SSRİ Yaxın Şərqdə və Cənub-Şərqi Asiyada keçmiş müstəmləkəçi dövlətləri əvəz edir, etdikləri yardım müqabilində bölgələrdə öz hakimiyyətlərini möhkəmləndirirdi. "Üçüncü dünya ölkələri"ndə bəzən müstəmləkə dövründə çəkilmiş süni sərhədlər və böyük dövlətlərin təsiri ilə etnik münaqişələr, vətəndaş müharibələri baş verirdi.

"Üçüncü dünya ölkələri"nin yaranması hansı prosesin nəticəsi idi?

**Maraqlıdır**

2011-ci ildən Azərbaycan Respublikası Qoşulmayanlar Hərəkatına tam hüquqlu üzv qəbul olunmuşdur. 2019–2023-cü illərdə ölkəmiz hərəkatın sədri olmuşdur. 2020-ci il Vətən müharibəsi dövründə Hərəkatın üzvləri Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəklərini vurğulamış, ölkəmizlə həmrəy olduqlarını bildirmişdir.

**AVROPA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ KONFRANSININ YEKUN SƏNƏDİ**

1. Konfransa daxil olan dövlətlər hüquq bərabərliyi, ərazi bütövlüyü və siyasi müstəqillik hüquqları daxil olmaqla bir-birinin tam suverenliyinə hörmət edir...
2. **Ərazi bütövlüyü**. Konfransda iştirak edən dövlətlər bir-birlərinin torpağını hərbi yolla işğal etməkdən, birbaşa, yaxud dolayı qüvvə tətbiq etməkdən imtina edir. Bu xüsusiyyətli hər cür işğal və qəsbkarlıq hüquqa zidd hesab ediləcək.

Müasir ATƏT-in əsas məqsədini təşkil edən bu şərtlərin Azərbaycan torpaqlarını uzun müddət işğal altında saxlayan Ermənistan tərəfindən pozulmasına qarşı bu təşkilatın heç bir tədbir görməməsini necə dəyərləndirirsiniz?

## REGİONAL MÜHARİBƏLƏR

"Mülayimləşmə dövrü"ndə ABŞ və SSRİ arasında tarazlığı pozmayan regional müharibələr baş verdi. Bunlardan biri **Vyetnam müharibəsi** idi. Bu müharibədə ABŞ Cənubi Vyetnama, SSRİ isə Şimali Vyetnama kömək edirdi. 1965-ci ildə ABŞ bölgəyə hərbi qüvvə göndərdi. Məğlub olan ABŞ beynəlxalq ictimaiyyətin təzyiqi ilə öz qoşunlarını geri çəkdi. Regional müharibələr dünya sülhü üçün təhlükəli olduqda SSRİ və ABŞ diplomatik yolla münaqişələri həll etməyə çalışırdı.

## "SOYUQ MÜHARİBƏ"NİN SON MƏRHƏLƏSİ

1979-cu ildə SSRİ Əfqanıstana qoşun yeritdi. SSRİ-nin məqsədi burada ABŞ-nin planları əsasında yayılmaqda olan siyasi islamçılığın öz ərazisinə – Mərkəzi Asiyanın müsəlman respublikalarına təsir etməsinin qarşısını almaq idi. Bu və **SSRİ-nin Avropada orta mənzilli nüvə raketlərini** yerləşdirməsi "Soyuq müharibə"nin yeni mərhələsinin başlanğıcı oldu. ABŞ SSRİ-nin taxıl və texnologiya ixracına embarqo qoydu, 1980-ci ildə Moskvada keçirilən Olimpiya oyunlarını boykot etdi. ABŞ yeni silahlanma proqramları hazırladı və bu sahədə SSRİ-ni ötüb keçməyi qarşıya məqsəd qoydu.

1983-cü ildə sovet raketlərinin təhdidinə qarşı **Strateji müdafiə təşəbbüsü** proqramı elan edildi. Sovet raket təhlükəsinin süni peyklərlə müəyyən edilərək kosmosdan məhv edilməsini nəzərdə tutan bu proqrama "Ulduz müharibəsi" də deyilirdi.

1979-cu ildə SSRİ-nin Əfqanıstanı işğal etməkdə məqsədi nə idi?

## "SOYUQ MÜHARİBƏ"NİN SONU

1980-ci illərin ikinci yarısında silahlanmaya çəkilən böyük xərclər, iqtisadi tənəzzül SSRİ-ni münasibətləri yumşaltmağa sövq edirdi. Çernobıl Atom Stansiyasında baş verən qəza dünyada nüvə müharibəsi qorxusunu artırdı. 1987-ci ildə ABŞ və SSRİ qısa və orta mənzilli nüvə silahlarının ləğvi haqqında müqavilə imzaladı. Dünyanın müxtəlif bölgələrində öz təsirini yaymaq üçün edilən müdaxilələr SSRİ-nin siyasi və iqtisadi vəziyyətini daha da ağırlaşdırırdı. 1989-cu ildə sovet qoşunları Əfqanıstandan çıxarıldı.



Sovet ordusunun Əfqanıstanı tərk etməsi



Berlin divarının dağıdılması

1980-ci illərin ikinci yarısında SSRİ-ni münasibətləri yumşaltmağa sövq edən amillər hansılardır?

1989-cu il "Soyuq müharibə"də dönüş nöqtəsi oldu. Şərqi Avropada demokratikləşmə hərəkatı genişləndi. Polşada və Macarıstanda azad seçkilər keçirildi. Şərqi Almaniya rəhbərliyi Berlin divarının aradan qaldırılmasına icazə verdi. Çexoslovakiya, Bolqarıstan və Rumıniyada kommunist diktaturasına son qoyuldu. Artıq Şərqi Avropada "sovet modeli"nə son qoyulur, SSRİ "ilk müdafiə xətti"ni itirirdi. SSRİ-nin daxi-

lində də müstəqillik uğrunda mübarizələr, etnik münaqişələr və millətçilik meyillərinin artması bu dövlətin süqutunu sürətləndirdi. 1991-ci ilin dekabrında SSRİ-nin varlığına son qoyuldu. “Soyuq müharibə” başa çatdı.

“Soyuq müharibə” dövrünün mühüm hadisələri ilə bağlı zaman oxu tərtib edin.

## MÜASİR DÖVRDƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

“Soyuq müharibə” başa çatdıqdan sonra dünyada yeni siyasi və iqtisadi vəziyyət yarandı. Dövlətlərarası münasibətlərdə yeni sistem zərurəti yarandı. İkiqütblü dünya sisteminə (*Dünyada iki qlobal hakim gücün olduğu sistem*) son qoyuldu. ABŞ prezidenti Corc Buşun 1991-ci ildə Körfəz müharibəsi zamanı ifadə etdiyi *“yeni dünya nizamı”* anlayışı ikiqütblü sistemin başa çatdığını və dövlətlərarası münasibətlərdə yeni nizamın yarandığını nəzərdə tuturdu. Bu, dövlətlərarası münasibətlərdə yeni prosesin, geosiyasi və geostrateji dəyişikliyin baş verdiyini göstərirdi. 1991–2000-ci illərdə keçid dövrünü yaşayan, ağır daxili vəziyyətə başı qarışan Rusiya Avrasiyada və digər geosiyasi bölgələrdə öz mövqeyini itirmişdi. ABŞ yeganə iqtisadi, siyasi və hərbi supergüc oldu. 1990-cı illərdə Körfəz müharibəsində və Balkan münaqişəsində BMT mexanizmindən istifadə edən ABŞ dövlətlərarası münasibətlərin hakimi, nəzarətçisi rolu oynamaqda idi.


The New York Times

U.S. ATTACKED

HIJACKED JETS DESTROY TWIN TOWERS AND HIT PENTAGON IN DAY OF TERROR

A CREEPING HORROR

President Vows to Exact Punishment for 'Evil'

**11 sentyabr terroru ABŞ mətbuatında: “ABŞ-yə hücum edildi”.** *Terror günü qaçırılan təyyarələr Əkiz qüllələri məhv edib Pentaqonu vurdu.*
**“Nyu-York Tayms” qəzeti**

**2001-ci il 11 sentyabr** terror hadisəsindən sonra dövlətlərarası münasibətlərdə yeni dövr başladı. ABŞ-nin ən önəmli strateji obyektlərinə – Pentaqon (*ABŞ Müdafiə Nazirliyinin binası 5 künclü olduğu üçün belə adlanır*) və Dünya Ticarət Mərkəzinə hücumlar təşkil edilməsi onun beynəlxalq imicinə, qlobal nüfuzuna mənfi təsir göstərdi. Beləliklə, vətəndaş müharibəsindən sonra ABŞ ərazisində baş verən ən böyük tələfatla nəticələnən 11 sentyabr hadisəsi dünyada yeni beynəlxalq şərait yaratdı.

“Yeni dünya nizamı” anlayışının mahiyyəti nə idi?

2001-ci il 11 sentyabr hadisəsi beynəlxalq münasibətlərə necə təsir göstərdi?

**SAMUEL HANTİNQTON**
Sivilizasiyaların toqquşması

Yeni dünyada mübarizənin əsas mənbəyi ideoloji və iqtisadi olmayacaq. Bəşəriyyət arasındakı böyük parçalanmalar və əsas mübarizə mənbəyi mədəniyyət olacaq. ...Sivilizasiyaların qarşıdurması qlobal siyasətə hakimlik edəcək. Sivilizasiya arasındakı “fay xətləri” gələcəyin müharibə xətlərini təşkil edəcək. Sivilizasiyalar arasındakı mübarizə müasir dünyadakı mübarizənin təkamülündə son mərhələ olacaq.

Müəllifin fikirləri ilə razısınızmı? Sizcə, mədəniyyətlərarası dialoq mədəniyyətlərin qarşıdurmasına mane ola bilərmi? Müasir dövrdə mədəniyyətlərarası dialoqda Azərbaycanın rolunu araşdırın.

Tədricən Avropa Birliyi, Rusiya, Yaponiya, Çin və Hindistan regional güclər olaraq ABŞ-nin fəaliyyət sahəsini məhdudlaşdırmaqda idi. Çoxqütblü dünya nizamı yenidən qurulurdu. Türkiyə, İran, Braziliya, İndoneziya kimi dövlətlər dəyişən dünya nizamının regional güclərinə çevrildi. Bu çoxqütblü dünya nizamında dünyanın geosiyasi, geoiqtisadi və geostrateji

ağırlıq mərkəzi Atlantikdən Sakit okean bölgəsinə keçdi. Afrika-Avrasiya bölgəsində enerji mənbələri və tranzit yolları geosiyasi mübarizə meydanına çevrildi. Avrasiyanın ağırlıq mərkəzini təşkil edən Qara dəniz–Qafqaz–Mərkəzi Asiya üçbucağı uğrunda ABŞ, Rusiya və Çin arasında geosiyasi mübarizə gücləndi.

"Soyuq müharibə" dövründən sonrakı beynəlxalq münasibətlərin hansı xüsusiyyətləri var?

Çoxqütblü dünya nizamında dünyanın geosiyasi, geoiqtisadi və geostrateji vəziyyətində hansı dəyişikliklər baş vermişdi?

**VLADİMİR PUTİN**

2007-ci ildə Münhen Təhlükəsizlik Konfransındakı çıxışından

**"Soyuq müharibə"dən sonra təklif edilən təkqütblü dünya modeli də reallaşmadı. Təkqütblü dünya modeli nə deməkdir axı? Bu, bir mərkəzdə birləşən hakimiyyət, bir əldə cəmləşən güc, bir mərkəzdən verilən qərar deməkdir. Bu, bir ağanın, bir suverenin dünyası deməkdir. Hesab edirəm ki, müasir dünya üçün təkqütblü model nəinki qəbuledilməzdir, eyni zamanda da mümkünsüzdür.**

Mənbəni təhlil edin. Çıxışı Çörçillin Fultondakı çıxışı ilə müqayisə edin. Sizcə, bunu yeni "Soyuq müharibə"nin başlanğıcı saymaq olarmı?

"Soyuq müharibə" dövründən sonrakı dövlətlərarası münasibətlərin digər xüsusiyyəti iqtisadi məsələlərinin ön plana çıxması idi. İqtisadi potensial və güc həmişə dövlətlərarası münasibətlərdə önəmli olsa da, bu dövrdə daha böyük əhəmiyyət daşımağa başladı. Artıq hərbi və ideoloji münaqişə səbəbləri aradan qalxmış, dövlətlərarası münasibətlər, əsasən, iqtisadi rəqabət üzərində qurulmuşdu. Müasir dövrdə iqtisadi rəqabət mübarizəsində ABŞ-yə qarşı iki əsas bölgə dayanır: Avropa Birliyi və Asiya-Sakit okean. Həmçinin rəqabət mübarizəsinin motivləri də dəyişmişdir. Bu motivləri ən yaxşı məhsulları kimin istehsal etməsi, həyat səviyyəsinin daha sürətlə yüksəlməsi, ən yaxşı təhsilə malik işçi qüvvəsinin olması, ticarətdə öndə olması və s. təşkil edir. Beləliklə, cəmiyyətin iqtisadi rifah həssaslığının artması dövlətlərin xarici siyasətinə təsir göstərmiş, nəticədə beynəlxalq münasibətlərdə iqtisadi amil ön plana çıxmışdır. Bu isə qloballaşma prosesinin genişlənməsinə səbəb olmuşdur. **Qloballaşma** "soyuq müharibə"dən sonrakı dövrü izah etmək üçün ən çox istifadə edilən anlayışdır. Elmi-texnoloji və iqtisadi inkişaf nəticəsində müasir dünya sisteminə daxil olan dövlətlər arasında bağlılıq artmışdır. Nəticədə dünyanın istənilən bölgəsində baş verən hadisələr, proseslər digər dövlətlər və cəmiyyətlərə də təsir edir. Böyük iqtisadi güclər yeni nüfuz dairələri ələ keçirmək uğrunda mübarizə aparırlar. Yaxın Şərq, Afrika, Mərkəzi Asiya, Qafqaz və Latın Amerikası onların mübarizə meydanına çevrilmişdir. SSRİ-nin süqutundan sonra Qafqaz və Mərkəzi Asiyada meydana gələn rəqabət mübarizəsinin əsasında strateji və siyasi mənafelərlə yanaşı, təbii resurslara nəzarət dayanır. ABŞ və Rusiya bölgədə təsir dairəsi yaratmağa çalışır, Avropa Birliyi isə neft, təbii qaz resurslarından yararlanma mübarizəsində iştirak edir.

Müasir dövrdə qloballaşma dövlətlərarası münasibətlərə necə təsir göstərir?

**ZBİQNEV BZEJİNSKİ**

"Böyük şahmat lövhəsi", İstanbul, 2005

**Ərazisinin kiçik olmasına və əhalisinin azlığına baxmayaraq, Azərbaycan böyük enerji qaynaqları səbəbi ilə geosiyasi əhəmiyyətə malikdir. Əgər Azərbaycan tamamilə Moskvanın hakimiyyəti altına girərsə, Mərkəzi Asiya dövlətlərinin müstəqilliyinin mənası qalmaz.**

**Rusiyanın nəzarətində olmayan regiondan keçən boru kəməri ilə Qərb bazarına bağlanan müstəqil Azərbaycan inkişaf etmiş və yüksək enerji istehlak edən iqtisadiyyatlarla enerji ilə zəngin Mərkəzi Asiya arasında nəqliyyatı təmin edən əsas yol ola bilər.**

Mənbə əsasında müasir beynəlxalq münasibətlərdə Azərbaycanın geosiyasi mövqeyini təhlil edin. Azərbaycanın geosiyasi əhəmiyyəti nədir? Qafqazda rəqabət mübarizəsi Azərbaycan üçün hansı təsirlərə malikdir? Azərbaycan ərazilərinə qarşı Ermənistanın işğalçılıq siyasətini bu mübarizə ilə əlaqələndirmək olarmı?

2008-ci ildə **Rusiya-Gürcüstan müharibəsi** regional müharibə olsa da, nəticələri etibarilə qlobal əhəmiyyət daşıyırdı. Bu, "Soyuq müharibə" sonrası ABŞ-nin yeni dünya düzənində təkbaşına hakim rolunun rəsmən başa çatdığını göstərdi. Qərbyönümlü Gürcüstana qarşı Rusiyanın hücumu ilə bağlı ABŞ və Qərbi Avropa dövlətləri yalnız bəyanat verməklə münasibət bildirdilər.



Rusiya təyyarələrinin Qori şəhərini bombalamasının ardından Gürcüstan qoşunları yaşayış binasının yanından keçir.

## ƏRƏB BAHARI – YALANÇI BAHAR?

Böyük güclər arasında rəqabət mübarizəsinin meydanlarından biri də Yaxın Şərq və Şimali Afrika bölgəsidir. Tunis, Misir, Liviya və Suriyada diktator rejimlərinə qarşı baş verən üsyanlar demokratiyanın bərqərar edilməsi məqsədi daşıyırdı. Ərəb ölkələrini bürüyən bu üsyanların səbəbləri diktatura rejimi ilə yanaşı, ədalətsiz gəlir bölgüsü idi. 2010-cu ildə Tunisdə başlayan proses domino təsiri ilə digər ərəb ölkələrinə də yayıldı. Tunisdə, Misirdə və Liviyada diktatura rejimləri süqut etdi. Lakin qlobal güclərin müdaxiləsi ilə bölgədə demokratiya əvəzinə, xaos yarandı. Bu ölkələrin bir çoxunu siyasi sabitsizlik və terror bürüdü. Suriyada, İraqda vətəndaş müharibəsi baş verdi. Minlərlə insan öldürüldü, öz yaşayış yerlərini tərk etməyə məcbur oldu.

Nə üçün ərəb baharının nəticəsində bölgədə demokratiya əvəzinə, xaos yarandı?

**DETLEV KUİNTERN**
Bremen Universiteti,
Mədəniyyət Elmləri İnstitutu

Ərəb baharını anlamaq üçün tarixi bilmək lazımdır. Ərəb dünyasının köklərində ədalət uğrunda hərəkat ənənələri dayanır. Başlıca səbəbi ədalət anlayışının İslam əxlaqında ilk sırada olmasıdır... Tarixin bizə göstərdiyi kimi, ədalətsizlik hər zaman ərəb dünyasında üsyanlara səbəb olmuşdur. Ona görə də bu hərəkatın mərkəzində ədalətsizliyə qarşı mübarizənin dayandığını görürük. Ərəb ölkələrində, xüsusilə Tunis və Misirdə komprador burjuaziya idarəetməni ələ keçirib öz məqsədləri üçün istifadə edirdilər. Bu isə xarici güclərin məqsədləri ilə üst-üstə düşürdü. Xarici güclər deyərkən, köhnə müstəmləkəçi dövlətlər – İngiltərə, Fransa və İtaliya ilə yanaşı, bölgədə təsirli olan ABŞ-ni nəzərdə tuturuq. Bütün bunlar hakimiyyəti əlində saxlayan və ölkənin sərvətlərini mənimsəyən azlıqla yoxsul və işsiz çoxluğun yaranmasına gətirib çıxardı. Beynəlxalq Valyuta Fondunun tələbi ilə sosial təminat xərcləri azaldıldı, önəmli resurslar özəlləşdirildi. Bu özəlləşdirmədən hakimiyyətə yaxın olanlar faydalandı. Ölkədən çıxarılan pullar Qərb banklarına qoyuldu. ...Yaxın Şərqdə xalq hərəkatının təməlində üç əsas məsələ dayanır: Ədalətsizlik, bunun nəticəsində insan heysiyyətinin itirilməsi və hökumətlərin Fələstin məsələsi ilə bağlı mövqeləri.

Mənbəni təhlil edin. Ərəb baharının daxili və xarici səbəbləri necə dəyərləndirilir?

Zaman oxunda verilmiş "Soyuq müharibə" ilə bağlı mühüm hadisələri müəyyən edin.

1946 | 1947 | 1949 | 1961 | 1962 | 1979 | 1989 | 1991

# MƏDƏNİYYƏT

İnformasiya cəmiyyəti, "beyin axını", ilk süni peyk, nanotexnologiyalar, rok-n-rol



Elvis Presli



İlk kompüter modellərindən biri




Yuri Qaqarin

Şəkillər əsasında XX yüzilliyin ikinci yarısında elm, texnika və mədəniyyət sahəsində yenilikləri şərh edin.

## DÜNYA MƏDƏNİYYƏTİNİN MƏRKƏZİ DƏYİŞİR

XX yüzilliyin ikinci yarısında bəşəriyyət böyük elmi-texniki inkişafa nail oldu. Atom enerjisinin kəşf edilməsi, kosmosun fəth olunması, yeni texnologiyaların *(kompüter, robot, peyk əlaqəsi və s.)* meydana gəlməsi mədəniyyətin forma və məzmununda dəyişikliklərə uğraması ilə nəticələndi. Bu dəyişikliklərin müsbət və mənfi nəticələri yarandı.

İkinci dünya müharibəsindən sonra dünyanın siyasi və sosial-iqtisadi həyatında qlobal dəyişikliklər baş verdi. Soyuq müharibə nəticəsində dünyanın iki qütbə bölünməsi mədəniyyətə də təsir göstərdi. SSRİ-nin kommunizmi ixracetmə siyasətinə qarşı ABŞ liberal mədəniyyət mübarizəsinə başladı. Bu mübarizənin üsullarından biri ABŞ sənət xadimlərinin dünyada tanıdılması idi. Müharibə illərində böyük zərər görmüş Paris dünyanın incəsənət mərkəzi olma xüsusiyyətini itirmişdi. Artıq bu mərkəz Nyu-York hesab edilirdi. Əslində, bu, ABŞ-nin yeni mədəniyyət siyasətinin tərkib hissəsi idi. Amerika mədəniyyəti ixrac olunur və bütün dünyaya təsir göstərirdi. XX yüzilliyin ikinci yarısında sürətlə inkişaf edən informasiya və kommunikasiya vasitələri **informasiya cəmiyyəti** anlayışının yaranmasına səbəb oldu. İnformasiya əsas istehsal amilinə çevrildi. Sənaye cəmiyyətində istifadə edilən insan və maşın gücünü düşüncə və ağıl gücünün əvəz etməsi yeni dövrün xüsusiyyətlərindən biridir. İnformasiya cəmiyyətinin təsir etdiyi sahələrdən biri də mədəniyyətdir.

İkinci dünya müharibəsi mədəniyyətə necə təsir göstərdi?

İnformasiya cəmiyyəti mədəniyyətin inkişafına necə təsir göstərə bilər?

## ELM

Müharibədən əvvəl Almaniyadan ABŞ-yə köç edən *"beyin axını"* elmi inkişafa təsir göstərdi. Bu axının təsirləri 60-cı illərə qədər davam etdi. İkinci dünya müharibəsi illərində ABŞ-də yaradılan kompüter həyatın bütün sahələrinə təsir göstərdi. Raket texnologiyasının inkişafı nəticəsində 1957-ci ildə **ilk süni peyk** kosmosa SSRİ tərəfindən göndərildi.



İlk süni peyk

Beləliklə, beynəlxalq rəqabət kosmos müstəvisinə də keçdi. 1961-ci ildə sovet kosmonavtı Yuri Qaqarin Yer kürəsi ətrafında dövrə edən ilk insan oldu.



ВЕЛИКОЕ СОБЫТИЕ В ИСТОРИИ ЧЕЛОВЕЧЕСТВА!

ПРАВДА

К КОММУНИСТИЧЕСКОЙ ПАРТИИ И НАРОДАМ СОВЕТСКОГО СОЮЗА! К НАРОДАМ И ПРАВИТЕЛЬСТВАМ ВСЕХ СТРАН! КО ВСЕМУ ПРОГРЕССИВНОМУ ЧЕЛОВЕЧЕСТВУ!



Daily Mirror

TODAY the Mirror celebrates the greatest story of OUR lifetime... the greatest story of OUR century

MAN IN SPACE..MAN IN SPACE

HE went into Space just after 7 yesterday morning. A fresh-faced 27-year-old Russian family man. Yuri Gagarin. Gagarin means Wild Duck. Around the world he went. Flashing over oceans and continents. Reporting simply: "The flight is normal. I feel well." The Wild Duck landed somewhere in Russia just before 9 o'clock. Rush-hour time for Earthbound Britons. His first words..."I feel well, I have no injuries or bruises." Who cannot fail to be stirred by this mighty achievement? Today the Mirror salutes the Russians—and the Wild Duck.

MAN IN SPACE..MAN IN SPACE

İnsanın kosmosa uçuşu mətbuatda

S Müxtəlif ölkələrin mətbuatı ilk insanın kosmosa çıxmasını necə dəyərləndirmişdir?

XX yüzilliyin 80-ci illərindən dünya elminin əsas istiqamətlərindən biri **nanotexnologiyalar** olmuşdur. Nanotexnologiyaların inkişafını informasiya texnologiyasından sonra üçüncü elmi-texniki inqilab hesab edirlər. Nanotexnologiya olduqca kiçikölçülü hissəciklər və bu quruluşlarda baş verən fiziki, kimyəvi və bioloji hadisələri öyrənir. Nanotexnologiyalardan elm və texnikanın müxtəlif sahələrində – tibbdə, biotexnologiyalarda, ətraf mühitin mühafizəsində, hərbi sahələrdə və s. istifadə etmək mümkündür.

Siyasi və hərbi əhəmiyyət daşıyan nüvə əvvəlcə hərbi sahədə istifadə edilirdi. Daha sonra ondan elektrik enerjisi istehsalında da istifadə olunmağa başlanıldı. Elm və texnikanın inkişafının müsbət tərəfləri olsa da, nüvə dünya üçün təhlükə də daşıyırdı. Hidrogen atomlarının parçalanması nəticəsində gedən reaksiya qitələrarası raketlərin yaradılmasına səbəb oldu. Biologiyada DNT-nin kimyəvi quruluşu müəyyən edildi. Soyuq müharibənin başa çatması mədəniyyətin müxtəlif sahələrində də məzmun dəyişikliyinə səbəb olmuşdur. Artıq yeni minillikdə milli və bəşəri dəyərlərin ziddiyyətləri deyil, qarşılıqlı əlaqələri ön plana çıxmışdı. Siyasi və iqtisadi inteqrasiya prosesi mədəniyyətə də təsir göstərmişdir.

Məşhur türk alimi, mikrobioloq Əziz Sancar bakteriyalar üzərində apardığı araşdırmalar nəticəsində bəzi zülal molekullarının və fermentlərin zədələnmiş DNT-ni necə təmir etdiyini müəyyən etmişdir. Bu ixtiralar canlı hüceyrənin necə işlədiyi, xərçəngin səbəbləri və qocalma prosesləri haqqında bilikləri artırdı. Əziz Sancar 2015-ci ildə hüceyrələrin zədələnmiş DNT-nin bərpa edilməsi və genetik məlumatın qorunması sahəsində tədqiqatlarına görə kimya üzrə Nobel mükafatına layiq görülüb.



Əziz Sancar

O bu uğurunu belə dəyərləndirmişdir: *“Məni mükafata aparan Atatürkün və Türkiyə Cümhuriyyətinin etdiyi təhsil inqilabıdır. Ona görə də bu mükafatın sahibi Atatürk və Türkiyə Cümhuriyyətini təmsil edən Anıtkabir Muzeyidir”.*

**ƏZİZ SANCAR**

Mənim üçün Qarabağ müharibəsi və zəfəri Türkiyənin qurtuluş müharibəsindən sonra türk dünyasının ən böyük zəfəridir.

XX yüzilliyin ikinci yarısında elm və texnika sahələrində inkişafın xüsusiyyətlərini təhlil edin.

İkinci dünya müharibəsi ədəbiyyata da güclü təsir göstərdi. Bir çox yazıçı və şairlər müharibəni döyüş meydanlarında, əsir düşərgələrində yaşamalı oldular. Bu onların yaradıcılığına da təsirsiz qalmadı. XX yüzilliyin məşhur yazıçısı **Ernest Heminquey** döyüşlərdə yaralanmışdı. Onun yazdığı "Qoca və dəniz" əsəri 1954-cü ildə Nobel mükafatına layiq görüldü. Fransız yazıçısı **Albert Kamü** isə absurdizm* cərəyanının görkəmli nümayəndələrindən biri kimi tanındı. O, İkinci dünya müharibəsində faşistlərə qarşı müqavimət hərəkatında iştirak etmişdi. Dövrün ən tanınmış qələm sahiblərindən biri də kolumbiyalı yazıçı **Qabriel Qarsia Markes** idi. Onun əsərlərində adi həyatın və reallıqların əksinə sehrli obrazlar və hadisələrdən istifadə edilirdi. Markes 1982-ci ildə Nobel mükafatına layiq görüldü.

*** Absurdizm**

*məntiqə uyğun olmayan, cəfəngiyyata əsaslanan fəlsəfi-mədəni cərəyandır.*



Ernest Heminquey



Qabriel Qarsia Markes və Fidel Kastro

XX yüzilliyin ikinci yarısında türk ədəbiyyatının görkəmli nümayəndələrindən yazıçı **Yaşar Kamalın** və satiraçı **Əziz Nesinin** adlarını çəkmək olar.



Əziz Nesin

XX yüzillik türk dünyasının daha bir məşhur yazıçısı isə qırğız yazıçısı **Çingiz Aytmatov** idi. O öz əsərləri ilə türk mədəniyyətinin zənginliyini bütün dünyaya tanıtmışdır. Onun ən məşhur əsərlərindən biri olan "Gün var əsrə bərabər" romanında öz milli kimliyini qorumağa çalışan insanlar təsvir edilir. Əsər bir insanın manqurtlaşdırılmasından bəhs edir və onun fonunda, əslində, öz kimliyini və ənənələrini qorumağa çalışan xalqın taleyi anladılır. Əsər Sovet İttifaqı dövründə sosial və mədəni problemlərin tənqidi üzərində qurulmuşdur. İctimai həyata məşhur Manqurt obrazını məhz bu roman gətirmişdir.



Ulu öndər Heydər Əliyev və Çingiz Aytmatov

XX yüzilliyin ikinci yarısında ədəbiyyat sahəsindəki inkişafı əks etdirən cədvəl hazırlayın.

## İNCƏSƏNƏT

XX yüzilliyin ikinci yarısında gənclər mədəniyyət sahəsində daha geniş təmsil olunmağa başladılar. Dövrün ən çox yayılan musiqi janrlarından biri də rok idi. Rok 1950-ci illərdə klassik Qərb musiqisi ilə xalq musiqisinin sintezi nəticəsində yaranmışdır. Bu musiqinin əsasında etiraz fəlsəfəsi dayanır. O, irqçiliyə qarşı afro-amerikalı gənclərin etirazlarıdır. **Elvis Presli** 1950-ci illərdə bu janrın məşhur nümayəndəsi idi. **"Bitlz"** qrupu isə dövrün gəncləri üçün kulta çevrilmişdi. Bu qrupu "XX yüzilliyin Motsartı" adlandırırdılar. ABŞ-də afro-amerikalılar əvvəllər **caz**, sonralar isə **rok-n-rol** musiqisində böyük rol oynadılar.



Bitlz

Rəssamlıqda da müəyyən dəyişikliklər baş verdi. Məsələn, ifrat realizm geniş yayıldı. Onun nümayəndələrinin əsas diqqəti əsərlərin məzmununa deyil, rəng və formanı dəqiqliklə təsvir etməyə yönəlirdi.

Müharibədən sonra Avropa şəhərlərinin bərpası memarlığın da inkişafına səbəb oldu. Şəhərlərdə əhalinin artması çoxmərtəbəli evlərin inşa edilməsinə təsir göstərdi. Televiziyanın geniş yayılması ilə radionun önəmi azaldı. Televiziyanın inkişafı mədəniyyət sahələri ilə yanaşı, idmanın da kütləviləşməsinə səbəb oldu. Futbol üzrə dünya çempionatları və Yay olimpiya oyunları bütün dünyada böyük hadisələr kimi dəyərləndirilir. Müasir dövrdə idman bəzən dövlətlər arasında əlaqələrin inkişafına da töhfələr verir. Nəticədə idman kütləvi mədəniyyətin sürətli inkişafına səbəb olmuşdur.




1966-cı il dünya çempionatı. Azərbaycan futbol məktəbinin yetirməsi Anatoli Banişevski (ikinci futbolçu) SSRİ yığmasında

İnformasiya cəmiyyətinin mədəniyyətin inkişafına təsirinin müsbət və mənfi cəhətləri ilə bağlı debat təşkil edin.

Zaman oxunda verilmiş mühüm hadisələri müəyyən edin.

1957 — 1961 — 2015

## Buraxılış məlumatı

**ÜMUMİ TARİX 11**

*Ümumi təhsil müəssisələrinin 11-ci sinifləri üçün*
*Ümumi tarix fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Kərim Şükürov**<br>**Pərviz Ağalarov**<br>**Niyaməddin Quliyev**<br>**Elnur Hüseynov**<br>**Hafiz Cabbarov**<br>**Ramil Tanrıverdi** |
| Buraxılışa məsul | **Rafiq Kazımov** |
| Dizayner və səhifələyici | **Nurlan Nəhmətov** |
| Multimedia mütəxəssisləri: | **Yusif Qabilov**<br>**Kənan Yusifzadə** |
| Xəritələri işləyən | **Sufi Səfərli** |
| Redaktor və korrektor | **Nigar Əliyeva** |
| Texniki redaktor | **Sevinc Yusifova** |
| Baş redaktor | **Samirə Bektaşi** |
| Texniki direktor | **Allahverdi Kərimov** |
| Nəşriyyat direktoru | **Sevil İsmayılova** |

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**



© **“Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti**



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2023-058**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 13,5. Fiziki çap vərəqi 19. Formatı $57x82^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 152.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş 0891. Tiraj 103950. Pulsuz. Bakı – 2023

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 14.07.2023**

Çap məhsulunu nəşr edən:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1123, Aşıq Ələsgər küç., 17)**

Pulsuz

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

